**Azərbaycan Elmlər Akademiyası**
**Nizami adına Ədəbiyyat İnstitutu**

***<u>İlyas Əfəndiyev - 100</u>***

**Qurban Bayramov**
*tənqidçi-ədəbiyyatşünas, aparıcı elmi işçi*

**Jalə Qurbanqızı (Rzayeva)**
*elmi işçi*

# Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə

**Bakı - 2014**

**Redaktoru:** **Tahirə Məmmədova,**
*filologiya elmlər doktoru, professor*

**Rəyçilər:** **Vaqif Yusifli,**
*filologiya elmlər doktoru, professor*

**Aslan Salmansoy,**
*filolologiya üzrə fəlsəfə doktoru*

**Qurban Bayramov, Jalə Qurbanqızı (Rzayeva)**
"Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə." Bakı - Yazıçı – 2014, səh.

**İSBN 978-9952-824-50-6**

*Kitabda Azərbaycanın xalq yazıçısı, yüksək mənəviyyatlı, intellektual səviyəli ziyalı, qüdrətli sənətkar – nasir, dramaturq, publisist, vətənpərvər ictima xadim İlyas Əfəndiyevin zəngin, çoxşaxəli yaradıcılığının ədəbi tənqiddə ədəbi-estetik dərki problemi ilk dəfədir ki, tədqiq edilir, öyrənilir və elmi-nəzəri şərhi verilir.*

*Burada keçən əsrin 30-cu ilərindən başlayaraq ömrünün sonuncu ilinə (1996) qədər ardıcıl şəkildə yaradıcılıqla məşğul olan İlyas Əfəndiyevin bənzərsiz, çoxşaxəli ədəbi-bədii fəaliyyəti ümummilli ədəbi-mədəni hərəkat məcrasında araşdırılmış, onun bədii-estetik düşüncə orjinallığı, fərdi dil-üslub xüsusiyyəti, dramaturgiya axtarışlarının ədəbi tənqid tərəfindən dərki geniş bir şəkildə, müxtəlif problemlərə uyğun bir tərzdə, tarixi-xronoloji ardıcıllıqla şərh olunmuşdur. Kitab müasir filoloji sahə və geniş oxucu aiditoriyası üçün nəzərdə tutulmuşdur...*

B--------------------2014

© "Yazıçı" – 2014.



## İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2014-cü ilin may ayında Azərbaycanın xalq yazıçısı, respublika Dövlət mükafatı laureatı, görkəmli dramaturq İlyas Məhəmməd oğlu Əfəndiyevin anadan olmasının 100 illiyi tamam olur.

İlyas Əfəndiyev klassik ədəbi fikrin böyük ənənələri zəminində öz üslubunu yaradan sənətkar kimi xalqımızın söz sənəti xəzinəsinə dəyərli töhfələr vermişdir. Yazıçının bədii nailiyyətlərlə zəngin irsi ədəbiyyatımızda yeni mərhələnin təşəkkülünə səmərəli təsir göstərmişdir. Azərbaycan teatr səhnəsinin müasir simasının formalaşmasında İlyas Əfəndiyev dramaturgiyası özünəməxsus əhəmiyyətli yer tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbiyyatın inkişafında mühüm xidmətləri olan İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq yazıçısı İlyas Əfəndiyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 yanvar 2014-cü il.*

## REDAKTORDAN–

## İlyas Əfəndiyev yaradıcılığının tənqiddə ədəbi-estetik dərkinin tədqiqi

Azərbaycanın xalq yazıçısı İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatına zəngin və rəngarəng bir yaradcılıq bəxş etmişdir. Onun nəsri, dramaturgiyası XX əsr Azərbaycan ədəbiyyatının ən dəyərli hadisələrindən biridir.

İlyas müəllim ədəbiyyata gələn gündən bu günlərimiz də daxil olmaqla həmişə ədəbi tənqidin maraq dairəsində olmuş, ədəbi tənqidimizin, demək olar ki, bütün nəsilləri, yazıçının qələm dostları, teatr xadimləri, ədəbiyyatşünaslar, tənqidçilər, həmçinin zövqlü oxucular belə, İlyas müəllimin yaradıcılığı, əsərləri barədə, müxtəlif ədəbi janrlarda fikir söyləmiş, haqqında yüzlərlə məqalələr yazılmış, xeyli tədqiqatlar aparılmış, monoqrafiyalar cap edilmişdir. Qurban Bayramov və Jalə Qurbanqızının (Rzayeva) "Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə" tədqiqatı bu materialların ümumi istiqamətlərinin təsnifatını vermək, yazıçının yaradıcılığı ilə qarşılıqlı şəkildə araşdırmaq, dəyərləndirmək baxımından əhəmiyyətlidir.

Məlumdur ki, xalq yazıçısı İlyas Əfəndiyev keçən əsrin 30-cu illərindən ömrünün sonuna qədər zəngin və dəyərli yaradıcılıq yolu keçmişdir. Bu 57 illik bir yaradıcılıq yoludur. Buraya ədibin onlarca hekayələri, povestləri, romanları, dram əsərləri daxildir.

Bu illər ərzində İlyas Əfəndiyev altı roman («Söyüdlü arx» – 1958; «Körpüsalanlar» – 1960; «Dağlar arxasında üç dost» – 1963; «Sarıköynəklə Valehin



nağılı» – 1976; «Geriyə baxma, qoca» – 1980; «Üçatılan» – 1981; bu romanların bəzisi povest kimi də təqdim olunub), beş povest («Kənddən məktublar» – 1939; «Aydınlıq gecələr» – 1941; «Torpağın sahibi» – 1952; «Qaçaq Süleymanın ölümü» – 1993; «Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» – 1996), böyüklü-kiçikli qırx yeddi hekayə, 27 pyes, bir çox oçerklər və xatirələr yazmışdır. İlyas Əfəndiyev nəsri və İlyas Əfəndiyev dramaturgiyası daima bir-birini əvəz və davam etdirmişdir.

Buna görə də, müəlliflər tədqiqat apararkən, yazıçının nəsrinin yox, dramaturgiyasının da ədəbi tənqiddə dərkini araşdırmışlar. Q.Bayramov və J.Qur-banqızı ədəbi tənqidimizin bütün nəsillərinin İlyas Əfəndiyev yaradıcılığına həsr etdikləri əsərləri əsasən nəzərdən keçirmiş, ümumiləşdirmiş, maraqlı nəticələr əldə etmiş, İyas Əfəndiyev yaradıcılığının ədəbi tənqiddə dərki barəsində ümumi təsəvvür yaratmağa nail olmuşlar. İlyas Əfəndiyevin yaradıcılığı Azərbaycan mədəniyyətinin çox qiymətli tərkib hissəsi olmaqla bərabər, həm də milli tariximizin müəyyən dövrünün mükəmməl bədii salnaməsi səciyyəsini daşımaqdadır.

"Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə" araşdırmasının başlıca əhəmiyyəti ondadır ki, ədibin yaradılığı bu və ya digər münasibətlə, ayrı-ayrı problemlər hüdudunda təhlilə cəlb olunsa da, bütöv şəkildə ədəbi tənqidin hüdüdlarında hələ ki, öyrənilməmişdi, sistemli tədqiqat hədəfinə çevirlməmişdi. İlk dəfədir yazıçının yaradıcılığı bu istiqamətdə, özü də bütöv şəkildə öyrənilir.

1930-cu illərin axırlarından etibarən nəsr yaradıcılığına başlayan ədibin ilk əsərlərindən tutmuş sonrakı

bütün əsərləri həmişə ədəbi - elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur.

Onun ilk yaradıcılığı haqqmda Səməd Vurğun, Mehdi Hüseyn, Mirzə İbrahimov, Məmməd Arif, Süleyman Rəhimov, Əli Vəliyev, Əbülhəsən Ələkbərzadə, Kamal Talıbzadə, İmran Qasımov, Əkbər Ağayev, Hüseyn Şərif, Mehdi Məmmədov və başqaları kimi tanmmış ədəbiyyat, elm və sənət xadimləri dəyərli fikirlər söyləmiş, ədibin irsini xarakterizə edən diqqətəlayiq məqalələr yazmışlar.

Ömrünün sonuncu ilinə (1996) qədər ardıcıl şəkildə yaradıcılıqla məşğul olan İlyas Əfəndiyevin ədəbi-bədii fəaliyyəti milli-mədəni proseslər məcrasında həmişə araşdırılmış, onun bədii-estetik düşüncə orjinallığı, fərdi dil-üslub xüsusiyyəti, dramaturgiya axtarışları ədəbi tənqid tərəfindən geniş bir şəkildə, müxtəlif problemlərə uyğun bir tərzdə şərh olunmuş və olunmaqdadır...

Azərbaycan tənqidçilərindən Cəfər Cəfərov və Məmməd Cəfər, Əli Vəliyev və Osman Sarıvəlli, Cəfər Xəndan və Əli Sultanlı, Mehdi Məmmədov və Əkbər Ağayev, Firudin Hüseynov və Əzizə Cəfərzadə, Abbas Zamanov və Orucəli Həsənov, bir çox başqaları kimi tamamillə müxtəlif, bir-birindən fərqli qələm sahibləri, sonrakı ədəbi nəsillərin Bəxtiyar Vahabzadə və İsmayıl Şıxlı, Bayram Bayramov və Bəkir Nəbiyev, Məsud Əlioğlu və Qulu Xəlilov, Cəlal Məmmodov və Əhəd Hüseynov kimi və bir çox başqa nümayəndələri, daha sonralar Xəlil Rza Ulutürk və Yaşar Qarayev, Şeyfulla Əsədullayev və Təhsin Mütəllimov, Şamil Salmanov və Arif Səfiyev, Gülrux Əlibəyli və İnqilab Kərimov, Çingiz Hüseynov və İslam İbrahimov, Arif Hacıyev və



Abbas Hacıyev, daha sonralar Aydın Məmmədov, Qəzənfər Kazımov və Vilayət Quliyev, Kamil Vəliyev və İlham Rəhimli, Nizaməddin Şəmsizadə və Məryəm Əlizadə, Akif Hüseynov, Şirindil Alışanov və Vaqif Yusifli, yenə də bir çox başqaları dəfələrlə İlyas Əfəndiyev yaradıcılığına müraciət etmiş və bu yaradıcılıq Azərbaycan xalqınm XX əsrdəki tarixi və taleyi kontekstində yüksək qiymətləndirilmişdir.

İlyas Əfəndiyevin sağlığında Yəhya Seyidov, Yaqub İsmayılov, Aida Salahova, Yaşar Qarayev, Əmin Əfəndiyev və başqaları onun haqqında elmi monografiyalar yazıb nəşr etdirmiş, XX əsr Azərbaycan nəsri və dramaturgiyasının, Azərbaycan ədəbi dilinin, Azərbaycan teatr sənətinin inkişafında İlyas Əfəndiycv yaradıcılığının rolunu və bədii-estetik xüsusiyyətlərini təhlil və tədqiq etmişlər.

Həmçinin, İlyas Əfəndiyevin yaradıcılığı haqqında müxtəlif mövzularda maraqlı və dəyərli dissertasiyalar müdafiə olunmuşdur.

Tədqiqat işində mümkün qədər bu tənqidçi və ədəbiyyatşünaların məqalələri, tədqiqatları, əsərləri mərhələlər üzrə, xronoloji ardıcıllıqla öyrənilmiş, müəyyən problematika üzrə şərh edilmiş, ümumiləşdirilmiş, xalq yazıçsi İlyas Əfəndiyev yaradıcılığının ədəbi tənqidimizdə ədəbi-estetik dərkinin mahiyyəti açılmış, bu zəngin yaradıcılığın ədəbi tənqiddə əks olunmasının ümumi mənzərəsi yaradılmışdır.

Lakin, Xalq yazıçısı İlyas Əfəndiyevin şəxsiyyətini və yardıcılığını ulu öndər Heydər Əliyev qədər dəqiqliklə, dəyərincə, özü də dəfələrlə, müxtəlif məqamlarda qiymətləndirən ikinci bir şəxsiyyət olmamışdır. İlk dəfədir ki, tədqiqatda, “İlyas Əfəndiyev şəxsiyyəti və

yaradıcılığı Heydər Əliyevin görüşlərində və nəzərində…” adlandırılan ayrıca bölmədə bu məsələ öyrənilmişdir.

İlyas Əfəndiyev irsinin bədii-estetik dərkində ədəbi tənqidimizin çox mühüm rolu olmuş və hazırkı tədqiqat ədəbiyyatşünaslığımızda bu problemə həsr olunmuş ilk nümunədir.

Həmçinin, biz gördük ki, müəlliflər – Qurban Bayramov və Jalə Qurbanqızı təkcə bununla kifayətlənməmiş, faktik materiallara – elmi konfrans, müşavirə, sesiyaların materiallarına, rəsmi məlumatlara, müsahibələrə də müraciət etmiş, yerinə düşən mətnlərdən də şərhsiz-flansız istifadə etmişlər (çünki bu mətnlər özləri özlərini şərh edir). Məsələn, ulu öndər Heydər Əliyevin İlyas Əfəndiyev yaradıcılığına verdiyi dəyəri əks etdirən mətnlərin, fikir və mülahizələrin ayrıca təqdim olunması bu sıradandır və olduqca qiymətli faktlardandır...

Tədqiqatda zəngin materal var. Kitabiyyatdan, işin məzmunundan da görünür ki, müəlliflər böyük zəhmət çəkmiş, mümkün qədər heç kimdən sərf-nəzər etməmiş, xoşagələn, lazımlı bir tədqiqat işini müvəffəqiyyətlə tamamlayaraq İlyas Əfəndiyevin 100 ilik yubileyində oxuculara və elmi-ədəbi ictimaiyyətə təqdim etmişlər.

**Tahirə Məmmədova,**
*filologiya elmlər doktoru, professor*
*22. 05. 2014.*



## Müqəddimə əvəzi

***“İlyas Əfəndiyev klassik ədəbi fikrin böyük ənənələri zəminində öz üslubunu yaradan sənətkar kimi xalqımızın söz sənəti xəzinəsinə dəyərli töhfələr vermişdir. Yazıçının bədii nailiyyətlərlə zəngin irsi ədəbiyyatımızda yeni mərhələnin təşəkkülünə səmərəli təsir göstərmişdir. Azərbaycan teatr səhnəsinin müasir simasının formalaşmasında İlyas Əfəndiyev dramaturgiyası özünəməxsus əhəmiyyətli yer tutur.”***

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti.*

Azərbaycanın ictimai-mədəni həyatı və ədbi-estetik fikri tarixində bədii nəsr əhəmiyyətli yer tutmaqdadır. Klassik bədii ənənələri sistemli şəkildə davam etdirən sovet dövrü Azərbaycan nəsri bu mənada xüsusi maraq doğurur, müxtəlif üslublu yaradıcı şəxsiyyətləri, mövzu və sənətkarlıq məsələləri ilə diqqəti cəlb edir.

Azərbaycan ədəbi-mədəni həyatının təkamülü tarixində mühüm xidmətləri olan, görkəmli nasir, xalq yazıçısı, dramaturq İlyas Əfəndiyevin (İlyas Məhəmməd oğlu Əfəndiyev) əsərləri və bədii sənət uğurları diqqətəlayiq əhəmiyyət daşımaqdadır. İlyas Əfəndiyev müxtəlif mövzulu və dolğun məzmunlu hekayə, oçerk, kinossenari, povest, roman və dramların, ədəbi-tənqidi və publisistik məqalələrin müəllifidir.

Onun yaradıcılığı Azərbaycan mədəniyyətinin çox qiymətli tərkib hissəsi olmaqla bərabər, həm də milli tariximizin müəyyən dövrünün mükəmməl bədii salnaməsi səciyyəsini daşımaqdadır. Tanınmış ədəbiyyatşünas-tənqidçi Yaşar Qarayev həmin məqama aydınlıq gətirərək yazırdı: "Azərbaycan tarixi barədə klassik sənədlər - yeddi "Qarabağnamə" var. Bütünlükdə, İlyas Əfəndiyevin yaradıcılığını mən səkkizinci "Qarabağnamə" hesab edirəm". (Bax: (Qarayev Y. Xarı bülbülün nağılı. Bakı, 1995, s.16.)

İlyas Əfəndiyevin yaradıcılığı təkcə ictimai məzmununa və milli ideyasma görə deyil, həm də bədii səətkarlıq və poetikasına görə də ciddi müasirlik əhəmiyyətinə malikdir.

Sovet dövründə klassik Azərbaycan və dünya ədəbiyyatının yaradıcılıq qanunlarına arxalanan İlyas Əfəndiyevin müasirləri Süleyman Rəhimov, Mirzə İbrahimov, Mehdi Hüseyn, Mir Cəlal, Əli Vəliyev, Əbülhəsən, Ənvər Məmmədxanlı, Bayram Bayramov, İsmayıl Şıxlı, İsa Hüseynov, Əlfi Qasımov, Hüseyn İbrahimov, Sabir Əhmodov və başqaları kimi həmvətənlərinin, Azərbaycan insanının taleyini, psixoloji yaşantılarını qələmə alır, ciddi ictimai-siyasi düşüncələrini bədii təsvir yolu ilə təqdim eləməyə çalışırdı. Ümumiyyətlə, adı çəkilən və çəkilməyən müəlliflərin yaratdığı zəngin Azərbaycan nəsri, habelə klassik milli nəsrimiz indiyə qədər müxtəlif səviyyələrdə araşdırılıb. (Bax: Qulu Xəlilov. Azərbaycan romanmm inkişaf tarixindən. Bakı: Elm, 1973; Akif Hüseynov, Müxtəlifliyin birliyi, Bakı: Yazıçı, 1983; Yavuz Axundov. Tarix və roman,



Bakı: Yazıçı, 1983; Vəli Nəbiyev. Azərbaycan bədii nəsrinin janr-üslub təkamülü: Fil. elm.dok.dis. Bakı, 1992; Əflatun Məmmədov. Azərbaycan bədii nəsri (XIX əsrin sonu, XX ərsin əvvəlləri), Bakı: Elm, 1983; Pənah Xəlilov. Nəsrimizin üfüqləri, Bakı: Yazıçı, 1982; Yəhya Seyidov. Mehdi Hüseynin yaradıcılıq yolu. Bakı: Azərbaycan EA-nm nəş., 1966; Yaqub İsmayılov. İlyas Əfəndiyevin yaradıcılıq yolu, Bakı: "Elm" nəşriyyatı, 1991; Мухтар Иманов. Психологизм в современной Азербайджанской прозе: Автореф. дис.докт. фил. наук. Вакы, 1984; Вилаят Кулиев. Стилевое многообразие современной Азербайджанской прозы: Автореф. дис. ... канд. фил. наук. 1982; Şövkət Hüseynova. Salam Qədirzadənin bədii nəsri: Fil. elm. nam. ... dis. avtoref. Bakı 1995; Məleykə Hüseynova. Ənvər Məmmədxanlı və Azərbaycan nəsrində lirik-romantik üslub: Fil. elm. nam. ... dis. Avtoref. Bakı, 2001; Гаджиев А.М. Творческий путь М.Ибрагимова: Автореф. канд. фил. наук. Вакы, 1970; Караев З. Повести С.Рагимова. Автореф. на соискание канд. Фил.наук. Вакы, 1974; Султанова С. Художественная проза С.Рахмана: Автореф. дис. ... канд. фил. наук. Вакы, 1984; Eynəddin Məmmədov. Yeni insanm bədii inikası. (Bayram Bayramovun povestləri əsasında): Fil. elm. nam. ... dis. Bakı, 1972; İldırım Qasımov. Əli Vəliyevin romanları: Fil. elm. nam. ... dis. Bakı, 1978; Vaqif Yusifov. Müasir Azərbaycan nəsrində konflikt və xarakter: Fil. elm. nam. ... dis. Bakı, 1979; Həsən Quliyev. Azərbaycan romanmm təşəkkülü və

inkişafı problemləri: Fil. elm. dok. ... dis. Bakı, 1981; Mətanət Saraclı. Xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığı. Bakı: Yazıçı, 1999 və s..)

Bu müəlliflərin əksəriyyəti, həm də ədəbi tənqidimizin fəal, aparıcı nümayəndələridir və nəsrimizin müxtəlif probleləriпə və adları çəkilən sənətkarların ədəbi-bədii yaradıcılıqları barədə dəyərli tənqidi məqalələr qələmə almış və kitab şəklində də cap etdirmişlər. Lakin bütün bunlara baxmayaraq, müasir müstəqillik, ictimai-siyasi istiqlal mövqeyindən, bədii sənətkarlığın çağdaş tələbləri baxımından bu sənətkarların yaradıcılıqları yenidən öyrənilməklə yanaşı, həm də onların yaradıcılıqlarının ədəbi tənqidimizdə estetik dərkinin öyrəilməsinə də xüsusi ehtiyac varıdır. Bizim qələmə aldığımız "Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə" mövzüsusunun tədqiqi də bu ehiyacdan yaranmışdır.

Xalq yazıçısı İlyas Əfəndiyevin çoxsaylı əsərləri, o cümlədən də nəsri mövcud ictimai-siyasi zamanın doğurduğu ziddiyyətlərlə birgə öyrənilməlidir ki, ədibin bədii ideyalarının daşıyıcısı olan qəhrəmanların bütövlüyü, mükəmməlliyi haqqında tam dolğun təəssürat yaradılsın. Yalnız belə olan halda vulqar sosiologizm, nihilizm, kosmopolitizm, konfliktsizlik nəzəriyyələrinin hökm sürdüyü şəraitdə yazıb-yaradan Azərbaycan ədiblərinin, o cümlədən də görkəmli nasir və dramaturq İlyas Əfəndiyevin ictimai-tarixi və ədəbi-mədəni xidmətləri haqqında ətraflı danışmaq olar.

"Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə" mövzusunun aktuallığı bir də onunla şərtlənir ki, ədibin yaradılığı bu və ya digər münasibətlə, ayrı-ayrı problemlər hüdudunda təhlilə cəlb olunsa da, bütöv şəkildə ədəbi tənqidin hüdüdlarında öyrənilməyib, sistemli tədqiqat hədəfinə çevirlməyib.



O da nəzərə alnmalıdır ki, İlyas Əfəndiyevin yaradıcılığı əksərən sovet dövrü ədəbi tənqidinin nüfuz dairəsində olub və o dövrün ədəbi-estetik prinsiplərinə uyğun tərzdə qiymətləndirilsə də tənqidimiz onun yaradıcılığının elə cəhətlərini aşkarlayıb ki, onun milli mövqeyinin gizli, örtülü xüsusiyyətlərinin həmin tənqidi materiallar əsasında öyrənilməsi müasirlik cəhətdən əhəmiyyətlidir. Bu da imkan verir ki, son illərin istiqlal ideyaları işığında, demokratiya prinsipləri, azad cəmiyyət tələbləri ilə ədibin yaradıcılığına yanaşaraq onun lap əvvəldən bu ideyalara xidmət etdiyini söyləməyə nail olaq...

Odur ki, İlyas Əfəndiyevin nəsrini və bütövlükdə yaradıcılığını yalnız sosioloji mühit və sovetlər dövrünün ədəbi-bədii prosesi daxilində deyil, eyni zamanda müasir ictimai-mədəni tərəqqi və təkamül miqyasında aydınlaşdırmaq lazımdır...

Bir cəhəti qeyd edək ki, İlyas Əfəndiyevin yaradıcılığına ədəbi tənqidin münasibəti onun barəsində yazılmış ədəbiyyatşünaslıq qismində tədqiqatlarda qismən qiymətləndirilmişdir... Yəni həmin əsərlərdə ədəbi tənqidin materiallarına ardıcıl müraciət edilmiş, müəyyəm nəticələri nəzərə alınmışdır...

İndiyə qədər Azərbaycan ədəbiyyatşünaslığı, elmi-nəzəri fikri və publisistik düşüncəsində İlyas Əfəndiyevin yaradıcılığı müxtəlif aspektlərdə öyrənilib, onun nəsri, dramaturgiyası və ədəbi tənqidi

görüşləri ayrı-ayrı müəlliflər tərəfindən qismən təhlilə cəlb edilmişdir.

1930-cu illərin axırlarından etibarən nəsr yaradıcılığına başlayan ədibin ilk əsərlərindən tutmuş sonrakı bütün əsərləri ədəbi- elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Onun ilk yaradıcılığı haqqmda Səməd Vurğun, Mehdi Hüseyn, Mirzə İbrahimov, Məmməd Arif, Süleyman Rəhimov, Əli Vəliyev, Əbülhəsən Ələkbərzadə, Kamal Talıbzadə, İmran Qasımov, Əkbər Ağayev, Hüseyn Şərif, Mehdi Məmmədov və başqaları kimi tanmmış ədəbiyyat, elm və sənət xadimləri dəyərli fikirlər söyləmiş, ədibin irsini xarakterizə edən diqqətəlayiq məqalələr yazmışlar. (Ətraflı bax: Ağayev Ə. “Kənddən məktublar”. Ədəbiyyat qəzeti”, 11 fevral, 1940; Şərifov H. Ümid veən yazıçı. “Kommunist” qəzeti, 8 dekabr, 1943; Hüseyn M. Bir nasirimiz haqqında. “Kommunist” qəzeti, 5 aprel 1944; Arif M. Bu günkü dramaturgiyamıza bir nəzər. “Vətən uğrunda”, 1946, N 1, səh.62-78; Orucəli Hüseynov. İlyasın hekayələri (“Aydınlıq gecələr” kitabı haqqında) “Ədəbiyyat” qəzeti, 7 sentyabr 1946-ci il və s.)

Ömrünün sonuncu ilinə (1996) qədər ardıcıl şəkildə yaradıcılıqla məşğul olan İlyas Əfəndiyevin ədəbi-bədii fəaliyyəti ümummilli ədəbi-mədəni hərəkat məcrasında araşdırılmış, onun bədii-estetik düşüncə orjinallığı, fərdi dil-üslub xüsusiyyəti, dramaturji axtarışları ədəbi tənqid tərəfindən geniş şəkildə, müxtəlif problemlərə uyğun tərzdə şərh olunmuşdur.



İlyas Əfəndiyevin yaradıcılığının tənqiddə şərhi tarixinə nəzər salarkən, tanınmış xalq yazıçısı, ədibin oğlu, tənqidçi-ədəbiyyatşünas, filologiya elmlər doktoru, professor Elçin olduqca maraqlı faktları diqqətə çatdırır: “Cəfər Cəfərov və Məmməd Cəfər, Əli Vəliyev və Osman Sarıvəlli, Cəfər Xəndan və Əli Sultanlı, Mehdi Məmmədov və Əkbər Ağayev, Firudin Hüseynov və Əzizə Cəfərzadə, Abbas Zamanov və Orucəli Həsənov və bir çox başqaları kimi tamamillə müxtəlif, bir-birindən fərqli qələm sahibləri, sonrakı ədəbi nəsillərin Bəxtiyar Vahabzadə və İsmayıl Şıxlı, Bayram Bayramov və Bəkir Nəbiyev, Məsud Əlioğlu və Qulu Xəlilov, Cəlal Məmmodov və Əhəd Hüseynov kimi və bir çox başqa nümayəndələri, daha sonralar Xəlil Rza Ulutürk və Yaşar Qarayev, Şeyfulla Əsədullayev və Təhsin Mütəllimov, Şamil Salmanov və Arif Səfiyev, Gülrux Əlibəyli və İnqilab Kərimov, Çingiz Hüseynov və İslam İbrahimov, Arif Hacıyev və Abbas Hacıyev, daha sonralar Aydın Məmmədov və Vilayət Quliyev, Kamil Vəliyev və İlham Rəhimli, Nizaməddin Şəmsizadə və Məryəm Əlizadə, Akif Hüseynov və Vaqif Yusifli, yenə də bir çox başqaları dəfələrlə İlyas Əfəndiyev yaradıcılığına müraciət etmiş və bu yaradıcılıq Azərbaycan xalqınm XX əsrdəki tarixi və taleyi kontekstində yüksək qiymətləndirilmişdir. İlyas Əfəndiyevin sağlığında Yəhya Seyidov, Yaqub İsmayılov, Aida Salahova, Yaşar Qarayev onun haqqında beş elmi monograliya yazıb nəşr etdirmiş, XX əsr Azərbaycan nəsri və dramaturgiyasının, Azərbaycan ədəbi dilinin, Azərbaycan teatr sənətinin inkişafında İlyas

Əfəndiycv yaradıcılığının rolunu və bədii-estetik xüsusiyyətlərini təhlil və tədqiq etmişlər.” (Bax: Elçin. Seçilmiş əsərləri, 10 clilddə, 8 cild, Bakı, Seçilmiş əsərləri, 10 cilddə, 8 cild, ”Çinar-Çap” nəşriyyatı, 2005, səh.137; İlyas Əfəndiyev şəxsiyyəti və sənəti haqqmda bir neçə söz (İ.Əfəndieyevin “Seçilmiş əsərləri”nə - 7 cilddə yazılmış ön söz. Bax: İ.Əfəndiyev. Seçilmiş əsərləri 7 cilddə, Ic., Bakı: Çinar-çap, 2002 s. 15-16; həmçinin bax: Yəhya Seyidov. İlyas Əfəndiyev, Bakı: Azərnəşr, 1975; Aida Salahova. İlyas Əfəndiyevin yaradıcılığının poetikası. Bakı: Yazıçı, 1984; Yaşar Qarayev. İlyas Əfəndiyev. Baki: Bilik, 1987; Yaqub İsmayılov. İlyas Əfəndiyevin yaradıcılıq yolu. Baki: Elm, 1991; Yaşar Qarayev. Xarı bülbülün nağılı. Baki: Azərnəşr, 1995; Əmin Əfəndiyev. İlyas Əfəndiyevin yaradıcılığı. Bakı: Elm, 2000; Yaşar Qarayev. Tarixl yaxından və uzaqdan. Bakı: Elm, 1996; Himalay Qasımov. Müasir Azərbaycan romanı: Fil. elm. dok. ...dis. Bakı, 1993; Kamal Talıbzadə. Məhəbəttin tərənnümü. “Ədəbiyyat qəzeti”, 3 oktyabr, 1997 və s.

Əmin Əfəndiyevin tərtib etdiyi geniş biblioqrafik göstəricisi nəşr edilmiş (İlyas Əfəndiyev, Biblioqralik göstərici. Bakı: Azərnəşr, 1985.).

Həmçinin İlyas Əfəndiyevin yaradıcılığı haqqında maraqlı və dəyərli dissertasiyalar müdafiə olunmuşdur. (Bax, avtoreferatlara: İ.Nəsirov. İlyas Əfəndiyevin yaradıcılıq yolu. Bakı, 1967; B.A.Mahmudov. İlyas Əfəndiyevin dramaturgiyası. Bakı, 1974; İ.B.Salmanov. Azərbaycan sovet ədəbiyatında lirik-psixoloji dramlarm dil və üslub xüsusiyyətləri. İlyas



Əfəndiyevin frazeologiyası əsasında. Bakı, 1983; M.Ə.Əlizadə. Lirik-psixoloji dramda qəhrəman problemi, İlyas Əfəndiyevin yaradıcılığı əsasında. Bakı, 1990 və s.)

Eyni zamanda, deməliyik ki, İlyas Əfəndiyevin yaradıcılığından bəhs edən bu çoxsaylı məqalələr, istedadlı müəlliflərin ciddi tədqiqat əsərləri, təbii ki, Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslıq elminin inkişafında da az rol oynamamışdır.

Lakin, Xalq yazıçısı İlyas Əfəndiyevin şəxsiyyətini və yardıcılığını ulu öndər Heydər Əliyev qədər dəqiqliklə, dəyərincə, özü də dəfələrlə, müxtəlif məqamlarda qiymətləndirən ikinci bir şəxsiyyət olmamışdır. Heydər Əliyev həmişə İlyas Əfəndiyevə qarşı diqqətli olmuşdu və hələ 1980-ci ildə deyirdi:

«İlyas Əfəndiyevin əsərləri həm səlis, gözəl bədii dilinə, həm dərin məzmununa görə, həm də yüksək sənətkarlığına görə fərqlənir, oxucuya böyük estetik təsir bağışlayır. Onun kitablarında həm körpüsalanların çətin işi, həm neftçilərin qəhrəman əməyi, həm müasir kəndin həyatı, həm də Azərbaycan ziyalıları arasında mənəvi-psixoloji proseslər inandırıcı şəkildə və dərindən əks etdirilmişdir. Öz yaradıcılığında yazıçı cəmiyyətimizin mənəvi təşəkkülünü və inkişafını diqqətlə izləyir, onun mənasını açıb göstərir, bugünkü həyatımız üçün də, gələcək həyat üçün də nümunə olan adamların parlaq obrazlarını yaradır. O öz sənətkarlığı ilə zəhmətkeşlərin mənəvi tərbiyəsində fəal iştirak edir».

Müasir ədəbiyyatşünasliğimiz üçün ciddi elmi-nəzəri əhəmiyyət daşıyan bu məlumatlara, müəllif və

əsərlərin siyahısına bir çox başqalarını da indi əlavə etmək mümkümdür və yəqin ki, gələcəkdə də həmin imkan olacaqdır. Çünki ədibin əsərləri yeni meyarlar zəminində bundan sonra da araşdırma obyektinə çevriləcək, elmimizin və ədəbi ictimaiyyətimizin diqqətini cəlb edəcəkdir.

"İlyas Əfəndiyevin yaradıcılığının ədəbi tənqiddə dərki" probleminin öyrənilməsi başqa bir cəhətdən də maraqlıdır və yenə də bu barədə Elçin müəllimin fikirlərinə istinad edək: "Sovet dövrü Azərbaycan nəsri (Süleyman Rəhimov, Əli Vəliyev, Əbülhəsən, Mehdi Hüseyn, Mirzə İbrahimov, Mir Cəlal, İlyas Əfəndiyev, Sabit Rəhman, Ənvər Məmmədxanlı, İsmayıl Şəxlı, Bayram Bayramov, İsa Hüseynov və b.), poeziyası (Mikayıl Müşfiq, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Məmməd Rahim, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Əhməd Cəmil, Mədinə Gülgün və b.) bu gün açıq, ya da üstüörtülü tənələrə, yuxarıdan aşağı baxmaq təkəbbürünə, bəzən isə aşkar hörmətsiz münasibətlərə məruz qalırlar. Bu gün, sovet zamanı ədəbiyyata gəlmiş və artıq haqq dünyasına köçmüş yazıçı və şairlərin biri az, o biri çox, o biri isə tamam unudulmaq üzrədir, onların adı istehza və təkəbbür hədəfinə çevrilir, bir qisminin əsərləri bir kənarda qalır, özləri isə sovet ideologiyasının tələbləri və təltifləri çərçivəsində yazdıqları üçün kin-küdurət obyekti olurlar.

Əlbəttə, istedadsız yazıçı unudulacaq, bu, sənətin sərt, amansız və mütləq qanunudur və heç kim heç kimi uzun müddət süni surətdə, zorla ədəbiyyatda, sənətdə saxlaya bilməz, amma bu o demək deyil ki,



əsərlərini təhlil etmədən, fəaliyyətlərini öyrənmədən sovet zamanı yaşayıb, sosializm-realizm çərçivəsində yaradıblarsa, bir küll halında onların hamısının üzərindən xətt çəkilməlidir. Onlar arasında elə böyük yazıçı və şairlər var ki, XX əsr Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında böyük rol oynamışlar və sovet dövründə yazıb-yaratmış qələm sahiblərinə küll halında yox, təbii ki, diferensial yanaşmaq lazımdır. Ancaq eyni zamanda, onların bir küll halında gördükləri iş də böyük əhəmiyyətə malikdir və böyük də hörmətə layiqdir. Azərbaycan ədəbi dilinin təşəkkül tapması, formalaşması və inkişafı, yaxud yeni ədəbi janrların yaranması, sabitləşməsi və ən əsası isə, Azərbaycan bədiiyyatının milli faktoruna çevrilməsi – XX-XXI əsrdə milli-mənəvi varlığımızı ifadə edən digər böyük uğurlarımız məhz həmin küllün xidmətlərinin nəticəsidir." (Bax: Elcin. Seçilmiş əsərləri, 10 cilddə, 8-ci cild, Bakı,"Çinar-çap", 2005, səh. 124-125.)

Elə buna görə də, İlyas Əfəndiyevin yaradıcılığının ədəbi tənqiddə dərki məsələsinin öyrənilməsi bu baxımdan da, mühüm əhəmiyyət kəsb edir.

Bu prosesi öyrənərkən ədəbi tənqidin özünün də mahiyyəti, nələri aşkarladığı ortaya çıxır. Bu cəhətdən, filologiya elmlər doktoru, görkəmli tənqidçi, professor Şamil Salmanovun fikri məsələyə tam aydınlıq gətirir: "Bütün ədəbiyyatımızda, ədəbi fikrimizdə olduğu kimi, tənqidimizdə də böyük, mürəkkəb bir əsr başa çatmışdır; elə bir yüz illik ki, tənqid onun bütün mərhələ və dövrlərində ədəbi prosesin, ədəbi hərəkatın inkişafının ayrılmaz, üzvi hissəsi

olmuşdur, tənqid ədəbiyyatın ideyasını, fəlsəfəsini, yaradıcılıq prinsiplərini işləyib hazırlamış, öz konsepsiyalarında və dəyərlərində bunu ifadə etmişdir. Ədəbiyyatın böyük sənət uğrunda mübarizəsinin fəal iştirakçısı olaraq tənqid milli ədəbi prosesin fundamental vəzifələrini həyata keçirmiş, sənət və yaradıcılıq problemlərini həll edə bilmişdir.” (Bax: “Ədəbiyyat qəzeti”, 03 may 2002.)

Lakin burada bir cəhətə də diqqəti cəlb etmək istərdik. Bu işimizdə, biz İlyas Əfəndiyev yaradıcılığının ədəbi tənqiddə dərkini öyrənərkən bütün tənqidi matrialları əhatə emək imkanından məhrum olduğumuzu boynumuza almalıyıq. Çünki, bu materiallar o qədər çoxdur ki, bunu əhatə etmək imkan xaricindədir. Görkəmli ədəbiyyatşünas-tənqidçi, professor Elçin Əfəndiyev bu barədə yazır: “Ədəbiyyat aləminə ilk addımını atan 25 yaşlı coğrafiya müəllimi İlyas Əfəndiyevin ilk kitabı – həmin «Kənddən məktublar» – 1939-cu ildə Azərbaycan Dövlət Nəşriyyatında çapdan çıxdığı vaxtdan etibarən, o – İlyas Əfəndiyev həmişə ədəbi tənqidin diqqət mərkəzində olub və bu uzun dövr ərzində onun yaradıcılığı haqqında yazılanlar həcm etibarilə, bəlkə də, onun özünün yazdıqlarından da çoxdur.” (Elçin. Seçilmiş əsərləri, 10 clddə, 5-ci cild, Bakı, “Çinar-çap” nəşriyyaı, 2005, s.275 – 494 səh.)

İlyas Əfəndiyev ədəbiyyata 1939-cu ildə «Kənddən məktublar» kitabındakı hekayələrlə gəldi və vəfatından sonra nəşr olunmuş «Sən ey böyük Yaradan» kitabındakı hekayə və kiçik povestlər isə onun son əsərləri oldu.



Bu 57 yaradıcılıq ili ərzində İlyas Əfəndiyev altı roman («Söyüdlü arx» – 1958; «Körpüsalanlar» – 1960; «Dağlar arxasında üç dost» – 1963; «Sarıköynəklə Valehin nağılı» – 1976; «Geriyə baxma, qoca» – 1980; «Üçatılan» – 1981; bu romanların bəzisi povest kimi də təqdim olunub), beş povest («Kənddən məktublar» – 1939; «Aydınlıq gecələr» – 1941; «Torpağın sahibi» – 1952; «Qaçaq Süleymanın ölümü» – 1993; «Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» – 1996), böyüklü-kiçikli qırx yeddi hekayə, bir çox oçerklər və xatirələr yazmışdır... Nəsr onun yaradıcı fəaliyyətinin daimi tərkib hissəsi olsa da, İlyas Əfəndiyev nəsri və İlyas Əfəndiyev dramaturgiyası daima bir-birini əvəz və davam etdirmişdir.

Buna görə də, biz tədqiqat apararkən, əvvəlcədə nəzərdə tutduğumuz kimi, təkcə yazıçının nəsrini yox, dramaturgiyasının da ədəbi tənqiddə dərki problemlərinə toxunmalı olduq. Həmçinin, biz gördük ki, ulu öndər Heydər Əliyev İlyas Əfəndiyev yaradıcılığına xüsusi rəğbət bəsləyib, olduqca dəyərli fikir və mülahizələr söyləyibdir. Bunları da nəzərə alaraq, tədqiqatda bu istiqamətə də ayrıca bölmədə toxunmağı vacib saydıq.

Beləliklə, “Xalq yazıçısı İlyas Əfəndiyev yaradıcılığı ədəbi tənqiddə” tədqiqat işi girişdən, iki fəsildən və nəticədən, həmçinin əlavə faktik materiallardan ibarətdir.

İlyas Əfəndiyev irsinin bədii-estetik dərkində ədəbi tənqidimizin çox mühüm rolu olmuş və bizim bu tədqiqatımız müxtəsər şəkildə olsa da, bu problemin həllinə yönəlmişdir...

# I FƏSIL

## İlyas Əfəndiyevin həyat və yaradıcılığının ilkin mərhələsi ədəbi fikir və tənqiddə

XX əsr Azərbaycan ədəbiyyatı klassiki, böyük nasir və dramaturq, xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı həmişə ədəbi tənqidin də, ictimai fikrin də diqqət mərkəzində olub. Bu da təsadüfi deyil. Çünki o, çox maraqlı həyat və yaradıcılıq yolu keçmişdir. Və bu yolu öyrənmədən, onu təsəvvürə gətirmədən İlyas Əfəndiyev yaradıcılığının bir çox ədəbi-estetik çalarlarını obyektiv qiymətləndirmək mümkün olmazdı... Bu böyük sənətkarın keçdiyi həyat yoluna, boya-başa çatdığı mühitə ümumi bir nəzər salaq...

İ.Əfəndiyevi sənət aləminə aparan yolun başlanğıcı ailədən və orta məktəbdən keçmişdir. Bu insan həyatının elə bir anıdır ki, yeniyetmə gənc konkret və müstəqil biliyə yiyələnməyə, ətrafda baş verən hadisələri dərk etməyə, mütaliəyə maraq göstərməyə, əqli və zehni qabiliyyətini inkişaf etdirməyə başlayır. Bu yolun uğurlu başlanğıcından çox şey asılıdır. Ailədəki tərbiyə üsulları, oradakı ab-hava, qarşılıqlı münasibətlər çox şeydən xəbər verir. İnsan həyat yollarında ilk sınaqlarla burada rastlaşır. İlyas Əfəndiyevin boya-başa çatdığı ailənin üzvləri də halal zəhmətlə yaşamış, minnətsiz çörək yeyərək övladlarını da bu ruhda tərbiyə etmişlər.



İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il may ayının 28-də Qaryagində (indiki Füzuli şəhəri) tanınmış və hörmətli tacir ailəsində anadan olmuşdur. Nəsilliklə oxumuş ruhani və varlı tacir ailəsindən çıxmış Məhəmməd kişi 1884-cü ildə anadan olmuşdur. Onun ata-babası bütün Qarabağda tanınan, kasıba, yoxsula əl tutan, xeyirxah və alicənab adamlar idilər. Bu ailənin bir qolu tacir nəslinə mənsub olub alqı-satqı işlərilə məşğul olmuşdur. Digər qolu isə ruhani təhsili almış, savadlı axund və üləmalardan ibarət idi. Bu barədə Elçin müsahibələrinin birində belə məlumat verir:

“Bizim ulu babamız Əhməd Xoca Türkiyənin Kars vilayətindən gəlib, indiki Füzuli rayonunun Saraçıq deyilən yerində kənd salıb və mənim hesablamalarıma görə, bu, XIX əsrin lap əvvəllərinin hadisəsidir. Əhməd Xoca dövrünün nüfuzlu ruhani ziyalılarından olub və ümumiyyətlə, bizim Əfəndi-uşağı deyilən nəsil ruhani ziyalı nəslidir. Əhməd Xocanın oğlu Qarabağda məşhur bir şəxs olan Xoca Mustafa Əfəndi olub. Xoca Mustafa Əfəndinin Molla Ağa Məhəmməd və Abdulla Əfəndi adlı oğlanları olub. Mənim ata babam Abdulla Ağanın nəvəsi, Məhəmməd Molla Ağa Məhəmmədin oğludur və nəslin ruhani ənənələrindən fərqli olaraq tacir olub.” (Bax: Elçin. Seçilmiş əsərləri, 10 cilddə, 10-cu cild, səh.179.)

Bu səcərə məsələsi yaradıcılıqda mühüm əhəmiyyət kəsb edir və genetik kodun daşıyıcısıdır, qan yaddaşıdır və mərhələ-mərhələ yaradıcılığın cövhərinə hopan nəsnələrdəndir...

Yazıçının atası Məhəmməd Əfəndiyev həmin ailənin ticarətlə məşğul olan qoluna mənsub olmuşdur. O, 7-8 yaşında olarkən atası vəfat etmiş, anası ərə getməyərək bütün ömrünü dörd kiçik oğlu ilə bir qızını boya-başa çatdırmağa sərf etmişdir. Məhəmməd Əfəndiyev kənddə beşillik rus-tatar məktəbini əla qiymətlərlə bitirmiş, rus dilini mükəmməl öyrənmişdir. Məktəbi bitirdikdən sonra Qaryaginə köçərək yeznəsinin yanında kənd təsərrüfatı alətləri satan mağazada işləmişdir. Bir müddət sonra həmin ticarətlə müstəqil məşğul olmuşdur. O, Rusiyanın müxtəlif şəhərlərilə, Təbrizlə, İstanbulla ticarət əlaqələrinə girmiş, bir neçə həmkarı ilə birlikdə mal gətirib satmaqla var-dövlət sahibi olmuş və böyük hörmət qazanmışdır. 1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal olunduqdan sonra Məhəmməd kişi müxtəlif təsərrüfat idarələrində çalışmışdır.

Onun babası Hacı Axund Tehranda ali ruhani təhsili almış, geniş dünyagörüşlü və savadlı bir adam olub böyük hörmət sahibi idi. Evində çox zəngin kitabxanası varmış. İlyas Əfəndiyev qeyd edir ki, "Hacı Axund başqa mollalar kimi acgöz deyildi, kasıblardan pul almaz, camaatı öz halal zəhməti ilə dolanmağa, əyri iş dalınca getməməyə, fəqir-füqəraya əl tutmağa çağırardı. Kasıblar həmişə onun yanına məsləhətə gələrdilər." (Bax: Əfəndiyev İ. Xatiratlarımdan səhifələr, "Azərbaycan" jur., 1987, № 9, səh. 42.)

Yazıçının babası Bayram bəy Şuşada rus dilində gimnaziyanı bitirib dövlət idarələrində məmur işləmiş, Müsavat hökuməti vaxtında Şuşada qəza rəisi vəzifəsində çalışmışdır.



Əfəndiyevlər ailəsi Sovet hakimiyyəti dövründə, 30-cu illərdə ciddi təqiblərə məruz qalmış, onların ata-baba mülkü əllərindən alınmış, ailənin bəzi üzvləri «xalq düşməni» kimi güllələnmiş, bəziləri həbs edilərək vətəndən uzaqlara sürgün olunmuşdur. Yazıçının atası Məhəmməd Əfəndiyevə «kulak» damğası vurularaq evi, böyük mülkü, bağı zəbt edilmiş, «səs hüququndan» məhrum olunmuşdur. Ağır sıxıntı və ehtiyac içərisində yaşayan Məhəmməd Əfəndiyevin ailəsi mağazadan ərzaq malları, pal-paltar almaq hüququndan belə məhrum edilmişdir. Lakin yazıçının nənə və babaları bolşeviklərin ağalığından əvvəlki illərdə yüzlərlə yoxsul ailələrə əl tutan, kasıblara kömək edən xeyirxah və səxavətli adamlar kimi yadda qaldıqlarından, qohum-qonşu dar ayaqda bu ailəyə gizlin də olsa kömək edirmişlər.

Yazıçı bu illərin hadisələrini xatırlayaraq qeyd etmişdir: «Bizim ailəmiz çox ağır vəziyyətdə idi. Atam səs hüququndan məhrum edildiyi üçün uzun illər işsiz qaldı. Yeddi uşağın böyüyü mən idim. Atamın vaxtı ilə tikdirdiyi böyük evimiz əlimizdən alınmışdı. Bizim doqquz adamdan ibarət ailəmizə hökumət tərəfindən zəbt edilmiş evimizin ikinci mərtəbəsində iki balaca otaq vermişdilər. Balaca qardaşlarım yemək stolunun altında, üstündə yatırdılar». (Bax: Yenə orada, səh.43.)

Çoxuşaqlı həmin ailədə ciddi nizam-intizam var idi. Anaya məhəbbət, ataya hörmət ailədə ciddi əməl olunan qaydalardan idi. Ailə üzvləri arasında qarşılıqlı hörmət hökm sürürdü: təbiətə məhəbbət, mütaliəyə, kitaba maraq ananın təsirindən irəli

gəlmişdi. Bütün müsəlman ailələrində olduğu kimi Əfəndiyevlər ailəsində də ata əsas şəxsiyyət idi və bütün problemləri o həll edirdi.

Qarabağın aran rayonlarında yaşayan yüzlərlə başqa ailə kimi Məhəmməd kişi də ailəsi ilə bərabər yay aylarında yaylağa – Şuşaya köçərmiş. İlyas müəllimin uşaqlıq illərinin müəyyən hissəsi Şuşada keçdiyindəndir ki, yazıçının yaradıcılığında Şuşa və Qarabağ mövzusu mühüm yer tutur. Onun "Mahnı dağlarda qaldı", "Xurşidbanu Natəvan" pyeslərində, "Dağlar arxasında üç dost", Geriyə baxma, qoca", "Üçatılan" romanlarında, "Qoca tarını çaldı", "Qarı dağ", "Yaylaq qonşumuz", "Qaçaq Süleymanın ölümü", "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" və s. hekayə və povestlərində bir başa, digər əsərlərində dolayısı yolla olsa da Qarabağ mühiti qüdrətli sənətkar qələmi ilə təsvir edilmişdir ki, yazıçının bu cəhəti müstəqillik dövrü ədəbi-tənqidimizin diqqət mərkəzində olmuşdur...

Bu ailənin xoş günləri, yazıçının uşaqlıq illərinin sevincli anları 1920-ci ilin aprel-may aylarında sona yetmişdir. «Kulak» damğası vurulmuş bu ailənin üzvləri hərə bir tərəfə dağılmış, təhlükəsizlik orqanlarının qorxusu, həbs olunmaq təhlükəsi qohumları bir-birindən aralı salmışdı.

Yazıçının atası 30-cu illərin ədalətsizliklərinə, təqib və təhqirlərə dözmür, uzun illər işsiz qalır, ailəsini dolandıra bilmir. Ağır xəstələnərək «səksən yaşlı qocaya dönmüş» Məhəmməd kişi 1934-cü ildə 50 yaşında vəfat edir.



İ.Əfəndiyevin nənələri Fatma xanım və Bəyaz nənə, anası Bilqeyis xanım geniş dünyagörüşünə malik, savadlı, şifahi xalq ədəbiyyatının onlarla nümunələrini, əfsanə, nağıl və dastanları sinələrində gəzdirən el ağbiçəkləri olmuşlar. Onun dünyagörüşlü bir gənc kimi formalaşmasında, kitaba, ədəbiyyata, ümumiyyətlə mütaliəyə maraq oyanmasında anası Bilqeyis xanımın əvəzsiz xidmətləri olmuşdur. O, İlyas müəllimə yalnız ana yox, Məhəmməd kişi vəfat etdikdən sonra, müəllimlik, yoldaşlıq, həm də atalıq etmişdir...

İ.Əfəndiyev anası haqqında yazmışdır: «Anam keçmiş müsəlman qızları kimi, evdə mollakunə adamlardan dərs almışdı. Ərəb və rus əlifbalarında yazıb oxuyurdu. Mütaliəni çox sevirdi. Azərbaycan dilində çıxan kitabların, demək olar ki, hamısını oxumuşdu. Mənə ərəb və latın əlifbalarında yazıb oxumağı da o öyrətmişdi. Uşaq vaxtı anam bizə oxuduğu kitablardan hədsiz-hesabsız əhvalatlar danışardı. Onun oxuyub bizə nağıl elədiyi «Ərmənusə», «İngilis xanımı», «Hind racəsi», «Rüstəm və Zöhrab», «Əlif Leyla» və sairə kitablar indi də yadımdadır. Füzulinin «Leyli və Məcnun» əsərini də mən ilk dəfə anamdan eşitmişdim. Ümumiyyətlə, anamız çox incə zövqə malik bir qadın idi. Dövrün ictimai hadisələrindən də baş çıxarırdı. Allahsız olmasa da, mollalardan zəhləsi gedərdi. Məndə güclü mütaliə həvəsi məhz anamın təsirilə oyanmışdır». (Bax: Yenə orada, səh. 43.)

Danışılan bu əhvalatlar, nağıl və əfsanələr onun incə qəlbinə təsir etmiş, sonralar bir yazıçı kimi

formalaşmasında mühüm rol oynamışdır. İ.Əfəndiyev bu haqda yazmışdır: «...bunları bizə danışanda mənim xəyalımda heyrətli bir aləm yaranırdı və bu aləmin qəhrəmanları, onların igidlikləri uzun zaman gözümün qabağından getmirdi. Mən onların iztirabları ilə həyəcanlanıb pərişan olur, qələbələrinə sevinirdim və getdikcə xəyalımda yaranan bu aləm mənə real həyatdan, təsadüf etdiyim insanlardan (yalnız anamdan başqa) daha artıq xoş gəlirdi... O aləm daha şirin, daha cazibədar görünürdü». (Bax: Yenə orada. səh.44.)

Ən maraqlısı budur ki, İ.Əfəndiyevə «xoş gələn» bu sirli aləm sonralar onu öz qoynuna alır, nənəsi və anasının danışdıqları və cib dəftərlərinə qeyd olunan «maraqlı əhvalatlar» bir sıra bədii əsərlərin fabulasına çevrilir. Məsələn, Fatma nənənin danışdığı: «Quşların dilini bilən Süleyman padşah bütün quşlara əmr edir ki, hər biriniz mənə dünyanın ən gözəl quş balasını tapıb gətirin! Qarğa çox axtarır, onlarla quş balasına baxır, axırda özünün eybəcər balasını dimdiyinə alıb aparır və Süleyman padşaha deyir: Qibleyi-aləm! Dünyada bundan gözəl quş balası tapmadım» – əhvalatı «Sağsağan» hekayəsində qələmə alınmışdır – və yaxud, məzmunu «Kitabi-Dədə Qorqud»dan gələn, xalqımızın yadelli işğalçılara qarşı mübarizəsindən söhbət açan digər bir əfsanə «Qarı dağı» hekayəsi üçün əsas olmuşdur.

Yazıçının 1991-ci ildə qələmə aldığı «Vəzir Allahverdi xan və Bəhlul Danəndə» hekayəsindəki əhvalat da anasının danışdığı rəvayətlərdən götürülmüşdür. Həmçinin, "Apardı sellər Saranı", "Qəhrəman ilə



bülbülün nağılı", "Yusif və Efsir", "Abidin yuxusu", "İsa-Musa" təkin əsərləri də bu qəbildəndir...

İ.Əfəndiyevin uşaqlıq və gənclik illəri bir tərəfdən belə əfsanəli və rəvayətli mühitdə keçmişdisə, digər tərəfdən bolşevik qaragüruhunun və kommunist ideologiyasının ən qatı dövrünə təsadüf etmişdir. Bütün varlılar kimi Əfəndiyevlər ailəsi də dövrün ədalətsizlikləri ilə qarşılaşmışdır. Bunlar isə İlyas Əfəndiyevin qəlbində dərin iz salmışdır. Yəqin ki, onun ədəbi qəhrəmanlarındakı, elə yazıçının öz xarakterindəki kommunist və sovet rejiminə qarşı örtülü narazılıq, zamanın qatı ideoloji tələbləri ilə nisbi barışmamaq meyli elə buradan əmələ gəlmişdir.

Yazıçı hələ uşaq yaşlarından zəhmətə alışmış, mütaliəyə böyük maraq göstərmiş, məktəbə getməzdən əvvəl yazıb-oxumağı öyrənmiş, çoxlu kitablar mütaliə etmişdir. 1921-ci ildə birinci sinifə gedən İlyas müəllim 1930-cu ildə pedaqoji təmayüllü iki dərəcəli orta məktəbi əla qiymətlərlə bitirmişdir. Məktəbin direktoru Cəmil bəy Vəzirov, müəllimləri Mehdi Mehdizadə, Cümşüd Zülfüqarlı, Bəylər Ağayev kimi sonralar məşhur olmuş savadlı ziyalılar da onun həyatında, şəxsiyyətinin, xarakterinin formalaşmasında mühüm rol oynamışdı.

Orta məktəbdə oxuyarkən müəllimlərin tapşırıqları ilə kifayətlənməyən İ.Əfəndiyev dərsdən əlavə, müstəqil mütaliə yolu ilə çoxlu bədii kitablar, o cümlədən rus ədəbiyyatı klassiklərindən Aleksandr Puşkin, M.Y.Lermontov, A.P.Çexov, İ.Turgenev, Maksim Qorki kimi sənətkarların dilimizə tərcümə olunmuş əsərlərini mütaliə etmiş, eyni zamanda ri-

yaziyyat və fizika elmlərinə böyük maraq göstərmiş, coğrafiyanı həvəslə öyrənmiş, böyük səyyahların, o cümlədən R.Amundsen, Nansen, Xristofor Kolumb, Ameriqo Vespuççi kimi maraqlı adamların həyatını əks etdirən kitablara da maraq göstərmişdir.

Əlbəttə, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq onu daha çox maraqlandırırdı. İ.Əfəndiyev yazır: «Klassik romanlar, pyeslər, poemalarla bərabər, o zaman haqqında çox danışılan professor Friçe, professor Koqan, professor Köprülüzadə, İsmayıl Hikmət kimi məşhur ədəbiyyat alimlərinin əsərlərini də yorulmadan, həvəslə oxuyub balaca dəftərçələrdə özüm üçün konspektlər çıxarırdım. Mən gələcəkdə Köprülüzadə kimi, professor Friçe kimi böyük ədəbiyyat alimi olmaq xəyalı ilə hey həvəslənir, hey oxuyurdum». (Bax: Yenə orada, səh. 45.)

Dünya ədəbiyyatı və mədəniyyəti sahəsində yüksək zirvəyə qalxmış onlarla sənətkarların həyatı və yaradıcılıq təcrübəsi bir daha sübut edir ki, böyük ədiblərin, rəssam və bəstəkarların formalaşıb yetişməsində, öz xalqının qabaqcıl elm və mədəniyyət xadimi səviyyəsinə yüksəlməsində bir sıra mühüm həyati amillər həlledici rol oynamışdır. Ədəbi tənqidimiz də, yazıçının yaradıcılıq yolunun bir çox cəhətlərinin izahında onun həyat yolunun bu amillərini önə çəkməkdədirlər...

Bir daha xatırladaq ki, sənətkarı əhatə edən ictimai ədəbi mühitin bütün mürəkkəblik və çoxcəhətliliyini öyrənmədən, onun müasirləri ilə əlaqələrinin yerini və mövqeyini dəqiq müəyyən etmədən yazıçının formalaşma və inkişaf prosesini doğru-düzgün mənalandırmaq çətindir, bəlkə də mümkün deyildir.



Əlbəttə, İ.Əfəndiyevin bir gənc kimi yetişməsində, mütaliəyə, ədəbiyyata, elmə böyük maraq göstərməsində, hər şeydən əvvəl, ailə tərbiyəsinin, ata-ana ocağının çox mühüm təsiri olmuşdur. Lakin bu, həlledici səbəb olsa da, yeganə amil deyildi.

Yazıçının formalaşıb yetkinləşməsində, bir sənətkar kimi püxtələşməsində başqa amillər də olmuşdur ki, bunlardan oxuduğu və dərs dediyi məktəbin kollektivi, boya-başa çatdığı bölgənin ictimai-mədəni mühiti, gənclik illərində böyük həvəslə izlədiyi və maraqla mütaliə etdiyi «Qızıl Araz» adlı rayon qəzeti, Füzulidə fəaliyyət göstərən xalq teatrı, ali təhsil aldığı institut həyatı, işlədiyi «Yeni yol», «Kommunist» və «Ədəbiyyat qəzeti» redaksiyaları və ən nəhayət Bakı və Yazıçılar İttifaqının o vaxtkı ədəbi mühiti çox böyük təsir göstərmişdir. Düzdür, bu amillərin yazıçıya biri az, biri çox təsir etmişdir, lakin onların heç biri təsirsiz qalmamışdır...

Orta məktəbi bitirdikdən sonra bir müddət Böyük Bəhmənli kəndində dil və ədəbiyyatdan dərs deyən İ.Əfəndiyev 1935-1938-ci illərdə Qaryagin (Füzuli rayonu o vaxtlar belə adlandırılırdı) şəhər orta məktəbində coğrafiya müəllimi işləmiş, eyni zamanda gənclərin təlim-tərbiyəsində, savadsızlığın aradan qaldırılmasında, məktəbyaşlı uşaqların təhsilə cəlb olunmasında fəallıq göstərmişdir. Yazıçının formalaşmasında yaşadığı rayonun ictimai və mədəni həyatı da az rol oynamamışdır. Düzdür, 30-cu illərdə rayondakı mühit haqqında əlimizdə geniş məlumat

yoxdur. Lakin yazıçının öz xatirələri, məktəb və müəllim kollektivi, rayon ziyalıları haqqında əldə etdiyimiz məlumatlar, rayon qəzeti səhifələrində dərc edilmiş müxtəlif məqalələr, gənclərin həyatında və tərbiyəsində o illər çox mühüm rol oynamış dram kollektivinin fəaliyyəti barədəki yazılar rayonun 30-cu illərdəki ictimai-mədəni həyatı haqqında müəyyən fikir söyləməyə imkan verir.

Bu illərdə Qaryagində «Qızıl Araz» adlı qəzet dərc edilirdi. Müxtəlif illərdə Heydər Heydərov, Bala Bağırov, Səməd Əliyev və başqalarının redaktor olduqları qəzet öz səhifələrində günün ictimai-siyasi hadisələri, təsərrüfatın aktual məsələləri haqqında materiallar dərc etməklə bərabər, ədəbiyyat və mədəniyyətin ayrı-ayrı sahələrini də geniş işıqlandırırdı. İlyas Əfəndiyevin həvəslə mütaliə etdiyi qəzetin səhifələrində ədəbiyyat müəllimləri Nemət Hüseynov, N.Kazımovun maraqlı yazıları, gənc şair Nəcəf Quliyevin şeirləri, rayonun qabaqcıl ziyalılarından Məmməd Sadıqovun, Savalan Zülfüqarovun, A.Manaflının və başqalarının məqalələri dərc olunurdu ki, həmin yazıların heç biri nəinki gənc İlyas müəllimin nəzərindən yayınmır və təsirsiz qalmırdı, hətta gənc müəllimin dünyagörüşünün formalaşmasına, bədii yazıya qarşı həvəsinə öz təsirini göstərirdi. Səhifələrində tez-tez maraqlı yazılar dərc edən «Qızıl Araz» qəzeti M.F.Axundov, M.Y.Lermontov, A.S.Puşkin, T.Q.Şevçenko və başqa klassik yazıçıların yubileylərilə əlaqədar xüsusi səhifələr, ayrı-ayrı nömrələr buraxırdı ki, bunlar İlyas müəllimin nəzərindən qaçmırdı...



Fəaliyyəti «Qızıl Araz»ın səhifələrində geniş işıqlandırılan müssisə və təşkilatlardan biri də rayonun kolxoz-sovxoz teatrı idi. Sonralar Qaryagin Dövlət Teatrı kimi fəaliyyət göstərmiş bu işgüzar kollektiv həmin illərdə rayonun kəndlərində və qonşu rayonlarda «Laçın yuvası», «Həyat», «Almaz», «Vətən namusu», «Dağılan tifaq», «Məşədi İbad» və s. pyesləri böyük uğurla tamaşaya qoyulmuşdur. Teatrın direktoru Savalan Zülfüqarov yazılarının birində qeyd edir ki, «teatrımız yaxın günlərdə S.Rəhmanın «Toy» komediyasını oynayacaqdır». Əsəri qəbul etmək üçün rayonumuza Respublikanın xalq artisti Mirzağa Əliyev gəlmişdir. A.Manaflının «Həyat» haqqında mənim fikrim» məqaləsində isə müəllif, teatrın direktoru S.Zülfüqarovun, bədii hissə müdiri Əsəd Cəfərovun, aktyorlardan Ağababa Abdullayevin, Mürşüd Haşımovun, Cəmil Vəzirovun, Rza Əliyevin, Şölə Yolçuyevanın və başqalarının fəaliyyətindən bəhs edir.

Gələcəkdə görkəmli dramaturq olacaq İ.Əfəndiyev «teatr» adlı sehrli bir aləmlə ilk dəfə məhz Qaryagində tanış olmuşdur. O, qeyd edir ki, «mən də ora tez-tez gedir və böyük maraqla aktyorların oyunlarına tamaşa edirdim». Sənət yollarında ilk axtarışlar aparan və yazıçı kimi ilk addımlarını atan gənc müəllim İ.Əfəndiyevin inkişafında istər rayon qəzeti «Qızıl Araz»ın, istərsə də rayon teatrının təsiri şübhəsizdir və bu təsirlənmə mənbələrini ədəbiyyatşünaslığımız və ədəbi tənqidimiz də nəzərdən qaçırmamış, bu barədə maraqlı mülahizələr irəli sürmüş,

araşdırmalar aparılmışdır. (Bax: Əfəndiyev Ə. İlyas Əfəndiyevin yaradıcılığı. - Bakı: Elm, 2000.-310 s.)

İlyas Əfəndiyev orta məktəbi bitirdikdən sonra, ailə vəziyyətilə əlaqədar olaraq, təhsilində bir neçə il fasilə verməyə məcbur olur. Lakin ali təhsil almaq və Bakıya getmək arzusu onu tərk etmirdi. O, Qaryagin rayonunun Böyük Bəhmənli kəndində müəllim işlədikdən sonra Xalq Maarif Komissarlığı tərəfindən Nuxa şəhərindəki nümunəvi orta məktəbə tədris hissəsi müdiri vəzifəsinə göndərilir. Bir il burada işlədikdən sonra ali təhsil almaq üçün Bakıya - Azərbaycan Dövlət Pedaqoji institutuna gedir. 1934 - cü ildə APİ-nin ədəbiyyat şöbəsinə daxil olsa da, onun ali məktəbdə təhsil alması çox uzun sürmür; elə həmin il institutu tərk edib rayona qayıtmağa məcbur olur. İ.Əfəndiyev «kulak» balası olduğu üçün institutdan uzaqlaşmağa məcbur idi...

Lakin yazıçı 1950-ci ildə qələmə aldığı «Tərcümeyi-hal» adlı yazısında bu faktı atasının xəstəliyi ilə əlaqələndirmişdir. Bunun səbəbi ondan ibarətdir ki, İ.Əfəndiyev 30-cu illərdəki təqib və təhqirləri yaddan çıxarmamış, şəxsiyyətəpərəstişin qızğın bir dövründə Stalin ideologiyasının oğlan çağında əsl həqiqəti ictimaiyyətdən gizlətməyə məcbur olmuşdur.

Həqiqət isə belədir: Müvəffəqiyyətlə imtahan verib filologiya fakültəsinin əyani şöbəsinə daxil olmuş yazıçı bir neçə ay orada oxuduqdan sonra xəbər tuturlar ki, İ.Əfəndiyevin atası inqilabdan əvvəl ticarətlə məşğul olduğu üçün səs hüququndan məhrum edilmişdir. O zaman səs hüququndan məhrum edilmək isə ölümə məhkum olunmaq kimi



bir hal idi. Yazıçı sonralar qələmə aldığı başqa bir yazısında institutdan uzaqlaşmasını tamamilə başqa cür izah etmişdi: Bir qədər sonra İnstitutun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Məmməd Orucov xəlvəti mənə dedi ki, göstəriş var, ata-anası səs hüququndan məhrum edilmiş tələbələr ideoloji fakültələrdən çıxarılsın. Məsləhətdir, nə qədər gec deyil, ərizə verib bir il məzuniyyət götür. «Atan qolçomaqdır» deyə səni İnstitutdan çıxartsalar, sonralar iş tapmağın çətin olar. Mən də o cür hərəkət etdim.

Atası vəfat etdikdən /1934/ sonra, çoxuşaqlı ailənin bütün ağırlığı evin ən böyük övladı olan İ.Əfəndiyevin öhdəsinə düşmüşdü. Xoşbəxtlikdən İ.Əfəndiyevin adı həmin illərdə repressiya olunanların siyahılarında olmayıb. O, 1938-ci ildə APİ-nin coğrafiya fakültəsinin qiyabi şöbəsini qurtarıb sağ-salamat rayona qayıdaraq müəllimliyini davam etdirmişdir.

Respublikanın ən böyük ali məktəblərindən biri hesab edilən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil aldığı illər İ.Əfəndiyevin həyat və yaradıcılığında mühüm bir mərhələ təşkil edir. Ən tanınmış alimlərin və müəllimlərin dərs dediyi həmin ali məktəbdə İ.Əfəndiyev Bəkir Çobanzadə, Əli Sultanlı və s. bu kimi müəllimlərdən dərs almışdır. Yazıçının qeydlərində oxuyuruq: «Lap ilk günlərdən istər tələbə yoldaşlarımın, istərsə də müəllimlərin yaxın, səmimi münasibətlərinə nail olmuşdum. Professor Çobanzadə, Əli Sultanlı kimi məşhur müəllimlərimiz mənimlə xüsusi dost olmuşlar. Professor Çobanzadə bir sıra xarici dillərlə birlikdə bütün türk-tatar

dillərini bilirdi. Həmişə son dəblə tikilmiş bahalı kostyumlar geyərdi. Demək olar ki, canlı bir ensiklopediya idi. Xaricdə də böyük hörməti vardı... Aramla iki saat söylədiyi mühazirələrdən heç birimiz yorulmazdıq... o, yüksək mədəniyyətə, yüksək intellektə malik nadir bir adam idi». (Bax: Yenə orada, səh.62.)

İ.Əfəndiyevin institutda dostlaşdığı və həmişə xətrini əziz tutduğu müəllimlərdən biri də Əli Sultanlı idi. "Əli Sultanlının antik dövr ədəbiyyatı haqqındakı mühazirələri o qədər canlı, o qədər şairanə olurdu ki, biz hər dəfə sanki gözəl bir poemaya qulaq asırdıq."

Məhz 30-cu illərin sonlarında İ.Əfəndiyev ədəbiyyata gəlmiş və bir-birinin ardınca hekayələr yazmağa başlamışdır. «Rayonda ora-bura qaçaraq gündə səkkiz-doqquz saat işləməklə bərabər hələ gecə kurslarında da dərs deyirdim. Çox yorulmağıma baxmayaraq Qarabağın qarlı uzun qış gecələrində heç kəsə bir söz demədən hekayələr yazdım. Sonralar «Kənddən məktublar» adı ilə çap olunan həmin hekayələri götürüb 1938-ci ilin yayında pulsuz-pənəsiz gəldim Bakıya...»

Bu illər çox qorxulu bir dövr idi, ən istedadlı sənətkarların başı üzərini qara buludlar almışdı, heç kəs özündən arxayın deyildi. Sabaha sağ çıxıb-çıxmayacağından nigaran qalmış adamlar bir-birindən qorxur, heç kimə etibar etmirdilər.

İ.Əfəndiyev ədəbiyyata gəldiyi ilk illəri belə xatırlayır: «Qaryagində coğrafiya müəllimi işlədiyim vaxtlar yadıma düşür. Uzun qış gecəsi idi, çöldə qarçovğun vardı. Adətim üzrə mütaliə edirdim. Darıxır,



qəribə hisslər keçirirdim. Birdən elə bil ilahidən məndə bir fikir yarandı ki, buradakı həyatımı, ürəyimi əzən, sıxan düşüncələrimi şəhərdəki bir dostuma məktub formasında yazım. Bu güclü hissin qarşısında davam gətirə bilmədim. Özüm də bilmirəm nə iş idi, oturdum, bir də gördüm ki, hekayə yazıram. Növbəti gün də, ondan sonra da belə oldu. Dalbadal 9 hekayə yazdım». (Bax: Yenə orada, səh. 64.)

Bədii yaradıcılıq sahəsində ilk uğurlu addımlarını 30-cu illərin axırlarında atmağa başlamış İ.Əfəndiyev, bundan əvvəl bir jurnalist, mətbuat işçisi kimi qələmini sınağa çəkmişdi.

Yazıçının tərcümeyi-halında indiyə qədər qaranlıq qalmış, daha dəqiq desək, səhv işıqlandırılmış məsələlərdən biri də İ.Əfəndiyevin ilk mətbu əsərinin nə vaxt çap olunmasıdır. Yazıçının tədqiqatçısı Emin Əfəndiyev yazır: "Bu məlumatın dəqiq olmamasının bir səbəbi də, müəyyən mənada, yazıçının özü ilə əlaqədardır. Belə ki, 1938-ci ilin son aylarından etibarən intensiv şəkildə yaradıcılığa başlamış İ.Əfəndiyevin imzası dövri mətbuat səhifələrində tez-tez görünməyə başlamışdır. Onun bir sıra məqalə, oçerk və hekayələri respublikanın müxtəlif qəzetlərində dərc olunurdu. Yalnız 1938-ci ilin sonlarında, 1939-cu ilin ilk iki ayında yazıçının «Yeni yol» qəzetində «Buruqlar arasında» adlı ilk oçerki, «Bataqlıq saldatları» kinofilminə yazdığı ilk resenziyası, «Aşağı mətbuata rəhbərliyi canlandırmalı» adlı ilk məqaləsi, «Namuslu fəhlələrin sırasını çoxaltmalı», «Şərəf və iftixar işi» adlı yazıları işıq üzü görmüşdü. Bu illərdə «Kommunist» və «Ədəbiyyat

qəzeti» də İ.Əfəndiyevin ilk yazılarına yer verirdi. Yazıçının ilk mətbu hekayəsi olan «Berlində bir gecə» əsəri də bu aylarda oxuculara çatdırılmışdır.

İ.Əfəndiyev ilk mətbu əsərilə əlaqədar yazır: «1939-cu ildə «Revolyusiya və kultura» jurnalında «Gözlənilməyən sevgi» adlı ilk hekayəm çıxdı. Bundan az sonra «Kənddən məktublar» kitabım nəşr olundu.» Bu qeyri-dəqiq məlumat yazıçının son illərdə dərc etdirdiyi bir sıra yazılarında da verilmişdir. Və yazıçının bu məlumatına əsaslanan jurnalist və ədəbiyyatşünaslar da həmin səhvi təkrar etmişlər.

İlk mətbu hekayəsi hesab etdiyi «Gözlənilməyən sevgi» əsərindən xeyli əvvəl, yazıçının bir sıra hekayə, oçerk və məqalələri artıq respublika mətbuatında dərc olunmuşdur ki, bu haqda yuxarıda danışılmışıq." (Bax: Əfəndiyev E. İlyas Əfəndiyevin yaradıcılığı (monoqrafiya), redaktor və ön sözün müəllifi akademik B.Nəbiyev, Bakı, "ELM", 2000.)

Kənddə coğrafiya müəllimi işləyərkən yazdığı hekayələrini götürüb Bakıya gələn İ.Əfəndiyev onları Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi işləyən yazıçı Əbülhəsənə göstərir. Hekayələri oxuyan Əbülhəsən onları bəyənir və çapını məsləhət görür. Beləliklə də yazıçının «Kənddən məktublar» adlı ilk kitabı işıq üzü görür.

İ.Əfəndiyev «Dostumuzu xatırlayarkən» adlı xatirələrində bu haqda yazmışdır: «...hekayələri mərhum yazıçımız Əbülhəsənə təqdim etdim. O, mənim təhər-töhürümə, ayağımdakı uzunboğaz çəkmələrə baxaraq soruşdu: - Nəçisən ? Nəçi olduğumu dedikdə o: - Əzizim, əzizim, - dedi - coğrafiya



müəllimi hara, yazıçılıq hara?.. Mən bu barədə bir söz deməyərək soruşdum: - Hekayələrin cavabını nə vaxt ala bilərəm? - Ünvanını qoy get, vaxt olanda oxuyub cavab yazarıq. - Yox, -dedim, - xahiş edirəm mən rayona qayıdanacan oxuyasınız ki, cavabını özümə deyəsiniz. Soruşdu: - Rayona nə vaxt qayıdırsan? Dedim: - On gündən sonra. - Əzizim, əzizim, on günəcən bunları oxuya bilmərəm. Özü də əlyazmasında gətirmisən. Mən təkid elədim. O, mənim əl çəkməyəcəyimi hiss eləyib: - Yaxşı, - dedi, - on gündən sonra mənə dəyərsən. Bəlkə oxuya bildim. On gündən sonra o, məni ayrı cür qarşıladı. Gülümsəyib soruşdu: - Əzizim, əzizim, sənin hekayələrin hansı qəzet-jurnallarda çıxıb? - Heç birində - dedim. - Bunlar mənim ilk hekayələrimdi, heç birini də hələ çapa verməmişəm. - Doğrudan? Amma mənə elə gəldi ki, sən çoxdan çap olunursan. Hekayələr yaxşıdı...yaxşıdı. Xoşuma gəldi. Mən bizim sədrimizə də dedim. Gedək, o, səninlə tanış olmaq istəyir... Əbülhəsən məni Əli Məmmədova təqdim edərək dedi: - Hekayələri barədə sizə danışdığım oğlan budur. Sədr gülümsəyib mənimlə əl tutdu. Haradan olduğumu və sairə...öyrənib biləndən sonra Əbülhəsəndən soruşdu: - Neçə hekayədi? - Doqquz,- deyə Əbülhəsən cavab verdi. - Neçəsini çap etmək mümkündür? - Hamısını - deyə Əbülhəsən qətiyyətlə cavab verdi. - Elə isə göndərin Azərnəşrə, qoy kitab halında çap eləsinlər».

Beləliklə də, Əbülhəsən xeyirxahlıq edərək İ.Əfəndiyevin yaradıcılıq yolunun başlanğıcında yaşıl işıq yandırmış oldu, «Kənddən məktublar» adlı

ilk kitabı İlyas Əfəndiyevə «ədəbiyyat dünyasına», yazıçılar aləminə çıxmasına səlahiyyət verdi.

İlyas Əfəndiyev 1938-ci ilin axırlarında birdəfəlik Bakıya gəlir və onun yaradıcılığında mühüm rol oynamış Bakı ədəbi mühitinə qovuşur. Bakıda heç kimi tanımayan kimsəsiz gənc yazıçı İ.Əfəndiyev o vaxtlar Yazıçılar İttifaqında partkom işləyən görkəmli yazıçı Əli Vəliyevlə tanış olur və onun köməyilə «Yeni yol» qəzetində mədəniyyət və ədəbiyyat şöbəsində ədəbi işçi vəzifəsinə işə düzəlir.

Ev məsələsində isə ona Yazıçılar İttifaqının sədri Səməd Vurğun kömək edir, «Əski Şərq» mehmanxanasında bir otaq alır, yazıçı orada üç il yaşayır. Bakıda keçirdiyi ilk günləri yada salan İlyas Əfəndiyev qeyd edir ki, "rayonda o qədər zülm çəkmişdik, o qədər təhqir olunmuşduq ki, burada adamlardan kömək, hörmət, insani münasibət görəndə ürəyim kövrəlirdi. Mənə elə gəlir ki, tamam yeni bir aləmə düşmüşəm. Demə səs hüququndan məhrum edilmiş tacir oğluna da kömək, hörmət olarmış..."

Bakıda ilk gündən qayğıkeş və xeyirxah insanlarla əhatə olunmuş gənc yazıçı məhsuldar yaradıcılıqla məşğul olmağa və ilk mətbu əsərlərini respublikanın dövri mətbuat orqanlarında dərc etdirməyə başlayır. Yazıçı «Yeni yol» qəzeti redaksiyasında bir qədər işlədikdən sonra qəzetin nəşri dayandırılır. Bundan sonra İ.Əfəndiyev əmək fəaliyyətini əvvəlcə «Kommunist» /1939 -1940/, sonra isə «Ədəbiyyat qəzeti»ndə nəsr şöbəsinin müdiri kimi davam etdirmişdir.

Heç şübhəsiz ki, İ.Əfəndiyevin bir yazıçı kimi inkişaf etməsində və ədəbi ictimaiyyət tərəfindən



tanınmasında əməkdaşlıq etdiyi həmin qəzet redaksiyalarının mühüm xidməti olmuşdur.

İ.Əfəndiyev 1940-cı ilin yanvar ayında Azərbaycan Yazıçılar İttifaqına üzvülüyə qəbul edilir. 1990-cı ildə qələmə aldığı xatirələrindən birində bu haqda yazıçı göstərmişdir: «Bir gün gənc tənqidçi Əkbər Ağayevlə təsadüfən küçədə rastlaşdığımız zaman mənə dedi ki: - Yazıçılar İttifaqının sədri Rəsul Rza iclasda sənin kitabın haqqında yaxşı sözlər danışdı. Deyirdi: - «...hiss olunur ki, gənc müəllif istedadlıdır, ümidverəndir. Onu İttifaqa cəlb etmək lazımdır.»

İ.Əfəndiyev Yazıçılar İttifaqına daxil olmaq üçün aşağıdakı məzmunlu, həm də qəribə səslənən, standartdan kənar ərizə ilə müraciət etmişdir:

«Azərbaycan Sovet Yazıçıları İttifaqının İdarə Heyətinə, gənc yazıçı İlyas Əfəndiyev tərəfindən

**Ərizə**

Yazdığım hekayələrdə bir çox nöqsanlar olduğunu bilirəm. Rica edirəm məni öz sıranıza qəbul edəsiniz. Gələcək işlərimdə mənə kömək edəsiniz. İlyas Əfəndiyev». 1939-cu il dekabr ayının 28-də yazılmış həmin ərizə, Yazıçılar İttifaqı İdarə heyətinin 10 yanvar 1940-cı il tarixli iclasında müzakirə edilmiş və İ.Əfəndiyev İttifaqa üzv qəbul olunmuşdur. Gənc yazıçı bundan sonra Yazıçılar İttifaqının işlərində yaxından iştirak etməyə başlayır.

Böyük Vətən müharibəsinin başlanması bütün başqa sənətkarlar kimi İ.Əfəndiyevi də səfərbər etdi. Yazıçı oxucularda düşmənə qarşı dərin nifrət, vətənə məhəbbət hissləri aşılamaq vəzifəsini öhdəsinə götürdü. Tarixi keçmişimizə, el qəhrəmanlarına, folklor

nümunələrinə müraciət edərək bir sıra hekayələr yazdı, əsgərlərlə görüşlər, söhbətlər keçirmək üçün yazıçı briqadaları ilə bərabər Azərbaycan diviziyalarında oldu, digər tərəfdən, əsasən bir nasir kimi tanınmış ədib, ədəbiyyatın başqa bir sahəsində - dramaturgiyada qələmini sınadı. 1943-cü ildə o, yazıçı M.Hüseynlə birlikdə, mövzusu Böyük Vətən müharibəsindən götürülmüş «İntizar» pyesini qələmə aldılar. Əsər 1944-cü ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının səhnəsində göstərilmiş və dramaturq İ.Əfəndiyevin Azərbaycan Milli Teatrı ilə 50 ildən çox bir müddətdə davam etmiş sıx yaradıcılıq əməkdaşlığının əsası belə qoyulmuşdur.

Bundan sonra yazıçı Milli Teatrımız üçün «İşıqlı yollar» /1946/ və «Bahar suları» /1947/ pyeslərini qələmə aldı. İ.Əfəndiyev drmaturgiyaya gəldiyi illəri belə xatırlayır: «...Tanınmış yazıçı Mehdi Hüseyn mənə yaxınlaşıb... «istəyirsən birlikdə bir pyes yazaq» - dedi. Mehdi kimi məşhur bir yazıçının, tanınmış tənqidçinin bu təklifi gənc yazıçı üçün çox xoş idi və mən razılıq verdim. Beləliklə də biz birlikdə «İntizar» pyesini yazdıq. Pyes Akademik Milli Teatrda müvəffəqiyyətlə tamaşaya qoyuldu. Bundan bir müddət sonra teatrın direktoru və baş rejissoru Adil İsgəndərov məni milli teatra dəvət etdi. Nəsr yaradıcılığımdan xoşlandığını bildirdi və təklif etdi ki, neft həyatından teatr üçün bir pyes yazmaq barədə düşünüm... Neftçilərin həyatını öyrənməyə başladım və neft həyatından «İşıqlı yollar» adlı dram əsərimi yazdım. Əsər Akademik teatrda tamaşaya qoyulduqdan sonra Adil İsgəndərov müasir kənd həyatından da bir pyes yazmağı təklif etdi. Hətta qonorarın yarısını da qabaqcadan verdi. «Bahar suları» adlı pyesim də belə meydana gəldi. Pyesi Adil İsgəndərov özü tamaşaya qoydu, musiqisini Səid Rüstəmov yazdı. Beləliklə, mən nəsr yazmaqla bərabər dramaturgiyaya daxil oldum».



Yeri gəlmişkən qeyd edək ki, "İşıqlı yollar" əsəri İlyas müəllimin həyatını xilas edir. Elçinin yazdığına görə, 40-cı illərin əvvəllərində adı repressiya olunanlar siyahısına düşən İlyas Əfəndiyevin adını Mircəfər Bağırov bu əsərə görə siyahıdan pozur.

Elçin bu əhvalatı belə yazır: "Siyahını nəzərdən keçirən Mir Cəfər Bağırov öz əli ilə onun adını pozur və deyir: – Bu cavan yazıçıyla işiniz olmasın. Neftçilərin həyatından yaxşı pyes yazıb (« İşıqlı yollar»ı nəzərdə tutur). Qoyun qalsın. Ancaq bunun anası (Bilqeyis xanım nəzərdə tutulur –J.Q.) Azərbaycanda sovet hökumətinin ən qatı düşmənidir. (Bax. Elçin, Seçilmiş əsərləri, 10 cilddə, 5- cild, s.271.)

Həmin illərdə ədəbi mühitdə, teatr barəsindəki resenziyalarda, aparılan ədəbi müzakirə və diskusiyalarda yazıçının bu əsərlərinin xırda nöqsanları ilə yanaşı, mövzusunun aktuallığı, əsərlərdəki dramatik kolliziyaların təbiiliyi, obrazların müasirliyi də təqdir edilir, həm müəllifin, həm rejissorun əməyi qiymətləndirilirdi...

Xüsusən, 40-cı illərin axırlarında İ.Əfəndiyev artıq özünü bir nasir və dramaturq kimi təsdiq etmişdir. Onun yaradıcılıq uğurları təkcə oxucuları deyil, eyni zamanda ədəbiyyatşünas alimləri də sevindirirdi. Yazıçının yaradıcılığı, çap etdirdiyi hər bir yeni

əsəri tənqidçilərin diqqətindən yayınmırdı. Məhz bu illərdə dövri mətbuat səhifələrində onun yaradıcılığı haqqında ilk məqalələr dərc olunmağa başladı. Əkbər Ağayevin «Kənddən məktublar», Hüseyn Şərifovun «Ümid verən yazıçı», Mehdi Hüseynin «Bir nasir haqqında», H.Orucəlinin «Həyata doğru», O.Sarıvəllinin «İntizar», M.Arifin «İntizar», M.Cəfərin «İntizar» tamaşası haqqında» və s. məqalələr İ.Əfəndiyevi geniş oxucu kütləsinə tanıtmaqda mühüm rol oynamışdır.

Bundan əlavə, Azərbaycan Yazıçılar İttifaqının xüsusi iclaslarından birində yazıçı İ.Əfəndiyevin yaradıcılıq hesabatının dinlənilməsi və burada S.Vurğunun, M.Hüseynin, Ə.Məmmədxanlının, Ə.Ağayevin, H.Orucəlinin və başqa sənətkarların çıxış edib xoş sözlər söyləmələri İ.Əfəndiyevin yaradıcılığına olan maraqdan və diqqətdən irəli gəlirdi.

O dövrün ədəbi tənqidinin İlyas Əfəndiyevin yaradıcılığına münasibəti barədə görkəmi tənqidçi, professor Elçin Əfədiyev yazır: “Səməd Vurğun, İlyas Əfəndiyevin sadə adamları «böyük məhəbbətlə və hərarətlə» təsvir etdiyini, «onların zəhmətini parlaq və real boyalarla» göstərdiyini deyirdi. Nazim Hikmət İlyas Əfəndiyevin dramaturgiyasını yüksək qiymətləndirirdi və məqalələrindən birində belə maraqlı bir fikir söyləyirdi: «Süleyman Rüstəmin, Səməd Vurğunun, Rəsul Rzanın arasında kökün dərinliklərə yayılması, gövdənin birliyi, yekparəliyi nöqteyi-nəzərindən bir birlik, vahidlik, budaqların eyni kök üzünə ayrı-ayrı tərəflərdən uzanması nöqteyi-nəzərindən isə ayrılıq vardır. Bir-birinə həm



oxşayırlar, həm oxşamırlar. Mirzə İbrahimovla Mehdi Hüseynin nəsri haqqında da, ustad Cəfər Cabbarlının və İlyas Əfəndiyevi dramaturgiyası haqqında da eyni şeyi söyləmək mümkündür».

Məmməd Arif İlyas Əfəndiyev haqqında bir sıra məxsusi məqalələr yazmışdı və onu «hər cür milli məhdudluqdan uzaq bir yazıçı» hesab edirdi, Mehdi Hüseyn İlyas Əfəndiyevi «insan psixologiyasını təbii və sadə boyalarla göstərdiyi üçün» həmişə yüksək qiymətləndirirdi, hələ 1944-cü ildə, – o vaxt İlyas Əfəndiyev cəmi beş il idi ki, ədəbiyyata gəlmişdi – «Bir nasirimiz haqqında» adlı çox xeyirxah bir məqalə yazıb o zamanın ən nüfuzlu qəzetində – «Kommunist»də dərc etdirmişdi və özünə xas olan ədəbi intuisiya ilə Azərbaycan ədəbiyyatına yeni, heç kimə bənzəməyən bir istedadın gəldiyini göstərirdi. Eyni zamanda, aydın hiss olunur ki, Mehdi Hüseyn bu məqaləni «baş ideoloji tribunada» – «Kommunist» qəzetində dərc etdirməklə, həm də gənc yazıçını – İlyas Əfəndiyevi dövrün ideoloji hücumlarından qorumaq məqsədini də güdmüşdür.” (Bax: Elçin, Seçilmiş əsərləri, 10 cilddə, 5-ci cild, s.275.)

Burada bir məsələni də diqqətə çatdırmaq istərdik, o da yazıçı və tənqidçi şəxsiyyətinin münasibətlərinə. Faktlar göstərir ki, dövrünün həm görkəmli yazıçısı, həm də nəzəriyyəçi-tənqidçisi kimi tanınmış Mehdi Hüseynlə İlyas Əfəndiyevi çox sıx yaradıcılıq əlaqələri və dünyagörüşlərinin oxşarlığı birləşdiribdir. Onlar ömrlərinin sonuna qədər yaxın dost və əməkdaşlıq ediblər...

O illərdə Mehdi Hüseyn artıq tanınmış və iti qələmi, ədəbi mübarizədə kompromissiz və ciddi xarakteri ilə özünə nüfuz qazanmış bir yazıçı və ədəbiyyatşünas, İlyas Əfəndiyev isə üç il əvvəl ilk hekayələr kitabını nəşr etdirmiş gənc bir yazıçı idi. Lakin onları əməl birləşdirmişdi və onlar birlikdə ilk yazılarını – Natəvan haqqında dövrü üçün çox maraqlı və cəsarətli bir məqalə yazmışdılar. İlyas Əfəndiyev 1944-cü ilin 26 dekabrında Akademik Milli Dram Teatrımızda (o zaman Məşədi Əzizbəyov adına Dövlət Dram Teatrı adlanırdı) tamaşaya qoyulmuş ilk səhnə əsəri « İntizar»ı da öz hekayələri əsasında Mehdi Hüseynlə birlikdə yazmışdı, 1948-ci ildə onlar bir yerdə A.Ostrovskinin «Son qurban» komediyasını Azərbaycan dilinə çevirmişdilər.

Elə buna görə də İlyas Əfəndiyevin yaradıcılığı bir tənqidçi kimi həmişə Mehdi Hüseynin maraq dairəsində olmuşdur. Mehdi Hüseyn, İlyas Əfəndiyevin « İşıqlı yollar», «Atayevlər ailəsi» və başqa əsərləri haqqında geniş və dövrün kontekstində prinsipial əhəmiyyətli resenziyalar yazmışdı, Azərbaycan ədəbiyyatının aktual problemlərinə həsr olunmuş bir çox məqalələrində İlyas Əfəndiyevin yaradıcılıq xüsusiyyətlərinin üzərində dayanmış, bu xüsusiyyətlərin ədəbiyyata gətirdiyi yeniliklərdən bəhs etmiş, lazım olan məqamlarda – belə məqamlar isə az olmamışdı – öz prinsipial sözünü demişdi. (Bax: Hüseyn Mehdi. «Atayevlər ailəsi» (Əsərin tamaşaya qoyulması münasibətilə) //Kommunist. -1954. - 23 oktyabr; Hüseyn M. Ədəbiyyat və sənət məsələləri. - Bakı: Azərnəşr, 1958. - s.573-578; “Bir nasirimiz haqqında” //Kommunist. - 1944. - 5 aprel;«İşıqlı yollar» (Yazıçının eyni adlı pyesinin tamaşası haqqında) //Hüseyn M. Əsərləri 10 cilddə. 9-cu cild. - Bakı: Yazıçı, 1979. - s.592-598; Ədəbiyyat qəzeti. - 1947. - 30 iyul.)



Yazıçının qayğısını çəkən qələm dostları, xeyirxah insanlarla yanaşı, onun paxıllığını çəkənlər, yüksəlməsini istəməyənlər də tapılırdı. Bu illərdə Yazıçılar İttifaqında çağırılmış iclasların birində «cavan yazıçı İ.Əfəndiyevin özünü yaxşı aparmadığından», «bir sıra pozğun ünsürlərlə» əlaqə saxladığından söhbət getmiş və Yazıçılar İttifaqının Rəyasət heyəti ona ciddi xəbərdarlıq etmişdir. Lakin gənc yazıçı İ.Əfəndiyev Bakıya gəldiyi ilk gündən Əbülhəsən, Ə.Vəliyev, S.Rəhman, M.Cəfər, M.Hüseyn, S.Vurğun, S.Rəhimov, M.Arif, Ə.Ağayev, A.İsgəndərov, Adil Əfəndiyev və digər bu kimi sənətkarların əhatəsində olmuş, hər gün onların təsirini hiss etmiş, nəzər-diqqətindən kənarda qalmamış və yetkinləşmişdir.

Yazıçı həmin xeyirxah insanları xatırlayaraq sonralar qeyd etmişdir ki, «mən ədəbiyyatımızda onların yerini boş görürəm. Yazıçılardan Səməd Vurğun da, Əli Vəliyev də, Mehdi Hüseyn də, Süleyman Rəhimov da, Mrzə İbrahimov da, o şəxslərdir ki, o zaman ədəbi gənclik (o cümlədən mən də) onlara güvənirdik, onları özümüzə kömək, arxa hesab edirdik. Bir çətinliyimiz olanda müraciət edirdik, onlardan həmişə kişilik, kömək görürdük». (Bax: Əfəndiyev İ. “Dostumuzu xatırlayarkən.” (Əli Vəliyev haqqında) // Azərbaycan, 1987. - №5. - s.117-131.)

Faktlara müraciət edək.

Xalq yazıçısı, akademik Mirzə İbrahimov yazırdı: "Azərbaycan ədəbiyyatı mənim nəzərimdə böyük və rəngarəng gülüstan isə, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravəti ilə dərhal diqqəti cəlb edən cazibədar toplu və dolğun bir çiçəklikdir.

İlyas Əfəndiyev yaradıcılıqda gözəlliyə, incəliyə, estetik zərifliyə meyl edən yazıçıdır. O, bədii əsər üçün vacib xüsusiyyətlərə dilin ifadəli və obrazlı olmasına, xarakterlərin canlı və dolğun çıxmasına, süjet və kompozisiya bütövlüyünə ciddi diqqət yetirir, böyük əmək sərf edir, bu da nəticəsiz qalmır, onun əsərlərinin maraqlı, oxunaqlı olmasına kömək edir. Bu əmək və səyin mükafatı isə oxucuların məhəbbətidir ki, İlyas onun azlığından şikayət edə bilməz." (Bax: İbrahimov M. "Şəfalı işıqlar" // Azərbaycan, 1974, №11, s.12.)

Xalq yazıçısı Süleyman Rəhimov özünəməxsus olan bir təhkiyə ilə: "İlyas Əfəndiyev yaradıcılığı Azərbaycan sovet ədəbiyyatının münbit zəminindən doğan, rişələnən, getdikcə köklənən qoşa qardaş kimi qoşalıqda yaradıcılıqdır. Bu yaradıcılıq istedadlı nasirlə mahir dramaturqu birləşdirib, birlikdə söykək-söykəyə qaldırır... İlyas nəsri onun dramaturgiyasına, dramaturgiyası da onun nəsrinə dayaq durur, kömək göstərir. İlyasın nəsri də, dramartugiyası da ahəngdardır, cazibədardır... Sən İlyas nəsrini oxuyursan, istər onun romanı, povesti olsun, istərsə bir-birindən gözəl hekayəsi olsun, heç birisi səni - oxucunu yormur... İlyas yaradıcılığında dramaturgiya, mənim aləmimdə fəxri yer tutur. Fəxri yer tutur, ona görə ki, biz İlyas dramaturgiyasında böyük dramaturqumuz Cəfər Cabbarlı ənənələrinin mahir davamçısını görürük." – yazırdı. Bax: Rəhimov S. "Qoşa qanadlı" // Ədəbiyyat və incəsənət, 1974, 23 noyabr.)

Xalq artisti, professor Mehdi Məmmədov göstərirdi ki, İlyas Əfəndiyev «mövzu seçməyi, məntiqli süjet qurmağı, dramatik vəziyyətlər, xarakterlər yaratmağı, öz fikirlərini bəyanat yolu ilə deyil, canlı hadisələrlə, yığcam dialoqlarda, əsl səhnə dili vasitəsilə ifadə etməyi gözəl bacarır.» (Bax: Məmmədov M. "Səhnəmizin müttəfiqi" //Ədəbiyyat və incəsənət, 1974, 23 noyabr.)

Böyük səhnə ustası, xalq artisti İsmayıl Dağıstanlı isə, 1974-cü ildə yazırdı ki, Akademik Milli Dram Teatrımızın "son otuz ildəki inkişafını İlyas Əfəndiyevsiz təsəvvür etmək mümkün deyil. Onun pyeslərində həmişə təzə, təravətli görünən bir müasirlik var. Bu müasirlik isə həyatımızın daxili məzmunundan, onu irəli aparan qəhrəmanların fəaliyyətindən və bu fəaliyyətin konfliktlərindən, poeziyadan doğur... İlyas Əfəndiyevin dramaturgiyasında realizm və romantika, sərt həyat həqiqətləri ilə şeriyyət həmişə vəhdət təşkil edir."(Bax: Dağıstanlı İ. "Aktyora ilham verən rollar" // Ədəbiyyat və incəsənət, 1974, 23 noyabr.)

Yaradıcılıq yollarında inamla addımlayan gənc yazıçı 1941-45-ci illərdə Azərbaycan Radio komitəsində ədəbi verilişlər şöbəsinin müdiri, 1945-ci ildən Bakı kinostudiyasında ssenari şöbəsinin rəisi, daha

sonra isə Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışarkən ədəbi ictimaiyyətlə bilavasitə təmasda və əlaqədə işləmiş, həyatı dərindən öyrənmiş, dünyagörüşünü daima artırmışdır.

1945-ci ildə İ.Əfəndiyevin «Aydınlıq gecələr» adlı ikinci kitabı nəşr olunur ki, burada əsasən müharibə illərində yazılmış əsərlər toplanmışdır. Ədəbi tənqiddə bu əsərlər belə qiymətləndirilirdi ki, əsərlərin mövzuları müharibədən götürülsə də, əsas məsələ bu idi ki, həmin hekayələrdə döyüş və sınaq illərində insanların mənəvi sifətləri və dəyanətləri qələmə alınmışdır. Həmin əsərlərdə də yazıçı canlı insan surətlərinə, onların daxili aləmlərinin təsvirinə üstünlük vermişdir.

Ədbi tənqidə görə, «Aydınlıq gecələr» kitabı İ.Əfəndiyevi oxuculara öz səsi, öz yazı üslubu olan orijinal bir yazıçı kimi təsdiq etdi. 1947-ci ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı İ.Əfəndiyevin «İşıqlı yollar» pyesini tamaşaya qoydu. Əsər Teatrın 1948-ci ildə Moskvaya qastrolu zamanı paytaxt sənətsevərlərinə göstərilmişdir. Həmin pyes yazıçının ilk müstəqil səhnə əsəri idi. Gənc dramaturq görkəmli rejissor Adil İsgəndərovun təklif və təkidilə «Bahar suları» pyesini yazır. Lakin əsərin tamaşası birmənalı qarşılanmadı, pyes haqqında müxtəlif mülahizələr irəli sürüldü.

«Bahar suları» pyesi haqqında müəllif yazmışdır: «...Dramaturgiyada «konfliktsizlik» nəzəriyyəsi ifşa olunandan sonra, bizim Akademik Dram Teatrında tamaşaya qoyulan ilk konfliktli əsər mənim «Bahar suları» pyesim oldu. Bu əsərdə müsbət obrazlarla



bərabər, mənfi tiplər də var idi. Pyes Akademik Teatrda müvəffəqiyyətlə gedirdi. «Kommunist» qəzeti Əli Vəliyevin təşəbbüsü ilə böyük disput təşkil etmişdi....Disput olduqca canlı keçirdi. Çıxış edənlər tamaşaya yüksək qiymət verirdilər. Birdən bizim yazıçı yoldaşlardan o zaman məsul vəzifədə olan biri özünü qaranəfəs disputa yetirərək çıxışında sübut etməyə çalışdı ki, guya müəllif əsərdəki mənfi tipləri göstərməklə bizim cəmiyyətimizə böhtan atmışdır, bizdə Nəcəf kimi adamlar yoxdur, tək-tük varsa da, göstərmək lazım deyil...» (Bax: Əfəndiyev İ. "Dostumuzu xatırlayarkən." (Əli Vəliyev haqqında) // Azərbaycan, 1987. - №5. - s.117-131.)

Lakin əsərin müzakirəsində iştirak etmiş Əli Vəliyev, Səməd Vurğun, eyni zamanda ədəbiyyatşünaslardan Cəfər Xəndan əsərin bir sıra məziyyətlərini göstərməklə, müəllifin düz yol tutduğunu təsdiq etmişlər. (Bax: «Bahar suları» (Əsərin Yazıçılar İttifaqının Bədii Şurasında müzakirəsi) //Ədəbiyyat qəzeti. - 1948. – 25 iyun.)

Dövrün ən tanınmış tənqidçilərindən olan Cəfər Xəndan yazırdı: "Bahar suları" əsəri müharibədən sonrakı kəndimizin real həyatından alınmışdır. Burada hadisə və tiplər canlı və həyatidir. Yazıçı canlılığı yaratmaq üçün heç bir boyasını əsirgəməmişdir. Əsərdə sovet adamlarının həyatında ola bilən və ya konfliktlər, tamaşaçını intizarda qoyan səhnələr, bədii cəhətdən təsirli dialoq və monoloqlar vardır. Burada eşq və məhəbbət səhnələri də adamların müasir zövqü ilə əlaqədar verilmişdir... Buradakı adamlar ümumi mənafeyini öz şəxsi mənafeyindən

üstün tutan şərəfli əməkdən zövq alan yeni adamlardır.” (Bax: Xəndan C. «Bahar suları» // Ədəbiyyat qəzeti, 1948, 28 dekabr.)

1949-cu ildə Azərbaycanın ədəbi-mədəni ictimaiyyəti və bütün sənətsevərləri Azərbaycan Dövlət Dram Teatrının 75 illiyini təntənə ilə qeyd edərkən, səhnə sənətinin inkişafındakı xidmətləri nəzərə alınaraq İ.Əfəndiyev «Şərəf nişanı» ordeni ilə təltif edilmişdi.

1954-cü ildə tamaşaya qoyulmuş «Atayevlər ailəsi» isə dramaturq İ.Əfəndiyevin yaradıcılığında irəli atılmış uğurlu bir addım idi. Müəllif ictimai həyatda rastlaşdığı qüsurları realist mövqedən, yüksək sənətkarlıqla qələmə aldığından, əsər tamaşaçı və oxucular tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Pyesi tamaşaya Tofiq Kazımov hazırlamışdı. Və bu tamaşa, o dövrdə ədəbi tənqidi elə bil cana gətirmişdi. Bir birinin dalınca dövrün ən nüfuzlu söz sahibləri məqalələrlə çıxış edirdilər. Mirzə İbrahimov, Mehdi Hüseyn, Həsən Qasımov və digərləri «Atayevlər ailəsi» əsəri və tamaşası haqqında yazdıqları məqalələrində onu yüksək qiymətləndirirdilər.

Yazılardan belə bir fikir hasil olurdu ki, İlyas Əfəndiyev teatrı artıq özünü büruzə verməkdədir. Hələ «Bahar suları» pyesinin tamaşalarından boylanan bu teatr öz səmimiliyi, həyatiliyi, psixoloji dərinliyi və realizmi ilə nəzəri cəlb etdi. Əsərin o vaxtkı dövr üçün ən dəyərli cəhət kimi qiymətləndirilən və digər bədii nümunələrdə hələ də az nzərə çarpan cəhətlərindən biri kimi onun realizmi, həyat həqiqətlərinə sadiq üslubu ədəbi tənqid tərəfindən



xüsusi vurğulanırdı. Dövrün tanınmış ədibi, tənqidçisi, sonralar xalq yazıçısı adını almış Mehdi Hüseyn yazırdı: “İlyas Əfəndiyev yenə də öz yaradıcılıq xüsusiyyətlərinə sadiq qalaraq, təbii insan psixologiyasını təbii və sadə boyalarla göstərdiyi üçün «Atayevlər ailəsi» pyesi də bizim realist dramaturgiyamızın sevindirici nailiyyətlərindən biridir.” (Bax: Hüseyn M. “Ədəbiyyat və incəsənət”, 1974, 23 noyabr.)

Dövrün tanınmış pedaqoqu, ədəbiyyatşünas, professor Əli Sultanlı əsri belə qiymətləndirirdi: “Atayevlər ailəsi” əsərində verilmiş müsbət surətlər əsl mənada xalq nümayəndələridir. Onların mədəni səviyyəcə, zəka və düşüncə etibarilə mənfi surətlərdən nə qədər yüksək olduqlarını isbat etməyə ehtiyac yoxdur... Dramaturq maraqlı, həyati bir süjet seçmiş, burada insanların əlaqələrini, təbiətlərindəki ziddiyyətləri, rəğbət və mütəqabil münasibətlərini vermiş, yaddaqalacaq obrazlar silsiləsi yaratmışdır.” (Bax: Sultanlı Ə. “Atayevlər ailəsi” //Azərbaycan, 1955, №6, s. 150-151.)

Ədəbi tənqidin yazdığına görə, sanki İ.Əfəndiyev ilə T.Kazımov bir-birini kəşf etmişdi, onlar biri digərini çox gözəl başa düşürdülər. Müasirlik duyğusu çox güclü olan bu iki sənətkarda oxşar cəhətlər, intellektual səviyyə, birgə yaradıcılıq axtarışları Azərbaycan teatrı tarixinə parlaq səhifələr yazmışdır. Yaradıcılıq intuisiyası çox geniş olan Tofiq Kazımovla, insan qəlbinin dərinliklərinə nüfuz etməyi bacaran İ.Əfəndiyev arasındakı yaradıcılıq əlaqələri uzun illər davam etmişdir.

İ.Əfəndiyev «Atayevlər ailəsi» tamaşası haqqında yazmışdır: «Atayevlər ailəsi»nin quruluşu üzərində Tofiqin ilk müvəffəqiyyəti, rolları aktyorlar arasında çox sərrast bölməsindən başladı. Hansı rolu hansı aktyorun daha təbii ifa edə biləcəyini düzgün təyin etmək hissi, yaradıcılıq intuisiyası Adil kimi, Tofiqdə də çox güclü idi... «Atayevlər ailəsi» Tofiqin Akademik Teatrımızda ilk müvəffəqiyyətli quruluşu oldu».

Bu əsər ədəbi tənqid tərəfindən yüksək qiymətləndirildi. Tənqidçilərin yazdığına görə, ictimai həyatın qüsurlarını realist mövqedən açıb göstərən, həyat həqiqətlərini dolğun şəkildə, sənətkarlıqla şərh edən "Atayevlər ailəsi" əsəri sanki teatr kollektivini yenidən səfərbər edib, həqiqi yaradıcılıq yoluna doğru yönəltdi. İlyas Əfəndiyev müasirliyin məna və mahiyyətini, müasirlik anlayışının geniş və zəngin məzmuna malik olduğunu dərindən dərk edir və müasirliyi yalnız müasir mövzularla məhdudlaşdıranların yalnış fikirlərinə qarşı çıxırdı. Buna görə də «Atayevlər ailəsi» pyesi teatr kollektivini yenidən müasirlik uğrunda mübarizəyə səsləyə bildi. (Bax: Hüseyn Mehdi. «Atayevlər ailəsi» (Əsərin tamaşaya qoyulması münasibətilə) //Kommunist. -1954. - 23 oktyabr; Hüseyn M. Ədəbiyyat və sənət məsələləri. - Bakı: Azərnəşr, 1958. - s.573-578.)

Quruluşçu rejissor Tofiq Kazımov pyes üzərində işə başlarkən ilk növbədə rolların aktyorlar arasında düzgün bölünməsinə nail olur. Dramaturqun özünün qeyd etdiyi kimi, «hansı rolun, hansı aktyorun daha təbii ifa edə biləcəyini düzgün təyin etmək hissi,



yaradıcılıq intuisiyası Tofiq Kazımovda çox güclü idi». O, deyirdi: «Rejissor gərək hər bir aktyorun nəyə qadir olduğunu, onun sənətkarlıq potensialını qabaqcadan düzgün hiss eləyə bilsin. Ancaq belə olduqda aktyordan istəyini tələb eləyə bilər». (Bax: Əfəndiyev İ. Seçilmiş əsərləri. 4 cilddə, 2-ci cild. Bakı, Azərnəşr, 1970, s.255.)

İlyas müəllim daha sonar yazır: "Tofiq Kazımov «Atayevlər ailəsi» əsərinin məşqinə coşğun həvəslə başladı. Onun məşqi həmişə olduqca canlı keçirdi. Aktyor ifasında qeyri-təbii, saxta hərəkəti duymaqda onun qeyri-adi həssaslığı var idi. Başqa tamaşalarında olduğu kimi T.Kazımovun quruluş verdiyi «Atayevlər ailəsi» də nəninki obrazın daxili aləmini, hətta hər mizanın, hər bir detalın aydınlaşmasına, tamaşaçılara təsir etməsinə çalışırdı. Tofiq Kazımov obrazın, xüsusilə psixoloji cəhətdən dürüst çıxmasına birinci dərəcəli məsələ kimi baxırdı. O, realist rejissor olsa da, tamaşaçının, oxucunun qəlbinə təsir eləməyən, insanın ruhi aləmini sarsıtmayan quru, soyuq realizimdən uzaq gedirdi". (Bax:Əfəndiyev İ. Seçilmiş əsərləri. 4 cilddə, 2-ci cild. Bakı, Azərnəşr, 1970, s.256.)

Akademik Mirzə İbrahimov «Atyevlər ailəsi» tamaşasına teatrımızın gələcək inkişafına təsiri baxımından prinsipial qiymət verərərkən onun vaxtilə teatrlarımızda nəzərə çarpan, "romantik-qəhrəmalıq üslubunun köhnəldiyinə sübut olduğunu" da göstərmişdi. Qeyd olunmuşdu ki, "Stanislavski sisteminin" tətbiqinə mane olan «romantik-qəhrəmanlıq» tamaşaları "aktyorların – surətləri realist səhnə təcəssümü

yolundan kənara sapdırır. İlyas Əfəndiyev teatrının psixoloji dərinliyə əsaslanan realist bütövlüyü içərisində insanı həyata, mübarizəyə, yeniliyə, gözəlliyə səslənən romantizm və qəhrəmanlıq cəhətləri də aydın nəzərə çarpırdı. Bu teatr əsasən psixoloji keyfiyyətlərin qüvvətli olması, realizmin dərinləşməsi mövqeyindən qeyri-təbii vəziyyətlərə qarşı durmuş, əxlaqi təmizliyi, mübarizliyi ilə təlqinedici gücə malik obrazlar təqdim etmişdir." (Bax: M.İbrahimov. "Atayevlər ailəsində", «Kommunist» qəzeti, 23 oktyabr 1954-cü il.)

Bu əsər, İlyas Əfəndiyevin də qeyd etdiyi kimi "konfiliktsizlik nəzəriyyəsinin" iflasından sonra yazıldığından olduqca qeyri-adi və yeni görsənirdi. Bunları tənqid məqamında və yerində tumuş, İlyas Əfəndiyevin bu yaradıcılıq konsepsiyasını təqdir emişdi. Dövrün görkəmli tənqidçisi Mehdi Hüseyn yazırdı: "… əsərin ən çox Xosrov Atayev və onun arvadı Dilşad ətraında fırlanan əsas dramatik konflikti, təbii olaraq ailə çərçivəsindən çıxıb, dərin ictimai maliyyət kəsb edir. Müəllifin əsl məharəti də odur ki, o, qəhrəmanlarını öz iradəsinin tələbini ödəyən bir alətə çevirmədən hadisələrin inkişafında canlı, həyatın daxili məntiqinə əsaslanmış, təsvir etdiyi bütün insanların fərdi xüsusiyyətləri ilə yanaşı, onların ictimai məzmununu da aça bilmişdir… Konfliktsiz dramaturgiya nəzəriyyəsinə zərbə endiriləndən bəri yaranmış dram əsərləri içərisində «Atayevlər ailəsinldə» pyesi xüsusi və görkəmli bir yer tutur". ( Bax: M.Hüseyn. «Atayevlər ailəsində». «Kommunist», 1954, 23 oktyabr.)



Sonralar, pyesin bu cəhətini ədəbiyyatşünas Yaqub İsmayılov da qeyd etmişdi: "Pyesdə həyat həqiqəti düzgün yaradıcılıq mövqeyindən mürəkkəbliyi ilə qələmə alınmış, ideya, real bədii lövhələr və surətlər vasitəsilə ümumiləşdirilmişdir. Odur ki, əsasən bir ailədə cərəyan edən bu hadisə və mətləblər tamaşaçını fikrən dərinlərə aparır, həyatın ictimai mahiyyətli dramatik mənzərəsi ilə tanş edir". (Bax: İsmayılov Y. İlyas Əfəndiyevin yaradıcılıq yolu. Bakı, Elm, 1991, s.129.)

"Atayevlər ailəsi"nin ədəbi tənqidə şərhinin və qiymətləndirilməsinin üzərində ona görə belə geniş dayandıq ki, bu əsər İlyas Əfəndiyev yaradıcılığınd həm yeni bir estetik keyfiyyətlə ortaya çıxmışdı, həm də onu yaradıcılıq manerasının keçid mərhələsinin əsasını qoymuşdu...

XX və XXI əsr Azərbaycan dramaturgiyası məkanında İlyas Əfəndiyevin əlahiddə yeri var və bu məkanı "İlyas Əfəndiyev məkanı" adlandırsaq daha dürüst olar.

İlyas Əfəndiyevin bir yaradıcı şəxsiyyət, Azərbaycan mədəniyyət tarixindəki mövqeyini ulu öndər Heydər Əliyev ümumiləşdirərək yüksək qiymətləndirmişdir.

Məlumdur ki, Akademik Dövlət Milli Dram Teatrının təmiri çox uzandığına görə, İlyas Əfəndiyev özü həmin teatrın səhnəsində tamaşaya qoyulan on doqquzuncu əsərini – «Hökmdar və qızı» tamaşasını görə bilmədi. İlk tamaşa onun vəfatından düz qırx dörd gün sonra – 1996-cı ilin 17 noyabrında böyük müvəffəqiyyətlə göstərildi (o vaxtdan da bu

günə kimi səhnədədir!) və 1997-ci il sentyabrın 20-də ulu öndər Heydər Əliyev gəlib o tamaşaya baxdı, əsəri çox yüksək qiymətləndirdi, tamaşadan sonra yaradıcı heyətlə görüşərək dedi:

"– Şübhəsiz ki, biz bu gün, ilk növbədə, əsərin müəllifinin – böyük yazıçımız, dramaturqumuz İlyas Əfəndiyevin xidmətlərini qeyd etməliyik...

İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töfhələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda, yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu məsələlərdən çox bəhrələnmişdir.

Ona görə də mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır. Şübhəsiz ki, biz İlyas Əfəndiyevin xatirəsini əbədiləşdirmək üçün, qərarlar da qəbul edəcəyik, şəxsən mən bunu edəcəyəm, çünki o buna layiqdir. Belə əsərlərlə o, onsuz da özünü xalqın qəlbində yaşadacaqdır.

Onun son əsəri – bu gün sizin təqdim etdiyiniz əsər həyatımız üçün çox əhəmiyyətlidir. Bu gün salonda üç saatdan artıq vaxt çox tez gəlib keçdi. Yeni tamaşa o qədər maraqlı, məzmunlu, mənalı idi, həm də siz hamınız o dərəcədə gözəl ifa etdiniz, salonda oturanlara bu əsəri gözəl çatdırdınız,– o cümlədən mənə də, – heç hiss etmədim ki, nə qədər vaxt keçibdir. Bu da ona görədir ki, birincisi – əsərin həsr olunduğu mövzu çox aktualdır, çox vacib bir mövzudur. Bu əsərlə İlyas Əfəndiyev yeni bir xidmət edibdir, bizim tariximizin o dövrünü açıb xalqımıza göstəribdir...» (Bax: «Azərbaycan» qəzeti, 23 sentyabr 1997.)

* * *

50-ci illərin sonlarına qədər bir dramaturq və xırda hekayələr müəllifi kimi tanınmış İ.Əfəndiyev 1958-ci ildə ilk dəfə iri həcmli «Söyüdlü arx» romanını oxuculara təqdim edir. Əsər yazıçıya böyük uğur qazandırdı və onun monumental nəsr yaradıcılığının ilk bünövrə daşı oldu.

Məlum həqiqətdir ki, qısa müddətdə geniş oxucu auditoriyası qazanmaq və ədəbi mühitdə, sözün yaxşı mənasmda, bir təlatüm əmələ gətirmək baxmımdan İlyas Əfəndiyevin "Söyiidlü arx" romanı öz dövrünün qiymətli sənət nümunəsi olmuşdur.

1959-cu ildə kitab halında buraxılmış bu əsər o vaxtadək bir hekayenəvis və dramaturq kimi məşhur olan İlyas müəllimin yeni yaradıcılıq ımkanlarından, orijinal romançı təfəkkürünə malik olduğundan xəbər verirdi. Bu roman haqqında o illərin qocaman ədiblərindən, gənc şairlərindən başlamış, görkəmli tənqidçilərinə qədər bir çox müəlliflər məqalə və resenziyalarla çıxış etmiş, çoxlu oxucu məktubları nəşr edilmişdi. (Bax: Axundova M. «Söyüdlü arx» (Eyni adlı roman haqqında) //Azərbaycan qadını. - 1959. - №8. - s.18; Xəlilov Qulu. Nəsr əsərlərimizə aid qeydlər. (1953-1958) //Xəlilov Q. Böyük sənət uğrunda. - Bakı: Azərnəşr, 1962. - s.40-64; Miryəhyayev M. İctimai mübarizənin ön sırasında. («Söyüdlü arx» romanı haqqında) //Ədəbiyyat və incəsənət - 1959. - 16 iyul; Rəhimov S. «Söyüdlü arx» barəsində //Ədəbiyyat və incəsənət. - 1959. - 7 fevral.; Rza Xəlil. «Söyüdlü arx» romanının qəhrəmanı Nuriyyəyə açıq məktub //Azərbaycan gəncləri. - 1959. - 11 yanvar və s...)

Akademik Bəkir Nəbiyev bu romanın ədəbiyyata gəlişini belə xatırlayır: “Bir gənc tənqıdçi olaraq mən o zaman Azərbaycan KP MK-nın orqanı olan “Kommunist” qəzetinin redaksiyasında mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışırdım. Əsər məni elə mütəəssir etmişdi ki, onun haqqında kiçik bir resenziya yazmaq niyyətindən vaz keçdim. Belə qərara gəldim ki, yazıçının özü ilə məsləhətləşib əməkdaşı olduğum qəzetin xətti ilə mənim doğma yurdum Ağdaşda “Söyüdlü arx” romam ətrafmda geniş bir oxucu konfransı keçirək. Razılaşdıq. (Onu da deyim



ki, əsərlərini hələ 1945-ci ildən mütaliə etsəm də ədibin özü ilə 10 il sonra, 1955-ci ilin yayında Şuşada tanış olmuşdum. Mən ve dostum Əliağa Kürçaylını İlyas müəllimgilə ikimizin də dostumuz, Əfəndiyevlər ailəsinə məhrəm olan Qasım Oasımzadə aparmışdı. Elə o vaxtdan ədiblə ünsiyyətimiz tutdu və mənim bu gün də iftixar duyğusu ilə əziz-əziz xatırladığım dostluğumuzun əsası qoyuldu). İlyas müəllimi Ağdaşa aparmaq, ona dədə-baba evimizdə hörmət etmək üçün əlimə yaxşıca fürsət düşmüşdü. Lakin 1960-cı ilin sərt bir fevral günündə bölgəyə (rayona) getmək məsələsi reallaşanda bir qədər soyuqlamış İlyas müəllim dedi: “Bəkir, oxucuların öz mülahizələrində sərbəst olmasına şərait yaratmaq çox vacibdir. Mənim yanımda onlar ‘‘etikanı güdmək” xətrinə tənqiddən çəkinə bilərlər. Yaxşısı budur müzakirəni keçirib nəticəsini mənə deyəsən". Sonra yazıçı “Hörmətli Ağdaşlı yoldaşlar!” müraciətilə başlanan səmimi bir məktub da yazıb mənə verdi... Həmyerlilərimizlə bir yerdə Ağdaşın mədəniyyət evində keçirdiyimiz oxucu konfransı uğurlu oldu. Onun materialları çıxış edənlərin şəkilləriylə birlikdə “Kommunist” qəzetinin 26 fevral 1960-cı il tarixli nömrəsində bütöv bir səhifə halında dərc olundu və mən həmin qəzetin bir nüsxəsinin üstünə bir neçə xatirə sözü yazıb llyas müəllimə yadigar verdim...” (Bax: Nəbiyev B. O həmişə müasirdir. İlyas Əfəndiyevin 3 cildlik seçilmiş əsərlərinin I cildinə yazılmış ön söz. Bakı, “Avraasiya Press”, 2005, s.11.)

Filologiya elmlər doktoru, şair-ədəbiyyatşünas, məzmunlu ədəbi-tənqidi məqalələrin müəllifi Qasım Qasımzadə İlyas müəllimin ilk romanı haqqında yazır: "Nəsr sahəsində gözəl nümunələr yaradan müəllifin "Söyüdlü arx"ı onun təkrarsız yaradıcılıq nəaliyyəti olmaqla yanaşı, ümumən lirik-psixoloji üslubun roman janrı vasitəsilə zənginləşib dərinləşmə imkanlarını göstərən azar-baxarlı yeni məcra idi" (Bax: Qasımzadə Q. Ədəbiyyatımız, mənəviyyatımız. Bakı, Yazıçı, 1988, s.234 – 408 səh.)

Xüsusən, "Söyüdlü arx" pomanındakı Nuriyyə obrazının yeniliyi, orjinallığı ədəbi-tənqidin təhlil obyektinə çevrilmişdi. Mehdi Hüseyn, Mirzə İbrahimov, Məmməd Arif, Əkbər Ağayev kimi tənqidçilər Nuriyənin Azərbaycan nəsrində yeniliyini xüsusi qeyd edirdilər. Bu obrazla İlyas Əfəndiyevin yeni düşüncəli qadın obrazlarının (məsələn Səriyyə tipli) başlanğıcını qoymasının mahiyyəti ortaya çıxmışdı. Biz sonralar Nuriyədə hələ rüşeyim halında olan xarakterik, psixoloji keyfiyyətlərin onun Səriyyə, Səlimə, Sarıköynək və s. bu tipli obrazlarında dərinləşdiyini ğörürük...

Məsələn akademik Mirzə İbrahimov bu obrazı belə səciyyələndirirdi:

"Konkret insan surətləri, canlı və qüdrətli qəhrəmanlar vasitəsilə bədii ədəbiyyat dövrün həqiqətini açır, insanlara kömək edir ki, öz zəmanələrini, onun həqiqətini doğru dərk etsinlər və mürəkkəb, dolaşıq həyat mübarizələrində düzgün istiqamət tuta bilsinlər. "Söyüdlü arx" romanının baş qəhrəmanı Nuriyyə məhz belə qəhrəmanlardandır." (Bax: İbrahimov M.



Böyük ideallar, böyük qəhrəmanlar ədəbiyyatı, «Ədəbiyyat və incəsənət» qəz., 1984, 23 sentyabr.)

Nuriyyə obrazının İlyas Əfəndiyev nəsrinin təkamülündəki əhəmiyyətini ədəbiyyatşünaslarımız və tənqidçilərimiz sonrakı məqamlarda da qiymətləndirmişlər.

Bunlardan prof. Akif Hüseynovun, prof. Vilayət Quliyevin, prof. Himalay Ənvəroğlunun, prof. Vaqif Yusiflinin fikir və müşahidələri xüsusi maraq doğurur. (Bax: Osmanlı Vəli. Psixoloji təhlil və bədii yaradıcılıq. («Söyüdlü arx» romanı haqqında) //Ədəbiyyat və incəsənət. - 1973. - 11 avqust; Hüseynov A. Müxtəlifliyin birliyi. Bakı. Yazıçı, 1983, s.184; Yusifli V. Tənid yarpaqlari. Bakı: Gənclik, 1998, s. 29; Quliyev V. Tarixdə iz qoyan şəxsiyyətlər. Bakı: Ozan, 2000, s. 430; Ənvəroğlu N. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri. Baki: Elm, 2004, s. 365.)

Tənqid düzgün olaraq qeyd edirdi ki, İlyas Əfəndiyevin bədii tip, portret, xarakter yaratma məharəti onun povest və romanlarının əsas göstəricilərindəndir. Yazıçı bu əsərlərində lirik-psixoloji təhlil üsuluna əsaslanaraq qəhrəmanların mənəvi dünyasının daha dərin qatlarına işıq salır, onların subyektiv keyfiyyətlərini ictimai həyat hadisələri fonunda təsvir edir, qəhrəman tipi və cəmiyyət həqiqətlərinin qarşıdurmasını yaratmağa müvəffəq olur. Beləliklə də, yazıçı adi, sadə, əməkçi insanları "düşünən qəhrəmanlar", "iztirabkeş-kamil vətəndaş" səviyyəsinə yüksəltməyə nail olur. İlyas Əfəndiyevin povest və romanlarını təhlil edən ədəbiyyatşünas-alim Himalay

Ənvəroğlu doğru olaraq yazır ki, “gerçəkliyin hansı mündəricədə, nə kimi siyasi-ideoloji “rəngdə” olmasmdan asılı olmayaraq İlyas Əfəndiyev qəhrəmanları şəxsi, subyektiv-fərdi meyllərdən çəkinmir, başqa sözlə, vətəndaşlıq pafosu ön planda olub müəllifin estetik idealı ilə birbaşa əlaqəli olsa da, onlara öz həyatını yaşamaq imkanı verilir. Bu, onları “arzu olunan” ictimai ideala qovuşdurmasa belə, İlyas Əfəndiyevin aparıcı roman qəhrəmanları tale yollarına öncə Nuriyyənin (“Söyüdlü arx”) ömür yolunun təhkiyyəsi ilə, tərcümeyi- halının çözülməsi ilə başlayır. Lakin bu ilk uğurlu təkanın fiziki və mənəvi təsir gücü getdikcə artır, şiddətlənir və ictimailəşir”. (Bax: Ənvəroğlu N. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri. Baki: Elm, 2004, s. 365.)

Ədəbi tənqid bunu onunla əsaslandırır ki, İlyas Əfəndiyevin povest və roman qəhrəmanlarının (həmçinin “Söyüdlü arx” romanını) kamil insan konsepsiyasına cavab verə bilməsi müəyyən mənada yazıçının bədii sənət mövqeyi, onun ictimai hadisə və həqiqətlərə münasibəti ilı daha çox bağlıdır. Sənətkar istər tarixi (“Geriyə baxma qoca”), istərsə də müasir qəhrəmanlara (“Sarıköynəklə Valehin nağılı”), müraciət edərkən klassik “xeyir və şər” qarşıdurmasını diqqət mərkəzinə çəkir, insan haqqında sosial-fəlsəfi düşüncələri bu məcrada təqdim edirdi. (Bax: Babayeva İ. İlyas Əfəndiyevin nəsr sənətkarlığı. Avtoreferat, Bakı, 2008, s.20.)

Ədəbi tənqidin də, qeyd etdiyi kimi, yazıçının “Söyüdlü arx”, “Körpüsalanlar”, “Sarıköynəklə Valehin nağılı”, “Üçatılan”, “Geriyə baxma, qoca!”



əsərlərindəki xarakterlərin bütövlüyü, onlarm yaşadığı hisslərin təlatümü və mənəvi-psixoloji yaşantılarnın dramatizmi, gərginliyi buradan qidalanır.

İlyas Əfəndiyevin iri həcimli nəsr əsərlərində tip, xarakter və şəxsiyyətin təqdimi məhz canlı həyat lövhələrinə, mövcud vəziyyətin analitik-bədii təhlilinə əsaslanır. Yazıçı formalizm əleyhinə çıxaraq, obrazların “müsbət” və “mənfı” qəhrəmanlara ayrılmasnı tənqid edir, yazır ki, “baş qəhrəmanın hünərini daha artıq nəzərə çarpdırmaq üçün, onu əhatə edən adi adamlar olduqca sadəlövh göstərilir... Nəticədə, ümuımiyyətlə adamların səviyyəsi aşağı düşür, baş qəhrəmanın özü də süni, quru və qeyri-inandırıcı olur” . (Bax: Əfəndiyev İ. Müasirlik uğrunda. «Ədəbiyyat və incəsənət» qəz., 7 sentyabr, 1963.)

Bu, İlyas Əfəndiyev yaradıcılığının sona qədər tənqid tərəfindən də, təhlillər yolu ilə təstiqini tapmış estetik kredosudur.

Ədəbi tənqidin müəyyənləşdirdiyinə görə, “İlyas Əfəndiyevin nəsrindəki şəxsiyyətlərin hər birıı günün zəruri məsələlələrinə, həm də ümumi ictimai problemlərə analitik-təhlil mövqeyindən yanaşır, yalnız baş qəhrəmanları müşahidə etmir, əksinə hadisələrin ağırlıq mərkəzində dayanır, hadisələrin qaynarlığından yaranan daxili-psixoloji gərginliyi öz şəxsiyyətində “əridirlər”, hadisəlrin dramatizmi onlarm kimliyində “yaşayır”, ifadə olunur. İlyas Əfəndiyevin qəhrəımanları ona görə xarakter və şəxsiyyət səviyyəsinə yüksəlirlər ki, onlar yazıçının real müşahidəsi və romantik arzularını vəhdətindən doğur, ədibin cəmiyyət və insan haqqında düşüncələrinin

daşıyıcısına çevrilirlər.” (Hüseynov A. Müxtəlifliyin birliyi, Bakı, Yazıçı, 1981, s.199.)

İlyas Əfəndiyev deyirdi ki, “...qəhrəmanların hər birinin bir ayaqları bu gündə, biri sabahdadır. Yəni onlar eyni zamanda sabahla, daha işıqlı gələcəklə yaşayırlar. Bədii sənət ustaları da heç şübhəsiz, bu cəhətə xüsusi fikir verməlidirlər. Bax, bu nöqtədə sənətkar müəyyən mənada romantik olmalıdır. Yazıçı sabah formalaşacaq xarakteri bu gün oxucuya təqdim etməkdən qorxmamalıdır”. (Bax: Əfəndiyev İ. Müasirlik uğrunda. «Ədəbiyyat və incəsənət» qəz., 7 sentyabr, 1963.) Beləliklə də, yazıçı istəyi ilə ədəbi tənqidin müşahidəsi üst-üstə düşürdü...

1953-1958-ci illərdə İ.Əfəndiyev Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi vəzifəsində çalışarkən ədəbiyyata gələn istedadlı gənclərin inkişafını qayğı ilə izləmiş, bacardığı qədər onların yeni əsərlərinin çapına, kitablarının buraxılmasına kömək göstərmişdi.

O, 1954-cü ildən etibarən Yazıçılar İttifaqı Rəyasət heyətinin üzvü olmuş, 1958-ci ilin axırlarında Yazıçılar İttifaqı idarə heyətinin məsul katibi seçilmişdir. İttifaqın işində yaxından iştirak edən ədib, Respublika yazıçılarının II qurultayında /1954/ «Azərbaycan sovet dramaturgiyası», III qurultayında isə /1958/ «Azərbaycan dramaturgiyasının inkişafı» mövzularında məruzələr etmiş, o dövrdə yaranan dram əsərlərini təhlil edərək yaxşı və pis cəhətlərini aşkarlamış, bu sahədə yaradıcılıq perspektivlərini müəyyənləşdirmiş, özünü bir sənətçünas, teatr tənqidçisi kimi də göstərə bilmişdi...



O dövrkü ədəbi tənqidin qeyd etdiyi kimi, İ.Əfəndiyev çoxşaxəli yaradıcılıq yolu keçmiş sənətkarlardandır. Əgər biz onun həyat və yaradıcılıq yolunun hər hansı bir ilini, yaxud qısa bir dövrünü ciddi xronoloji ardıcıllıqla izləsək, maraqlı bir mənzərənin şahidi olarıq: yazıçı eyni bir qısa dövr ərzində hekayələr yazmaqla yanaşı, istedadlı bir dramaturq kimi də fəaliyyət göstərir, iri həcmli roman və povestlərlə bərabər oçerklər üzərində də işləyir, publisistik məqalələr qələm almaqla yanaşı, konfrans və qurultaylarda məruzələrlə çıxış edir. Bir sözlə, İ.Əfəndiyevə hekayədən faciəyə, romandan komediyaya, məqalədən pyesə keçmək heç də çətinlik törətmir, bu, yazıçı üçün adi bir hala çevrilir...

İ.Əfəndiyev yaradıcılığının sonrakı mərhələlərində də ədəbiyyatın bütün janrlarında kamil sənət nümunələri yaratmışdır ki, bu da yazıçının sənət palitrasının müxtəlif çalarlarından, dünyagörüşünün üfiqi və şaquli genişliyindən və yaradıcılıq intellektindən xəbər verir.

## II FƏSIL

## İlyas Əfəndiyev yaradıcılığının 1960-1990-cı və müstəqillik illəri ədəbi tənqidində dərki

1960-cı ildə Respublikanın Əməkdar İncəsənət xadimi fəxri adını almış İ.Əfəndiyevin yaradıcılığında 60-90-cı illər ən məhsuldar dövr hesab olunur. Bu illərdə onun yaradıcılığında janr rəngarəngliyi özünü göstərir, bir-birinin ardınca iri nəsr əsərləri, ciddi ictimai-siyasi problemlər qaldıran, gözəl mənəvi keyfiyyətlər aşılayan, eyni zamanda müasir Azərbaycan nəsrinin yüksək bədii-estetik səviyyəli nümunələri kimi şöhrət qazanmış «Körpüsalanlar» /1960/, «Dağlar arxasında üç dost» /1963/, «Sarıköynəklə Valehin nağılı» /1976-78/, «Geriyə baxma, qoca» /1980/, «Üçatılan» /1981/ kimi povest və romanlarını dərc etdirir, eyni zamanda, maraqlı dram əsərlərini qələmə alır, publisist və ədəbiyyatşünas kimi məhsuldar yaradıcılıq yolu keçir.

Bu illərin məhsulu olan «Sən həmişə mənimləsən» /1964/ pyesi ilə Azərbaycan səhnəsində lirik-psixoloji dramanın əsasını qoyur. Bu yolu uğurla davam etdirən dramaturq «Mənim günahım» /1967/, «Unuda bilmirəm» /1968/, «Məhv olmuş gündəliklər» /1969/, «Qəribə oğlan» /1973/, «Bağlardan gələn səs» /1976/ və s. pyeslərini yazır. Ölməz sənət nümunələri kimi Azərbaycan dramaturgiyası xəzinəsini zənginləşdirən, yüksək vətəndaşlıq pafosu, incə lirizm və dərin psixoloji tapıntılarla aşılanan bu pyeslər teatr sənətimizdə yeni bir mərhələ açır, «İlyas Əfəndiyev teatrı» yaranır.



«İlyas Əfəndiyev teatrı»nın uğurlarından söhbət açarkən, təkcə onu göstərmək kifayətdir ki, ilk tamaşası 1968-ci ildə olmuş «Unuda bilmirəm» pyesi 1981-ci ilə qədər, yalnız Azərbaycan Milli Teatrı səhnəsində 350 dəfə oynanılmışdır. İlyas Əfəndiyev 1971-ci ildə Qırmızı əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Əlinə qələm aldığı ilk gündən müasir mövzulara daha çox müraciət edən dramaturq, 1971-ci ildə mövzusu tarixi keçmişimizdən, Qarabağ həyatından götürülmüş «Mahnı dağlarda qaldı» pyesini yazır. Yeni yaradıcılıq uğuru kimi qarşılanmış bu pyesə görə İ.Əfəndiyev 1972-ci ildə Respublika Dövlət mükafatına layiq görülür.

1974-cü ildə Respublikamızın ədəbi ictimaiyyəti yazıçının anadan olmasının 60 illiyini təntənə ilə qeyd edir. Yubileylə əlaqədar olaraq ədib Oktyabr İnqilabı ordeni ilə təltif olunur. Azərnəşr onun dörd cildlik «Seçilmiş əsərləri»ni nəşr edir.

Görkəmli ədəbiyyat xadimi, geniş şöhrət qazanmış İ.Əfəndiyev Azərbaycan Respublikası Ali Soveti Rəyasət heyətinin 30 iyul 1979-cu il tarixli fərmanı ilə Xalq yazıçısı fəxri adına layiq görülmüşdür.

Yazıçının anadan olmasının 70 illiyi Respublikamızda qeyd olunarkən «Yazıçı» nəşriyyatı 1984-1985-ci illərdə oxucularına gözəl bir hədiyyə hazırlamış, ədibin 6 cildlik «Seçilmiş əsərləri»ni nəfis şəkildə 40 min nüsxə tirajla çap etmişdir. Ədəbiyyat sa-

həsindəki xidmətləri nəzərə alınan ədib həmin il "Lenin ordeni" ilə mükafatlandırılmışdır.

Ümumiyyətlə, İlyas Əfəndiyevin 50 illik yubileyindən başlayaraq onun hər onillikdə təntənəli yubiley mərasimləri keçirilmiş, dövlət təltifləri olmuş, haqqında bütün mətbuat orqanlarında ən məşhur yazıçı və tənqidçilərin məqalələri getmişdir. Bunlardan Süleyman Rəhimovun, Mehdi Hüseynin, Əli Vəliyevin, Bayram Bayramovun, Bəxtiyar Vahabzadənin, Nurəddin Babayevin, Məmməd Arifin, Məmməd Cəfərin, Cəfər Cəfərovun, Qulu Xəlilovun, Əkbər Ağayevin, Yəhya Seyidovun, Qasım Qasımzadənin, Yaşar Qarayevin, Yaqub İsmayılovun, Şamil Salmanovun və başqalarının maraqlı məqalələrini, yubiley çıxışlarını göstəmək olar ki, bütün bunlarda İlyas Əfəndiyev yaradıcılığı bütövlükdə çox yüksək və obyektiv elmi arqumentlərlə qiymətləndirilir ki, bunların üzərində, təəssüf ki, dayanmaq imkanımız yoxdur. (Bax: Arif M. Kommunist əxlaqı mövqeyindən. (Anadan olmasının 60 illiyi münasibətilə) //Kommunist. - 1974. - 17 noyabr; Əziz dostumuz İlyas Əfəndiyev! (Anadan olmasının 60 illiyi münasibətilə Yazıçılar İttifaqının təbriki) //Ədəbiyyat və incəsənət. - 1974. - 23 noyabr; Azərbaycan. - 1974. - №11. - s. 17.; Hörmətli İlyas Məhəmməd oğlu! (Anadan olmasının 60 illiyi münasibətilə SSRİ Yazıçılar İttifaqının idarə heyətinin təbriki) //Ədəbiyyat və incəsənət. - 1974. - 23 noyabr.; Qarayev Yaşar. Müasirliyin sabitliyi. (Anadan olmasının 60 illiyi münasibətilə) //Ulduz. - 1974. - №11. - s.27-30; Yazıçı haqqında söz //Anadan olmasının 70 illiyi



münasibətilə məqalələr //Azərbaycan. - 1984. - №5. - s.112-114.; Babayev Nizaməddin. Xalq həyatı məcrasında. (İ.Əfəndiyev-70) //Azərbaycan müəllimi. – 1984. - 25 may.; Əliyev Heydər. Səmimi təbrik. (Anadan olmasının 80 illiyi) //Azərbaycan. – 1994. - 26 may.; Aydmoğlu T. Sənət ülviyyətinə sədaqət. (İlyas Əfəndiyev-80) //Xalq qəzeti. - 1994. - 27 may.; Abdullazadə A. Bir Ömrün poeziyası və ya yubiley təntənələrindən sonrakı düşüncələr. (İ.Əfəndiyev-80) //İncəsənət. - 1994. - 6 sentyabr.; Əfəndiyev Əmin. Ədibin ilk hekayəsi (İlyas Əfəndiyev - 85) //Ədəbiyyat qəzeti. - 1999. - 26 noyabr və s... )

1990-cı ildə Azərbaycanın Milli Teatrı öz tarixində ilk dəfə olaraq xarici ölkəyə - Türkiyəyə qastrol səfərinə çıxmışdır. Bu səfər zamanı Teatr İstanbul və Ankara şəhərlərində teatr həvəskarlarına İ.Əfəndiyevin «Bizim qəribə taleyimiz» və «Sevgililərin cəhənnəmdə vüsalı» əsərlərinin tamaşasını göstərmişdir. Böyük uğurla qarşılanan bu əsərlər haqqında Türkiyə mətbuatı onlarla sanballı məqalələr vermişdir.

Həmin tarixi mədəniyyət hadisəsini xatırladan professor, tanınmış teatrşünas İnqilab Kərimov belə şərh etmişdir: "1989-cu ilin oktyabr ayında M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının direktoru Həsən Turabov Türk Dünyası Araşdırmaları Vəqfindən bir məktub aldı. Vəqf Azərbaycanın görkəmli dramaturqu İlyas Əfəndiyevin pyeslərini göstərmək üçün teatrı Türkiyəyə dəvət etmək fikrində idi. Əlbəttə, bu çox şad bir xəbər idi. Əvvala, Azərbaycan teatrı 117 illik taixinin son 70 ilində bir

dəfə də olsun xarici ölkələrdə qastrolda olmamışdı. İkincisi, tənqidin çox doğru olaraq qeyd etdiyi kimi, uzun illərdir ki, teatrın əsas repertuar yükünün ağırlığı İlyas Əfəndiyevin öhdəsindədir; bu böyük dramaturqun yadıcılığı dünyanın bir sıra ölkələrinin, o cümlədən Türkiyə ictimaiyyətinin diqqət mərkəzində olmuşdur. Müasir türk mətbuatı onu Azərbaycan ədəbiyyatının canlı klassiki adlandırıb...

... Bakıya gələn ilk 158 nəfərlik nümayəndə heyətinə Vəqfin rəhbəri, iqtisad elmləri doktoru, professor Turan bəy Yazqan başçılıq edir. Onlar teatrda İlyas Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı" tamamşasına baxırlar. Türk Dünyası Araşdırmaları Vəqfinin xüsusi mükafatını İlyas Əfəndiyevə təqdim edirlər...

... Azərbaycan teatrı 1990-cı il may ayının 1-dən 15-nə kimi Türkiyədə qastrolda olmalı, İstanbul, Ankara, İzmir şəhərlərində tamaşalar göstərməliydi. İstanbulda 6 tamaşa (üç tamaşa "Bizim qəribə taleyimiz", üçü isə "Sevgililərin cəhənnəmdə vüsalı"), Ankara və İzmirdə isə hər iki tamaşanı iki dəfə göstərmək nəzərdə tutulmuşdu.

... 1990-cı il may ayının 1-də Azərbaycan Dövlət Akademik Dram Teatrının 37 nəfər üzvü Sovet-Türk sərhəddini SƏRP-HOPA zolağından keçərək Türkiyə torpağına daxil olurlur. Türkiyədə Azərbaycan sənətçilərini gül-çiçəklə, duz-çörəklə, folklor ansamblının gözəl mahnı və rəqsləri ilə böyük diqqət, qayğı və məhəbbət hissi ilə qarşılayırlar...

... May ayının 2-də teatr birinci olaraq özünün "Bizim qəribə taleyimiz" adlı tamaşasını Türkiyənin



ən möhtəşəm, ən müasir səhnə texnikasına malik, 1250 nəfərlik tamaşaçı salonu olan Atatürk Kultur Mərkəzində göstərdi. Tamaşalar çox böyük müvəffəqiyyətlə keçmiş, gözlənildiyindən daha artıq səmimiyyət və hərarətlə qarşılanmışdı. Teatrın o vaxtkı sərəncamçı direktoru Ədalət Vəliyev yazır ki, "tələbkar türk tamaşaçıları tamaşa bitdikdən sonra salonu tərk etmək istəmir, dəfələrlə aktyor heyətini, rejissoru səhnəyə dəvət edirdilər. "Yazar gəlsin, yazar gəlsin!"- deyə hörmətli dramaturqumuz İlyas Əfəndiyevi tələb edirdilər. Demək olar ki, hər bir tamaşadan sonra teatrımızın bədii rəhbəri, xalq artisti Həsən Turabov səhnəyə çıxır və sevimli yazıçımız İlyas Əfəndiyevin... adından hərarətli qəbul üçün qədirbilən türk tamaşaçılarına dərin minnətdarlığını bildirirdi...

... Türkiyənin ən mötəbər informasiya agentlikləri, Türk televiziyası və mətbuatı kollektivimizin uğurlu çıxışları ilə bağlı olaraq "Tərcüman", "Türkiyə", "Hürriyyət", "Cümhuriyyət", "Milliyyət", "Günəş", "Zaman", "Dünya" və s. qəzet səhifələrində tanınmış, görkəmli səhnə xadimi, yazıçı Niyazi Yıldırım Gəncosmanoğlunun, kinodramaturq Sevinc Çokumun, Naşir Tahı Açyolun, teatrşünas Fatma xanımın və Hüseyn Başüstənin, qəzetçilər Murad Arvaz və Səlcuk Alkun, teatrşünas və sənətçi Həyati Əsilyazıçı, türk ziyalı və oxucularının, teatrsevərlərinin diqqəti cəlb edəcək "İlyas Əfəndiyev məktəbdir", "Azərbaycanın böyük yazarı İlyas Əfəndiyev", "Böyük Azərbaycan dramaturqu" və s. onlarca bu kimi

başlıqlar altında geniş məqalə və resenziyalar, foto-şəkillər dərc edirdilər....

... May ayının 14-də "Sevgililərin cəhənnəmdə vüsalı" son vida tamaşasından sonra, Türkiyə Respublikasının mədəniyyət naziri Namiq Kamal Zeybək bəy gecədən xeyli keçmiş kollektivin şərəfinə düzəltdiyi gözəl ziyafətdə xalq yazıçısı İlyas Əfəndiyev haqqında çox qiymətli fikirlər söylədi...

... 1998-ci ilin noyabr ayında Azərbaycan Dövlət Milli Akademik Dram Teatrının kollektivi Türkiyənin Ərzurum, Sivas, Kayseri və Ankara şəhərlərində İlyas Əfəndiyevin "Hökmdar və qızı", B.Vahabzadənin "Özümüzü kəsən qılınc", Elçinin "Mənim sevimli dəlim" əsərlərinin tamaşalarını göstərdilər..." (Bax: Kərimov İ. Azərbaycan-Türkiyə teatr əlaqələri, Bakı, 2001, səh.161 - 176.)

60 ildən çox yaradıcılıq yolu keçmiş İ.Əfəndiyev, 90-cı illərdə də məhsuldar bir yazıçı kimi yazıb yaradır, hər il yeni-yeni əsərlər nəşr etdirir, təzə pyeslərini tamaşaya qoyurdu. Sovet rejimi illərində, partiya qadağaları dövründə deyə və yaza bilmədiyi bir sıra mövzuları cəsarətlə ədəbiyyata gətirir, onları yeni zamanın kontekstində oxuculara təqdim edirdi. O, «Hacı Axundun cənnət bağı necə oldu» hekayəsini, «Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» povestini dərc etdirir, «Şeyx Xiyabani» /1986/, «Bizim qəribə taleyimiz» /1988/, «Sevgililərin cəhənnəmdə vüsalı» /1989/, «Tənha iydə ağacı» /1991/, «Dəlilər və ağıllılar» /1992/, «Hökmdar və qızı» /1994/ və s. pyeslərini tamaşaya qoydurmuş, bir sıra yeni kitablarını nəşr etdirmiş və bu əsərlərin demək



olar ki, hamısı ədəbi tənqid tərəfindən yaxşı qarşılanmışdır...

Azərbaycanın ədəbi ictimaiyyəti 1994-cü ilin may-iyun aylarında Xalq yazıçısı İ.Əfəndiyevin anadan olmasının 80 illiyini təntənəli surətdə qeyd etdi. Ədəbiyyatın inkişafında xidmətlərini nəzərə alan müstəqil Azərbaycan Respublikasının Prezidenti yazıçını «Şöhrət» ordeni ilə təltif etdi. Respublikamızın sənət adamları arasında İ.Əfəndiyev birinci sənətkar idi ki, həmin ordenlə mükafatlandırılmışdı.

Heydər Əliyev cənabları yazıçıya göndərdiyi təbrik məktubunda ədibin yaradıcılığına yüksək qiymət verərək yazmışdı: «Sizi-Azərbaycanın görkəmli dramaturq və nasirini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Dünya mədəniyyətinə ölməz dahilər bəxş etmiş qədim Odlar yurdunda xalqın məhəbbətini qazanmaq, sənət zirvəsinə ucalmaq olduqca çətin və şərəflidir. Siz fədakar əməyiniz sayəsində bu şərəfə nail olmuşsunuz.

Oxucuların sevə-sevə mütaliə etdiyi nəsr əsərləriniz, Milli teatrımızın səhnəsində tamaşaya qoyulan pyesləriniz bunu parlaq şəkildə sübut edir... Sizin yaratdığınız obrazlar xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmişdir. Əminəm ki, müstəqil Azərbaycanımızın hələ neçə-neçə nəsli bu zəngin mənbədən faydalanacaqdır.»

Heydər Əliyev kimi bir şəxsiyyətin yazıçının şəxsiyyətinə və yaradıcılığına bu cür münasibəti və qiymətləndirməsi, əlbəttə bütün ədəbi-tənqidə müəyyən bir istiqamət və fon verirdi...

Zəngin yaradıcılıq yolu keçmiş, həyatın acılı-şirinli günlərini yaşamış sənətkarımız İlyas Əfəndiyev 1996-cı il oktyabr ayının 3-də Bakı şəhərində dünyasını dəyişmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur. Onun ölümünə həsr olunmuş dövlət nekroloqunda yazılmışdı: «İlyas Əfəndiyev əslinə-nəslinə yaraşan şərəfli, namuslu yazıçı ömrü sürdü. Həm də namuslu ömür sürdüyünü özü bəyan etmirdi, qələmdən ayrılmadan son günlərinəcən halal zəhmətlə, hər cür intriqalardan, həsəddən və nifrətdən uzaq bir aləmdə - sənət dünyasında yaşadığı həyatla sübut edirdi.»

İ.Əfəndiyevin insani keyfiyyətlərindən söhbət açan akademik Kamal Talıbzadə yazırdı: «İlyas ömrünün axırına qədər evlənmədi, baxmayaraq ki, çox cavan ikən dul qalmışdı, həm də gözəl, yaraşıqlı kişi idi... Övlad üçün özünü oda-közə vuran, onun üçün xoşbəxt gələcək haqqında düşünən narahat ata idi... Oğullar da atalarına borclu qalmadılar, atalarını sözün əsl mənasında yaşatdılar».

Bu cəhətdən xalq şairi Cabir Novruzun "İlyas Əfəndiyev itgisi..." adlı xatirə-məqaləsi də maraq doğurur. Oradan bəzi fikirlər:

"Onun oxunaqlı, orijinal hekayələri ilə nəsrimizə yeni ruh, yeni nəfəs gəldi. Təsadüfi deyil ki, hər dəfə bu hekayələr çap olunanda oxucuların böyük marağına səbəb olurdu. İlyas müəllimin ədəbiyyatımız, mədəniyyətimiz, mənəvi dəyərlərimiz haqqında çıxışları, mülahizələri, müsahibələri, söhbətləri öz təzəliyi, bənzərsizliyi ilə həmişə ehtiram doğururdu. Amma İlyas müəllimi milyonlarla oxucular arasında,



ədəbiyyatsevərlər içində sevdirən, tanıtdıran, geniş şöhrətləndirən nəsrimizdə yeni mərhələ olan "Söyüdlü arx", “Körpüsalanlar”, "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca" kimi romanları olub. Bu əsərlər indi də müasir və gərəklidir, gələcək nəsillərimiz üçün də əsl tərbiyə məktəbi olacaqdır. Bu əsərlər çap olunanda geniş əks-sədaya, marağa, sözün yaxşı mənasında mübahisələrə, müzakirələrə, ədəbi aləmdə canlanmaya səbəb olurdu. Ona görə ki, yazıçı dövrün çox mühüm ictimai-siyasi, mənəvi problemlərinə toxunurdu.

... Mən həmişə oğlanlarıma deyərdim ki, ataya, valideynlərə hörməti Elçin əmidən öyrənin. Ədəbiyyatda da belə idi. Elçin özü məşhur, orijinal yazıçı ola-ola söz düşəndə deyirdi ki, mən sevinir, fəxr edirəm ki, yazıçı İlyas Əfəndiyevin oğluyam, onun yaradıcılığı mənim üçün tükənməz ilham mənbəyi, ədəbi məktəbdir.

... Ən axırda, bəlkə də ən başlıcası onu demək istərdim ki, İlyas Əfəndiyev dahi Cəfər Cabbarlıdan sonra, milli səhnəmizin çətin, ağır və şərəfli yükünü az qala yarım əsr öz çiyinlərində daşıdı, ona Cəfərdən sonra ikinci nəfəs verdi, özünün "İlyas Əfəndiyev teatırı"nı yaratdı. İlyas Əfəndiyev aktyorluq məktəbi pərvəriş tapdı. İlyas Əfəndiyevdən sonra elə bil ki, səhnəmizdə bir boşluq yaranıb. Bu boşluq uzun illər hiss ediləcəkdir. Ta İlyas Əfəndiyev ənənələrini, ruhunu, dramaturq duyumunu, teatrmızda yaratdığı obrazlar silsiləsinin xələflərini səhnəmizə gətirən yeni, həqiqi istedadlı bir dramaturqun doğuluşuna kimi." ( Bax: "Xalq qəzeti", 15 noyabr 1998.)

Yazıçının iki övladı vardır. Xalq yazıçısı, filologiya elmləri doktoru Elçin görkəmli nasir, dramaturq və ədəbiyyatşünas alimdir. Uzun müddət «Vətən» cəmiyyətinin sədri, Yazıçılar Birliyin katibi olmuş Elçin həm də görkəmli dövlət xadimidir. O, Respublika Baş Nazirinin müavini vəzifəsində çalışır. Kiçik oğlu Teymurçin Əfəndiyev tanınmış ədəbiyyatşünas alim, professordur. O, uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində professor və rektor vəzifəsində çalışmış, indi sərəncamdadır...

İlyas Əfəndiyev ocağını səciyyələndirən digər bir fikir də maraqlıdır: "Həmişəyaşar sənət dünyamızda heç zaman sönməyən əbədi bir ocaq var - İlyas Əfəndiyev ocağı, Elçin ocağı, Timuçin Əfəndiyev ocağı... Çox evlərə işıq düşüb bu ocaqdan. Doğulduğu torpğa, xalqa, milli ruha və irsə sədaqəti ilə seçilib bu ocağın övladları. "Yox açan kimsə qapım, badi səbadan qeyri" (Məhəmməd Füzuli – red.) deyənlərə hər an ümidgah olub bu ocaq. Xeyirxahlığı, təmənnasız yaxşılıqları ilə qəlblərdə yaşayır bu insanlar." (Bax: Vəfa Əliyev. İlyas Əfəndiyev ocağı. "525-ci qəzet", 15 noyabr 2000.)

Bu ocağın yetirmələri barədə tənqidçi-ədəbiyyatşünas, professor Nizaməddin Şəmsizadənin də söyləmələri diqqəti çəkir: "...Azərbaycdan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Timurçin Əfəndiyev... böyük və əsl-nəcabətli bir nəslin ocağında dünyaya gəlib, pərvəriş tapıb. Onun atası Azərbaycanın bənzərsiz yazıçısı, ədəbiyyatımızın heç bir siyasətə və ideologiyaya baş əyməmiş



klassiki, bəy oğlu İlyas Əfəndiyev oğlanları, görkəmli ədib və ictimai xadim Elçin və Timurçin üçün canlı universitet olub. Mən onu təkcə bədii fikir korifeyi yox, həm də milli özünüdərk universiteti adlandırardım. İlyas Əfəndiyevdən öyüd və ərkan götürmək, hər gün onun nəfəsini duymaq, böyük söz abidələri yaratmış qüdrətli əlinin tumarını hiss etmək əsl xoşbəxtlikdir və Timurçin Əfəndiyev bu xoşbəxtlik nurunda həyata qədəm qoyub." ( Bax: "Azərbaycan" qəzeti, 23 noyabr 2000.)

İ.Əfəndiyev ata və ana fədakarlığı ilə böyütdüyü övladlarına bağlı bir insan idi. O, oğulları ilə fəxr edir, onların uğurları, ailə səadəti ilə fərəhlənir, baba sevinci ilə yaşayırdı. Nəvəsi Yalçının kinoda çəkilməsi, Üzeyir bəyin uşaqlığını oynaması, istedalı rəssamlığı ona böyük sevinc bəxş etmişdi və heyiflər olsun ki, onuvaxtsız itirdi...

Yenə də xronoloji ardıcıllığa əməl etsək, İlyas Əfəndiyevin ən gur yaradıcılıq dövrü yuxarıda qeyd etdiyimiz kimi 60-90-ci illər və müstəqillik dövrünə düşür...

***

Azərbaycan ictimai fıkrinin XX əsrdə yetirdiyi nadir ədəbi simalardan biri, Azərbaycanın xalq yazıçısı, məşhur nasir və dramaturq, mənsub oldugu xalqın ədəbiyyatının tarixində, mənəviyyatında parlaq iz qoyan görkəmli sənətkar llyas Əfəndiyevin ədəbi irsi öz məna və əhəmiyyətini bu gün də qoruyub saxlayır. Onun yaradıcılığı xalqın ədəbi dəyərlər

xəzinəsində öznə layiq yer tutur, yeni-yeni nəsillərin ədəbi-estetik, vətənpərvərlik, vətəndaşlıq tərbiyəsində öz mühüm, nəcib və xeyirxah rolunu oynayır.

Elə sənətkar var ki, bütün yaradıcılığı boyu nə yazırsa, həyatın hansı problemlərinə müraciət edirsə, həmişə öz təbiətinə sadiq qalır. Buna yaradıcılıqda özünəməxsusluq deyirlər və bu özünəməxsusluq həmin sənətkarı ədəbiyyat aləmində bir kimsə ilə eyniləşdirməyə imkan vermir. Xalq yazıçısı İlyas Əfəndiyevin bu özünəməxsusluğu onun zəngin nəsr yaradıcılığında da, boya-boy görsənir.

Şübhəsiz, İlyas Əfəndiyevin nəsr yaradıcılığı bu sahədə Azərbaycan ədəbiyyatının zirvələrindən biridir. O, "Söyüdlü arx" (1958), "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost" (1963), "Sarıköynəklə Valehin nağılı" (1978), "Geriyə baxma, qoca" (1980), "Üçatılan" (1981), "Qaçaq Süleymanın ölümü" (1993), "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" (1996) kimi əsərlərilə Azərbaycan nəsrinin inkişafını yeni mərhələyə yüksəltmişdir. İlyas Əfəndiyevin ədəbi-bədii irsi XX əsr azərbaycanlısının təfəkkürünün, düşüncələrinin, psixologiyasının, ictimai-sosial həyatının, məişətinin, yaşantılarının, duyumlarının aynasıdır, problemlərinin, ağrı və acılarının, iztirablarının, iftixarının və günahının arxividir, öyrənc yeridir.

Bu cür qələm sahiblərinin əsərlərinin onlanrın sağlığında və sonra dönə-dönə üzü köçürülür, bu əsərlər müxtəlif qezet və jumallarda seçmə halında, ayrı-ayrı nəşriyyatlarda kitablar kimi bütöv halda nəşr edilir, dərsliklərə düşür, pyesləri müxtəlif



teatrlarda, fərqli rejissorlar tərəlindən dönə-dönə tamaşaya qoyulur, efir ve ekran vasitəsilə səsləndirilir və nümayiş etdirilir. Bununla yanaşı olaraq bu əsərlər ardıcıl olaraq ədəbi və ictimai mühit tərəfindən dönə-dönə qiymətləndirilir, barəsində fikirlər söylənilir, ədəbi-tənqidi məqalələr yazılır, ətrafında tədqiqatlar aparılır, dissertasiyalar yazılır...

Ədəbi tənqidimizin fikrincə (Elçin, Yaşar Qarayev, Akif Hüseynov, Şamil Salmanov, Yaqub İsmayılov, Əmin Əfəndiyev, Nizaməddin Şəmsizadə, Şirindil Alışanlı, Vaqif Yusifli və başqaları... ) İlyas Əfəndiyevin yaradıcılığı bütünlükdə Azərbaycan ədəbiyyatının vaxtilə sovet dövrü adlandındırılan ikinci respublika mərhələsinin ədəbiyyatına dair əsaslı ədəbi düşüncələr üçun zəngin material verir.

XX əsr ədəbi-tənqidimizin korifeylərindən olan akademik Məmməd Arif yazırdı: "Sovet ədəbiyyatının inkişafında, onun ideya-bədii təkamülündə İlyas Əfəndiyevin rolu olduqca böyükdür. Cəsarətlə deməliyik ki, İlyas Əfəndiyev sovet dramaturgiyasının tarixində xüsusi bir mərhələ təşkil edir. ...İlyas Əfəndiyev hər cür milli məhdudluqdan uzaq bir yazıçıdır. Ədəbiyyatımızın beynəlmiləlçilik, ümumbəşəri ideyalarına sadiq olan ədib, cəmiyyətdə müxtəlif millətlərdən olan insanların necə qardaş kimi əlbir çalışıb, xoşbəxt yaşadıqlarını dövrümüzün ən böyük nailiyyəti kimi təsvir edir." ( Bax: "Kommunist" qəzeti, 1974, 17 noyabr.)

Akademik Məmməd Arifin bu fikirinə münasibət bildirən filologiya elmlər doktoru, şair-ədəbiyyatşünas Qasım Qasımzadə yazırdı: "Bu sözlər Cəfər

Cabbarlı, Səməd Vurğun kimi sənətkarlarımızın irsini tədqiq edib monoqrafiyalar yazan, özünə-sözünə həmişə tələbkarlıqla yanaşan mötəbər bir alimin, akademik Məmməd Arifin qələmindən çıxdığı üçün, demək olar ki, ədəbi ictimaiyyətin də qənaətidir.” (Bax: Qasımzadə Q. Ədəbiyyatımız, mənəviyyatımız. Bakı, Yazıçı, 1988,s.233.)

Lakin bu o demək deyildi ki, İlyas Əfəndiyevin yaradıcılıq yolu ədəbi tənqiddə həmişə şahrah gedibdir. Ədəbi tənqidə yazıçının bir sıra əsərləri ciddi mübahisələrə və diskusiyalara da səbəb olubdur. Xüsusən onun “Körpüsalanlar” və “Sarıköynəklə Valehin nağılı” əsərləri ədəbi tənqidimiz tərəfindən bir mənalı qarşılanmamışdı...

****

“Körpüsalanlar” əsəri 60-cı ildə işıq üzü görüb. Bu əsərin ilk nəşri və sonrakı taleyi barədə İlyas Əfəndiyevin oğlu, Xalq yazıçısı, ədəbiyyatşünas-tənqidçi, professor Elcinin və akademik Bəkir Nəbiyevin maraqlı xatirə və qeydləri vardır.

Məlumdur ki, 60-cı illər və ondan sonrakı mərhələlərdə İlyas Əfəndiyevin yaradıcılığı ən coşğun və kamilləşmə dövrünü keçirmişdir. 1960-cı ildə Respublikanın Əməkdar İncəsənət xadimi fəxri adını almış İ.Əfəndiyevin yaradıcılığında, xüsusilə 60-90-cı illər ən məhsuldar dövr hesab olunur. Bu illərdə onun yaradıcılığında janr rəngarəngliyi özünü göstərir, bir-birinin ardınca iri nəsr əsərləri, ciddi ictimai-siyasi problemlər qaldıran, gözəl mənəvi



keyfiyyətlər aşılayan, eyni zamanda müasir Azərbaycan nəsrinin yüksək bədii-estetik səviyyəli nümunələri kimi şöhrət qazanmış «Körpüsalanlar» /1960/, «Dağlar arxasında üç dost» /1963/, «Sarıköynəklə Valehin nağılı» /1976-78/, «Geriyə baxma, qoca» /1980/, «Üçatılan» /1981/ kimi povest və romanlarını dərc etdirir, eyni zamanda maraqlı dram əsərlərini qələmə alır, publisist və ədəbiyyatşünas kimi məhsuldar yaradıcılıq yolu keçir. Bu illərin məhsulu olan «Sən həmişə mənimləsən» /1964/ pyesi ilə Azərbaycan səhnəsində lirik-psixoloji dramanın əsasını qoyur. Bu yolu uğurla davam etdirən dramaturq «Mənim günahım» /1967/, «Unuda bilmirəm» /1968/, «Məhv olmuş gündəliklər» /1969/, «Qəribə oğlan» /1973/, «Bağlardan gələn səs» /1976/ və s. pyeslərini yazır.

Bunların sırasında “Körpüsalanlar” povesti (sonralar bu əsəri müəllif roman kimi təqdim etmişdir) xüsusi əhəmiyyət kəsb edir. Çünki bu əsər o dövrdə ədəbi tənqiddə xüsusi maraq, diskusiya və mübahisələr doğurmuşdu. Belə diskusiyalar və gərgin münasibətlər onun yaradıcılıq həyatında yeni deyildi. Hələ, 40-cı illərin axırlarında İ.Əfəndiyev artıq özünü bir nasir və dramaturq kimi təsdiq etmişdir.

Onun yaradıcılıq uğurları təkcə oxucuları deyil, eyni zamanda ədəbiyyatşünas alimləri də sevindirirdi. Yazıçının yaradıcılığı, çap etdirdiyi hər bir yeni əsəri tənqidçilərin diqqətindən yayınmırdı. Məhz bu illərdə dövri mətbuat səhifələrində onun yaradıcılığı haqqında ilk məqalələr dərc olunmağa başladı.

Əkbər Ağayevin «Kənddən məktublar», Hüseyn Şərifovun «Ümid verən yazıçı», Mehdi Hüseynin «Bir nasir haqqında», H.Orucəlinin «Həyata doğru», O.Sarıvəllinin «İntizar», M.Arifin «İntizar», M.Cəfərin «İntizar» tamaşası haqqında» və s. məqalələr İ.Əfəndiyevin geniş oxucu kütləsinə tanıtmaqda mühüm rol oynamışdır. Bundan əlavə, Azərbaycan Yazıçılar İttifaqının xüsusi iclaslarından birində yazıçı İ.Əfəndiyevin yaradıcılıq hesabatının dinlənilməsi və burada S.Vurğunun, M.Hüseynin, Ə.Məmmədxanlının, Ə.Ağayevin, H.Orucəlinin və başqa sənətkarların çıxış edib xoş sözlər söyləmələri İ.Əfəndiyevin yaradıcılığına olan maraqdan irəli gəlirdi.

Xalq şairi, akademik Səməd Vurğunun bu fikri həmin dövrün obyektiv ictimai fikrinə gözəl nümunədir: "İlyas Əfəndiyev əməkçilərin zəhmət birliyini böyük məhəbbətlə və hərarətlə təsvir edir, onların zəhmətini parlaq və real boyalarla göstərir... Biz «Bahar suları» əsərini onun şeriyyətinə görə sevirik, bir daha inanırıq ki, həyatımızda yalnız maddi nəhənglər deyil, eyni zamanda yeni, zəngin, həm də gözəl bir insan mənəviyyatı yaradılır." (Bax: "Ədəbiyyat və incəsənət" qəzeti, 1974, 23 noyabr.)

Yazıçının qayğısını çəkən qələm dostları, xeyirxah insanlarla yanaşı, onun paxıllığını çəkənlər, yüksəlməsini istəməyənlər də tapılırdı. Bu illərdə Yazıçılar İdtiifaqında çağırılmış iclasların birində «cavan yazıçı İ.Əfəndiyevin özünü yaxşı aparmadığından», «bir sıra pozğun ünsürlərlə» əlaqə saxladığından söhbət getmiş və Yazıçılar İttifaqının Rəyasət heyəti ona ciddi xəbərdarlıq etmişdir. (Bax: "Ədəbiyyat qəzeti", 4 oktyabr 1940.)

Sonralar yazıçının "Söyüdlü arx", "Sarıköynəklə Valehin nağılı" romanlarının taleyi də eyni sınaqlardan keçməli olmuşdu. Məsələn, "Bahar suları" pyesi brəsində yazıçının xatirələrində oxuyuruq: «...Dramaturgiyada «konfliktsizlik» nəzəriyyəsi ifşa olunandan sonra, bizim Akademik Dram Teatrında tamaşaya qoyulan ilk konfliktli əsər mənim «Bahar suları» pyesim oldu. Bu əsərdə müsbət obrazlarla bərabər, mənfi tiplər də var idi. Pyes Akademik Teatrda müvəffəqiyyətlə gedirdi. «Kommunist» qəzeti Əli Vəliyevin təşəbbüsü ilə böyük disput təşkil etmişdi....Disput olduqca canlı keçirdi. Çıxış edənlər tamaşaya yüksək qiymət verirdilər. Birdən bizim yazıçı yoldaşlardan o zaman məsul vəzifədə olan biri özünü qaranəfəs disputa yetirərək çıxışında sübut etməyə çalışdı ki, guya müəllif əsərdəki mənfi tipləri göstərməklə bizim cəmiyyətimizə böhtan atmışdır, bizdə Nəcəf kimi adamlar yoxdur, tək-tük varsa da, göstərmək lazım deyil..." (Bax: "Azərbaycan" jur., 1987, say 5, s.125-126.)

Lakin əsərin müzakirəsində iştirak etmiş Əli Vəliyev, Səməd Vurğun, eyni zamanda ədəbiyyatşünaslar əsərin bir sıra məziyyətlərini göstərməklə, müəllifin düz yol tutduğunu təsdiq etmişlər.

Ölməz sənət nümunələsi kimi Azərbaycan nəsrinin xəzinəsini zənginləşdirən, yüksək vətəndaşlıq pafosu, incə lirizm və dərin psixoloji tapıntılarla aşılanan "Körpüsalanlar" povestı bədii təfəkkür tər-

zində yeni bir mərhələ açdı. Bu tipli əsrlərin məna və mahiyyətini Bəkir Nəbiyev belə şərh edirdi:

"İlyas Əfəndiyevin "Söyüdlü arx", "Körpüsalanlar", "Sanköynəklə Valehin nağılı" kimi yazıldığı dövrün gerçəkliyini əks etdirən əsərlərinin qəhrəmanları mərkəzdən uzaq rayonlarda təzə binalar tikən, dağlar qoynundakı fermalara yol çəkən, gur çaylar üstündən körpülər salan, bu binalar, yollar, körpülər vasitəsilə kəndə mədəniyyət aparan, adamların rifahını yaxşılaşdıran, onların qəlbinin dərinliklərinə işıq salan nufzlu adamlardır. Həyatın müxtəlif sahələrində çalışan bu qəhrəmanların boyük bir qismi cavan qızlar və oğlanlardır. Lakin yaşından, fəaliyyət sahəsindən, ixtisasından asılı olmayaraq, ədibin qəhrəmanları öz böyük qayəsi, bu qayə uğrunda mübarizədə təzahür edən ehtirası, xarakterinin bütövlüyü, yaşadığı hisslərin, daxili təlatümün təbiiliyi ilə yaddaşlara həkk olunmuşlar." (Bax: Nəbiyev B. "O həmişə müasirdir" məqaləsinə - İlyas Əfəndiyevin 3 cildlik seçilmiş əsərlərinin I cildinə yazılmış ön söz. Bakı, "Avraaiya Press", 2005.)

"Bu da maraqlıdır ki, sovet dövrü bədii nəsrində 60-cı illərin əvvəllərində ilk bahar qaranquşu kimi təravətli təsir bağışlayan, həm də o dövrün ədəbi mihitində heç də birmənalı qarşılanmayan "Körpüsalanlar" povestinin ilk oxucusu makinaçı Sona xanımdan və Elçindən sonra mən olmuşam.

1960-cı ilin ortaları idi. "Kommunist" qəzetinin redaktoru, qocaman jumalist İsrafil Nəzərova dedim ki, İlyas Əfəndiyev qəzetdə bədii əsər çap etdirməyə həvəs göstərən müəlliflərdən deyil. Ondan xahiş edib



boynuna bir yazı (məsələn, müxtəsər hekayə) qoysanız çox yaxşı olar. Bir neçə gündən sonra redaktor məni yanına çağınb "Körpüsalanlar" povestindən bir parçanı verdi və oxuyub çapa hazırlamağı məsləhət gördü. Mən səhəri gün redaktora dedim ki, bu çox maraqlı bir parçadır, obrazlar arasında əsasən onların düşüncə və dialoqunda özünü büruzə verən təravətli münasibətlər, maraqlı hadisələr və rəvan dil elə təsir bağışlayır ki, həmin parçanı oxuyan oxucu mütləq əsərin hamısını mütaliə etməyə daxili ehtiyac duyur. İsrafil müəllim də sözügedən parçadan məhz bu cür təsirləndiyini söylədi və mənim yanımdaca telefon açıb İlyas müəllimə dedi ki, oxuduğu hissə çox xoşuna gəlir və əsərin hamısını nəzərdən keçirmək üçün xahiş edir ki, povesti tam halda ona göndərsin. İlyas müəllim əsəri göndərdi. Beləliklə də, "Körpüsalanlar"ı Əfəndiyevlər ailəsindən sonra ilk dəfə tam halda oxumaq, onun haqqında redaktorda konkret obyektiv rəyin formalaşmasna kömək etmək şərəfi mənə nəsib oldu. Bunu xatırlayanda, üstündən 45 il keçdiyinə baxmayaraq bu gün də duyğu- lanıram...

Həmin il sentyabrın 7-dən başlayaraq "Körpüsalanlar" müntəzəm olaraq parçalar halında qəzetdə çap olunmağa başladı." (Bax: Yenə orada, s.11.)

Lakin bu əsər də ədəbi tənqid tərəfindən bir mənalı qarşılanmadı, hətta o vaxtlar Respublika KP MK-nın xüsusi göstərişi ilə bu əsərin çapının yarımçıq dayandınlması haqda göstəriş verilmiş, əsər ətrafında ziddiyyətli diskusiyalar baş alıb getmişdi...

Bu barədə prof. Elçinin də xatırlamaları bir çox həqiqətləri ortaya çıxarır. Elçin müəllim yazır:

“Yadıma gəlir, «Körpüsalanlar» povestini İlyas Əfəndiyev 1959-cu ilin sonunda yazıb bitirmişdi və unudulmaz Sona xanımın – mən gözümü açandan Yazıçılar İttifaqında işləyən və İlyas Əfəndiyevin ərəb əlifbası ilə xəttini oxuyan yeganə makinaçının çap etdiyi əlyazmanın ilk oxucusu mən oldum. O zaman 10-cu sinifdə oxuyurdum və «Körpüsalanlar»ın romantikası, o əsərdəki lirika, psixoloji məqamlar mənə çox təsir etmişdi, hətta o qədər təsir etmişdi ki, bunu atamdan gizlətməyə çalışırdım...

İlyas Əfəndiyev «Körpüsalanlar»ı da, başqa əsərləri kimi, əvvəlcə «Azərbaycan» jurnalına vermək istəyirdi.

Ancaq hər şey başqa cür oldu.

O zaman ən nüfuzlu qəzet Azərbaycan Kommunist Partiyasının orqanı olan «Kommunist» qəzeti idi və o qəzetin redaktoru rəhmətlik İsrafil Nəzərov həmin ərəfədə İlyas Əfəndiyevdən qəzet üçün bir yazı istədi. İlyas Əfəndiyev isə ayrıca bir yazı yazmağa vaxtı və həvəsi olmadığı üçün, «Körpüsalanlar»dan kiçik bir parça seçib ona göndərdi (orası da yadımdadı ki, həmin parçanı mən aparıb İsrafil Nəzərovun katibəsinə verdim).

Bir gündən sonra, İsrafil Nəzərov dedi ki, parça çox xoşuna gəlib və povestin hamısını oxumaq istəyir. İlyas Əfəndiyev əsəri ona göndərdi və təxminən on-on beş gündən sonra İsrafil Nəzərov İlyas Əfəndiyevə telefon açdı, dedi ki, bütün redaksiya heyəti povesti oxuyub, çox xoşlarına gəlib və qərara alıblar ki, əsəri nömrədən nömrəyə əvvəldən axıracan çap etsinlər.



Bu, o zaman üçün çox əlamətdar bir hadisə idi, çünki «Kommunist» qəzeti o vaxta qədər belə böyük əsər dərc etməmişdi, belə bir ənənə yox idi.

Beləliklə, 1960-ci ilin 7 sentyabrından başlayaraq, «Körpüsalanlar» «Kommunist» qəzetində çap olunmağa başladı və oxucular arasında geniş əks-səda doğurdu.” (Bax: Elçin. Seçilmiş əsərləri 10 clddə, c.5, s. 283.)

Lakin bütün bunlara baxmayaraq “Körpüsalanlar” əsəri, xüsusən onun gənc, ən yeni obrazı olan Səriyyə yuxarıların və bir qrup aşağıdakı qaragüruhçular tərəfindən xüsusi, amansız şiddətlə qarşılanır. Elçin müəllim bu barədə də fikrini davam etdirərək yazır: “Ancaq on üç nömrədən sonra, əsər yarıya çatmış, sentyabrın 21-də qəzet birdən-birə elan dərc etdi ki, povestin çapını dayandırır. Bu – İlyas Əfəndiyev üçün həm gözlənilməz oldu, həm də əsərin beləcə yarımçıq qalması, təbiidir ki, ona ağır təsir etdi.

Sonra məlum oldu ki, povestin çapı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosunun tapşırığı ilə dayandırılıb və bu hadisə İsrafil Nəzərovun özünü də çox pərt edib. Orasını da deyim ki, İlyas Əfəndiyevlə İsrafil Nəzərovun cavan yaşlarından etibarən istiqanlı münasibətləri var idi.

Yadıma gəlir, həmin sentyabr axşamlarından birində İsrafil Nəzərov, İlyas Əfəndiyevə ürək-dirək vermək üçün bizə gəldi, oturub bir az yeyib-içdilər və iş elə gətirdi, söhbət elə alındı ki, İlyas Əfəndiyev özü İsrafil Nəzərova ürək-dirək verməyə başladı...

Bir müddət keçdikdən sonra, Azərbaycan mətbuatında «Körpüsalanlar»a qarşı Stalinin ölümündən

sonra Azərbaycan ədəbi həyatında misli görünməmiş bir cəhalət hücumu kompaniyası və həmin kompaniyanın yaratdığı ajiotaj başladı: əsərin bədii-estetik cəhətləri qaldı bir tərəfdə və Stalin dövrünə məxsus bir vulqar-sosioloji cəbhədən, sovet cəmiyyətinin mənəvi qələbələr əldə etdiyi bir zamanda bu povestdə «əxlaq normaları pozulur», «müasir əxlaq normasından kənara çıxan sərbəst hərəkətlərə» yol verilir, «Səriyyə Qəribcanla hadisələrin əvvəlindən sonuna qədər açıq-saçıq bir şəkildə, təsəvvürə sığışmayan (!– E.) bir tərzdə davranır» (Səriyyə haqlıdırmı? «Ədəbiyyat və incəsənət» qəzeti, 17 iyun 1961; «Sevil»dən «Saçlı»ya», «Azərbaycan» jurnalı, 1962. və s.) deyə, povest nadan mülahizələrlə «ifşa» edilirdi, hətta iş o yerə gəlib çıxmışdı ki, misal üçün, «Azərbaycan qadını» jurnalı «Körpüsalanlar»ı «ifşa» edən xüsusi rubrika açmışdı və nömrədən-nömrəyə təşkil etdiyi «hiddətlənmiş oxucu məktubları» çap edirdi. (Bax: Yenə orada, s.284.)

Elçin müəllim haqlı olaraq yazır:

"Mən «Körpüsalanlar»a qarşı həmin qaragüruh hücumunun təfərrüatına varmaq istəmirəm, onsuz da, aradan keçən bu qırx il hər şeyi yerbəyer etdi, bu gün oxucular ən müxtəlif dillərdə «Körpüsalanlar»ı oxuyurlar, onun haqqında o vaxt Azərbaycan mətbuatını dolduran o cahil və nadan mülahizələr isə, indi yalnız acı təbəssüm doğurur,– bundan artıq deyil.

Maraqlananlar isə, o dövrün mətbuatına baxa bilərlər və mən özüm də vaxtilə ədəbiyyatımız üçün bu prinsipial məsələ ilə bağlı ətraflı yazmışam. (Ədəbi tənqid və xarakter məsələsi, ADU-nun elmi



əsərləri, Dil və ədəbiyyat seriyası, 1968, 2; Tənqid və ədəbiyyatımızın problemləri. Bakı, 1981, səh. 174 – 189.) – (Bax: Yenə orada. s.285.)

Biz maraqlandıq və həmin illərin "Azərbaycan qadını" jurnalını vərəqləməli olduq və qəribə bir mənzərə ilə, qəribə imzalarla qarşılaşdıq. (Bax: 1. Səriyyə haqlıdırmı? 2. Biz belə düşünürük. Rayihə Xəlilova. 3. Qəriqə Mikayılova. Mənim Səriyyəyə münasibətim. 4. Arifə İsmayılova. Mənim fıkrim belədir // "Azərbaycan qadını" juranlı, 1961, N10. 5. Həcər Qasımova. O haqsızdır. 6. Rəxşəndə Tağıyeva. Səriyyə bizə örnək ola bilməz. 7. Nəsibə Məlikova. Mənim fıkrimcə. 8.Gülövşə Məmmədova. Kimin kimdən xoşu gəlsə. 9. Fenya İbrahimova. Bu cür yaramaz // Azərbaycan qadmı jurnalı, 1962, N12, s.18. 10. Babayeva Kübra. Səriyyəni sevə bilmədim. («Körpüsalanlar» əsəri haqqında) //Ədəbiyyat və incəsənət. -1961. - 22 iyul. və s.)

Hətta məlum olur ki, bu təşkil olunmuş məktub-məqalələr arasında qondarma imzalarla da "məktublar" dərc edilirmiş ki, bu da o dövrdə mənəvi korluğun bir nümunəsi kimi diqqəti cəlb edir. Yenə də Elçin müəllimin xatirəsinə müraciət edək:

"Bu sətirləri yazarkən, kiçik bir hadisə də yadıma düşdü.

O zaman mən gənc idim, universitetin ilk kurslarında oxuyurdum və atamdan fərqli olaraq, o qaragüruh hücumu mənə çox təsir edirdi. «Azərbaycan qadını» jurnalında çap olunan və Səriyyə surətini «ifşa» edən məktublardan birinin müəllifinin müəllimə olduğu göstərilirdi. Mən soraqlaşıb o

müəllimənin dərs dediyi məktəbə telefonla zəng etdim və məlum oldu ki, həmin məktəbdə o adda müəllimə işləmir. Bunu atama danışdım və dedim ki, bu məsələni açmaq lazımdı, qoy redaksiya cavab versin ki, bu müəlliməni haradan tapıb, niyə belə təxribatlarla məşğuldu?

İlyas Əfəndiyev gülə-gülə:

– Əşşi, sənin də işin qurtarıb də!..– dedi və bununla elə mən özüm də sakitləşdim (sonralar da onun məni beləcə «sakitləşdirmələri» çox olub...)". (Bax: Yenə orada, s.285.)

Ədəbi mühitdə, əlbəttə ki, yuxarıların göstərişi ilə "Səriyyə" ajiotajı 17 iyun 1961 "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilən "Səriyyə haqlıdırmı?" məqaləsi ilə başlamışdı. Məqaləni həmin dövrdə olduqca nüfuz qazanmış tənqidçi Məsud Əlioğlu (Əli Vəliyevin oğlu) qələmə almışdı. Bu məqalədə əsərin bədii məziyyətləri, mövzunun orjinallığı, yazıçının həyatabaxışının yeniliyi bir tərəfə qoyularaq sırf mühafizəkar mövqedən yazılması idi. Güya Səriyyə obrazı milli-mənəvi əxlaqi dəyərlərə olduqca ciddi zərbə vurur. Müəllif yazırdı: "Səriyyə kimi gözüaçıq, ağıllı bir qızın, yeni səciyyəli, ciddi bir qadının ən adi əxlaq normalarını pozmasına oxucuların qəzəblənməsi yerindədir." (Bax: Əlioğlu M. "Səriyyə haqlıdırmı?", "Ədəbiyyat və incəsənət" qəzeti, 17 iyun 1961-ci il.)

İnsaf xatirinə demək lazımdır ki, tənqidçi Səriyyə obrazının müsbət cəhətlərini, "gözüaçıqlığını, ağıllı bir qız, yeni səciyyəli, ciddi bir qadın" oldüğünü görürdü, amma milli mentalitetə uyuşmayan açıq-



saçıq hərəkətlərini, əri Adildən uzaqlaşaraq Qəribə uymasını qəbul etmir, ənənəvi əxlaq normalarının "müdafiəçisi" rolunda çıxış edirdi. Əslində bu obraza birtərəfli yanaşma idi və Səriyyənin xarakterindəki mənəvi-psixoloji inkişafı, dinamikanı görməmək idi.

Lakin bu məqalə ədəbi tənqid tərəfindən birmənalı qarşılanmadı. Azərbaycan ədəbi tənqidində bir-birinin ardınca "Körpüsalanlar"in ədəbi-bədii məziyyətlərindən, eləcə də qüsurlarından obyektiv məqalələr yazılır, Səriyyə obrazı ədəbiyyatımızda orjinal xarakter kimi qəbul edilirdi. (Bax: Məmməd Arif. Keçən ilin nəsri haqqında qeydlər. "Ədəbiyyat və incəsənət" qəzeti, 25 mart 1961-ci il ; Seyfulla Asadullayev. "Stroiteli mosta". "Bakinskiy raboçiy", 25 noyabr 1961-ci il ; Djalal Mamedov. Sariya, eyo druzya i neduriqi. "Literaturnaya qazeta", 26 may 1962-ci il və s.)

Lakin mübahisələr səngimək bilmirdi. Yuxarıda dediyimiz kimi inkarçı oxucu məktubları dərc edilir, bünlar ictimaiyyətin, cəmiyyətin fikri kimi təqdim edilirdi. Bu məqalələrdə Səriyyənin ailə quruluşunu pozmaqda, vəfalı həyat yoldaşından üz döndərməkdə, fəhlələrlə ova getməsində, azərbaycanlı qadına xas olmayan bir sıra hərəkətlərində günahlandırırdılar, hətta iddiham edirdilər. (Bax: Mikayılova T. Mənim Səriyyəyə münasibətim. Yenə həmin sayda; Ramazanova Z. Siz necə baxırsınız? "Azərbaycan qadını" jurnalı, 1961, say.7, s.22; Xəlilova R. Biz belə düşünürük… "Azərbaycan qadını" jurnalı, say 8, s. 16; İsmayılova A. Mənim fikrim belədir. "Azərbaycan qadını", jurnalı, 1961, say 10, s.18 və s.)

Lakin bu oxucu məktubları içərisində (dərc olunanları nəzərdə tuturuq, amma yazıçıya yüzlərlə Səriyyəni müdafiə xarakterli məktublar gəlirdi) Hacıyev O. adlı bir oxucunun "Səriyyənin məhəbbəti" ("Azərbaycan gəncləri" qəzeti, 19 aprel 1993-cü il) oxucu məktubu buna misaldır.

İş o yerə çatmışdır ki, akdemik Məmməd Cəfər kimi nüfuzlu bir tənqidçi bu cür oxucu məktublarına cavab olaraq "Bir mübahisə münasibətilə" (1962) məqaləsində bu cür münasibətlərə ədəbi arqumentlərlə cavab verdi. (Bax: Məmməd Cəfər. Həyatın romantikası. Bakı, Azərnəşr, 1968, s.149.)

Belə bir məqamda tənqidçi Məsud Əlioğlu onu tənqid edənlərə cavab yazaraq "Azərbaycan" jurnalında dərc etdirdi. (Bax: Məsud Əlioğlu. "Sevil"dən "Saçlı"ya". "Azərbaycan" jurnalı, 1962, say 3, səh. 228-240.)

Tənqidçi ədəbiyyatımızda yaradılan qadın obrazları silsiləsini təhlil edərək, yenə də Səriyyə obrazı barəsindəki əvvəlki fikirlərini bir az da dərinləşdirərək yazırdı: "Səriyyənin ailə-əxlaq normalarının saflığını pozan sərbəst hərəkətləri bizi narazı salır. Nuriyyədən fərqli olaraq ("Söyüdlü arx" romanının qəhrəmanı – J.Q.) Səriyyə, nə müasir həyatla, nə də milli adət-ənənələrlə bağlanmayan açıq-saçıq, ipə-sapa yatmayan, hərcayi bir qızdır." (Bax: Yenə orada, s.238.)

Bu məqalədən sonar ədəbi mühitdə yenidən bir canlanma başladı və bir-birinin ardınca Mehdi Hüseynin, Seyfulla Əsədullayevin, Gülrux Əlibəyovanın, İsaq İbrahimovun, Cəlal Məmmədovun məqa-



lələri dərc edildi və görkəmli tənqidçi Cəfər Cəfərov yazıçıların IV qurultayında "Ədəbi tənqid haqqında" məruzsilə bu məsələyə bir növ yekun vurmuş oldu. (Bax: Elçin. Tənqid və ədəbiyyatımızın problemləri. Bakı, Yazıçı, 1981, s.187.)

Cəfər Cəfərov konkret olaraq deyirdi: «Körpüsalanlar» povesti ilə əlaqədar olaraq özünü göstərən avamlıqlara yol verilməməli, vaxtilə Mustafa Quliyevin dediyi «müsəlman tənqidinin» qalıqları ilə mübarizə edilməlidir». (Bax: Cəfərov C. Əsərləri. İki cilddə, 2-ci cild, Bakı, 1968, səh. 388-389.) Beləliklə də "Körpüsalanlar" romanı ilə bağlı "müsəlman tənqidinin" qalıqları"na yekun vuruldu.

Bu məsələyə münasibətdə yekun olaraq bildirək ki, 60-cı illərdən başlayan və sonrakı dövr Azərbaycan ədəbi tənqidini və ümumiyyətlə, ictimai fikrini tədqiq edərkən, aşkar görsənir ki, həmin illərdə ortaya çıxmış «Səriyyə məsələsi» xüsusi əhəmiyyət kəsb edir və ən başlıcası isə, bir tərəfdən vulqar sosioloji təfəkkür tərzində, digər tərəfdən isə, yalançı xəlqilik konsepsiyasının süqutu üçün dönüş mərhələsi təşkil edir.

Ədəbi tənqid sübut etdi ki, «Körpüsalanlar» və bu povestin qəhrəmanı Səriyyə obrazı həm bədii-estetik cəhətdən, həm də mövzu baxımından Azərbaycan nəsrində tamam yeni bir hadisə idi və özü ilə keyfiyyət dəyişikliyi gətirdi, ədəbi mərhələyə çevrildi, eyni zamanda, ədəbi tənqiddə qeyd etdiyimiz dönüş mərhələsinin yaranmasına səbəb oldu.

İlyas Əfəndiyev yaradıcılığının ən səriştəli tədqiqatçılarından biri, bizim gözəl tənqidçimiz Yaşar

Qarayev yazırdı: «Söyüdlü arx» (1958), «Körpüsalanlar» (1960), «Dağlar arxasında üç dost» (1963) – bu əsərlərdə ifadə olunan yenilik, hər şeydən əvvəl, müəllifin «müsbət qəhrəman» və «mənəvi gözəllik» anlayışını o illərin stereotip ölçü, qəlib və normalarından fərqləndirən cəhətlərdən idi. Belə ki, müəllif bilavasitə mövcud ədəbi ənənədən yox, həyatdan, ictimai və mənəvi-əxlaqi inkişafda yeni mərhələnin formalaşdırdığı nəslin üzərində müşahidələrdən çıxış edərək, müasir insan, məişət və əxlaq haqqında öz anlayışlarını irəli sürürdü.» (Bax: Qarayev Y. «Xarı bülbülün nağılı», Bakı, 1995, səh. 19.)

Tənqidçilərimizin bir qismi "Körpüsalanlar" povestinin baş qəhrəmanı Səriyyə obrazının xarakterindəki yeniliyin, novatorluğun, qadın düşüncə və rəftarındakı müstəqilliyin, sərbəstliyin, azadxahlığın ziddiyyətli hal, xasiyyət, rəftar kimi yozulmasında haqlı və ya haqlı deyildilər...

Amma sonrakı mərhələlərdə, elə indinin özündə də, xüsusən ədəbiyyatşünaslığımızda bu obraza artıq yenidən qayıdış, yeni təhlillərlə yanaşma mövcuddur və davam etməkdədir ki, bu da "Körpüsalanlar" romanının daimi mövcud olan müasirliyindən və yüksək bədiilik prinsipi ilə yaradıldığından xəbər verir. Bu cəhətdən ədəbi tənqidimizin Yaşar Qarayev, Akif Hüseynov, Nizaməddin Şəmsizadə, Vaqif Yusifli, Şirindil Alışanov, Tehran Əlişanoğlu və s. bu kimi nümayəndələrinin əsərlərində müəyyən ədəbi faktlar mövcuddur...

Bir neçə bariz misalla kifayətlənək:



Akif Hüseynov əsərin geniş təhlilindən sonra yazır: "İlyas Əfəndiyevin "Körpüsalanlar" povestinin qəhrəmanı Səriyyədə şəxsi sərbəstlik hissi çox güclüdür. ...Təhkiyyənin emosionallığı, lirizmi, psixoloji səhnələri ilə maraq doğuran bu əsərdə müəllif həmin xarakteri incə detallarla nəzərə çarpdırır, fəhlə surətlərini məhəbbətlə, səmimiyyətlə yaradır və Səriyyənin hərəkələrini məhz əks əxlaqi sifətlərin uyuşa bilməməsindən doğan təbii bir hal kimi təqdir edir. Bu uyşmazlıq Səriyyənin həssas təbiətində və müşahidələrində, pak mənəviyyatının şüasında öz qabarıq inikasını tapdığı kimi, onun intixabı ilə də naqisliyin mənəvi cəzası, inkarı, nəcib keyfiyyətlərin təsdiqi kimi səslənir." (Bax: Hüseynov A. Müxtəlifliyin birliyi, bakı, Yazıçı, 1983, s.199.)

Filologiya elmlər doktoru, tənqidçi-ədəbiyyatşünas Vaqif Yusifli isə ədibin yaradıcılığına indiki dövrdə də dərin marağın olma səbəbini onun müasirliyində görərək yazır: "... Həmişə müasir İlyas Əfəndiyev... Onun haqqında düşünəndə hər şeydən öncə, bu müasirlik ifadəsi yada düşür. Yəni həmişə təzə, təravətli, novator bir sənət." (Bax: "Azərbaycan" qəzeti, 3 oktyabr 2001.)

Tənqidçi Tehran Əlişanoğlu isə özünəməxsus bir üslubda yazır: "Bizim nəsrdə bütün XX əsr boyu keçən bir "qadın mövzusu" vardır. Mən onu "qadın emansipasionu" şəklində qabardıram, ... cəmiyyət həyatında qadın oyanışı, qadının cəmiyyətdə yerini axtarması. Bizdə bu bir xəttdir. 30-cu illərdə sosial plandadır. 50-60-cı illərdə nəsrdə güclü publisist

aksentlə aktuallaşır. Məsələn, İlyas Əfəndiyevin qadın obrazları. Siz (Sema Doqan) deyən başlanğıclar lirik məzmunda artıq Nuriyyədə var -- "Söyüdlü arx" əsərində, azadlıq hissini içindən keçirir. "Körpüsalanlar"da -- Səriyyədə hətta "Üsyan" tiplidir, milli qadın olaraq qalmaqala, təzadlı şəkildə, buxovlara ictimai planda etiraz edir." (Bax: Tehran Alışanoğlu. Sema Doqanla müsahibə, "Rezonans" qəzeti, 30 sentyabr - 2 oktyabr, 1998.)

Tehran Alişanoğlu başqa bir planda da – "müsbət qəhrəman" problematikası bucağından da Səriyyə obrazına diqqət yetirir. O, bu məsələdə İlyas Əfəndiyevin oz sözlərindən çıxış edərək yazır:

"Mən heç bir zaman səni qəhrəman hesab etməmişəm" (İlyas Əfəndiyev, Seçilmiş əsərləri, altı cilddə, ikinci cild, "Yazıçı", Bakı, 1984, səh. 122) -- Səriyyənin Adilə qarşı üsyanı təkcə idealın mövcud gerçəkliklərlə təzadını ifadə etmir, həm də artıq "qəhrəman" anlayışının etik və estetik məzmunlarının bir-birini tamamlamadığını göstərirdi, bununla da bir bədii kateqoriya kimi, tərkibi olduğu sosrealizmlə birgə estetik əhəmiyyətini itirmiş olurdu. Səriyyə bu sırada sonuncu surətdir., 50-ci illər nəsrinin "qəhrəman" ölçülərinə sığmayıb bir tərəfdən onun apologiyasını, digər baxımdan isə inkarını ziddiyyətli şəkildə özündə birləşdirir (Vaxtilə "Səriyyə məsələsi"nin ədəbi tənqiddə doğurduğu geniş mübahisələr barədə bax: Elçin, Tənqid və ədəbiyyatımızın problemləri, "Yazıçı", Bakı, 1981, səh. 174-189)." (Bax:Tehran Əlişanoğlu. "Qobustan" jurnalı, 1-2, 1998; Tehran Alışanoğlu. Azərbaycan yeni nəsri, Bakı, 1999, səh. 23; 25.)



Yeni mərhələ tənqidçilər, ədəbiyyatşünaslar nəslinin digər bir nümayəndəsi – İsmayıl Öməroğlu İlyas Əfəndiyev yaradıcılığını belə görürü: "İlyas Əfəndiyevin bədii nəsrində şəxsiyyətin fərdi xüsusiyyətlərini göstərmək, xarakterlərin özünəməxsusluğunu müəyyənləşdirmək, həyatın gedişində meydana çıxan insani və ictimai ziddiyyətlərin mahiyyətinin üzə çıxarılmasında fərdi münasibətlərin rolunu əsaslandırmaq, sübuta yetirmək kimi keyfiyyətlər ədəbiyyatımızda layiqincə qiymətləndirilmişdir." (Bax: İsmayıl Öməroğlu. İnsan həyatda və sənətdə. Bakı, 1998, səh. 106.)

Göründüyü kimi, "Səriyyə problemi" vaxtbivaxt, müxtəlif mərhələlərdə tənqidimizi düşündürsə də, 60-cı illərdə baş vermiş bu diskusiyalar və narahatlıqlar artıq arxada qalıb. Biz bilərəkdən dərinə getmədik. Çünki yanlışlıqlar burulğanındakı keçmişi "qurdalamaq" bizi də yanlışlığa gətirər. Həmçinin bu diskussiyalarda iştirak edənlərin də fikir fərqlərinə hörmət etmək borcümüzdur...

Onu, bir daha qeyd edək ki, bədiiliyin və yeniliyin təssübkeşi olan tənqidimiz Səriyyə obrazının yeniliyini qəbul edərək onu hər cür haqlı-haqsız tənqidlərdən qoruya bildi. Bu əsər İlyas Əfənndiyevin digər əsərləri kimi XX əsr nəsrimizin sevilə-sevilə oxunan şedevrlərindən biri oldu. Yazıçıya böyük məhəbbət və uğur qazandırdı.

Bu da nəsrimizin və ədəbi fikrimizin tarixinin bir fraqmentidir...

İndi isə İlyas Əfəndiyev yaradıcılığının digər bir faktı barəsində ədəbi fikir tariximizin digər bir fraqmentini nəzərdən keçirək.

****

“Sarıköynəklə Valehin nağılı” da təxminən eyni tərzdə, “Körpüsalanlar” kimi ədəbi mübahisələr doğurmuşdu. Azərbaycan bədii nəsrinin klassik nümunələri sırasında layiqli yer tutmuş bu romanın da yolu şahraq olmamışdı. Əlbəttə, İlyas müəllimin digər əsərləri kimİ “Sarıköynəklə Valehin nağılı” da oxucular və tənqidçilər arasında geniş maraq doğurmuşdu.

Onun ən maraqlı əsərlərindən – romanlarından biri olan “Sarıköynəklə Valehin nağılı”dır. Bu əsərin də “Körpüsalanlar” romanı kimi qəribə və maraqlı taleyi olmuş, ədəbi tənqiddə, ən doğrusu, ideoloji işlə məşğul olan yuxarı təşkilatlarda, orta nihilist siferada bu əsər xüsusi bir qısqanclıqla qarşılanmışdı. Əsas ittihamlardan ən əsası bu idi ki, əsər sovet ideologiyasına uyğun deyildi və sovet hüququnun “humanist” əsalarını dağıdır.

Yazıçının oğlu, Azərbaycanın xalq yazıçısı, filologiya elmlər doktoru, tənqidçi-ədəbiyyatşünas, professor Elçin Əfəndiyev həmin mübahisələri xatırlayaraq yazır:

"Yenə bir hadisə yadıma düşür.

«Sarıköynəklə Valehin nağılı» romanının çapından sonra, oxucuların böyük marağını, tənqidçilərin istəyini nəzərə alaraq, Yazıçılar İttifaqı, bu romanın



da, İlyas Əfəndiyevin başqa romanları və ümumiyyətlə, başqa əsərləri kimi, sovet ideoloji tələbləri baxımından ögeyliyinə baxmayaraq, Mərkəzi Komitədən də heç bir icazə almadan, məşhur Natəvan adına klubda romanın geniş müzakirəsini keçirdi və «Ədəbiyyat və İncəsənət» qəzeti bu müzakirəni geniş də işıqlandırdı (14 may 1977).

Və birdən-birə Mərkəzi Komitənin yüksək rütbəli çinovnikləri (xüsusən, mədəniyyət şöbəsinin müdiri) böyük bir cidd-cəhd və kin-küdurətlə Yazıçılar İttifaqından izahat tələb etməyə başladı ki, kimdən icazə alıblar və nə üçün bu romanın müzakirəsini keçiriblər, «Ədəbiyyat və İncəsənət» qəzetindən də başqa bir izahat tələb etdilər ki, nə üçün bu müzakirənin materiallarını dərc edib?

O zaman mən Yazıçılar İttifaqının katibi işləyirdim və o «MK tələbi»nin bütün təfərrüatı mənim yaxşı yadımdadır. İmran Qasımovu tez-tez MK-ya çağırırdılar, izahat tələb edirdilər, MK-nın ideoloji katibi, bilmirəm, romanı oxumuşdu, ya yox, amma İmran Qasımova: «Bu roman inkişaf etmiş sosializm cəmiyyətinə (o zaman belə bir termin dəbdə idi– E.) yad bir əsərdir» – deyirdi, İmran Qasımov isə, heç bir izahat verməyəcəklərini bildirir və romanı müdafiə edirdi.

Nəhayət, rəhmətlik İmran Qasımov, görəndə ki, Yazıçılar İttifaqından da, «Ədəbiyyat və İncəsənət» qəzetindən də əl çəkmirlər, təlimat almış peşəkar «keçi suyu bulandırma mütəxəssisləri» artıq fəaliyyətə başlayıb və məsələ «Sarıköynəklə Valehin nağılı»na qarşı əməlli-başlı bir ideoloji «ifşa»

kompaniyası ərəfəsinə gəlib çatıb, MK-nın o zamankı birinci katibi Heydər Əliyevin yanına getdi, məsələdən onu agah etdi və Heydər Əliyevin də elə İmranın yanındaca selektorun düymələrini basıb hadisəyə çox kəskin reaksiya verməsi ilə, həmin «izahat» tələbləri yox oldu...

Bununla bağlı bir maraqlı (və səciyyəvi!) epizod da yadıma düşür. Elə o günlərdən birində mən nə üçünsə MK-ya getmişdim və arakəsmədə mədəniyyət şöbəsinin müdiri ilə rastlaşdım. Məni sidq-ürəkdən qucaqlayıb rusca: «–Sağ olsun Heydər Əliyeviç!– dedi.– Filankəsi (MK-nın ideoloji katibinin adını çəkdi) yaxşı yerində oturtdu! İlyas müəllimə mənim təbrikimi çatdır!» Halbuki, həmin yoldaş Filankəsin qulağını elə bu adamın özü doldurmuşdu və «Sarıköynəklə Valehin nağılı» ətrafında yaranmış o hay-küyün də səbəbkarı elə o özü idi. Bu adam 1968-ci ildə İlyas Əfəndiyevin «Unuda bilmirəm» pyesinin tamaşasını da «millətçilik» təbliğ etdiyinə görə qadağan etmək istəyirdi.

Bu gün bütün bunları xoş bir əhvalla xatırlamaq da, eləcə bir əhvalla oxumaq da mümkündür, çünki bu gün bunların hamısı artıq tarixin səhifələridir, o vaxt isə həmin bu tarixin yarandığı günlər idi və əhvalı pozurdu, qanı qaraldırdı, əsəbləri gərginləşdirirdi, bir sözlə, həyatı zəhərləyirdi...

Amma o vaxt da həyat davam edirdi...

Və İlyas Əfəndiyev həmişəki səliqə-səhmanıyla öz yazı mizinin arxasında idi.

«Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» adlı povestini o, yuxarıda göstərdiyim tərzdə



yazırdı...” (Bax: Elçin, Seçilmiş əsərləri, 10 cilddə, c.5, s.304-305.)

Beləliklə, “Körpüsalan”larda olduğu kimi, “Sanköynəklə Valehin nağılı” da təxminən eyni tərzdə ədəbi mübahisələr doğurmuşdu. Azərbaycan bədii nəsrinin klassik nümunələri sırasında layiqli yer tutmuş bu romanın da yolu şahraq olmamışdı. Əlbəttə, İlyas müəllimin digər əsərləri kimİ “Sarıköynəklə Valehin nağılı” da oxucular və tənqidçilər arasında geniş maraq doğurmuşdu. Dövrün tanınmış tənqidçisi Bəkir Nəbiyev bu əsər barəsində də xatirə janrında olsa da həmin məsələləri belə təsvir edir:

“Mən də bu əsərdən çox mütəəssir olmuş və o zaman Yazıçılar İttifaqma rahbərlik edən İmran Qasımova müraciət edərək romanın Yazıçılar İttifaqının Natəvan klubunda geniş müzakirəsini keçirmək haqqında təşəbbüs irəli sürmüşdüm. Təşəbbüs qəbul edilmiş, ədibin özü ilə razıtaşdırılmış, həmin tədbirdə məruzə etmək də mənə həvalə olunmuşdu. Həm təcrübəli, həm də gənc qələm sahiblərinin fəal iştirak etdiyi müzakirə yüksək səviyyədə keçdi və əsər layiq olduğu qiyməti aldı, onun fikri-bədii keyfiyyətləri geniş təqdir olundu, məruzə və çıxışlar “Ədəbiyyat və incəsənət” qəzetinin 14 may 1977-ci il tarixli nömrəsində dərc edildi.

Lakin müəllif də, məruzəçi olaraq mən də bu hadisənin fərahini əməlli-başlı yaşamamışdıq ki, birdən-bira bu romanrn taleyinin üzərinı qara buludlar aldı. İlyas Əfəndiyevin istedadına qısqananlardan kimsə yuxanlara məlumat vermişdi ki, “bu roman inkişaf etmiş sosializm cəmiyyətinə yad bir əsərdir”.

Yeri gəlmişkən, qeyd edim ki, “Sarıköynəklə Valehin nağılı”nda o zamankı hüquq mühafızə orqanlannda yuva salmış çox ciddi neqativ hallar kəskin bədii tənqidin hədəfı olmuşdur. Bəli, Yazıçılar İttifaqının, “Ədəbiyyat və incəsənət” qəzetinin rəhbərlərindən ızahatlar tələb olundu, MK-da ideoloji işə başçılıq edənlər bu məsələ ilə əlaqədar olanlara, o cümlədən də, təbii ki, təşəbbüskara və məruzəçiyə əyri-əyri baxmağa başladılar. Nəhayət, İmran Qasımovun xahişi ilə o zaman Respublika partiya təşkilatına rehbərlik edən Heydər Əliyev işə qarışandan sonra “Sarıköynəklə Valehin nağılı” ətrafında qızışan təqib və təxribata son qoyuldu...”(Bax: Əfəndiyev İ. Seçilmiş əsərləri, 3 cilddə, 1 cild, səh. 12.)

Ədəbi tənqidimizin gəldiyi qənaətə görə İlyas Əfəndiyevin “Söyüdlü arx”, “Körpüsalanlar”, “Sarıköynəklə Valehin nağılı” kimi yazıldığı dövrün gerçəkliyini əks etdirən əsərlərinin qəhrəmanları mərkəzdən uzaq rayonlarda təzə binalar tikən, dağlar qoynundakı fermalara yol çəkən, gur çaylar üstündən körpülər salan, bu binalar, yollar, körpülər vasitəsilə kəndə mədəniyyət aparan, adamların rifahını yaxşılaşdıran, onların qəlbinin dərinliklərinə işıq salan nufzlu adamlardır. Həyatın müxtəlif sahələrində çalışan bu qəhrəmanların boyük bir qismi cavan qızlar və oğlanlardır. Lakin yaşından, fəaliyyət sahəsindən, ixtisasından asılı olmayaraq, ədibin qəhrəmanları öz böyük qayəsi, bu qayə uğrunda mübarizədə təzahür edən ehtirası, xarakterinin bütövlüyü, yaşadığı hisslərin, daxili təlatümün təbiiliyi ilə yaddaşlara həkk olunmuşlar. Bu xüsusiyyətlər keçmiş həyatımızm, tariximizin ən tipik lövhələrini əks etdirən “Üçatılan”, “Geriye baxma, qoca” romanlan üçün də səciyyəvidir.

Ədəbiyyatşünaslarımız, tədqiqatçılarımız yazıçının yaradıcılığı ilə bağlı qiymətli fikirlərini, mülahizələrini söyləmişlər. Görkəmli alimimiz Yaşar Qarayev yazırdı: “İlyas Əfəndiyev əfsanə, mahnı və nağıl kimi qələmə aldığı ilk hekayələrlə nəsrə gəlmişdir... Özü də “nağıl”, “əfsanə” sözlərini müəlif zahirən də gizlətmir, onu hətta başlığa, sərlövhəyə çıxarır. “Sarıköynəklə Valehin nağılı”nda belə səciyyəli “nağıl ifadələri”, təhkiyyə və kompozisiya əlamətləri də vardır: - “aldı Valeh, aldı Sarıköynək” və s. Sanki aşıq dastan danışır.” (Bax: Qarayev Y. Tənqid, problemlər, portretlər. Bakı, Azərnəşr, 1976, s.5. – 212 səh.

Görkəmli tənqidçinin bu müşahidəsini ustad yazıçının özü də xatirələrində təstiqləyir. İ.Əfəndiyev yazırdı: “Uşaq vaxtı eşitdiyim nağıllar, əfsanələr uzun illər boyunca həmişə mənimlə olmuşdur və qəribədir ki, illər keçdikcə də elə bil ki, onlar mənim üçün yeni boyalar, çalarlar əldə etmişdir. Sonralar məlum olmuşdur ki, məim uşaq təfəkkürümü tamam sehirli bir aləmə çəkib aparan həmin əhvalatların bir qismi Azərbaycan nağıllarından, hətta “Min bir gecə”dən gəlir, bir qismi dastanlarımızdan, əsatirlərimizdən, qədim inam və ayinlərimizdən, bir qismi də hədislərdən, dini şərhlərdən gəlir, onların bəzisini qələmə alarkən mən ilkin mənbələri yox, öz yaddaşımı, hisslərimi əsas götürmüşəm.” (Bax:Əfən-

diyev İ. Sən ey böyük Yaradan. Bakı, Şərq-Qərb, s.10.– 161 səh.)

Elə, böyük yazıçımızın əksər əsərlərini, həmçinin bu əsərini də oxucu və tənqidçilərə sevdirən əsas bu cəhətlər idi – xalq ruhuna bağlılıq...

Akademik Kamal Talıbzadə İlyas Əfəndiyevin romanından ("Sarıköynəklə Valehin nağılı") danışarkən, ilk növbədə, onu qeyd edir ki, bu roman "problemləri, quruluşu, konfliktin xarakteri, üslubu, təhkiyyənin manerası baxımından tənqidi fikrə yeni söz deməyə, müasir nəsrin ideya-sənətkarlıq xüsusiyyətlərindən, üslubi istiqamətlərindən söhbət açmağa imkan verir" (Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, 1989, səh. 437).

Tənqidçi yalnız romanın bu cəhətini qeyd etməklə qalmırdı, əksinə, əsəri təhlil gedişində onun verdiyi bu imkanlardan mümkün qədər dolğun istifadə edərək konkret romanın timsalında müasir nəsrin inkişaf meyllərini izləyir və meydana çıxarırdı.

Bunu təkcə tənqidçilər deyil, yazı-pozu adamları, yazıçının qələm dostları da hiss edirdilər. Xalq şairi Cabir Novruzun bu barədə müşahidələri səciyyəvidir. O, qəzetdə "İlyas Əfəndiyev itgisi..." adlı xatirə-məqalə dərc edilmişdir. Müəllif yazır:

"Onun oxunaqlı, orijinal hekayələri ilə nəsrimizə yeni ruh, yeni nəfəs gəldi. Təsadüfi deyil ki, hər dəfə bu hekayələr çap olunanda oxucuların böyük marağına səbəb olurdu. İlyas müəllimin ədəbiyyatımız, mədəniyyətimiz, mənəvi dəyərlərimiz haqqında çıxışları, mülahizələri, müsahibələri, söhbətləri öz təzəliyi, bənzərsizliyi ilə həmişə ehtiram doğururdu.



Amma İlyas müəllimi milyonlarla oxucular arasında, ədəbiyyatsevərlər içində sevdirən, tanıtdıran, geniş şöhrətləndirən nəsrimizdə yeni mərhələ olan "Söyüdlü arx", "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca" romanları olub. Bu əsərlər indi də müasir və gərəklidir, gələcək nəsillərimiz üçün də əsl tərbiyə məktəbi olacaqdır. Bu əsərlər çap olunanda geniş əks-sədaya, marağa, sözün yaxşı mənasında mübahisələrə, müzakirələrə, ədəbi aləmdə canlanmaya səbəb olurdu. Ona görə ki, yazıçı dövrün çox mühüm ictimai-siyasi. mənəvi problemlərinə toxunurdu." (Bax: Cabir Novruz. ("Xalq qəzeti", 15 noyabr 1998.)

Tənqidçi-ədəbiyyatşünas Vaqif Yusifli İlyas Əfəndiyev yaradıcılığını ümumən belə qiymətləndirir: "Elə sənətkar var ki, bütün yaradıcılığı boyu nə yazırsa, həyatın hansı problemlərinə müraciət edirsə, həmişə öz təbiətinə sadiq qalır. Buna yaradıcılıqda özünəməxsusluq deyirlər və bu özünəməxsusluq həmin sənətkarı ədəbiyyat aləmində bir kimsə ilə eyniləşdirməyə imkan vermir.

Xalq yazıçısı, görkəmli nasir və dramaturq İlyas Əfəndiyev məhz belə sənətkarlardandır. İlyas Əfəndiyev haqqında düşünəndə bir də quruyub xəzəl olsa belə, öz ətrini, rayihəsini itirməyən, elə bil yenicə dirilən boy çiçəyini xatırlayırsan. İnsanlar arasında ən zərif, ən kövrək, ən bakirə hissləri də həmin boy çiçəyinin ətri ilə müqayisə etmək olar. Bir də ona görə ki, İlyas Əfəndiyevin nəsri və dramaturgiyası bütünlükdə bu incə hissləri şairanə bir dillə tərənnüm

edir.” (Bax:Vaqif Yusifli. Tənqid yarpaqları. Bakı, 1998, səh. 26.)

Tənqidçinin müşahidə etdiyi onun bu özünəməxsusluğu, lirizmi, zərifliyi, ən kövrək və bakirə hissləri “Sarıköynəklə Valehin nağılı” romanında da özünü tam göstərir.

Vaqif Yusiflinin görkəmli tənqidçi Akif Hüseynovla birlikdə 1978-ci il ədəbi prosesində nəsr haqqında yazdıqları icmalda İlyas Əfəndiyevin “Sarıköynəklə Valehin nağılı” romanı geniş, əsaslı elmi-nəzəri və estetik təhlilə cəlb edilibdir. Məqaləədə oxuyuruq: “Romanın qəhrəmanları bizim müasirlərimizdir. İ.Əfəndiyev qələminin tanış xüsusiyyətlərini bu romanda da aşkar görürük. Əsərdə həyata realist və romantik baxış qovuşmuşdur. Sərt, kəskin boyalarla şeiriyyətli, poetik yüksəkliyə qaldırılmış lövhələr bir-birini əvəz edir.

...Romanın kompozisiyaında nağılvari əlamətlərin mövcudluğu təhkiyyəyə şirinlik və cazibədarlıq aşılayır. Müəllif burada nağıl-dastan üslubundan istifadə edərək dövrün və cəmiyyətin yaratdığı pisliklərə, mənfiliklərə, şərə qarşı mübarizə motivini önə çəkir, şirin bir təhkiyyədə təzadlı lövhələr yaradır.” (Bax: “Ədəbi proses – 1978 (nəsr,poeziya, dramaturgiya,tənqid)”, Bakı, “Elm” nəşriyyatı, 1980.)

Bu roman haqqında danışan digər bir tənqidçi, əsrin məziyyətlərini bunda görür:

"İlyas Əfəndiyevin bədii nəsrində şəxsiyyətin fərdi xüsusiyyətlərini göstərmək, xarakterlərin özünəməxsusluğunu müəyyənləşdirmək, həyatın gedişində meydana çıxan insani və ictimai ziddiyyətlərin



mahiyyətinin üzə çıxarılmasında fərdi münasibətlərin rolunu əsaslandırmaq, sübuta yetirmək kimi keyfiyyətlər diqqəti xüsusilə cəlb edir.” (İsmayıl Öməroğlu. İnsan həyatda və sənətdə. Bakı, 1998, səh. 106.)

“Sarıköynəklə Valehin nağılı” romanı oxuculara, gənclərə ciddi mənəvi-əxlaqi təsir göstərmiş, əsərin qəhrəmanlarının mövqeləri və xarakterləri örnəyə çevrilmişdi. Mətbuatı nəzərdən keçirərkən bir neçə nümunələrlə rastlaşdıq.

“Müxalifət" qəzetinin hüquq şöbəsinin reportyoru Sona Qasımova ixtisasca hüquqşünasdır. O yazır ki, “orta məktəbdə təhsil alarkən "Sarıköynəklə Valehin nağılı"nı (İlyas Əfəndiyev) oxuduqdan sonra, gələcəkdə hüquqşünas olmaq fikrinə gəlib." (Bax: "Bu gün" qəzeti, 9-13 sentyabr 1998.)

Məşhur xalq artisti İlham Əsgərov müsahibəsində jurnalistin sualını belə cavablandırır:

"- Yaratdığınız rollar arasında xaraktercə sizə yaxın olanı varmı?

- ... Məsələn, "Sarıköynəklə Valehin nağılı"ndakı (İlyas Əfəndiyev) Valeh... haradasa mənə oxşayır." ( Bax: İlham Əsgərov – müsahibə. "Yeni Azərbaycan" qəzeti, 22 avqust 1998.)

Xalq şairi, filologya doktoru Sabir Rüstəmxanlı İlyas Əfəndiyev yaradıcılığının ədəbi-estetik, mənəvi-əxlaqi, ruhi-psixoloji təirindən danışarkən yazır:

"Sevimli xalq yazıçımız İlyas Əfəndiyevin əsərləri dağlar arxasındakı uzaq dağ kəndlərində, sonsuz görünən yeniyetməlik və gənclik illərində bizim yaxın dostumuz olmuşdu. Hekayələrindən, povest-

lərindən can atdığımız bir həyatın, istedad və qabliyyətlə bütün qapıları açmaq mümkün olan, sevgisi şan-şöhrətdən, toxluqdan çox sadə halallığa, duyğulu nəcibliyə meyl edən bir dünyanın həniri üzümüzə vururdu. Ona öz yazıçımız kimi baxırdıq. Çünki gələcəyimizə olan ümidlərimizə qanad taxırdı; kənddə böyüməyin, kasıblığın üzüqaralı olmadığına, əksinə, bir çox hallarda üstünlük olduğuna inandırırdı. Təsvir etdiyi həyatın romantikası yeniyetməlik xəyallarımızla üst-üstə düşürdü. O sanki bizim yaşadığımız təbiətin şəklini çəkirdi." ( Bax: Sabir Rüstəmxanlı. "Ədəbiyyat qəzeti", 7 avqust 1998.)

Bütün bunlar İlyas Əfəndiyev yaradıcılığının təbiiliyindən, xarakterlərinin həyatiliyindən, hadisələrə həssas münasibətindən, yaratdığı gənclərin obrazlarındakı romantik vüsətdən, insanlar arasındakı münasibətlərdəki inandırıcı səmimiyyəti dürüst əks etdirməkdən irəli gəlirdi.

Böyük, həssas cənublu ziyalımız, yazıçı-publisist, ədəbiyyatşünas Doktor Cavad Heyət İlyas Əfəndiyevdən bəhs edən oçerkində bütün bunları duyaraq, yazır: "İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatında qüvvətli və qabaqcıl bir nasir və dramaturq kimi tanınmışdır... Onun əsərlərində incə lirika vardır. Hadisələrə olan həssas münasibəti nəticəsində ən sadə və adi mövzulara romantik vüsət vermək, hadisə və təzadlardakı, insanlar arasında olan münasibətlərdəki daxili duyum (əqidə) və qaynaqları açıb göstərmək, surətləri içəridən, ruhi hallarını baş verdiyi daxili aləmdən şərh etmək İlyas Əfəndiyevin yaradıcılığı üçün səciyyəvidir." (Bax: Doktor Cavad



Heyət. "Azərbaycan ədəbiyyatı tarixinə bir baxış", Bakı, 1998, səh. 267-268.)

Xalq yazıçısı Hüseyn Abbaszadə isə bu əsərin ən böyük məziyyətini onun yüksək bədii keyfiyyətində və müasirliyində görürdü: "Mən İlyas Əfəndiyevin «Sarıköynəklə Valehin nağılı» romanının oxucular və ədəbi ictimaiyyət tərəfindən hərarətlə qarşılanmasının əsas səbəbini onun bədii keyfıyyətində, sənətkarlıqla yazılmasında görürəm. Xalqı narahat edən problemlərə toxunmaq, onlardan bədii əsərlərdə vətəndaşlıq məsuliyyəti ilə söz açmaq vacib şərtlərdəndir və bu, ədəbiyyatın zəruri vəzifələrindən biridir...

Romanda hadisələr dramatik gərginlik və ardıcıllıqla bir-birini izləyir, dərin maraq hissi ilə oxucunu arxasınca aparır. Müasirlik böyük şərtdir." (Bax: Abbaszadə H. Müasirlik böyük şərtdir. (Azərbaycan Yazıçılar İttifaqında «Sarıköynəklə Valehin nağılı» romanının müzakirəsində çıxışı) //Ədəbiyyat və incəsənət. - 1977. - 14 may.)

Yuxarıda qeyd etdiyimiz kimi "Sarıköynəklə Valehin nağılı" ictimaiyyət arasında böyük rezonas doğurduğundn bu əsər "Müasirlik böyük şərtdir" problem işığında Azərbaycan Yazıçılar İttifaqında və Azərbaycan MEA-nən Nizami adına Ədəbiyyat İnstitutunun geniş Elmi şurasında ətraflı şəkildə müzakirə edilibdir. Bu müzakirələrdə dövrün ən tanınmış yazıçı, alim, tənqidçi, ədəbiyyatşünaslarından tutmuş, gənc tədqiqatçılara, oxuculara qədər iştirak etmiş, müzakirə və mübahisələrə qoşulmuşlar. Bu müzakirələrin geniş şərhi və xronikası "Ədəbiyyat və incəsənət" qəzetində (14 may 1977) əksini tapmışdır.

Burada Xalq yazıcılarından Əli Vəliyev, İmran Qasımov, Bayram Bayramov, Hüseyn Abbaszadə, Kamal Talıbzadə, Yaşar Qaryev, Əliağa Kürçaylı, Qulu Xəlilov, Nəriman Həsənzadə, Xalidə Hasilova, Pənah Xəlilov, Yəhya Seyidov, Yaqub İsmayılov, Seyfulla Əsədullayev, Əzizə Cəfərzadə, Əkbər Ağayev, Bəkir Nəbiyev, Gülrux Əlibəyova, Elçin, Kamran Məmmədov, təbii ki, İlya Əfəndiyevin özü və b. iştirak etmiş əsər haqqında maraqlı mülahizələr və fikirlər söyləmişlər. Ümumi nəticədə, bütün iştirakçılar əsərin yüksək ədəbi-bədii hadisə olduğu qənaətinə gəlmişlər.

Xalq yazıçısı Əli Vəliyevin çıxışı, elə bil, müzakirəyə bir fon, bir istiqamət vermiş olurdu. O, öz məzmunlu və səmimi çıxışını belə yekunlaşdırmışdı: “ İlyas Əfəndiyev bir sənətkar kimi həmişə həyatın işıqlı cəhətlərinə xüsusi diqqət verir və qələmə alır. Onun qəhrəmanları dövrümüzün qabaqcıl adamlarıdır. Bu qəhrəmanlar yaşayıb yaratmaqdan, xarüqələr yaratmaqdan həzz alırlar. Yüksək mədəniyyət, gözü-könlü tox, halal əməklə ömür sürən, əliəyrilərə, gözüdağmıqlara, vəziyyətdən sui-istifadə edən şöhrətpərəstlərə qarşı barışmaz olan bu adamlar ilk görüşdən oxucu və tamaşaçıların ürəyinə yol tapır, özünü sevdirir.” (Bax: “Ədəbiyyat və incəsənət” qəzeti, 14 may 1977.)

Professor Seyfulla Əsədullayev roman haqqında danışarkən fikrini belə ümumiləşdirmişdi:

“Müasirlik və novatorluq İlyas Əfəndiyev yaradıcılığının mühüm məziyyətlərindəndir. Yenilik hissi onda qüvvətlidir. O, daim axtarışda olan məzmun,



mövzu və bədii formalarla ədəbiyyatımızı zənginləşdirməyə çalışan yazıçılardandır. İlyas Əfəndiyev romantik üslubda yazılmış hekayə və povestlərin, psixoloji dramların və lirik səpkili realist romanların müəllifidir. Liriklik, romantika, psixoloji təhlil onun yaradıcılıq üslubunun ana xəttidir.” (Bax: Yenə orada.)

Professor Qulu Xəlilov isə fikrini belə bildirmişdir: “Onun təkcə bu romanı deyil, bütün hekayələri, oçerkləri, dramları, roman və povestləri, kino ssenariləri, məqalələri - tam halda yaradıcılığı müasir həyatın duru və şəffaf çeşməsindən su içmişdir... Onun bütün əsərlərində əsas, aparıcı problem müasir insan, bu insanın psixoloji, əxlaqi cəhətdən formalaşması, onun davranışı, fikir və düşüncələri, mənəvi dünyasıdır. İlyas Əfəndiyev müasir həyatımızın tərənnümçüsüdür.” (Bax: Yenə orada.)

Tənqidçi-ədəbiyyatşünas, professor Əkbər Ağayev isə elə bil, bütün müzakirəyə qoşulanların hamısının fikirlərini ümumiləşdirərək deyirdi: “İlyas Əfəndiyev müasirliyi dərindən duyan, orijinal, həssas yazıçıdır, onun qələmi, istedadının təkraredilməz xüsusiyyətləri öz təbiiliyi və aydınlığı ilə seçilir, əsərlərində incə bir lirika, romantik vüsət vardır, dili axıcı, şəffaf və poetikdir. Buraya yazıçının mənəvi aləminin dərinliklərinə baş vurmaq bacarığı da əlavə olunsa, gozümüz önündə İ.Əfəndiyevin yaradıcılığı üçün səciyyəvi olan məziyyətlərin geniş və əlvan mənzərəsi açılır...

İlyasın yaradıcılığı həmişə fəal vəziyyətdədir, daim hərəkət və inkişafdadır, yeni əsərlərlə zəngin-

ləşir və dolğunlaşır. “Sarıköynəklə Valehin nağılı” romanında da bütün bunları asanlıqla görmək mümkündür. Əlavə edim ki, bu əsərdə xoşagələn bir vüsət və şairanəlik var.” (Bax: Yenə orada).

Bu müzakirələr fonunda mətbuatda bir-birinin ardınca maraqlı və məzmunlu ədəbi-tənqidi məqalələr dərc edilmişdir. Bunlardan ən bariz nümunələri nəzərə çatdırırıq: Seyidov Y. «Sarıköynəklə Valehin nağılı» (Eyni adlı roman haqqında) //Ulduz. - 1979. - №l. - s.30-34. ; Nəbiyev Bəkir. Sarıköynəklə Valehin nağılı //Nəbiyev B. Təzə izlər sorağında. - Bakı: Yazıçı, 1979. - s.138-155. ; Məmmədov K. Saf məhəbbət dastanı. («Sarıköynəklə Valehin nağılı» romanı haqqında) //Kommunist. - 1979. - 3 avqust; Talıbzadə Kamal. Yazıçnın ideyası və təhkiyə. («Sarıköynəklə Valehin nağılı» romanı haqqında qeydlər) //Ədəbiyyat və incəsənət. - 1980. -4 aprel.

Adlarını çəkdiyimiz məqalələrdən bir nümunəyə nəzər salaq: “İlyas Əfəndiyev ən çox oxunan, sevilən, özü də heç kimə oxşamayan yazıçılarımızdandır. Onun öz mövzuları, həyat hadisələrinə öz yanaşma yolları və üsulu vardır. Bu yaradıcılığını məşhur edən problemlərində özünəməxsusluq, orijinallıq güclüdür. Ədib, adətən, hamı üçün aydın və məlum olan həyat problemlərinə müraciət etməyi sevmir, gerçəkliyin elə həqiqətlərini, elə məsələləri üzə çıxarmağı bacarır ki, onlar həm də yeni olur, ədəbi maraq oyadır, müasir problemlər barədə düşünənləri hərəkətə gətirir və təsadüfı deyil ki, ictimai müzakirəyə, mübahisəyə səbəb olurlar.” (Bax: Talıbzadə K. Yazıçının ideyası və təhkiyə. //Ədəbiyyat və incəsənət, 1980, 4 aprel.)



Maraqlı faktlardan biri də budur ki, İlyas müəllimin “başı bəlalar çəkmiş” hər iki əsəri - «Sarıköynək» və «Körpüsalanlar» romanları Moskvada «Sovetskiy pisatel nəşriyyatında yüksək tirajla çapdan çıxmiş, çoxmilyonlu rus dilli oxuculara çatdırılmış, İttifaq ədəbi tənqidi tərəfindən də qiymətləndirilmişdir.(Bax: Ədəbiyyat və inəcəsənət. - 1983. - 13 noyabr.)

Beləliklə, görürük ki, İ.Əfəndiyevin nəsri sovet nəsrinin şosioloji şablonlarını dağıtdı, sosialist realizminin estetik ehkamları ilə düz gəlməyən, xalq həyatının milli – mənəvi mənafeləri baxımından təcəssüm etdirən nəsr təmayülü yaratdı və ədəbiyyatımıza lirik-psixoloji üslub gətirdi.

Bununla yanaşı, Xalq yazıçısının dram əsərləri ilə də, yeni rejissor, aktyor, bəstəkar və rəssam nəsli formalaşdı. «İlyas Əfəndiyev teatrı»nın fəlsəfi-estetik və fıkri-bədii təravəti bu gün də oxucuların və tamaşaçıların vətənpərvərlik hissinin və estetik zövqünün formalasmasına öz təsirini göstərir.

Akademik, Azərbaycanın məşhur xalq yazıçısı Mirzə İbrahimov İlyas Əfəndiyevin ədəbiyyatımızdakı yerini belə təqdim etmişdi: “Azərbaycan ədəbiyyatı mənim nəzərimdə böyük və rəngarəng gülüstan isə, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravəti ilə dərhal diqqəti cəlb edən cazibədar toplu və dolğun bir çiçəklikdir.

İlyas Əfəndiyev yaradıcılıqda gözəlliyə, incəliyə, estetik zərifliyə meyl edən yazıçıdır. O, bədii əsər

üçün vacib xüsusiyyətlərə dilin ifadəli və obrazlı olmasına, xarakterlərin canlı və dolğun çıxmasına, süjet və kompozisiya bütövlüyünə ciddi diqqət yetirir, böyük əmək sərf edir, bu da nəticəsiz qalmır, onun əsərlərinin maraqlı, oxunaqlı olmasına kömək edir. Bu əmək və səyin mükafatı isə oxucuların məhəbbətidir ki, İlyas onun azlığından şikayət edə bilməz.” (Bax: İbrahimov M. Şəfalı işıqlar // Azərbaycan 1974, №11, s.12.)

Təkrar olsa da, bir də o fikrə qayıdırıq ki, həqiqətən də, İ.Əfəndiyev özünəməxsus cəsarətlə bədii əsərlərində və müsahibələrində azadlığımızı, milli müstəqilliyimizi, xalq həyatını azərbaycançılıq və türkçülük məfkurəsi ilə təcəssüm etdirərək XX əsr Azərbaycan ədəbiyyatının klassikinə çevrildi.

Xalq yazıçısı İlyas Əfəndiyev qüdrətli şəxsiyyəti, fenomenal bütövlüyü və zəngin yaradıcılığı ilə müasirlərinə, xüsusilə ədib və şairlərə, ümumiyyətlə ziyalılara milli sənətkar mədəniyyətinin nümunəsini göstərdi. Onun həyatı və şəxsiyyətinin özü bütöv bir ədəbi-tarixi epoxadır.

İlyas Əfəndiyevin qəhrəmanları daim yenilik hissi ilə yaşayır, öz əməllərilə insanların mənəvi dünyasına işıq salırlar. Belə ki, İlyas Əfəndiyev hər bir əsərində, hər bir qəhrəmanının timsalında oxucusunu görür, duyur, qiymətləndirir, yaşadır. Onun əsərləri təkcə kitab rəflərini bəzəmir, həm də ürəklərdə özü üçün ayrıca bir guşə yaradır. Bu guşənin gülüstan olması artıq öz hökmünü tapıb, öz təsdiqini gerçəkləşdirib. Belə ki, Azərbaycan adlı məmləktin bütün coğrafiyasını, tarixini, əxlaqını, mənəviyyatını, adət-



ənənəsini, bütövlükdə varlığını özündə əks etdirən bu əsərlər artıq bütün Azərbaycanın ədəbi-mədəni mülkiyyətinə, sərvətinə, varidatına çevrilib.

Yuxarıdakı xatirələrdən gördük ki, ulu öndər bir çox yazıçıların taleyində mühüm rol oynadığı kimi, müəyyən dar məqamlarda İlyas Əfəndiyevin də xilaskarına çevrilibdir. “Sarıköynəklə Valehin nağılı” romanını da qaragüruhların caynağından xilas etmişdi. Yeri gəlmişkən, qeyd etməyi vacib sayınq ki, Azerbaycan Respublikasmm prezidenti cənab Heydər Əliyev İlyas Əfəndiyevin əsərləri ilə yaxından tanış olmuş, pyeslərinin tamaşalarna baxmış, çıxışlanndan birində bildirdiyi kimi, onun yaradıcılığını boyük minnətdarlıq hissilə xatırlamışdı. Və biz ayrıca bölmədə bu barədə daha ətraflı danışacağıq...

****

Xalq şairi Zəlimxan Yaqub çıxışlarının birində haqlı olaraq demişdi: “Mənim düşüncəmə görə İlyas Əfəndiyev bütövlükdə Azərbaycan tarixidi, Qarabağ tarixidi. Böyük tənqidçimiz Yaşar Qarayev çox gözəl deyib ki, yeddi Qarabağnamə var, amma İlyas Əfəndiyev yaradıcılığı bütövlükdə səkkizinci Qarabağnamədir. Bəli, bu, doğrudan da belədir. İlyas Əfəndiyev əsil-nəcabətli bir ailənin yetirməsidir və oradan, Qarabağdan gətirdiyi o duruluğu, saflığı həmişə qorudu. Ona görə də nəsrin poeziyasını yarada bildi. Onun əsərlərini ən lirik şeir, bayatı kimi oxuyuram. Çünki onun yaradıcılığında xalq ruhu, dağ çiçəyinin

ətri, qayaların əzəməti, axar-baxarı var. Çünki bu cür insanlar tərbiyə məktəbidi, mədəniyyət, ibadət yeridi… İlyas Əfəndiyevi sevmək həm də Azərbaycanı sevməkdi, ədəbiyyatı, keçmişi, bu günü və gələcəyi, xalqı, dövləti, dövlətçiliyi sevməkdi.”

Yaşar müəllimin “İlyas Əfəndiyev üslubundakı lirizm” məsəlsinə münasibətini də, yeri gəlmişkən xatırladaq: «...əlbəttə, mübahisə etmək olar ki, İlyas Əfəndiyev daha çox nasirdir, ya dramaturq? Hətta mübahisə etmək olar ki, nəsrdə də, dramaturgiyada da o, daha çox ədibdir, yoxsa şairdir? Lakin bir şey mübahisəsizdir: İlyas Əfəndiyev, hər şeydən əvvəl, bir lirikdir, şairanə istedad və üsluba malikdir». (Bax: Qarayev Y. Müasirliyin sabitliyi. // Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, 1-ci cild, B., Yazıçı, 1984, s.5.)

Bu münasibətlə tanınmış dilçi-alim, filologiya elmləri doktoru, professor Qəzənfər Kazımovun fikri də diqqətəlayiqdir: "..."İlyas Əfəndiyev" sözündə ədəbi bir işıq, bir kövrəklik, yuxu aləmində uca insanın hiss etdiyi rahatlıq, yüngüllük, ecazkarlıq var. ... Digər nəsr ustalarımızın böyük zəhmətinə, müqəddəs ruhuna etinadsızlıq göstərmədən deyə bilərik ki, əgər nəsrin şeriyyətini öyrənmək lazım gələrsə, "Dədə Qorqud"dan sonra İlyas Əfəndiyevin "Qarı dağı", "Qəhrəman ilə bülbülün nağılı", "Tar", "Kiçik bir poema", "Apardı sellər Saranı" və başqa hekayələrini öyrənmək lazım gələrdi. Bu əsərlərdəki şeriyyət tədricən genişlənərək "Söyüdlü arx"a, "Körpüsalanlar"a, "Sarıköynəklə Valehin nağılı"na və başqa əsərlərə hopmuşdur." (Bu fakt “Sənətkarın



ikinci ömrü” (tərtibçi və redaktoru Elçindir) kitabından götürülmüşdür. Bakı, Cinar-Cap, 2002.)

Ümummilli lider Heydər Əliyev məhz bu xüsusiyyətlərinə görə İlyas Əfəndiyevin yaradıcılığına yüksək qiymət vermişdir: “Mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır.”

Bunlar isə yeni dövrün, müstəqillik dövrünün yanaşma prinsipləridir. Bu prinsipləri şərh edən Yaşar Qarayev yazır: “Keçmiş SSRİ-də, o cümlədən də xüsusilə Azərbaycanda minilliyin axırlarında baş verən tarixi ictimai hadisələr zəminində dövlət müstəqilliyi əldə etmiş ölkələrdə bərqərar olan yeni təfəkkür tərzi işığmda bu gün bir çox ədəbi, mədəni dəyərlərə, o cümlədən də bütünlükdə ədəbi prosesə münasibət əsaslı surətdə dəyişmiş, təzə baxımdan qiymətləndirilməyə başlanmışdır. Az qala dünənə qədər agır təzyiq və təsiri altında olduğumuz “ədəbiyyatın paıtiyalılığı”, “bədii yaradıcıığın sinfı səciyyəsi”, “sosialist realizmi yaradıcılıq metodunun qanunauyğunluqları” deyilən tələblər bir zamanlar zorla beyinlərə yeridilən “Proletkult’, “AzAPP” , “Tar daloy” və sair anlayışlar kimi artıq ədəbi məişətimizdən köçünü çəkib arxivlərin künclərində toz basmağa məhkum edilmişdir. Lakin bu heç də o

demək deyil ki, vaxtilə ədəbiyyat cəmiyyət qarşısında yerinə yetirməli olduğu böyük vəzifələrindən tamamilə uzaq düşmüşdür.

Əlbəttə yox. Klassik irsimizin görkəmli nümayəndələrinin yaradıcılığı kimi ötən əsrin sovet dövrü kəsiyinə məxsus ədəbiyyatımızın da ən qiymətli nümunələri gah həzin və kövrək lirik duyğular, gah vüsətli epik lövhələri, gah da gərgin dramatik kolliziyaları yüksək bədii səviyyədə əks etdırmək əsasında, bəzən müdrik nəsihətlər, bəzən də adamın yeddi qatından keçən kəskin satirik ifadələr vasitəsilə çağdaşlarımızın milli, mənəvi aləminin formalaşması, vətənpərvərlik duyğularının pərvəriş tapması, bəşəri ideallar ruhunda tərbiyələnməsi sahəsində öz tarixi vəzifəsini yorulmaq bilmədən yerinə yetirmişdir.

Azərbaycan ədəbiyyatının bir qədər fərqlə son yarım əsrini bu baxımdan araşdırarkən siması gözlərimiz önündə canlanan ən görkəmli sənətkarlardan biri xalq yazıçısı İlyas Əfəndiyevdir. O, həmvətənlərimizin humanist, yaradıcı təbiətini, pak məhəbbət duyğulanı, yeniliklə köhnəliyin mübarizəsini həm nəsr, həm də dram əsərlərində həyati konfliktlər, canlı xarakterlər əsasında yüksək sənətkarlıqla əks etdirən bir yazıçı idi.

Xalq, vətən, cəmiyyət, insanlıq qarşısında mənəvi borca münasibət onun qəhrəmanlarının daxili aləmini müəyyən etmək üçün başlıca meyar olmaqla yanaşı, həm də ədibin özünün sənətkar idealının mötəbər göstəricisi olmuşdur. Biz vaxtilə yazmışdıq ki, ədəbi-ictimai fıkir tariximizdə lirik-psixoloji üslubun



inkişafı və böyük uğurları bilavasitə və hamıdan çox llyas Əfəndiyevin şərəfli adı və əsərlərilə bağıidır." (Bax: Qarayev Y. Xarı bülbülün nağılı. Bakı: Azərnəşr, 1995, s.46.)

Tanınmış ədəbiyyatşünas-tənqidçi Şamil Salmanov da keçən əsrin bədii ədəbiyyatına baxışda yeni yanaşma və yeni təfəkkür işığının vacibliyindən danışaraq yazırdı: "Milli ədəbiyyatımızn tarixinə XX əsr artıq tamamlanmış bütöv bir ədəbi əsr kimi daxil olmuşdur. Müasir ədəbiyyatşünaslıq elmimizin də ən əsas, aktual vəzifələrindən biri hazirda bu əsr ədəbiyyatina yeni, daha sistemli, bitkin ədəbi-nəzəri münasibəti işləyib hazırlamaqdan ibarətdir.

XX əsrin Azərbaycan ədəbiyyatını yeni əsaslarla öyrənərkən onu da xüsusi olaraq nəzərə almaq lazimdir ki, əsrin 20-ci illərindən sonra 90-ci illərə qədər bütöv bir ədəbi mərhələ məhz sovet ədəbiyyatı, başqa təbirlə desək, sovet dövrü ədəbiyyatı mərhələsidir. Bu mərhələnin, ədəbiyyatimizin əsrin əvvəlindəki ədəbi-tarixi prosesindən Çin səddi ilə ayrilmasa da, eyni zamanda onunla eyniyyət də təşkil etmədiyi məlum həqiqətdir.

Bir çox cəhətdən bu mərhələ bütün əsrin ədəbiyyatinda yeni və mühüm bir ədəbi mərhələdir. Buna görə də onun yeni ədəbi-metodoloji dəyərlər və tələblər işığında öyrənilməsi indi xüsusi əhəmiyyət kəsb etməkdədir. Artıq müasir ədəbiyyatşünaslıqda belə bir fıkir təsbit olunmuşdur ki, "sovet ədəbiyyatı kiminsə uydurmasi deyil, o, real ədəbi-tarixi kateqoriyadir; onun konkret tarixi və estetik mündəricəsi vardir və onu tədqiq edərkən, əgər obyektiv olmaq

istəyiriksə, biz mütləq bu tarixdən, estetik mündəricdən çıxış etməliyik". (Bax: Salmanov Ş. Tarixilik prinsipi və bədii proses; Ədəbiyyat məcmuəsi, XVII c. Bakı, 1999, s. 295.)

Əlbəttə, bu mühüm dövrdə yeni təfəkkür tərzi ilə seçilən, fərqlənən ədəbiyyatımızı yaratmış, onun təşəkkül və inkişafında iştirak etmiş, öz yaradıcılıq axtarışları ilə bu prossesə hiss olunacaq dərəcədə təsir göstərımiş sənətkarlarımızdan biri şübhəiz ki, xalq yazıçısı İlyas Əfəndiyevdir.

Ədəbi tənqidimiz dönə-dönə qeyd edibdir ki, İlyas Əfəndiyev Azərbaycan və Avropa ədəbiyyatının ənənələrinə söykənərək, xüsusilə 60-cı illər mərhələsindən başlayaraq kiçik hekayə və yığcam roman-povest janrında kamil novator səviyyəsinə yüksəlmişdir. Onun ədəbi-bədii üslubunda Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli üslubunun şirinliyinin tamamilə orjinal lirik-psixoloji bir tərzdə təqdimatını görürük.

Cəlil Məmmədquluzadənin hekayələrindən bəhs edən, bu hekayələrin analiik təhlillərini verən akademik İsa Həbibbəyli yazır: "...kiçik hekayərdə real gerçəklik və həyati obrazlar məharətlə ümumiləşdirilmişdir. Kiçik hekayənin klassik nümunəsi sayılmağa layiq olan həmin əsərlərdə novatorluq janrın yeniliyi ilə yanaşı daha çox sosioloji tipikləşdirmədə və qəhrəmanın ictimai və fərdi psixologiyasının hərtərəfli əksində daha aydın nəzərə çarpırdı. Mirzə Cəlil bu yolla milli nəsrin kiçik formasnı dünya ədəbiyyatının böyük meydanına çıxara bildi". (Bax:



İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, s. 368.)

Müqayisə edəsi olsaq, bu elmi-nəzəri fikri tamamilə İlyas Əfəndiyevin yaradıcılığına da şamil etmək mümkündür. İlyas müəllim qəhrəmanın fərdi psixologiyasını ictimai mühitin diqtə etdiyi psixologiyanın önünə keçirdi. Dövrünün intellektual müstəvidə olan demokratik dünyagörüşlü, humanist, mübariz qəhrəmanlarını – Nuriyyələrini, Səriyyələrini, Valeh və Sarıköynəklərini ədəbiyyata gətirdi…

Qeyd edək ki, o dövr ədəbi-tənqidimizin fikrincə XX əsrin əllinci-altmışıncı illərindən etibarən ictimai həyatda baş verən dəyişiklikləri ilkin duyan, yetgin insanı, onun mürəkkəb daxili aləmini, sevinc və qayğılarını, kədər və faciələrini sənətın orjinal vasitələrilə əks etdirən yazıçılar sırasında İlyas Əfəndiyevin xüsusi movqeyi olmuşdur.

Yazıçnın üslubunda lirika, romantika, psixoloji təhlil elementlərinin üstünlük təşkil etməsi, əslində onun nəsrə gətirdiyi və vahid üslubi axara çevirdiyi yenilik idi. Bu yeniliyi qeyd edən ədəbi tənqidimizi o dövrdəki tanınmış nümayəndələrindən biri olan, prof. Yəhya Seyidov yazırdı: "Bu üslub ona imkan verirdi ki, şəxsiyyətin ictimai əxlaqi keyfiyyətlərinin müəyyənləşməsində ciddi rol oynayan duyğuları lirik-romantik planda işıqlandıra bilsin. Bu duyğular yazıçının gerçək həyatla, dərindən müşahidə etdiyi insanlarla, hadisələrlə bağlı duyğuları idi. Yazıçının subyektiv "mən"ində baş qaldıran duyğular onun qəlb və ürək süzgəcindən keçir, gerçək həyatın təs-

viri və təhlilinə yönəlirdi.” (Bax: Seyidov Y. İ.Əfəndiyev. Bakı: Azərnəşr, 1975, s. 19.)

Məlum səbəblər üzündən vaxtilə bizim bir sıra əsərlərimizdə vulqar sosiologizm təzahürləri çox qüvvətlənmiş, bu da öz növbəsində diqqəti insan mənəviyyatının dərin psixoloji şərh və təhlilindən uzaqlaşdırmışdı, “konfiliktsizlik” deyilən anlayış meydana çıxarmışdır. Bu zaman İlyas Əfəndiyevin əsərləri ilə nəsr və dramaturgiyamıza əsl həyati konfliktlər əsasında yaradılmış qəhrəmanların, təmiz ürəkli, prinsipial və mərd adamların yeni bədii surətləri gəldi və bunlar ədəbi tənqidin süzgəcindən, təhlilindən uğurla keçdi.

“Ədəbi tənqidimizin gəldiyi qənaətə görə İlyas Əfəndiyevin “Söyüdlü arx”, “Körpüsalanlar”, “Sarıköynəklə Valehin nağılı” kimi yazıldığı dövrün gerçəkliyini əks etdirən əsərlərinin qəhrəmanları ...adamların rifahını yaxşılaşdıran, onların qəlbinin dərinliklərinə işıq salan nufzlu adamlardır; ...ədibin qəhrəmanları öz böyük qayəsi, bu qayə uğrunda mübarizədə təzahür edən ehtirası, xarakterinin bütövlüyü, yaşadığı hisslərin, daxili təlatümün təbiiliyi ilə yaddaşlara həkk olunmuşlar. Bu xüsusiyyətlər keçmiş həyatımızm, tariximizin ən tipik lövhələrini əks etdirən “Üçatılan”, “Geriye baxma, qoca” romanlan üçün də səciyyəvidir...” (Bax: Bəkir Nəbiyevin göstərilən məqaləsi.)

Ədəbi tənqidin diqqət mərkəzində olan mühüm problemlərdən biri də İlyas Əfəndiyev yaradıcılığındakı psixologizm problemidir. Bu problemlə bağlı tənqidçi-tədqiqatçılardan Vilayət Quliyev, Məriyəm



Əlizadə, İlham Rəhimli, Rəhim Əliyev, Muxtar İmanov, Vəli Nəbiyev, Nizaməddin Şəmsizadə, Vaqif Yusifli, Şirindil Alışanov, Vəfa Xanoğlan öz məqalə və tədqiqatlarında bu problemi işıqlandırmış, psixologizmi İlyas Əfəndiyevin mühüm və aparıcı yaradıcılıq maneralarından hesab etmişlər.

Ədəbi tənqid və ədəbiyyatşünaslıq psixologizmi bir bədii üsul kimi ədəbi janrlarda (roman, povest, hekayə, ssenari, dram) bədii ifadə vasitəsi kimi işlənərək mahiyyətcə yeni forma almasını xüsusi olaraq bir ədəbi prinsip kimi təqdim edir. Psixologizm problemini 60-70-ci illər Azərbaycan nəsrinin əsasında tədqiq edən filologiya elmləri doktoru Muxtar İmanov nəsrdə psixologizmi həyat həqiqətlərini ədəbi- bədii əksetdirmənin üsul və prinsiplərindən biri kimi təqdim edir: “Psixologizmin üstünlük qazandığı nəsr əsərlərində özünütəhlilin ətraf aləmin təhlillə bağlılığı özünü təkcə onda göstərmir ki, müəllif ara-sıra qəhrəmanının düşüncələrinin ifadəsində baş verən əhvalatların bilavasitə təsvirinə keçir. Ən başlıcası onda göstərir ki, ətraf aləm qəhrəmanın fikir dünyasında, daxili hekayə və dramında daimi iştirakçı kimi çıxış edir.” (Bax: İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm (60-70-ci illər).Bakı,1991, s.31.)

Tədqiqatçı Vəfa Xanoğlan “İlyas Əfəndiyevin nəsrində psixologizm və polifonizm” adlandırdığı məqaləsində yazır: “İlyas Əfəndiyev nəsrinin ən səciyyəvi cəhətlərindən biri ondakı psixologizmdir, insanların daxili aləmini, onların mənəvi dünyasındakı ziddiyyətləri nəsrin obyektinə çevirmə-

sidir. Roman və povestlərində yazıçının əsas məqsədi şəxsiyyətin daxili aləminin mübhəm çalarlarını, insan taleyinin zaman axarında başqalaşmasını, başqa sözlə, zaman-insan-tale problemini aydınlatmaqdan, mənəvi suverenliyi ifadə etməkdən ibarət olub. Qəhrəmanın dərin psixoloji aləminə nüfuz etmək yazıçının həm nəsrinə, həm də dramaturgiyasına xas olan ən əlamətdar xüsusiyyətlərdən biridir.” (Bax: ADMİU-nun “Əsərləri”, 30 mart 2011-ci il, 5-ci sayı, s.21.)

****

Tənqidçi və ədəbiyyatşünasların qeyd etdiklərinə görə yazıçının üslubundakı lirizm ovqatını və psixologizm axarını şərtləndirən cəhələrdən biri də onun xalq təfəkkürünə, folklora dərindən bələdliyi olmuşdur. (Bax: Şükürova G.V. "İlyas Əfəndiyevin yaradıcılığında folklor" (namizədlik dissertasiyası). Bakı. 2006; “İlyas Əfəndiyev yaradıcılığında xalq ədəbiyyatı, "Dil və ədəbiyyat" jurnalı, 1999, say 3, s.25.; Əlavə bax: Şükürova G.V. İlyas Əfəndiyevin yaradıcılığında folklor motivləri. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı, 2007, 28 səh.; “İlyas Əfəndiyevin hekayələrində mifizm.”, Dil və ədəbiyyat, say: 1(26), Bakı, 2000, s.61-63; “İlyas Əfəndiyevin yaradıcılığında Qarabağ mövzusu və folklor.”, Dil və ədəbiyyat, say: 2(27), Bakı, 2000, səh.77-80.; “İlyas Əfəndiyev yaradıcılığında əfsanə, rəvayət, nağıl, dastan süjetlərindən və motivlərindən istifadə.”, Dil və ədəbiyyat, say:4(38), Bakı, 2003, s.49-53.; “İlyas Əfəndiyev yaradıcılığında bayatı, aşıq yaradıcılığı və xalq mahnılarından bəhrələnmə.”, Dil və ədəbiyyat, say: 4(38),Bakı, 2003, s.53-58.)



Bu münasibətlə İlyas Əfəndiyevin özü yazırdı: "Uşaq vaxtı eşitdiyim nağıllar, əfsanələr uzun illər boyunca mənimlə olmuşdur və qəribədir ki, illər keçdikcə elə bil ki, onlar mənim üçün yeni boyalar, çalarlar əldə etmişdir. Sonralar məlum olmuşdur ki, mənim uşaq təfəkkürümü tamam sehrli bir aləmə çəkib aparan həmin əhvalatların bir qismi Azərbaycan nağıllarından, qədim inam və ayinlərimizdən, bir qismi də hədislərdən, dini şərhlərdən gəlir, onların bəzisini qələmə alarkən mən ilkin mənbələri yox, öz yaddaşımı, hisslərimi əsas götürmüşəm." (Bax: Əfəndiyev İ. Sən ey böyük yaradan. Bakı, 1997, s.10.)

Bu cəhətdən tənqidçi, ədəbiyyatşünas, şair, filologiya elmlər doktoru Qasım Qasımzadənin müşahidəsi, elə bil ki, ədəbi tənqidimizin bu problemlə bağlı fikirlərini, mülahizələrini yığcam bir şəkildə ümumiləşdirmişdir. Müəllif “Tarixə müasir baxışın yeniliyi” məqaləsində yazır: “Sənətkarın müasirliyi elə ancaq onun əsərlərinin ideya-məzmun vacibliyində deyil, həm də əhvalatın, fikrin ifadəsindəki üslub müasirliyindədir. ...İ.Əfəndiyev üslubu həmişə daxili yeniləşmə gedişatlı, milli xüsusiyyəti ilə seçilən üslubdur. Nağıl-dastan şirinliyi də, klassik poeziya nəfəsi də, müasair nəsrin bir sıra novator axtarışları da müəyyən ölçü dairəsində burada məskundur. 60-70-ci illər ədəbiyyatında, xüsusən, nəsrindəki yenilik-

ləri, psixologizmi, yazı manerasındakı orjinallığı çox zaman həmin dövrdə ədəbiyyata gələnlərin adı ilə bağlayırlar. Lakin İlyas Əfəndiyev bu bölgüdə yaşlı nəslin nümayəndəsi kimi yeniləşmə prosesində öz yeri var və gənc qüvvələrə istiqamət verənlərdəndir.

Bədii ədəbiyyatda, xüsusən xalq yaradıcılığında bir növ, "calaq etmə" mənasında işlənən "kontaminasiya" termini var. Yəni zaman keçdikcə, əsrlər ötdükcə xalq öz yaratdıqlarına bir də qayıdıb nəzər yetirir, onu köhnəlkdən təmizləyir, dövrə müvafiq əlavələrlə təzələyir. İlyas Əfəndiyev də böyük sənətkarlıq intuisiyası ilə qələmini dövrə uyğun üslubi məziyyətlərlə zənginləşdirib təzələyir, həmişə ədəbiyyatın ön sıralarında gedir." (Bax: Qasımzadə Qasım. Ədəbiyyatımız, mənənəviyyatımız, Bakı, Yazıçı, 1988, s.243-244.)

Tənqidçi-ədəbiyyatşünas "bu zənginləşmə" prosesinin ən güclü amilini görkəmli nasirin folklora müraciətində görərək fikrini belə davam etdirir: "Bizcə ədibin indi nağıla, folklora müraciətini (bunu ən çox müəllifin son illərdə yazdığı üç əsərə - "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca", "Üçatılan" romanlarına aid edirik) səbəblərindən biri müasir texniki tərəqqinin təsiri ilə xalqın bir çox nəcib qənaətləri – mərdlik, namus, vəfa barədəki poetik dünyası xələldar olmuş, yaxud başqa məzmun kəsb etmişdir, bir növ ötən günlərdə qalan xatirəyə - nağıla çevrilmişdir. Öz estetik idealına həmişə sadiq qalan bir ustad kimi tanıdığımız ədib belə bədii zərurət hallarında folklordan, nağıl tərzindən bəhrələnib və-



ziyyətdən məharətlə çıxır." (Bax: Yenə orada, s.244.)

Beləliklə, ədəbi tənqidin müşahidələrindən (Bəkir Nəbiyev, Yəhya Seyidov, Yaqub İsmayılov, Yaşar Qarayev, Əmin Əfəndiyev və b.) məlum olur ki, yarım əsrdən çox yaradıcılıq yolu keçən İlyas Əfəndiyev öz dərin məzmunlu əsərlərində xalqımızın keçdiyi tarixi yolun milli həyatımızda, məişətimizdə, şüurumuzda, psixlogiyamızda baş verən hadisələri işıqlandırmışdır.

Bu prosesi görkəmli tənqidçi Yaşar Qarayev belə şərh edir: "İlyas Əfəndiyev əfsanə, mahnı və nağıl kimi qələmə aldığı ilk hekayələrlə nəsrə gəlmişdir... Özü də "nağıl", "əfasnə" sözlərini müəllif zahirən də gizlətmir, onu hətta başlığa, sərlövhəyə çıxarır. "Sarıköynəklə Valehin nağılı"nda belə səciyyəvi "nağıl ifadələri", təhkiyyə və kompozisiya əlamətləri də vardır: - "aldı Valeh, aldı Sarıköynək" və s. Sanki aşıq dastan danışır." (Bax:Qarayev Y. Boy çiçəyinin ətri (ön söz). Əfəndiyev İ. Seçilmiş əsərləri, 6 cilddə, 1 cild, Bakı, Yazıçı, 1984, s.5. – 364 səh.)

Beləliklə məlum olur ki, yazıçının əsərlərini oxucuya sevdirən, onu xalqın sevimli sənətkarına çevirən əsas amillərdən biri, məhz onun xalq yaradıcılığına dərindən bələd olması və ondan yaradıcı surətdə bəhrələnməsidir ki, bunu da ilk dəfə ədəbi tənqid üzə çıxarmışdır...

Tanınmış dilçi alim, professor Tofiq Hacıyev yazır: "İlyas Əfəndiyev yaradıcılığı əsasən milli ədəbi ənənələrimizin yeni forma və məzmununda davam və inkişaf etdirilmişdir. Bədii əsərlərinin dili əfsanə,

rəvayət, nağıl və dastanların leksikasından gələn üslubi çalarlarla zəngindir. El ədəbiyyatından gələn dərin hikmət, hər bir sözü yerində işlətmək, yüksək ideya-məzmun, fəlsəfi dərinlik, sistemli sintaktik düzüm, bədiilik, obrazlılıq, ləngərli deyim ekspressivliyi, axıcılıq və yüksək şeiriyyət bu əsərlərin təsirliliyini, estetik siqlətini, bədii hüsnünü və məna dərinliyini daha da artırır." (Bax: Hacıyev T. Şerimiz, nəsrimiz, ədəbi dilimiz. Bakı, Yazıçı, 1990, 177.)

Müsahibələrinin birində isə xalq yazıçısı yazırdı: "...Bizim valehedici el ədəbiyyatımızın mənə çox təsiri olub. Mən uşaqlıqda el nağıllarını, el qoşmalarını çox eşitmişəm. Bizim yerlərdə uzun qış gecələrində xoruz banına qədər nağıl deyərdilər." (Bax: İlyas Əfəndiyev: Yazıçı üçün dil onun ürəyinin tərcümanıdır. "Qobustan" jur., 2009, say.1.)

Elə bunun nəticəsi olaraq "İlyas Əfəndiyevin yaradıcılığında folklor motivləri" mövzusunda tədqiqat-dissertasiya işinin yazılması vacibliyi ortaya çıxmış, Gülxani Pənah bu mövzuda monoqrafiya yazmış, dissertasiya müdafiə etmişdir. Bu da, ədəbi tənqidimizin ədəbiyyatşünaslığın tədqiqat siferasına mühüm təsir və istiqamət verməsinə bariz bir misaldır...

Bu cəhətdən onun "İlyas Əfəndiyevin "Qəhrəman və bülbülün nağılı" hekayəsində folklor nümunələri" və "İlyas Əfəndiyev yaradıcılığında xalq ədəbiyyatı", "İlyas Əfəndiyev yaradıcılığında əfsanə, rəvayət, nağıl, dastan süjetlərindən və motivlərindən istifadə", "İlyas Əfəndiyev yaradıcılığında bayatı, aşıq yaradıcılığı və xalq mahnılarından bəhrələnmə" təkin



elmi məqalələri diqqəti çəkir. Tədqiqat xarakteri daşıyan bu məqalələrdə İlyas Əfəndiyevin ən sıx tellərlə Azərbaycan folkloruna bağlı olması və yeri düşdükcə folklordan böyük məharətlə istifadə etməsi tədqiq və təhlil olunur.

Müəllif yazır: "İlyas Əfəndiyevin əsərlərinin hər biri və bu əsərlərdə istifadə etdiyi xalq ədəbiyyatının nümunələri böyük tərbiyyəvi həyat məktəbidir. O, xalqını, elini, obasını sevənləri, onların yüksək əxlaqi keyfiyyətlərini böyük məhəbbətlə qələmə almağı, xalqına, torpağına pis gözlə baxanları, yurdunu zəbt etmək üçün günahsız qanlar axıdanlara qarşı nifrət hissi yaratmağı bacarmış, hər bir oxucuda vətənə, elinə, torpağına məhəbbət, sədaqət hissini artırmağa çalışmışdır... Xalq ədəbiyyatına həmişə sənətkarlıqla yanaşmış İlyas Əfəndiyev bu xalq hikmətlərindən yaratdığı əsərin bədii dəyərini artırmaq üçün yeni ruhda onlardan istifadə etmişdir." (Bax: G.V.Şükürova. "İlyas Əfəndiyev yaradıcılığında xalq ədəbiyyatı", "Dil və ədəbiyyat" jurnalı, 1999, say 3, s.25.)

İlyas Əfəndiyevə qəhrəmanının daxili aləmini açmaq, onların könlündən keçən arzu və istəkləri, qəmi, qubarı, sevinci daha təsirli, daha qabarıq şəkildə vermək üçün eldən gələn bir bayatı da bəs edir. Əsərlərində milli koloriti artırmaq üçün müəllif roman, povest və hekayələrində, dram əsərlərində el kədərini, el sevinc və istəyini ifadə etmək üçün dərin məzmunlu, geniş yayılmış bayatılardan yararlanır.

Sənətkarın həyatı ilə tanışlıq göstərir ki, "onun ömrünün ən gözəl çağları olan uşaqlıq illəri bu ba-

yatıların həzin zəngulələri üstündə köklənmişdir.” (Bax: İlyas Əfəndiyev: Yazıçı üçün dil onun ürəyinin tərcümanıdır. “Qobustan” jur., 2009, say.1.)

Bu cəhətdən Gülxani Pənahın (Şükürovanın) “İlyas Əfəndiyev yaradıcılığında bayatı, aşıq yaradıcılığı və xalq mahnılarından bəhrələnmə” məqaləsinin nəticələri diqqəti çəkir. (Bax: “İlyas Əfəndiyev yaradıcılığında bayatı, aşıq yaradıcılığı və xalq mahnılarından bəhrələnmə.”, Dil və ədəbiyyat, say: 4(38), Bakı, 2003, s.53-58.) Bu məqalədə İlyas Əfəndiyevin xalq bayatılarından yaradıcılığında istifadə faktları aşkarlanır.

Tədqiqatçı yazır: “İ. Əfəndiyevin əsərlərində milli koloriti artırmaq üçün bir bədii priyom kimi istifadə etdiyi xalqımızın yaratdığı qiymətli söz abidələrindən olan bayatılarda əsrlərin, qərinələrin qucağında uyuyan bir millətin, xalqın kədəri, sevinci, qəmi, arzusu, istəyi, cövrü-cəfası öz əksinin tapmışdır.” (Bax: Yenə orada, s.53.)

Tədqiqatçı dürüst müəyyənləşdirir ki, “bayatıdan yaradıcılığında istifadə priyomu özü də İ.Əfəndiyev sənətində göydəndüşmə deyil. Onun ömrünün ən gözəl çağları olan uşaqlıq illəri bu bayatıların həzin zəngulələri üstündə köklənib və ömrünün o kiçik çağlarından eşitdiyi bu sənət nümunələri onun yaddaşına həkk olunub”

İlyas Əfəndiyev əsərində bu yaddaşı belə təzəliyir: “Köç hündür dağın döşündən sallanmış el yolu ilə getdikcə mənə elə gəlirdi ki, ulduzlu göyün bir parçası, dəvənin yırğalana-yırğalana getməsi... mənə yuxu gətirirdi. Hardan gəlirik? Hara gedirik?...



bilinmirdi. Birdən köçün qabağıncan nərin üstündə gedən Səkinə nənə bu ulduzlu göyün altında, bu ulduzlu dərənin üstündə uca səslə bayatı çağırdı:

Aşıq gecələr gələr,
Yatıb dincələr, gələr.
İllər mübah keçəndə
Karvan gecələr gələr

Səkinə nənə ilə yaşıd olan Mustafaoğlu da köçün arxa tərəfindən başqa bir bayatı çağırır. Bu bayatılardakı məna tutumu, axıcılıq, ürəyə yatımlılıq güclüdür. Yazıçı qəhrəmanın daxili aləmini bu misralar üzərində kökləyir. Hadisələri danışan qəhrəman bu bayatılarda şahidi olduğu hadisələrdə qəhrəmanlarının daxili aləmindən xəbər verən bir məna yaxınlığı gəzir. Onların başına gələn faciələrin köklərini eşitdiyi qəmli misralarda tapır: “Sükut içində zınqrov səsləri sanki asta – asta Cahargah muğamına çevrilərək mənim xəyalımı çəkib dərk eləmədiyim, ancaq əsrarlı şirinliyini hiss etdiyim uzaqlara aparırdı və bu naməlum uzaqlarda eynilə belə aylı – ulduzlu qaranlıqda çöllərdə gedən Qızyetəri, gah qızıl taxtda əyləşən, özü də mənim anam kimi gözəl olan pərilər padşahını və onun qabağında rəqs eyləyən qızları görürdüm.” ( Bax: Əfəndiyev İ. Seçilmiş əsərləri 7 cilddə, 6-cı cild, Bakı, “Çinar-Çap”, 2002, s.153.)

İ.Əfəndiyev yaradıcılığı bu gözəl sənət nümunələrini yaradan xalq təfəkkürünün zəngin xəzinəsi üstündə pərvəriş tapıb. Kamil sənət nümunələri olan bu folklor nümunələrinin hər biri bir qiymətli sənət abidəsidir.

İ.Əfəndiyevin öz əsərlərində müraciət etdiyi bayatılar da onun yaratdığı obrazın fikir və arzularını ifadə edir. Qızyetər çoban Mahmudu sevir, lakin onun sevgisi el içində yaxşı qarşılanmır. Ərsiz, dul, üç övlad anası Qızyetərin sadə xalq içində kinayəylə qarşılanan məhəbbəti ona ancaq tənə gətirir. Elin eyham və tənələrindən, kinayəli baxışlarından uzaq olmaq üçün Qızyetər yanıqlı-yanıqlı çobandan xahiş edir:

Şamamanın gülü sarı,
Üzməmişəm, gülü sarı.
Apar məni, canım çoban,
Gün çıxmamış aran sarı.
(Bax: Yenə orada.)

Yuxarıda obrazların dilindən deyilən bu bayatılar yazıçının qəhrəmanının öz daxili aləminin ovqtı kimi səslənir. Eldən gələn bu dörd misra qəhrəmanın daxili aləmini açmaq, onun zəngin mənəvi əxlaqi keyfiyyətlərə malik olduğunu, öz milli mənəvi dəyərləri üzərində kökləndiyini oxucuya çatdırmaq üçün qiymətli mənbədir. Vətəninə, yaşadığı məkana bəslənən sonsuz məhəbbəti hər şeydən üstün tutan yazıçı bu kiçik, lakin dərin məzmunlu bayatıdan yararlanmaqla qəhrəmanının qəlbindəki ayrılıqdan doğan səmimi hissləri daha obrazlı şəkildə verir.

Yazıçı "Külli-Qarabağın abı-həyatı, nərmə-nazik bayatıdır-bayatı"ları (M.P.Vaqif - red.) Qarabağlı qəhrəmanlarının dilində istifadə etməklə yaratdığı əsərin bədii-estetik dəyərini artırmışdır. Bu nümunələrdə onun el ədəbiyyatına qırılmaz tellərlə bağlılığını, xalq şerinə olan mehr-məhəbbətdən irəli gəldiyini görürük.



Ümumiyyətlə Qarabağ həyatı, mühiti, təbiəti İlyas Əfəndiyevin bütün yaradıcılığının baş qəhrəmanıdır. Bunu dürüst duyan xalq şairi, akademik Bəxtiyar Vahabzadə yazırdı: "Qarabağ torpağından boy atan əziz qardaşım, Sizin, demək olar ki, bütün əsərlərinizə Qarabağın ab-havası, ruhu, özünəməxsus təbiəti, bir sözlə, bütün gözəllikləri hopub. Sizin əsərlərinizdə Daşaltı çayının şırıltısı, Xarı bülbülün əfsanəvi gözəlliyi, İsa bulağının zümzüməsi, Qarabağ bülbüllərinin cəhcəhi yaşayır. Bunu yalnız yazıçı müşahidəsinin nəticəsi kimi izah etmək düz olmazdı. Bu, doğulduğunuz torpağa, onun can dərmanı olan ab-havasına, mənəvi dünyasına, bütün gözəlliklərinə sonsuz vurğunluğun nəticəsidir. Sizi yazıçı edib əlinizə qələm verən də bu torpaq, bu torpağın mənəvi dünyasıdır. Sizin əqidəniz də məhz elə bu torpaqdan pöhrələnib. Sizi durduğunuz indiki mərtəbəyə qaldıran o böyük əqidənizə və bu əqidədən od alan yanar ürəyinizə minnətdar olmalıyıq." (Bax: Bəxtiyar Vahabzadə. Zaman və mən, Bakı, 1999, səh. 76.)

Ədibin yaradıcılığına nəzər saldıqda, buradakı sənətkarlıq məsələlərinə diqqət yetirdikdə yazıçının həm lirik-emosional bədii ifadə vasitələrindən istifadə etməklə əsərlərinin psixoloji duyumunu artırdığını görürük, həm bütün dövrlərdə yaşayıb-yaratmış və özündən əvvəlki zəngin sənət əsərləri qoyub getmiş böyük sənət dühalarının ənənəvi yaradıcılıq metodlarına dərindən bələd olmaqla, onların yaradıcılıq üslubundan öyrənməklə xalqımızın şifahi

şəkildə bu günə qədər böyük bir məhəbbətlə qoruyub saxladığı xalq yaradıcılığından gələn obraz, motiv və süjetlərdən istifadə etməklə yaratdığı əsərlərin bədii təsir gücünü duyuruq.

Təcrübə göstərir ki, hər bir sənətkar hansı dövrdə, hansı cəmiyyətdə yaşayıb-yaratmasından asılı olmayaraq öz milli-mənəvi kökləri üzərində pərvəriş tapdıqda daha dərin, daha mənalı, məzmunlu, yüksək ideyaları özündə cəmləşdirən sənət əsərləri yarada bilir. Bu əsərlər isə xalqın mədəni həyatının təfəkkür tərzini, ideoloji duyumunu, bəşəri hisslərini özündə daha yaxşı təcəssüm etdirdiyindən həm mənsub olduğu xalq-millət tərəfindən, həm də yüksək ideyalara, insani keyfiyyətlərə hörmətlə yanaşan dünya xalqları tərəfindən də sevilir, qəbul edilir...

Gülxani Pənahın tədqiqatında yazıçının aşıq sənətindən yararlanma yolları da araşdırılır. İlyas Əfəndiyevin aşıq-dastan yaradıcılığından bəhrələnməsi ədəbi tənqid tərəfindən dəfələrlə qeyd edilmişdi. İ.Əfəndiyevin yaradıcılığında özünəməxsus yer tutan dastançılıq onun bir çox əsərlərində vardır. Onun "Valehlə Sarıköynəyin nağılı", "Geriyə baxma, qoca", "Üçatılan" romanlarındakı dastançılıq süjeti xalq eposlarından-dastanlarından gəlmədir. Eposlar dastan şəklinə düşənə qədər xalqın bədii təfəkkürünün süzgəcindən keçir, təkmilləşir, cilalanır və qiymətli bir sənət nümunəsinə çevrilir. İ.Əfəndiyevin yaratdığı əsərlərdə də bir sıra epos qəhrəmanlarına oxşar obrazlar vardır ki, bunlar da bir növ XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranmaqda olan



milli qəhrəmanlıq dastanlarımızın ənənərini özündə yaşadan obrazlardır.

İlk eposumuzda olduğu kimi İ.Əfəndiyevin bu realist nəsr əsər-lərində də həm qəhrəmanlıq, həm də məhəbbət dastanlarına məxsus xüsusiyyətlər var.

Burada isə, Gülxani Şükürova bir ədəbiyyatşünas kimi bu məsələyə qayıdır, yazıçının bir sıra əsərlərini, xüsusən "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca", "Üçatılan" kimi əsərlərin folklor qatını məharətlə açır, bu romanların qəhramanlarının – Çoban Ərşadın ("Üçatılan"), Xanmuradın, Qaçaq Təhməzin, Qaçaq Süleymanın ("Geriyə baxma, qoca") xarakterindəki mərdlik, kişilik, igidlik kimi xarakterlərinin Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm kimi dastan qəhrəmanlarını xatırlatdığını təhlil və müqayisələrlə sübuta yetirir:

"İ.Əfəndiyev bütün əsərlərində demək olar ki, aşıq-dastan sənətinə çox meyl göstərdiyini açıq hiss etdirir. Ən iri həcmli əsərlərindən olan "Sarıgöynəklə Valehin nağılı" əsəri aşıq yaradıcılığı fonunda inkişaf edir. Əsərin nağıl adlandırılması, on beş nağıla - hissəyə bölünməsi və burada iştirak edən obrazların söylədiyi hadisələrin aşıq yaradıcılığı stilində verməklə dastanlara məxsus keyfiyyətlərin də əsərə gətirilməsi, "aldı Sarıköynək", "aldı Valeh" şəklində qurulması xalq yaradıcılığımızın – folklorumuzun bir çox nümunələrini özündə birləşdirməsi əsərin bədii keyfiyyətini artırılmasına, məna gözəlliyinə xidmət edir."

Müəllif İlyas Əfəndiyevin əsərlərindəki Sarıköynək, Sərvinaz, Səkinə, Səriyyə, Yaqut, Qızyetər və s. bu tipli qadın qəhrəmanlarının, obrazlarının xarakter-

lərindəki saflıq, ülvilik, təmiz məhəbbətlə sevən, sevgisi yolunda bütün çətinliklərə sinə gərən, iztirab və psixoloji sarsıntılara dözümlülüyün mənbə və qaynağını yenə də aşıq-dastan yaradıcılığında görürür və belə bir qənaətə gəlir ki, "bu qaynaq ədibin qadın obrazları qalereyasının kamil, bitgin alınmasına kömək etmişdir." (Bax: Şükürova G.V. İlyas Əfəndiyevin yaradıcılığında folklor motivləri. Avtoreferat, Bakı, 2007, s.10.)

İ.Əfəndiyevin hafizəsinə həkk olunan aşıq şerləri də onun öz yaradıcılıq sənəti ilə birləşərək yazıçı təxəyyülünün süzgəcindən keçərək, kamil sənət əsərlərinin meydana çıxmasına şərait yarat-mışdır." (Bax: Yenə orada, s.9-12.)

Tədqiqatçı yazır: "Görkəmli sənətkarımız aşıq şeirindən bəhrələnməklə yaratdığı obrazın daxili, mənəvi psixologiyasını açır, bədii cəhətdən qüvvətli arzu və istəklərinə qovuşmaq həsrətilə yaşayan surətlər yaradır. Yazıçının nəsr əsərlərində məhəbbət dastanlarında olduğu kimi iki sevən aşiqin məhəbbəti təsvir edilir və yazıçı insanın daxili aləmini, mərdliyini, qəm-qüssəsini, şirin duyğularını aşıq sənətində olduğu kimi əlvan boyalarla verir. Aşıq şerindən yararlanmaqla, aşıqlıq sənəti üzərində köklənməklə qəhrəmanının daxili aləmini daha qabarıq, daha emosional, təsirli verə bilir.

Dağların üstündə qar nişanası,
Gül üstə görünür xar nişanası,
Ölürəm, qəlbimdə yar nişanası
Gözüm yolda, intizara yetmədim.



Qoşma üstündə verilmiş bu misralarda saf məhəbbəti, lirik qəhrəmanın istək və arzularını, sevən gəncin qəlbindəki eşqin ilahiliyini görürük. Romanda diqqəti cəlb edən hadisələrdən biri Qızyetərin ("Geriyə baxma,qoca" əsərində) həyatı ilə bağlı hadisələrin nağıl-dastan yolu ilə verilməsidir. "Allah Qızyetərə bir gözəllik vermişdi: böyüyüb ərkən yaşına çatanda aya deyirdi sən çıxma, mən çıxaram, günə deyirdi sən çıxma, mən çıxaram" (Bax: Müəllifin göstərilən əsəri; Əfəndiyev İ. Seçilmiş əsərləri 7 cilddə, 6-cı cild, s. 150.)

Qızyetər nişanlanandan sonra el yaylağa köçür, yaylağa köçəndən sonra əmisi oğlunun ona - nişanlısına baş çəkməməsi qızın qəlbinə dəyir. Yazıçı Qızyetərin ona göndərdiyi məktubu dastanlarımızda gördüyümüz formada təsvir edir: "Güllər, çiçəklər arasında Qızyetər hey gözlədi, əmisi oğlu gəlmədi. O vaxt qız bir namə yazıb göndərdi nişanlısına; aşıqlar da o naməyə hava qoşub oxudular:

Əmim oğlu, məndən heç utanmadın?
Üç ay keçdi, bir yaylağa gəlmədin!
Yüz min cəfa ilə köks ötürdüm mən,
Ordan yendin Ağbulağa gəlmədin!

Mən səni istədim hamıdan əziz,
Neyləyim yanında oldum bir kəniz.
Ətir can bəslədim güllərdən təmiz,
Namərd oğlu bir yayalağa gəlmədin"
(Bax: Yenə orada, s.151).

Bütün bu faktlar göstərir ki, yazıçının əsərlərində xalqdan, xalq təfəkküründən süzülüb gələn ənənələr yaşayır. Onun qocası, ozanı qəhrəmanlarının başına gələn hadisələri gah nağıl yolu ilə, gah da dastan yolu ilə söyləyir. Yazıçının qəhrəmanı gah dastanlarda olduğu kimi öz hiss həyəcanlarını şerlə, gah da nağıllarda olduğu kimi təhkiyə yolu ilə verir. Xalq ədəbiyyatı ənənələrini sənətinə gətirən, ondan bəhrələnməklə sevən aşiqlərin mükəmməl obrazını yaradan, qəhrəmanını xalqına sevdirən yazıçı öz qələmini xalq ədəbiyyatı üstündə kökləməklə yaddaqalan zəngin obrazlar silsiləsi yaratmışdır.

Şifahi xalq ədəbiyyatının incilərindən yararlanan sənətkar “Apardı sellər Saranı”, "Qarı dağı", “Vəzir Allahverdi xan və Bəhlul Danəndə”, “Yusif və Esfir”, “İsa-Musa”, “Abidin yuxusu” və s. hekayələrini xalq ədəbiyyatının qaynaqlarından istifadə etməklə qiymətli sənət nümunələri yaratmışdır.

Yazıçı bu rəvayətlərin, nağılların süjet və obrazlarından yararlanarkən ona real həyat donu geyindirir və oxucu qarşısına yeni səpgidə, yeni sənət əsəri çıxarır.

İ.Əfəndiyev real aləmdə gördüyü insanları, onların sevgisini, kədərini qələmə alarkən xalqının əfsanələrdə yaşayan keçmişinə nəzər salır, oxşar izlər tapır, onlara bir yaradıcı sənətkar kimi yanaşır, bədii təfəkkürünün süzgəcindən keçirir, yeni bir bədii don geyindirir, yeniləşdirir, müasirləşdirir, zamanın tələblərini özündə əks etdirən yeni bir əsərə çevirir.



****

Bu cür ədəbı-estetik keyfiyyətlər, axtarışlar sənətkarın dramaturgiyasında da dərindən müşahidə edilir və yeniliyin, teatrda yeni abi-havanın əsasını qoyur. Ədəbi tənqidimiz xüsusilə, dönə-dönə qeyd etmişdir ki, İlyas Əfəndiyevin pyeslerinin səhnəyə hər gəilişi teatrımıza təzə ab-hava gətirmişdir. Bu təzə ab-havanı təmin edən isə ilk növbədə həmin illəri parlaq surətdə təmsil edən insanların canlı təcəssümüdür. “Bahar suları”, “Atayevlər ailəsi”, “Sən həmişə mənimləsən”, “Mənim günahım”, “Unuda bilmirəm”, “Məhv olmuş gündəlikİər", “Büllur sarayda” və s. bu kimi hərəsi sənət aləmində özünəməxsus bir iz qoyan həmin əsərlər olmadan Azərbaycan teatırının tarixi xeyli natamam görünərdi. (Mehdi Məmmədov, İlham Rəhimli, Məriyəm Əlizadə və başqaları...)

İlyas Əfəndiyevin pyesləri bu gün də insanları mənəvi təmizliyə çağırır. Draınaturq bəzən tərəddüd edən, hətta müəyyən səhvə yol verən, lakin sarsılmayan, ən mürəkkəb vəziyyətlərdə belə öz insanlıq şərəfini qoruyub saxlamağı bacaran aydın məqsədli qəhrəmanların timsalında müasirlərinə canlı, həyati xarakterlər təqdim edir, onlari meşşanlıq bataqlığına yuvarlanmaqdan çəkindirir, vətənərvərlik qayələrinə, böyük bəşəri ideallara sədaqət və məhəbbət aşılayırdı.

Bu problemləri nəzərə çapdırmaq üçün, akademk Bəkir Nəbiyev dramaturqun “Büllur sarayda” pyesini təsadüfən seçmir. Çünki, məlum səbəblərdən barəsində o biri əsərlərinə nisbətən ədəbi tənqiddə bir

qədər az yazılmış "Büllur sarayda" pyesi dövrün neqativ cəhətlərini ifşa etdiyinə görə xüsusilə əlamətdardır. Müəllif yazır: "Onun tamaşasına baxanlar, yaxud əsəri oxuyanlar (oxucu məktublarından bilinirdi) aydın gördülər ki, inzibati rəhbərlikdə, məişət xidmətində, ticarətdə girəvə düşən kimi adamları soyan, gah sadəcə aldatmaq, gah rüşvət, gah da şantaj yolu ilə toplanmış sərvət hesabına yağ içində böyrək kimi bəslənən Qədimlə Ağahüseynin gəmisi xalq nifrətinin qəzəbli dalğaları önündə necə çevrilir, öz gəmilərini ədalətin fırtınasında necə qərq edir! Bayandurla, Təbrizin, onların təsiri ilə gözü açılan Aynurun qəlbindən süzülən təmizlik işığında var-dövlət dəlisi olan bəzi qeyrətsiz meşşanlar nə qədər cılız görünürdülər! Həyatın mənasını daşqaşda, çığırqan dəbli paltarlarda, eyş-işrətdə görən əqidəsizlərə, simasızlara sənətin yeni, ağır bir zərbəsini dramaturq məhz "Büllur sarayda" əsərilə endirmiş, bəlalərini ümumxalq nifrətinin hədəfinə çevirməyə müvəffəq olmuşdur."(Bax:Nəbiyev B. O, həmişə müasirdir (ön söz). Əfəndiyev İ. Seçilmiş əsərləri 3 cilddə, 1cild, s. 7.)

İlyas Əfəndiyevin səhnə əsərləri arasında tarixi mövzulara həsr edilən "Xurşidbanu Natəvan", "Şeyx Xiyabani", "Mahnı dağlarda qaldı", "Tənha iydə ağacı'' kimi pyeslər də ədəbi tənqid tərəfindən yüksək fikir axını ilə qarşılanmışdır. Bu isə səbəbsiz deyildi.

Çünki bu əsərlər Azərbaycan xalqının çox mühüm tarixi faktlarının bədii tərcümanına çevrilmiş, olduqca milli vətənpərvərlik ruhunda yazılmışdı.



Birinci pyes keçən əsrdə öz zərif, həm də həzin şeirlərilə Azərbaycan poeziyasnı zənginləşdirmiş Xan qızı Natəvana, onun xalqın rifahı üçün gördüyü nəcib və xeyirxah əməllərə həsr edilmiş, Qarabağlı, Şuşalı Xan qızının möhtəşəm obrazı yaradılmışdır!

İkinci pyesin baş qəhrətnanı isə İranda ictimai ədalət uğrunda mübarizə tarixinə parlaq səhifələr yazmış Azərbaycan oğlu Şeyx Məhəmməd Xiyabanidir. Bu əsərdə inandırıcı epizodlar əsasında göstərildiyi kimi, Səttar xan öldürüldükdən sonra onun mübarizə bayrağını yerə düşməyə qoymayan Xiyabani Rusiyada monarxiyanın süqutından ruhlanaraq bu bayrağı daha qətiyyətlə ucaltmış, şah rejiminə qarşı, imperializm müdaxiləsi əleyhinə mübarizəyə ləyaqətlə başçılıq etmişdir. Dramaturq onu gözlənilməz hadisələr labirintində ruhdan düşməyən, düşünüb-daşınan, axtaran və tapan, istədiyini, konkret vəziyyətdə lazım olanı tapmayanda isə həyəcanlar qoynunda çırpınan həyati bir obraz olaraq canlandırmışdır...

Cənub mövzusuda olan bu əsər onun ilk əsəri deyildi. Dramaturqun yaradıcılığında Cənub mövzusu xüsusı tədqiqat obyektidir. «Unuda bilmirəm» əsərilə bu mövzu ilk dəfə olaraq səhnəmizdə öz bədii təcəssümünü tapdı. Ədəbiyyatda, ümumən ictimai fikir tariximizdə bu mövzu qadağan olduğu bir dövrdə səhnəyə gəldi. Bu əsərə müxtəlif təzyiqlər olsa da, 17 il repertuardan düşmədi və 500 dəfədən çox tamaşası oldu.

Milli Akademik Dram Teatnnm səhnəsində uzun illərdir ki, hər mövsümün ilk tamaşası olan "Hökm-

dar və qızı" əsəri isə dramaturqun tarixi mövzuda yazılmış sonuncu kamil səhnə əsəridir. Güman edirik ki, bu faciə əsasında teatrımızın xalqa bəxş etdiyi sənət "Qarabağnamə"sinin sədası Qarabağ düşmən tapdağından azad edildikdən sonra da həmişə eşidiləcəkdir!

«Hökmdar və qızı» pyesində dramaturq nələrdən söhbət açmır... Qarabağın tarixini səhifələyir, vaxtilə buraxılmış səhvləri yada salır, Qarabağla əlaqədar yaranmış faciənin səbəbkarları ilə bizi tanış edir, bu məsələnin həllində ağıllı addımlar atmağımızı məsləhət görür. Yazıçının İbrahim xanın dililə dediyi: «Mən istərdim bu dostluq gözəl Azərbaycan torpağını yüz yerə parçalanmış, bir-birinə düşmən kəsilmiş bədbəxt xanlarımızı birləşdirib vahid, müstəqil bir dövlət yaratmaqda mənə kömək etsin» - fikri də müəllifin dövlətini qüdrətli görmək arzusundan irəli gəlirdi.

Bütün bu deyilənlərlə yanaşı, dramaturq əsərdə çox mühüm bir məsələyə toxunaraq, erməni xəyanətini, onun ikiüzlü, yaltaq, qorxaq, satqın silqətini göstərmək üçün Vanya obrazını yaradır. Ermənininin kim olduğunu bilmək istəyən oxucu və tamaşaçının Vanya obrazı ilə tanış olması kifayətdir! Koxa Vanya obrazı bu xislətin daşıyıcısı kimi nifrət doğurur.

Verdiyi son müsahibələrində bir fikri özünəməxsus müdrikliklə dilə gətirmişdi: «Bütün ömrüm boyu yazılarımda ədəbi həqiqətin deyilməsinə çalışdım. Elə əsər yazmağın bir mənası da həqiqət axtarmaq deməkdir. Bir növ avtobioqrafik xarakter daşıyan «Geriyə baxma, qoca» əsərində mənim məqsədim o



olmayıb uşaqlığımı təsvir eləyəm, çalışmışam ki, Azərbaycan xalqının taleyi, keçmişi, mərdliyi, ali-cənablığı, yüksək mədəniyyəti haqqında söz deyim.

Mənim üçün həmişə ağır idi ki, işğalçı çar mayoru Lisaneviçin Şuşadan bir qədər aşağıda, Ağa körpüsünün yanında dincələn İbrahim xanı uşaqdan tutmuş qadına kimi bütün ailə üzvləri ilə heç bir səbəb olmadan rus əsgərlərinə doğratdılar. Biz isə onları tərənnüm etməliydik. Mən bunu bacarmadım».

1989-cu ildə Qarabağa Xalq Yardım Komitəsinin orqanı kimi nəşrə başlayan «Azərbaycan» qəzetinin (bu qəzet Şərqdə ilk demokratik Azərbaycan Cümhuriyyətinin rəsmi orqanı olmuşdu – red.) yenidən işıq üzü görməsi ilə əlaqədər İlyas Əfəndiyev öz qürurunu, istəklərini belə dilə gətirirdi: «Azərbaycan xalqının azadlıq uğrunda apardığı mübarizə tarixi barədə düşünərkən Qarabağ igidlərinin, Gəncə qəhrəmanlarının, Təbriz fədailərinin, Naxçıvan mübarizlərinin xəyalları sanki uzaq, romantik bir aləmdə gözlərimin qarşısından gəlib keçir və mən Xəzinə qayasının sıldırımları üzərində Şuşa qalasının yaradılmasına hökm verən Pənah xanı görürəm, baltagirməz qalın meşələr arasından Şuşa qalasına şirin su çəkdirən dərdli şair Xurşidbanu Natəvanın nəcib xəyalını görürəm və fikirləşirəm ki, indi Qarabağa yiyə çıxmaq sərsəmliyinə tutulmuş erməni ekstremistləri – qarıyıb əldən düşmüş daşnaklar o zaman harada idilər?» (Bax: "Kaspi" qəzeti, 03.10.2012, Ədəbiyyat səhifəsi.)

Xalq yazıçısının yaradıcılıq yolunu tədqiq edən ədəbiyyatşünas Əmin Əfəndiyev İlyas Əfəndiyevlə söhbətlərinin birində xatırladır: «Ədəbiyyat qəzeti»-nin son sayında (1994, 4 may) yazıçının «Hacı Axundun cənnət bağı necə oldu» hekayəsi dərc olunmuşdu. Son illərdə qələmə alınmış, yüksək sənətkarlıqla yazılmış bir əsər idi. Hekayə haqqında mənim fikrimi dinlədikdən sonra, yavaş-yavaş söhbəti davam etdirdi, bilmirəm nədənsə, uşaqlıq illərini yada saldı, hekayədə təsvir olunan hadisələrə toxundu: "Qarabağ üçün yaman darıxıram, Əmin. Elə bil ki, otaqda havam çatışmır. Şuşada, İsa bulağında, Cıdır düzündə olmaq, oranın havasından udmaq, suyundan içmək istəyirəm…

Daşaltıdan Topxana meşəsinə, Ərimgəldidən Ağdama, Füzuliyə sarı, Savalan dağlarına tərəf baxmaq istəyirəm… Sonra söhbəti yazmaq istədiyi təzə bir əsər yzərinə gətirdi. Məzmunu əvvəlki hekayəyə yaxın idi. Bir az ara verdi, otaqda təkmiş kimi – «Mən Qarabağsız yaşaya bilmərəm. Mənim bütün canım ordadır». – dedi…" (Mənbə: www.literature.az/userfiles/file/İLYAS%20ƏFƏNDIYEV.pdf.)

"Tənha iydə ağacı" pyesinin mövzusu da ilk olaraq ədəbiyyata gətirilmişdi. Ustad sənətkarın «Tənha iydə ağacı» pyesi vaxtı ilə qadağan olunmuş mövzulardan birinə - qürbətdə yaşayan soydaşlarımızın acı taleyinə, vətən həsrəti probleminə, həmçinin ilk milli dövlətimizin - Azərbaycan Demokratik Respublikasının banisi, xalqımızın böyük



mütəfəkkir oğlu, görkəmli ziyalı M.Ə.Rəsulzadənin həyatına həsr edilmişdir.

İ.Əfəndiyev yazır: «Adətən bir şeydən kədərlənəndə, məyus olanda dram janrına müraciət edirəm. Yadımdadır, uşaqlarla Zağulbada dincəlirdim. Qarşımızdakı bağda bir iydə ağacı var idi. Mənim ona çox tamaşa etdiyimi görən Elçin soruşdu ki, nə çox baxırsan, yoxsa hekayə yazırsan? Yox, dedim, pyes yazıram. Elə bildi zarafat edirəm. Əslində isə mən, doğrudan da gələcək pyesim barədə düşünürdüm. «Tənha iydə ağacı» belə dünyaya gəldi...». (Bax: Yenə orada.)

Pyesdə qələmə alınan iydə ağacı obrazı rəmzi məna daşıyır, vətən həsrətini ifadə edir. Vaxtilə Kərim bəyin ata yurdunda əkdiyi iydə ağacı tənha qalmışdır. Yazıçı göstərir ki, bolşevik rejimi təkcə adamlara deyil, ağaclara da, bağlara da divan tutub. Tənhalıq isə təkcə insanlar üçün deyil, ağaclar üçün də faciədir. Pyesdə ön plana çəkilən əsas ideya, torpağımızın bütövlüyü, vətən, dil, məslək birliyi bu gün üçün də çox aktualdır.

Beləliklə, «Sən həmişə mənimləsən» pyesi ilə Azərbaycan səhnəsində lirik-psixoloci dramanın əsasını qoyaraq, «Mənim günahım»/1967/, «Unuda bilmirəm» /1968/, «Məhv olmuş gündəliklər» /1969/, «Mahnı dağlarda qaldı» /1971/, «Qəribə oğlan» /1973/, «Bağlardan gələn səs» /1976/ və s. pyeslərini yazır.

Yazıçının dram yaradıcılığının sonrakı dövrü /1981-1994/ tarixi mövzularda yazdığı əsərlərilə əlamətdardır. İ.Əfəndiyev yaradıcılığının son dövründə

xalqımızın uzaq və yaxın tarixini tədqiq etmiş, «Natəvan», «Şeyx Xiyabani», «Sevgililərin cəhənnəmdə vüsalı», «Dəlilər və ağıllılar» kimi 8 pyes yazmış, 1994-cü ildə oynanılmış «Hökmdar və qızı» faciəsi ilə bu mərhələ sona yetmişdir. 80-ci illərə qədər yazdığı pyeslərində, əsasən, müasir mövzulara lirik-psixoloji cəhətdən üstünlük verən görkəmli dramaturq İ.Əfəndiyev öz sələflərinin yolunu uğurla davam etdirərək tarixi mövzulara müraciət etmişdi. Qarabağla bağlı motivləri ədəbiyyata gətirmiş, «Mahnı dağlarda qaldı» (1971), «Natəvan» /1981/, «Şeyx Xiyabani» /1986/, «Tənha iydə ağacı» /1991/, «Hökmdar və qızı» /1994/ və s. əsərlərini yaratmış, böyük sənət abidələri qoyub getmişdir...

****

Ədəbi tənqid təkcə İlyas Əfəndiyev yaradıcılığının ideya-estetik, mövzu və qəhrəman, konfilikt və xarakter, millilik və vətənpərvərlik, tarixilik və müasirlik kimi problemlərindən danışmamışdır, həmçinin müəllifin dil və üslub, lirik-psixoloji yazı manerası, onun yaradıcılığının digər sənətkarlıq məsələlərini də həmişə yüksək qiymətləndirmişdir.

Bu keyfiyyətlər ədibin əsərlərində zaman keçdikcə daha da büllurlaşmış, dramaturq və nasir kimi onun fərdi üslubunu müəyyənləşdirən amillərdən birinə çevrilmişdir. Elə buna görədir ki, ədəbi tənqiddə və tədqiqatlarda dilimizin məna dərinliyi, ifadə gözəlliyi və ahəngdarlığından danışanda ilk növbədə İlyas Əfəndiyevin yaradıcılığı önə çəkilir.



İlyas Əfəndiyev yaradıcılğı üçün səciyyəvi olan əsas cəhətlərdən biri onun cazibəli, təbii və canlı bir dildə yazmasıdır. Bədii üslubu formalaşdırıb, dolğunlaşdıran mənbələr cərgəsində, yuxarıda gördük ki, folklor poetikasının, folklor ənənə və motivlərinin rolu İlyas Əfəndiyevin yaradıcılığında olduqca güclüdür. Tənqidçi -ədəbiyyatşünas, professor Yaşar Qarayev yazırdı ki, "əlbəttə, mübahisə etmək olar ki, İlyas Əfəndiyev daha çox nasirdir, ya dramaturq? Hətta mübahisə etmək olar ki, nəsrdə də, daramaturgiyada da o, daha çox ədibdir, yoxsa şairdir? Lakin bir şey mübahisəsizdir: İlyas Əfəndiyev hər şeydən əvvəl, bir lirikdir, şairanə istedada və üsluba malikdir." (Bax: Qarayev Y. Boy çiçəyinin ətri (ön söz). Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, 1 cild, s.5.)

İlyas Əfəndiyev əsərlərinin bədii siqlətinin məna çalarını onun özünəməxsus fərdi üslubu təşkil edir. Bu cəhəti vurğulyan, görkəmli dilçi-alim, AMEA-nın müxbir üzvü, professor Tofıq Hacıyev düzgün qeyd edir ki, “lirizmi, bir tərəfdən, dramaturqun dilindəki şeiriyyəti qidalandırır, o biri tərəfdən hadisə və obrazlarındakı psixologizmi şərtləndirir. Bu lirizm oradan başlanır ki, yazıçı təbiətdə də, cəmiyyətdə də, insanda da gözəlliyin vurğunudur; bu gözəlliyi tapa və görə bilir. Gözəlliyin də lirika ilə dil açması təbiidir. Buna görə də İlyas Əfəndiyevin dilində güclü şeiriyyət var.

Bu şeiriyyət təkcə sevgi səhnələrinin təsvirində, lirik qəhrəmanların emosional söhbətlərində deyil, bütövlükdə İlyas Əfəndiyevin bədii sənətindədir, nəsrində və dramaturgiyasındadır. (Bax: Hacıyev T.

Şerimiz, nəsrimiz, ədəbi dilimiz. Bakı, Yazıçı, 1990, s.65.)

İlyas Əfəndiyevin yaradıcılıq üslubundakı lirizmin təkcə dil hadisəsi olmadığını xalq artisti Əli Zeynalov da duymuş, hətta bu fikri güya bir oxucu kimi, amma ədəbiyyatçı səriştəsi ilə belə ifadə etmişdi: "Ümumiyyətlə, bir oxucu kimi mənə elə gəlir ki, İlyasda lirik əhval-ruhiyyə dəmir ağacın həyat eşqi kimi güclüdür. Amma yaxşı ki, heç vaxt lirikaya nə isə lirik bir səhnə və yaxud vəziyyət yaratmaq xatirinə meyl etmir. Onun lirikası qəhrəmanların psixoloji vəziyyəti ilə və bilavasitə yaranmış zəruri situasiya ilə bağlı olur. (Bax: «Sən həmişə mənimləsən» // Ədəbiyyat və incəsənət, 1974, 23 noyabr.)

Dramaturgiya janrının tədqiqatçısı kimi tanınan filologiya üzrə fəlsəfə doktoru Arif Səfiyev İlyas Əfəndiyevin nəsrində də lirik, poetik bir dramatizmin mövcudluğundan söhbət açır: "Yazıçının nəsr əsərlərində psixologizmin ardıcıllığı və dramatizmin gərginliyi poetik bir ovqat yaradır. İlyas Əfəndiyev ən kiçik hekayələrində də dramaturqdur - obrazların fərdi psixoloji və ictimai dramatizminin ifadəsində, onların bir-birinə münasibətində və dərin sarsıntılarının, içəridəki "mən" yaşantışının ziddiyyətlərinin monoloq siqlətli daxili nitq kimi səsləndirilməsində bu özünü tam biruzə verir. ( Bax: Səfiyev A. Azərbaycan dramaturgiyası müasir mərhələdə. Bakı, Ozan, 1999, s.68.)

Bu cəhətdən Yusif Seyidovun, Musa Adilovun, Əbdülhəmid Bağırovun, müasir, gənc dilçilərimizdən Aynurə Paşayevanın fikir və tədqiqləri diqqətimizi cəlb etdi. Aynurə Paşayeva "İlyas Əfəndiyevin Qarabağ mövzusundakı dramlarının bəzi sənətkarlıq xüsusiyyətləri" məqaləsində yazır: "Dil – bədii ədəbiyyatın əsas vasitəsidir. Kamil obrazlı bədii dilin rəngarəng parıltısı, işığı, ahəngi, musiqisi olmasa, bədii yaradıcılıqdan söhbət açıla bilməz. Onun bədii dilindəki şirinlik, təbiilik, musiqilik bütövlükdə yazıçının təsvirlərində bir şairanəlik, mühakimələrinə axıcılıq və ahəngdarlıq gətirir. İ.Əfəndiyevin bədii yaradıcılıq portreti üçün nəzərdə tutula biləcək cizgilər çoxdur, onlar sayılmaqla qurtarmaz. Lakin həmin cizgilərin hamısı üçün ümumi olan, onların hamısına aşılanmış bir keyfiyyət var: vüsət və şairanəlik!" (Bax: Yazar: "Admin" saytı . Bölmə: Ədəbi tənqid .Tarix: 10 iyul, 2010.)

Bu cəhətdən Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialının dosenti, AMEA Nəsimi adına Dilçilik İnstitutunun doktorantı. Flora Namazovanın "İlyas Əfəndiyevin dramaturgiya dilində sözün semantikası və funksiyaları" tədqiqat-məqaləsi diqqətimizi cəlb elədi. (Bax: "Pirsultan" dərgisi, say-16.)

Məqalədə Azərbaycan xalq yazıçısı İlyas Əfəndiyevin dramaturgiya dili nəzərdən keçirilir. Bu dilin əsasını təşkil edən söz və onun bədii dəyəri, semantik və funksional aspektləri fakt və dəlillər əsasında təhlil edilir. Sözün estetik funksiyasının dialoqlarda əhatə olunduğu məna imkanları əsaslandırılır.

Tədqiqatda əsas problemlərdən biri dram dilinin inkişafında yeni faza ilə əlaqədardır. Yəni yazıçının bədii ustalığıdır. Başlıca rolu İ.Əfəndiyevin Azər-

baycan ədəbi bədii dilinin inkişafındakı rolu, bu inkişafda dramaturqun gördüyü işlərdir.

Tədqiqat konkret bir yazıçı-dramaturqun – İlyas Əfəndiyevin sözdən istifadənin sistem xarakterini açıb göstərir. Bədii vasitələrin janr spesifikliyi, dramaturqun üslub təkamülü, semantik üslubi qanunauyğunluqlar, ümumi semantik prinsiplər, dialoqların quruluşu və onların qanunauyğunluqları, sözün mənaca dəyişmə istiqamətləri, dramaturgiya və onun dil üslub ənənələri, yeni tipli dramların lirik psixoloji səpkiləri, sözün məna keçidləri, struktur dəyişmə (əvəzolunma) tədqiq edilir və s. bu tipli problemlər pyeslərin nitq materialına əsasən öyrənilir.

Tədqiqat göstərir ki, bədii sözün semantik funksionallaşmasının əsas xüsusiyyətləri İ.Əfəndiyevin dramlarında sonsuz və müxtəlifdir. Sözün üslubi təbiəti bu funksional cəhətlərin öyrənilməsini şərtləndirir. Mətnaltı məna özündə dərin və fərdi mənanı birləşdirir. Bu mənalar İ.Əfəndiyevin dram dili üçün xarakterik cəhətlərdəndir. Onun qurduğu dialoqlar təkcə həyatı təsvir etmək üçün deyil, həm də mətnaltının gizli potensial, emosional fikirlərini açıb ortaya çıxarır. Bütün bu dilçilik problemləri dramaturqun əsərlərindən gətirilən konkret faktlar, misallar əsasında sübuta yetirilir və təcrübi-praktik cəhətdən əsaslandırılır...

Nəzərdən keçirdiyimiz bu fikir və mülahizələri ümumiləşdirəsi olsaq, görərik ki, İlyas Əfəndiyevin yaradıcılığında doğma dilimizin böyük ictimai və estetik həqiqətləri, güclü fikir və ehtirasların vüsəti, insan qəlbinin ancaq böyük sənətkarların işıqlandıra



bildiyi incəliklərini yüksək bədii səviyyədə əks etdirmək baxımından geniş imkanları üzə çıxır və yüksək ustalıqla əks etdirilir.

****

Məhz bu keyfiyyətlərinə görə İlyas Əfəndiyevin əsərləri onların nəşr olunmasından və tamaşaya qoyulmasmdan on illər keçməsinə baxmayaraq öz fikri-bədii təravətini həmişə qoruyur, oxucu və tamaşaçıların, tənqidçi və tədqiqatçıların yeni-yeni nəsillərinin mənəvi dünyasında və ədəbiyyatımızm tarixində öz şərəfli mövqeyini qoruyub saxlayır. Elə bu ədəbi-bədii keyfiyyətlərinə görə İlyas Əfəndiyev yaradıcılığının tanınma və yayılma coğrafiyası olduqca geniş və əhatəlidir. Bu proses hələ sovet dövründən başlamış, respublikamızın müstəqillik illərində isə daha da güclənmişdir. Ədəbi tənqidin nəzərindən İlyas Əfəndiyev irsinin bu populyarlığı da yayınmamışdır. Bu barədə ikicə faktı xatırlatmaqla kifayətlənirik.

Ədəbiyyatşünas, şair-tənqidçi, filologiya elmlər doktoru Qasım Qasımzadə keçən əsrin 80-ci illərində İlyas Əfəndiyevin “Söyüdlü arx”, “Dalar arxasında üç dost”, “Sarıköynəklə Valehin nağılı”, “Üçatılan”, “Geriyə baxma, qoca” kimi əsərlərindən söz açaraq, onu da xatırladırdı ki, “nasirin ən gözəl povest və romanları qardaş (?!) sovet xalqlarının – Ukrayna, gürcü, erməni, eston, litva, latış, özbək, və b., eləcə də dünyanın – ingilis, fransız, alman, ərəb, macar, polyak, bolqar, çex, slovak və b., dillərində nəşr

edilmişdir.” (Bax: Qasımzadə Q. Tarixə müasir baxışın yeniliyi. “Ədəbiyyatımız, mənəviyyatımız” kitabı, Bakı, Yazıçı, 1988, s.234.)

Filoligiya elmlər doktoru, professor, teatrşünas tənqidçi Məryəm Əlizadə isə İlyas müəllimin əsərlərinin Türkiyə Cümhuriyyətində nəşri münasibətilə bu faktları yenidən oxuculara xatırladır: “Ən önəmlisi budur ki, onun əsərləri yalnız Azərbaycan oxucularına və seyrçilərinə yox, həmçinin dünya xalqlarının ədəbiyyatsevər nümayəndələrinə də yaxşı məlumdur. Müəllifin nəsrinin və dramaturgiyasının əcnəbi dillərə tərcümə tarixi keçən əsrin 50-ci illərindən başlayır. İlyas Əfəndiyev yaradıcılığının işığını, poetikasını, bədii-estetik siqlətini, İlyas Əfəndiyev dünyasının mənəvi parametrlərini bütövlükdə özündə əks etdirə bilmiş ən bariz, xarakterik örnəklər ingilis, rus, alman, tacik, ispan, fransız, çex, eston, slovak, litva, gürcü dillərində nəşr olunmuşdur. Hətta kumık ədəbiyyatında da İlyas Əfəndiyevin tərcümə edilmiş əsərləri özünə layiqli yer almışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra isə İlyas Əfəndiyev sözün əsl mənasında dünya masştabında, dünya çapında tanınan bir yazar, bir dramaturqdur. Odur ki, İlyas Əfəndiyevin əsərlərinin türkcə nəşri Azərbaycan milli mədəniyyəti üçün son dərəcə əhəmiyyətli bir hadisə kimi qiymətləndirilməlidir. Azərbaycan xalqının ədəbi-bədii irsilə türkiyəli oxucu arasında körpü yaratmaq baxımından da bu addım önəmli mahiyyət kəsb edir.” (Bax: Əlizadə M. Azərbaycan teatrında İlyas Əfəniyev amili. “525-ci qəzet”, 01.10. 2011.)



İlyas Əfəndiyev yaradıcılığının xaricdə öyrənilməsi və tədqiqini təsdiq edən bir faktı da nəzərə çatdırmaq istərdik. “525-ci qğzet” 26.06. 2011-ci il tarixli sayında belə bir məlumat verir: “Son illərdə klassik ədəbiyyatımız, folklorumuz xarici ölkələrin də ədəbiyyatşünaslarının tədqiqat obyektinə çevrilir. Bu baxımdan xalq yazıçısı İlyas Əfəndiyevin əsərləri bir çox xarici dillərə tərcümə olunub, onun bədii yaradıcılığı haqqında elmi-nəzəri məqalələr, tədqiqat işləri yazılıb.

Böyük ədibimizin yaradıcılığı Türkiyədə də geniş yayılıb. Son illərdə qardaş ölkənin oxucuları İlyas Əfəndiyevin türk dilində nəşr edilmiş “Geriyə baxma, qoca”, “Üçatılan” kimi məşhur romanlarını, “Seçilmiş pyeslər”ini oxumaq imkanı əldə ediblər. Bu əsərlər türk ədəbiyyatşünaslarının da diqqətindən yayınmayıb. Bir sıra Türkiyə universitetlərində elmi tədqiqat işlərinin mövzusu İlyas Əfəndiyevin yaradıcılığı ilə bağlıdır.

Bu yaxınlarda Ankaradakı “Fenomen” nəşriyyatı türk ədəbiyyatşünası, Atatürk Universitetinin dosenti Sedat Adıgözəlin “İlyas Əfəndiyev. Həyatı, əsərləri, üslub özəllikləri, sosialist gerçəklik baxımından qəhrəmanları” adlı elmi monoqrafiyasını nəşr edib. İlyas Əfəndiyevin həyatı haqqında ətraflı məlumat verən müəllif, ədibin yaradıcılığından geniş bəhs edir, onun üslub xüsusiyyətlərinin, bədii-estetik rəngarəngliyinin müfəssəl elmi təhlilini aparır, yazıçını XX əsr Azərbaycan ədəbiyyatının aparıcı simalarından biri kimi qiymətləndirir.”

Bu da maraqlıdır ki, Sedat Adıgözəl İlyas Əfəndiyev yaradıcılığının mühüm bir məqamını xüsusi olaraq vurğulayıbdır: "Əsərlərinin böyük əksəriyyəti sovet dönəminə təsadüf edən İlyas Əfəndiyev 1939-cu ildə çapdan çıxmış və oxucuların sevgisini qazanmış "Kənddən məktublar" adlı ilk kitabından başlayaraq, ömrünün sonuna kimi yazdığı romanlarında, hekayələrində, pyeslərində sovet sosialist ideologiyasının əsiri olmamış, bu ideologiyanı tərənnüm etməmiş, insani hissləri, hər gün gördüyümüz adi adamların məhəbbətini, onların daxili aləmininin psixoloji təsvirini yüksək sənətkarlıqla qələmə almışdır. Heç zaman Sovet İttifaqı Kommunist Partiyasının üzvü olmamış İlyas Əfəndiyev əsərlərində də bədii-estetik prinsipləri əsas götürmüşdür. Onun parlaq istedadı sovet rəhbərlərinin vəsfinə yox, sənətə xidmət etmişdir." (Bax: Yenə orada.)

Məriyəm Əlizadə adı çəkilən məqaləsində onu da qeyd edir ki, "Məsələ budur ki, İlyas Əfəndiyevin yazdığı 20 pyesdən düz 19-u Azərbaycanın və eləcə də Türkiyənin müxtəlif teatrlarının səhnəsində uğurla oynanılmışdır. Azərbaycan Milli Dram Teatrının müasir tarixi isə birbaşa şəkildə onun adı ilə bağlıdır. İlyas Əfəndiyevin bu teatrların səhnəsində son 50 il ərzində tamaşaya hazırlanmış "İşıqlı yollar" (1947), "Bahar suları" (1948), "Atayevlər ailəsi" (1954), "Sən həmişə mənimləsən" (1964), "Unuda bilmirəm" (1968), "Məhv olmuş gündəliklər" (1969), "Mahnı dağlarda qaldı" (1972), "Qəribə oğlan" (1973), "Xurşidbanu Natəvan" (1981), "Büllur sarayda" (1983), "Bizim qəribə taleyimiz" (1988),



"Sevgililərin cəhənnəmdə vüsalı" (1989), "Hökmdar və qızı" (1994) kimi pyesləri çağdaş teatr təfəkkürünün inkişafına güclü təsir göstərmişdir. Məhz lirik-psixoloji dram janrının nəzəri-estetik prinsipləri, bədii qayəsi, bu pyeslərin poetikası və arxitektonik quruluşu əsasında ədəbiyyatşünaslıq tərəfindən müəyyənləşdirilir." (Bax: Yenə orada.)

Hətta Məryəm Əlizadə İlyas Əfəndiyev yaradıcılığını tamamilə yeni yöndə, təzə tədqiqat prinsiplərinə uyğun şəkildə yenidən öyrənilməsi prinsipini irəli sürərək, özü demiş, bir az obrazlı şəkildə olsa da yazır: "Azərbaycan milli teatrını proses kimi götürdükdə, hətta onun təsisatlı (institusional) mərhələsini belə donmuş, statik hadisə kimi deyil, zaman içində bir hərəkət kimi təhlil etməyi tərcih edirəm. Bu mənada, Azərbaycan teatrında konkret zaman kəsiyində İlyas Əfəndiyev amilini və ya fenomenini məhz prosesimizin əbədi hərəkəti kontekstində araşdırmaq məqamı yetişibdir. Obrazlı desək, "İlyas Əfəndiyev fenomeni"ni açıqlamaq üçün Jül Vernin məşhur romanındakı Kapitan Nemonun sualtı qayığının devizini xatırlamaq yerinə düşər: "Hərəkətli hərəkətlidə".

Yeni elmi düşüncənin əsaslarında duran Kvant fəlsəfəsi qeyri-səlis məntiqlə izah olunur, açılır və fövqəladə yeni, gözlənilməz qənaətlərə gəlməyə imkan verir. Çağdaş elmdə məhz bu yeni açılan perspektivlər məni İlyas Əfəndiyevin yaradıcılığını ənənəvi ədəbiyyatşünaslıq və ənənəvi teatrşünaslıq mövqeyindən deyil, "Zaman içində dalğa" fenomeni kimi araşdırmağa sövq etdi. Odur ki, bununla bağlı

tezisləri bəyan edərək, mətləbə keçməzdən öncə bir şeyi tam əminliklə və tam məsuliyyətlə deyim:

İlyas Əfəndiyevin şəxsiyyəti, ədəbi və dramaturji yaradıcılığı, əsərlərinin teatr təcəssümü və onlardan qaynaqlanan mətləblər İlyas Əfəndiyev dramaturgiyasına məhz yeni elmi konsepsiyaların araşdırma üsulları ilə yanaşmaq imkanını verir.” (Bax: Yenə orada.)

Ədibin ümumən yaradıılığı bu dediklərimizi parlaq surətdə təsdiq etməkdədir. Bu baxımdan sözü gedən əsərlərinin bir cəhətinə diqqəti cəlb etməyi lazım bilirik. Onun hekayə, povest və romanlarının, dram əsərlərinin müasirliyi heyrətamizdir və gətirdiyimiz ədəbi-tənqidi faktlar da, bunu dönə-dönə qeyd etmişdir.

Düzdür, bu əsərlərin yazıldığı illər arasındakı fərq xronoloji baxımdan o qədər də çox deyil. Lakin nəzərə almaq lazımdır ki, bu illər ərzində vətənimizdə köklü tarixi-ictimai hadisələr baş vermiş, Azərbaycanda müstəqil demokratik dövlət qurulmuş, ədəbi irsə münasibətdə yeni, obyektiv meyarlar bərqərar olmuşdur. İlyas Əfəndiyevin əsərləri azərbaycançılığın, ilk növbədə məhz ədəbi milli-mənəvi dəyərlər, yüksək bəşəri ideallar işığında təqdimindən və tərənnümündən ibarətdir. Və bu cəhət onun yaradıcılığının müasirlik meyarı, müasirlik kredosudur...

Bu baxımdan, dəqiq müşahidədir: “İlyas Əfəndiyev qədər teatr sənətinə məhəbbət yaradan ikinci bir dramaturq yoxdur. İlyas Əfəndiyev Şekspir, Şiller, Servantes kimi Azərbaycan xalqının ölməz dramaturqudur. Onun əsərləri, pyesləri hər zaman



aktualdır. Yetər ki, o pyeslər olduğu kimi səhnəyə gəlsin. İlyas Əfəndiyevin ideyasına toxunmaq bəşəri ideyaların üstündən xətt çəkmək deməkdi.” (Bax: Vidadi Hüseynov. Bu günün İlyas Əfəndiyevi. “525-Cİ QƏZET”, 03.10. 2012.)

İlyas Əfəndiyevin qələmindən çıxmış əsərlərin unikallığı da elə burada üzə çxır ki, ədəbi tənqidimiz bu cəhəti həmişə yüksək dərəcədə qiymətləndirmişdir. Ədibin bütün yaradıcılığı boyu vaxtaşırı müraciət etdiyi və gözəl nümunələrini yaratdığı hekayələri, povestləri, romanları, peyslərindən “Atayevler ailəsi”, “Sən həmişə mənimləsən”, “Məhv olmuş gündəliklər” kimi hər biri səhnə sənətimizin tarixində hadisəyə çevrilən pyesleri, “Xurşidbanu Natəvan” kimi tarixi dramı , “Söyüdlü arx”, “Geriyə baxma, qoca” kimi çox populyar romanları həmişə ədəbi tənqidin M.Arif, Məmməd Cəfər, Bəkir Nəbiyev, Yaşar Qarayev, İnqilab Kərimov, Məriyəm Əlizadə, Akif Hüseynov, İlham Rəhimli, Nizaməddin Şəmsizadə, Vaqif Yusifli, Şirindil Alışanlı kimi tənqidçilərin, ədəbiyyatşünasların diqqət mərkəzində olmuş, onlar bu əsərlərin bədii-estetik məziyyətlərini yüksək dərəcədə açmış və qiymətləndirmişlər.

Qeyd etdiyimiz kimi, İ.Əfəndiyevin yaradıcılığı Azərbaycan ədəbi tənqidinin və sənətşünaslarının daim diqqət mərkəzində olmuşdur. Onun həyat və yaradıcılığı haqqında az yazılmamışdır. Ədəbi tənqid heç vaxt İ.Əfəndiyev yaradıcılığına qarşı laqeyd olmamış və susmamışdır. Ədibin nəşr olunan hər bir yeni kitabı, dərc edilən təzə əsəri, tamaşaya qoyulan

hər bir pyesi ədəbi tənqid və ictimaiyyət tərəfindən maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir.

Dediyimiz kimi, Əkbər Ağayevin ədibin «Kənddən məktublar» kitabına yazdığı resenziyası ilə başlanan bu proses sonralar müvəffəqiyyətlə davam etmiş, İ.Əfəndiyev haqqında çoxlu məqalələr, teatr tamaşalarına külli miqdarda resenziyalar, kitablar, namizədlik dissertasiyaları yazılmışdır.

Filologiya elmləri doktoru Yəhya Seyidovun İ.Əfəndiyevin həyatı və yaradıcılığı haqqında müxtəsər oçerki bu sahədə - monoqrafik tədqiqat ölçüsündə atılan ilk addımdır. Bununla belə obyektiv səbəblər üzündən həmin kitabda ədibin son 20-25 ildəki yaradıcılığı öz əksini tapmamışdır.

Filologiya elmləri namizədi Yaqub İsmayılovun «İlyas Əfəndiyevin yaradıcılıq yolu» monoqrafiyası daha geniş tədqiqatın nəticəsidir. Kitabın müəllifi özündən əvvəlki tədqiqatçıların yazıçı haqqındakı fikirlərini təkrar etməmiş, İ.Əfəndiyevin bədii nəsri yüksək qiymətləndirilərək həyat və qəhrəman, konflikt və xarakter kimi nəzəri problemlərdən söhbət açmış, dramaturqun lirik-psixoloji pyeslərinin təhlilinə daha çox üstünlük verilmiş, ədəbi-tənqidi görüşləri və sənətkarlıq xüsusiyyətləri araşdırılmışdır. Təbii ki, 1991-ci ildə çap edilmiş bu kitabda İ.Əfəndiyevin son illərdə yazılmış əsərləri tədqiqatdan kənarda qalmışdır.

Filologiya elmləri namizədi Aida Salahova isə öz əsərində yazıçının yalnız romanlarının dil və üslub xüsusiyyətlərindən söhbət açmışdır.



Ədibin yaradıcılığı haqqında ilk namizədlik dissertasiyası olan H.Nəsirovun 1965-ci ildə yekunlaşdırdığı «İlyas Əfəndiyevin yaradıcılıq yolu» əsərində yazıçının yalnız 60-cı illərə qədər qələmə aldığı bir neçə əsərindən bəhs edilmiş, B.Məmmədovun «İ.Əfəndiyevin dramaturgiyası» adlı tədqiqatı isə 1973-cü ilə qədər yazılmış pyeslərinin təhlili ilə məhdudlaşmışdır.

Belə ki, ədibin yaradıcılığı haqqında müxtəlif səpgili kitablar, monoqrafiyalar çap edilmiş, dissertasiyalar: «İlyas Əfəndiyevin yaradıcılıq yolu» (Ə.T.Əfəndiyev) kimi doktorluq, «Dramaturgiyamızda psixologizm problemi» (İlyas Əfəndiyevin yaradıcılığı əsasında (X.T. Fərziyev), «İlyas Əfəndiyev və xalq ədəbiyyatı» (G.V.Şükürova), «İlyas Əfəndiyevin dram əsərlərində qəhrəmanların tipologiyası» (M.Y.Məmmədova), «İlyas Əfəndiyevin dramaturgiyası» (B.Məmmədov), «İlyas Əfəndiyevin dramaturji irsi və müasirlik problemi» (S.V.Abbasova), «İlyas Əfəndiyevin dramaturgiyasında tarixi mövzu və müasirlik» (İ.A.Ağayev), «İlyas Əfəndiyevin nəsrində psixologizm» (T.K.Məmmədova), «İlyas Əfəndiyevin publisistikası» (Y.N.Qasımova), «İlyas Əfəndiyevin tarixi dramları» (S.H.Məcidova) və s. müdafiə edilmiş, sistemli ədəbiyyatşünaslıq sahəsi yaranmışdır...

Biz tədiqat boyu bu adlarını çəkdiyimiz əsər və monoqrafiyalara yeri gəldikcə münasibət bildirmiş, istinad etmiş, xüsusən G.V.Şükürovanın "İlyas Əfəndiyev və xalq ədəbiyyatı" tədqiqatından daha ətraflı danışmışıq. İndi isə böyük yazıçı barəsində

hələlik son monumental monoqrafiya olan, onun yaradıcılığını illər boyu ardıcıl öyrənən, tanınmış ədəbiyyatşünas, filologiya elmlər namizədi Əmin Əfəndiyevin “İlyas Əfəndiyevin yaradıcılığı.” (-Bakı. - Elm - 2000. - 310 c.) oxucularımıza müəyyən dərəcədə daha ətraflı təqdim etmək istərdik.

Bu kitabda tədqiqatçı İ.Əfəndiyevin çoxsahəli yaradıcılıq yolunu bir küll halında yenidən nəzərdən keçirmiş, dərc olunmuş ilk mətbu əsərlərindən, birinci məqalə, oçerk və hekayəsindən tutmuş, tamaşaya qoyulmuş son pyesinə qədərki sənət aləmini müasir dövrün elmi konteksti baxımından yenidən araşdırmış, yazıçının qələmindən çıxmış hekayə, povest, roman, oçerk, məqalə və s. nümunələri ayrı-ayrı bölmə və fəsillər daxilində təhlil edərək qiymətləndirmiş, Azərbaycan dram teatrı səhnəsində tamaşaya qoyulmuş iyirmi pyesi müasir Azərbaycan dramaturgiyası və teatr sənətinin ümumi inkişafı ilə paralel bir formada, ədəbi mühitlə və zamanla əlaqəli bir şəkildə tədqiqata cəlb etməyə çalışmışdır. Monoqrafiya üzərində işləyərkən, bu vaxta qədər toxunulmamış, yaxud az araşdırılmış məsələlər üzərində daha çox dayanmağa cəhd göstərilmişdir.

Yazıçının yaradıcılığı haqqında daha geniş və tam təsəvvür yaratmaq məqsədilə, tədqiqatçı ədibin təkcə çap olunmuş və tamaşaya qoyulmuş əsərlərini deyil, eyni zamanda arxiv sənədlərini, bu günə qədər nəşr edilməmiş bir çox əlyazmalarını da nəzərdən keçirmiş, onun tərcümeyi-halının və həyat yolunun müxtəlif səbəblərdən indiyənə qədər gizlində qalan faktları aşkarlanmış, dəqiqləşdirilmişdir...



Əmin Əfəndiyevin "İlyas Əfəndiyevin yaradıcılığı" adlı elmi monoqrafiyasının elmi redaktoru akademik Bəkir Nəbiyevdir.

Kitab "Giriş"dən, dörd fəsildən və "Nəticə"dən ibarətdir.

"Giriş"də müəllif İlyas Əfəndiyevin yaradıcılığından, onun Azərbaycan ədəbiyyatı tarixində tutduğu yerdən, əsərin yazılma səbəblərindən bəhs edir. "Həyat yolu. Ədəbi qaynaqlar." adlanan I fəsildə "Uşaqlıq və gənclik illəri", "30-cu illərin ictimai-siyasi həyatı və yazıçı taleyi", "Bakı ədəbi mühitində" mövzuları qələmə alınmışdır.

"Bədii nəsrin uğurları" adlı II fəsil "Nəsrdə ilk addımlar. Hekayələrdə epik və lirik səhnələr,", "Povest və romanlarında müasir həyatın inikası", "Yazıçı və tarix" yarımfəsillərindən ibarətdir.

III fəsil "Dramaturgiyasının özünəməxsusluğu" adlanır və burada "İntizar"la başlanan yol", "Mənəvi gözəlliyin lirik-psixoloji təsviri", "Tarixi simalarn səhnə həyatı" mövzuları öz əksini tapmışdır.

Nəhayət, "Bədii-estetik görüşləri" adlı IV fəsildə müəllif "Ədəbiyyat haqqında düşüncələr, "Teatr və səhnə problemləri", "Elm, mədəniyyət və incəsənət məsələləri" mövzuları üzərində tədqiqat işi aparmışdır.

"Nəticə"də İlyas Əfəndiyevi "müasir ədəbiyyatımızın canlı klassiki" adlandıran müəllif yazır: "Azərbaycan xalqı öz tarixi inkişafının ayrı-ayrı mərhələlərində ədəbiyyat və mədəniyyətimizə bir sıra görkəmli şəxsiyyətlər bəxş etmişdir. İlyas Əfəndiyev də xalqımızın XX əsrdə yetişdirdiyi ən

işıqlı və istedadlı şəxslərindən biridir. Xalqımız Nizami və Füzuli, M.F.Axundov və C.Məmmədquluzadə, S.Vurğun və R.Rza, Ü.Hacıbəyov və Y.Məmmədəliyev, Q.Qarayev və F.Əmirovla fəxr etdiyi kimi, İlyas Əfəndiyevin yaradıcılığı ilə fərəhlənir və qürur hissi keçirir."

Kitabın sonunda "İstifadə olunmuş ədəbiyyatın siyahısı" verilmişdir.

Əmin Əfəndiyevin "İlyas Əfəndiyevin yaradıcılığı." (Bakı, "Elm", 2000.) ədəbi-tənqid tərəfindən də qiymətləndirilmişdir. (Bax: Şamil Salmanov. Dəyərli tədqiqat. "Ədəbiyyat qəzeti", 29 sentyabr 2000; Cabbarov S. Ədibin xatirəsi yad edildi. (Ə.Əfəndiyevin «İlyas Əfəndiyevin yaradıcılığı» kitabının təqdimatı haqqında) //Azərbaycan. - 2000. - 4 oktyabr və s.) Bu barədə digər faktlara diqqət yetirək:

"Monoqrafiyada çoxsahəli yaradıcılıq yolu keçmiş yazıçının hekayə və oçerkləri, povest və romanları, dram əsərləri və ədəbi-tənqidi məqalələri təhlil olunmuş, eyni zamanda onun həyat və yaradıcılığı ilə əlaqədar bu günə qədər qaranlıq qalmış bir sıra məqamlar ilk dəfə ətraflı şəkildə işıqlandırılmışdır." (Bax: Rüstəmli N. "Respublika" qəzeti, 8 oktyabr 2000.)

"Əmin Əfəndiyevin "İlyas Əfəndiyevin yaradıcılığı" kitabının bir əhəmiyyəti də ondadır ki, burada qoyulan problemlər və konkret məsələlər təqiqatçılar üçün böyük mövzudur." (Bax:Zümrüd Bayramova."Səs" qəzeti, 22 oktyabr 2000.)

Əmin Əfəndiyev doğru olara söyləyir ki, "elmdə son hədd, axırıncı zirvə anlayışı yoxdur və ola da



bilməz. Dünən üçün qaranlıq qalmış fikirlər bu gün açıqlanır, bu gün üçün dərk olunmamış hadisələr sabah mütləq aydınlaşdırılacaqdır. Heç şübhəsiz ki, İ.Əfəndiyev haqqında dediklərimiz də son söz deyildir. Yazıçının yaradıcılığında bizim tərəfimizdən az işıqlandırılmış problemlər və konkret məsələlər özünün yeni tədqiqatçılarını gözləyir." (Müəllifin göstərilən əsəri, s.287.)

Ölməz sənət nümunələri kimi Azərbaycan nəsr və dramaturgiyası xəzinəsini zənginləşdirən, yüksək vətəndaşlıq pafosu, incə lirizm və dərin psixoloji tapıntılarla zəngin olan İlyas Əfəndiyev yaradıcılığı ədəbiyyat tariximizdə yeni bir mərhələ açdığından, əlbəttə ki, zaman-zaman həmişə tədqiq ediləcək, öyrəniləcək, ədəbi-estetik fikrin diqqətində olacaqdır...

***

İlyas Əfəndiyev yaradıcılığını müxtəlif dövlət tədbirlərində, kitablarının təqdimatlarında ədəbi şəxsiyyətlərin çox maraqlı fikirləri, mülahizələri ilə də qarşılaşırıq. Təssüf ki, həmişə, bir qayda olaraq bu mülahizələr diqqətdən və tədqiqatdan kənarda qalır. Biz bu tədbirlərdə söylənən fikirlərə xüsusi önəm verərək, onlardan ən səciyyəvi olanlara diqqəti cəlb etmək istərdik. Məsələn, 2009-cu ilin iyulun 06-da Miniatür Kitab Muzeyində xalq yazıçısı İlyas Əfəndiyevin hekayələrindən ibarət kitabın təqdimatı olub. Rus dilində 150 nüsxə tirajla çap olunan miniatür kitabda görkəmli yazıçının 5 hekayəsi yer alıb. Bu tədbirdə respublikanın cox tanınmış, gör-

kəmli ziyalıları İlyas Əfəndiyev barəsində qiymətli fikirlər söyləyiblər. Xronikanı olduğu kimi burada veririk:

"Tədbiri giriş sözü ilə muzeyin direktoru **Zərifə Salahova** açaraq, İ.Əfəndiyevin yaradıcılığının Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutduğunu önə çəkib.

Yazıçılar Birliyinin sədri, **xalq yazıçısı Anar** İlyas Əfəndiyevin əsərlərinin Azərbaycan nəsri və dramaturgiyasının çox qiymətli səhifələri olduğunu vurğulayıb. Anar bildirib ki, çap olunan miniatür kitab İ.Əfəndiyev irsinin, Azərbaycan ədəbiyyatının rus dilində nəşri baxımından dəyərli nümunədir.

**Professor Bəkir Nəbiyev** milli dramaturgiyamızda və nəsrimizdə lirik-psixoloji üslubun inkişafında İ.Əfəndiyev yaradıcılığının xüsusi əhəmiyyətini qeyd edib.

İ.Əfəndiyev yaradıcılığının hər zaman rəğbətlə qarşılandığını, sevildiyini deyən **xalq artisti Amaliya Pənahova** yeni kitabın gənc və gələcək nəsillər üçün böyük töhfə olduğunu diqqətə çatdırıb.

**Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev** miniatür kitabın nəşrini yüksək dəyərləndirərək, ədibin adının ədəbiyyatımız və mədəniyyətimiz tarixində əbədi yaşayacağını söyləyib.

**Yazıçı Gülrux Əlibəyli** İ.Əfəndiyevin ədəbiyyatımıza, milli dramaturgiyamıza yeni məzmun və forma gətirərək, önəmli mərhələ yaratdığını qeyd edib.

Görkəmli dramaturqun milli teatrın inkişafında xüsusi rolu olduğunu vurğulayan **aktyor Əli Nur**



İ.Əfəndiyevin əsərlərində cəmiyyət problemlərinin yüksək sənətkarlıqla əks etdirildiyini dilə gətirib.

**Qazaxıstanın Azərbaycandakı səfiri S.Primbetov** İ.Əfəndiyevin pyeslərinin onun ölkəsində də səhnələşdirildiyini və maraqla qarşılandığını bildirib.

Mərhum sənətkarın oğlu, **xalq yazıçısı Elçin** İ.Əfəndiyev irsinə göstərilən diqqətə görə minnətdarlığını ifadə edərək, miniatür kitabın nəşrini ədibin biblioqrafiyasında nadir hadisələrdən biri kimi qiymətləndirib." Bu informasiyalarda müxtəlif sənət adamlarının olduqca maraqlı fikirlər və mülahizələr var ki, bunu nəzərdən qaçırmaq mümkünsüzdür..." (Bax: AzərTac-ın xronikası.)

İlyas Əfəndiyevin yaradıcılıq diapozonunu və şəxsiyyətinin monumentallığını göstərən, onun haqqında tərtib edilən digər əsərlərdən biri də, yazıçının vəfatından sonra nəşr edilən "Sən həmişə bizimləsən" (Bakı, "Gənclik", 1999. – 392 səh.) xatirələr kitabıdır. Kitabı Dilsuz və Abid Tahirli tərtib etmişlər, redaktoru Dilsuz, nəşriyyat rekdaktou Tahirə Muxtarovadır.

Bu kitab da ədəbi-mədəni ictimaiyyət tərəfindən böyük maraqla qarşılanıb, təqdimat mərasimi keçirilibdir. Bu mərasimlər haqqında məlumatlarda oxuyuruq:

"1999-cu il, oktyabrın 6-da Azərbaycan Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində sənət adamlarının, ədəbiyyatşünas və yazıçıların, rejissor və aktyorların unudulmaz xalq yazıçısı İlyas Əfəndiyevin ömür yolundan, yaradıcılığından, müasir Azərbaycan ədəbiyyatının inkişa-

fında xidmətlərindən bəhs edən məqalələrinin, xatirələrinin toplandığı "Sən həmişə bizimləsən" kitabının təqdimat mərasimi keçirilmişdir.

"Bəstəkar Süleyman Ələsgərov öz çıxışında ("Sən həmişə bizimləsən" kitabının təqdimat mərasimində - tərt.) bildirdi ki, İlyas Əfəndiyev mədəniyyətimizin, ədəbiyyatımızın üfüqündə sönməz ulduz kimi əbədi olaraq parlayacaqdır. O, xalqın məhəbbətini qazanan, mənalı ömür yaşamış dramaturq-yazıçı, vətəndaş kimi öz missiyasını yerinə yetirib dünyadan köçmüşdür." (Bax: Pərvanə Sultanova. "Xalq qəzeti", 7 oktyabr 1999.)

"Sən həmişə bizimləsən" kitabı haqqında məqalə yazmış müəlliflər görkəmli sənət adamlarının İlyas Əfəndiyev haqqında fikirlərini nümunə gətirir və yazırlar: "Bunlar gəlişigözəl ifadələr yox, 20 əsəri səhnədə uğurla tamaşaya qoyulmuş, istedadlı aktyor və rejissorlar nəslinin yetişdirilməsində misilsiz xidmətlər göstərmiş, Azərbaycan ədəbiyyatı kimi zəngin bir xəzinədə "İlyas Əfəndiyev məktəbi" yaratmış bir yazıçının əməyinin tutarınca qiymətləndirilməsi üçün diqqətlə, məsuliyyətlə seçilən sözlərdir." Ramiz Bilalov, Mirəvəz Rəhimov. ("Ad günü" qəzeti, noyabr 1999.)

Başqa bir məlumatda bildirilir:

" İlyas Əfəndiyevin vəfatının dördüncü ildönümü münasibətilə görkəmli ziyalılar, mədləniyyət, elm, incəsənət xadimləri Fəxri Xiyabanda böyük sənətkarın məzarını ziyarət etmiş və mitinq keçirmişlər. Mitinqdə Yazıçılar Birliyinin sədri Anar, Mədəniyyət naziri Polad Bülbüloğlu, xalq artistləri Bəsti



Cəfərova, Ramiz Məlikov, xalq şairi Qabil, əməkdar incəsənət xadimi Azərpaşa Nemətov, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Ayaz Vəfalı və sonda yazıçının oğlu, xalq yazıçısı, Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin çıxış etmişlər.

Mərasim Milli Akademik Dram Teatrında davam etmişdir. Hollda İlyas Əfəndiyevin həyat və yaradıcılığından bəhs edən sərgi açılmışdır. Sonra Əmin Əfəndiyevin "İlyas Əfəndiyevin yaradıcılığı" kitabının təqdimatı olmuşdur. Təqdimat məclisini akademik Bəkir Nəbiyev aparmışdır. Ədəbiyyatşünas Vaqif Arzumanlı, teatrşünas İlham Rəhimli, Bəstəkarlar İttifaqının birinci katibi Vasif Adıgözəlov, rejissor Ağakişi Kazımov, xalq yazıçısı Hüseyn Abbaszadə, artistlərdən Firəngiz Əhmədova, Zemfira Nərimanova, Əlibala Nur, Yaşar Nuri və son olaraq Elçin çıxış etmişlər. Qabil İlyas Əfəndiyevə həsr etdiyi şeri oxumuşdur." ( Bax: AzərTAc. "Xalq qəzeti", 4 oktyabr 2000.)

Qeyd edək ki, “Sən həmişə bizimləsən” kitabındakı bütün xatirələr, esse və məqalələr böyük ədibin vəfatından sonra yazılmış, ayrı-ayrı rəsmi xəbərlərlə bərabər, məxəzləri göstərilərək nəşrə daxil edilmişdir. Eyni zamanda bir çox xatirə və esselər məxsusi olaraq bu kitab üçün yazılmışdır.

Kitab xalq yazıçısı Elçinin "Özümüzdən sonranın ilkini" adlı "Ön söz əvəzi" ilə başlayır.

"Böyük itgi" adlı bölmə İlyas Əfəndiyevin vəfatı ilə əlaqədar rəsmi materiallar, eləcə də, Əsəd Cahangirin ("Unuda bilmərik"), Gülcahan Məmmədovanın ("Həmişə bizimlə qalacaq dramaturq"), Atabala

İsmayıloğlunun ("Əbədiyyətə aparan yol"), Hüseyn Abbaszadənin ("Bu inamla bizdən ayrıldı"), Anarın ("Yeri görünəcək"), Amalya Pənahovanın ("Siz həmişə bizimləsiz"), Polad Bülbüloğlunun ("Siz həmişə bizimləsiz"), Səyavuş Məmmədzadənin ("Ustadın xatirəsinə" -- rus dilində), Maarif Soltanın ("Vida sözü əvəzi") müxtəlif mətbuat orqanlarında çap olunmuş vida sözləri, Ramiz Heydərin ("Canlı bir heykəldin"), (Ramiz Məmmədzadənin ("Məhəmməd oğlu İlyas"-- Azərbaycan və rus dillərində), Əjdər Qiyaslının ("İftixarısan"), Bəşir Kəsərlinin ("Xoş gələcəkdi") şerləri, başsağlığı teleqramları haqqında məlumat ("Dərin hüznlə"), Azərbaycan Yazıçılar Birliyinin Moskvada nəşr olunan "Literaturnaya qazeta"da çap etdirdikləri "Vida sözü" və İlyas Əfəndiyevin ailəsinin məktubu daxil edilmişdir.

"Çox dəyərli, xalqımız üçün lazımlı əsər" bölməsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Milli Dram Teatrında İlyas Əfəndiyevin "Hökmdar və qızı" tamaşasına baxması haqqında AzərTAc- ın geniş rəsmi məlumatı, eləcə də Svetlana Mirzəyevanın bu münasibətlə rus dilində yazdığı məqalə öz əksini tapmışdır.

Üçüncü bölmə "Mətbuatdan sətirlər" adlanır və salnamə xarakterli bu bölmədə vəfatından sonra mətbuatda İlyas Əfəndiyev haqqında gedən yazılardan seçmələr verilir.

"İlyas Əfəndiyev yaşayır" adlı dördüncü bölmədə Mirvarid Dilbazinin ("Unudulmaz sənətkar"), Tofiq Quliyevin ("Hər şeyin təzəsi, dostun köhnəsi"), Qılman İlkinin ("Kövrək xatirələr"), Kamal Talıbzadənin ("Məhəbbətin tərənnümü"), Əziz Mirəhmədovun ("Sənətlə sehrlənmiş ədib"), Əzizə Cəfərzadənin ("Uzaq xatirə"; "Dost düşüncələri"), Bəxtiyar Vahabzadənin ("İlyas Əfəndiyevi xatırlayarkən"), Ələviyyə Babayevanın ("Geriyə baxmaya bilərəmmi?"), Leyla Bədirbəylinin ("Mənalı ömür"), Tahir Salahovun ("Düşündürən dramaturq"), Nəbi Xəzrinin ("Əziz, mehriban dostum"), Hüseyn Abbaszadənin ("Qartal yüksəklərə uçur"), Qabilin ("Sən ey qadir məhəbbət"), Süleyman Ələsgərovun ("Görkəmli yazıçı, dahi dramaturq"), Kamran Hüseynovun ("Mahir söz zərgəri"), Bəkir Nəbiyevin ("Ruhunuz şad olsun, patriarx!"), Sofa Bəsirzadənin ("Unudulmaz xatirələr"), Fərəməz Maqsudovun ("Gələcəkdən gəlmiş adam"), Cabir Novruzun ("İlyas Əfəndiyev itgisi"), Polad Bülbüloğlunun ("Siz həmişə bizimləsiz"), Nərimn Həsənzadənin ("Böyük sənətkar və bir-neçə söz"), Famil Mehdinin ("Böyük sənətkara məhəbbət"), Söhrab Tahirin ("Əbədiyyəti gözlərimlə gördüm"), Əhliman Əmiraslanovun ("Böyük yazıçı -- böyük el ağsaqqalı"), Həsənağa Turabovun ("Bizim qəribə taleyimizdən bir lövhə"), Amalya Pənahovanın ("Dostluqdan yaranan sənət"), Şəfiqə Məmmədovanın ("Teatr onun həyatı idi"), Mərahim Fərzəlibəyovun ("Xatirə işığında"), Hacı Səyavuş Aslanın ("Qüdrətli sənətkar"), Əliabbas Qədirovun ("Unudulmaz sənətkar"), Fuad Poladovun ("Biz onun yetirmələriyik"), Sabir Rüstəmxanlının ("Gecə zəngləri"), Nahid Hacızadənin ("Yazıçıya yazmaq qalacaq"), Mövlud Syleymanlının ("Nəsillərin görüşü"), Kamil Vəli Nəriman-

oğlunun ("Aydan arı, sudan duru"), Vaqif Bayatlı Önərin ("Elçin və İlyas Əfəndiyev"), Vilayət Quliyevin ("Sənət marafonçusu"), İnqlabın ("İlyas Əfəndiyev teatrı"), Dilsuzun ("Zəka nuru"), Afaq Məsudun ("Unudulmaz İlyas Əfəndiyevin xatirəsinə"), İlham Rəhimlinin ("Əbədi sənət irsi"), Vaqif Yusiflinin ("Boy çiçəyinin ətri"), Məryam Əlizadənin ("Sən həmişə bizimləsən"-- rus dilində), Firəngiz Mütəllimovanın ("Yada düşər xatirələr"), Bəsti Cəfərovanın ("Nə yaxşı ki, bu dünyada siz varmışsınız..."), Kübra Əliyevanın ("Ürək sözlərim"), Səyavuş Məmmədzadənin ("İnsanlara vəsiyyət edilmiş işıq"-- rus dilində), Əkrəm Qaflanoğlunun ("Qarabağ şikəstəsi"), Kərbəlayi Əlinin ("Unuda bilmədiyim insan") xatirə və esseləri, Fikrət Qocanın "İlyas Əfəndiyevin unudulmaz xatirəsinə" şeri və İlham Rəhimlinin "İlyas Əfəndiyevin Azərbaycan Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuş pyeslərinin siyahısı" çap edilmişdir.

Əslində bu kitabda toplanan məlumatlar, məqalələr, xatirələr, şeirlər, xronikalar ədəbi-mədəni ictimaiyyətin böyük və həmişəyaşar ədibibiz İlyas Əfəndiyevin şəxsiyyətinə və yaradıcılığına, onun şərəfinə qoyulmuş yazılı abidədir...

Başqa bir məlumatda isə biz, İlyas Əfəndiyev yaradıcılığına Türkiyə Cümhuriyyəti ziyalılarının, naşirlərinin münasibətini görürük.

“Xalq qəzeti”nin 23 İyun 2011-ci il sayında oxuyuruq ki, Türkiyədə "İlyas Əfəndiyev. Həyatı və əsərləri" monoqrafiyası çapdan çıxmışdır. Və mətndə deyilir:



“Xalq yazıçısı İlyas Əfəndiyevin əsərləri xarici ölkələrdə tez-tez nəşr olunur, onun yaradıcılığı ədəbiyyatşünaslar tərəfindən tədqiq edilir.

Qardaş Türkiyə oxucuları da böyük ədibin əsərləri ilə yaxından tanışdırlar. Son illərdə İlyas Əfəndiyevin məşhur "Geriyə baxma, qoca", "Üçatılan" romanları, "Seçilmiş pyeslər"i türk dilində (Türkiyə ləhcəsində - red.) nəşr edilmiş, oxucuların və ədəbi-elmi ictimaiyyətin dərin rəğbətini qazanmışdır.

Bu günlərdə Ankaradakı "Fenomen" nəşriyyatında türk ədəbiyyatşünası, Atatürk Universitetinin dosenti Sedat Adıgözəlin "İlyas Əfəndiyev. Həyatı və əsərləri" monoqrafiyası çapdan çıxmışdır.

Monoqrafiyada İlyas Əfəndiyevin yaradıcılığı təhlil olunmuş, əsərlərinin bədii-estetik xüsusiyyətləri müəyyənləşdirilmişdir. Müəllif xüsusi qeyd etmişdir ki, əsərlərinin əksəriyyətini sovet dönəmində yazmış İlyas Əfəndiyev roman və pyeslərində hakim ideologiyanı tərənnüm etməmiş, sadə insanların həyatını, onların məhəbbətini, arzu və istəklərini böyük ustalıqla qələmə almışdır. Buna görə də onun əsərləri coğrafi sərhədləri adlayaraq, yeni-yeni oxucu auditoriyalarının sevgisini qazanır.”

Son illərin başqa bir maraqlı tədbirini də xatırlatmaq yerinə düşər. Bu tədbirdən aydın olur ki, İlyas Əfəndiyev şəxsiyyəti və yaradıcılığı təkcə ədəbi-tənqidin deyil, həm də bədii fikrin, düşüncənin də dərki prosesində özünə yer almış, şairlərimiz onun barəsində maraqlı şeirlər, poemalar yazmışlar. Yazıçının nəvəsi – Günay Əfəndiyeva Elçin qızı bu əsərləri toplayaraq maraqlı bir kitab – “İlyas Əfən-

diyev. Şeirə sığmayan ömür" adlandırdığı kitabı nəşr etdirmişdir.

Bu kitabın təqdimat mərasimindən "525"-ci qəzet" də (17.03.2011) dərc edilən məlumatda oxuyuruq:

"Dünən (16.03.2011. – red.) Muzey Mərkəzində XX əsr Azərbaycan ədəbiyyatının klassiki, xalq yazıçısı İlyas Əfəndiyevə həsr olunmuş "İlyas Əfəndiyev. Şeirə sığmayan ömür" kitabının təqdimat mərasimi keçirilib.

Tədbirdə İ.Əfəndiyevin oğlu, baş nazirin müavini, xalq yazıçısı Elçin, həmçinin tanınmış elm, ədəbiyyat və mədəniyyət xadimləri, millət vəkilləri, ziyalılar, mətbuat nümayəndələri iştirak ediblər. Mədəniyyət və Turizm Nazirliyinin nəşr layihəsi olan "İlyas Əfəndiyev. Şeirə sığmayan ömür" kitabı "Təhsil" nəşriyyatında nəfis tərtibatla çap edilib. Kitabın tərtibçisi və redaktoru Günay Əfəndiyevadır.

"İlyas Əfəndiyev. Şeirə sığmayan ömür" kitabında, adından göründüyü kimi, unudulmaz yazıçıya həsr olunmuş şeirlər, tanınmış şəxslərin ürək sözləri və qiymətli fotoşəkillər yer alıb. Ümummilli lider Heydər Əliyevin İlyas Əfəndiyev barədə dəyərli fikirləri ilə açılan kitabda tərtibçi-redaktor Günay Əfəndiyevanın ön sözü, xalq yazıçısı Elçinin "Şeirə sığmayan ömür" məqaləsi yer alıb.

Bundan başqa, kitabda Süleyman Rüstəm, Qabil, Nəriman Həsənzadə, Fikrət Qoca, Zəlimxan Yaqub, Ramiz Rövşən, Tofiq Nurəli və başqa şairlərin qələmə aldığı şeir nümunələri dərc edilib. Bu şeirlərdə İlyas Əfəndiyev sənətinə, şəxsiyyətinə dərin ehtiram



və məhəbbət əksini tapıb. Yazıçının parlaq obrazını tamamlamaq məqsədi ilə kitaba fotoşəkillərlə yanaşı rəssamların bu mövzuda çəkdiyi illüstrasiyalar, teatr eskizləri, digər bədii rəsm və foto nümunələri də daxil edilib.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev mərasimdə çıxış edərək, İlyas Əfəndiyev yaradıcılığından danışıb və ona həsr olunan bu kitabı yüksək qiymətləndirib. İlk olaraq çıxış edən mədəniyyət və turizm naziri Ə. Qarayev bildirib ki, "İlyas Əfəndiyev. Şeirə sığmayan ömür" kitabında adından göründüyü kimi, unudulmaz yazıçıya həsr olunmuş şeirlər, tanınmış şəxslərin ürək sözləri və qiymətli fotoşəkillər yer alıb. Kiatbda yer alan şeirlərdə İlyas Əfəndiyev sənətinə, şəxsiyyətinə dərin ehtiram və məhəbbət ifadə olunub: "Yazıçının parlaq poetik obrazını tamamlamaq məqsədi ilə kitaba fotoşəkillərlə yanaşı rəssamların bu mövzuda çəkdiyi illüstrasiyalar, teatr eskizləri, digər bədii rəsm və foto nümunələri də daxil edilib. Mədəniyyət və Turizm Nazirliyinin nəşr layihəsi olan "İlyas Əfəndiyev. Şeirə sığmayan ömür" kitabı "Təhsil" nəşriyyatında nəfis tərtibatla çap olunub. Kitabın tərtibçisi və redaktoru Günay Əfəndiyevadır".

Nazirin çıxışından sonra böyük ədib haqqında hazırlanan sənədli film nümayiş olunub.

Mərasimdə çıxış edən millət vəkili, professor Nizami Cəfərov İlyas Əfəndiyev yaradıcılığının bənzərsizliyindən danışıb, ədibin özünəməxsus yolu olan bir yazıçı olduğunu diqqətə çatdırıb və kitabın çox orijinal bir tərtibatla hazırlandığını bildirib:

“Bəlkə də bu kitabı hansısa peşəkar ədəbiyyatşünas, yazıçı yazsaydı, peşəkar dizaynerin tərtibatında çıxsaydı, bu qədər səmimi olmazdı. Günay xanım babasını hamıdan yaxşı tanıdığı üçün bu kitabın tərtibatında da səmimilik və doğmalıq hiss olunur”.

Xalq artisti, Bakı Bələdiyyə Teatrının direktoru Amaliya Pənahova İlyas Əfəndiyevin və onun əsərlərinin Azərbaycan teatrının inkişafındakı mühüm rolundan danışıb: “İlyas Əəfəndiyev Azərbaycan teatrının inkişafına misilsiz xidmət göstərən pyeslər yaradıb. Mən çox xoşbəxt bir aktrisayam ki, onun 18 əsərinin 14-də baş rol ifaçısı olmuşam. Onun əsərləri ilə Azərbaycan teatrında üç böyük aktyor nəsli yetişdi və bu aktyorlar İlyas müəllimin əsərləri ilə inkişaf etdilər. Biz bu gün bu kitabı vərəqlədikcə, onun haqqında dəyərli şairlərin yazdıqları şeirləri oxuduqca İlyas Əfəndiyevin hər zaman bizimlə olacağını hiss edirik. Mən İlyas Əfəndiyev yaradıcılığını və şəxsiyyətini əbədiləşdirmək yolundakı fəaliyyətinə görə onun nəvəsi Günay xanıma təşəkkürümü bildirirəm”.

Sonra çıxış üçün söz xalq artisti Azərpaşa Nemətova verilib və o, İlyas Əfəndiyevin mənalı ömür yaşadığını, onun əsərlərinin hər zaman aktuallığını qoruduğunu dilə gətirib: “Çox sevindirici haldır ki, İlyas Əfəndiyev haqqında hazırlanan bu kitab sanballıdır, ağırdır. Bu ağırlıq təkcə həcmlə bağlı deyil, həm də görkəmli ədibin öz yaradıcılığı, onun haqqında söylənən dəyərli fikirlərlə əlaqədardır”.

Xalq şairi Zəlimxan Yaqub İlyas Əfəndiyevin xalqın ağrısını, dərdini öz içindən keçirərək, xalqa



dəyərli bir ədəbi irs qoyub getdiyini, dünya durduqca ədibin adının, yaradıcılığının, ruhunun var olacağını deyib: “İlyas Əfəndiyevin adı çəkiləndə yerindən, zamanından asılı olmayaraq, mənim gözlərimin önündə işıq obrazı canlanır. Onun qanında, canında yanan bu işıq milli teatrımıza köçüb. Böyük şəxsiyyətlərin xalq və sənət qarşısındakı ən böyük xidməti insanları doğmalaşdırmaqdır. Bu gün İlyas Əfəndiyevin xatirəsinə həsr olunan bu kitab da burda neçə-neçə insanı doğmalaşdırdı”.

Tədbirdə akademik Bəkir Nəbiyev, professor Nizami Xudiyev və başqaları da çıxış edərək, ədibin şəxsiyyəti və yaradıcılığı haqda fikirlərini bölüşüblər. Gecənin sonunda söz kitabın redaktoru və tərtibçisi Günay Əfəndiyevaya verilib: “Bu, çox səmimi bir gecə oldu. “Şeirə sığmayan ömür” kitabının hazırlanmasında mənə mənəvi dəstək olduğu üçün atam Elçin Əfəndiyevə, o cümlədən bu kitabın səhifələrini bəzəyən, belə bir kitabın yaranmasına səbəb olan şairlərimizə, kitabın işıq üzü görməsində, bu cür nəfis tərtibatla ərsəyə gəlməsində göstərdiyi köməkliyə görə “Təhsil” nəşriyyatına, belə möhtəşəm bir gecəni təşkil etdiyi üçün mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayevə dərin minnətdarlığımı bildirirəm”.

“Şeirə sığmayan ömür” kitabı ədəbi ictimaiyətin İlyas Əfəndiyev şəxsiyyətinə və yaradıcılığına göstərilənhərmət və məhəbbəti ümumən tamamladığından, bu sahədə müstəsna əhəmiyyət kəsb edir. Bu kitabın ədbi-ictimai fikirdə tutduğu mövqeyi xalq yazıçısı, professor Elçin müəllimdən yaxşı şərh

etmək mümkün olmadığından onun kitabın adıyla eyni adlı ön sözündən müəyyən fraqmentləri təqdim edirik:

Elçin "Şeirə sığmayan ömür" : "Bu kitabın nəşri İlyas Əfəndiyev şəxsiyyəti və yaradıcılığı ilə bağlı, olsun ki,bir az qeyri-adi, ancaq əlamətdar ədəbi hadisədir.

Bu kitabda Azərbaycan şairlərinin İlyas Əfəndiyevə həsr etdiyi şeirlər toplanmışdır.

Təmtəraqlı çıxmasaydı, deyərdim, bu kitab – şeir çələngi, poeziya buketidir.

Poeziya əlbəttə, ilk növbədə səmimiyyətdir.

İlyas Əfəndiyev o az saylı sənətkarlardandır ki, şəxsiyyəti səmimiyyətin ifadəçisi olduğu kimi, yaradıcılığı da səmimiyyət ifadə edirdi. Bu mənada onun şəxsiyyəti ilə yaradıcılığı arasında üzvi bir vəhdət var idi və onun şəxsiyyətilə yaradıcılığı əslində bir-birini tammlayırdı.

Və yəqin elə buna görə də neçə illərdir ki, İlyas Əfəndiyevin şəxsiyyəti də, yaradıcılığı da Azərbay-canpoeziyasının mövzularından birinə çevrilmişdir. O, bəlkə də, haqqında ən çox şeir yazılmış nasiri-mizdir və İlyas Əfəndiyevi xatırladıqca, onu yenidən oxuduqca, mən bu cəhəti çox əlamətdar hesab edirəm." (Bax: "Şeirə sığmayan ömür", Bakı, "Təhsil" nəş., 2011, s.13.)

"... Azərbaycan ədəbi tənqidinin, yəqin elə bir nümayəndəsini tapmaq mümkün deyil ki, İlyas Əfəndiyev haqqında yazmasın. Hətta yazıçı və şairlərin əksəriyyəti İlyas Əfəndiyev haqqında çox yazıblar, eyni zamanda böyük sənət xadimlərimiz də



vaxtaşırı İlyas Əfəndiyev haqqında yazmış, onun şəxsiyyəti və yaradıcılığı barədə ürəkdən gələn bir hərarətlə söz demişlər.

İlyas Əfəndiyevin yaradıcılığı bir çox elmi mo-noqrafiyaların, dissertasiyaların mövzusu olmuşdur və həmin dissertasiyalar bu gün də müdafiə edilir.

Ancaq belə zəngin bir biblioqrafiya ilə bərabər, bu kitab, dediyim kimi, qeyri-adi və əlamətdar hadisədir." (Bax: Yenə orad, s.15.)

Müəllif davam edir: "Çünki söhbət elmi-nəzəri tədqiqatlardan, məqalələrdən, esselərdən, xatirlərdən, bu və ya digər münasibətlə söylənmiş fikir və mülahizələrdən yox, poeziyadan gedir.

Bu kitabda 35 Azərbaycan şairinin müxtəlif il-lərdə İlyas Əfəndiyevə həsr etdikləri 38 şeir toplanıb.

Qəribədir, bəzən kiçik bir şeir böyük bir bioqrafi-yanın, zəngin və zəngin olduğu qədər də mürəkkəb bir xarakterin ayrı-ayrı çalarlarını, məxsusi cəhətlərini ifadə edə bilir.

İstedad və sənətkarlıq dediyimiz vergi də elə bundadır.

Ramiz Rövşənin "İlyas müəllimin xatirəsinə" şeiri cəmi üç kiçik bənddən ibarətdir, ancaq mən o şeiri oxuyanda İlyas Əfəndiyevi aydın gördüm və az qala cismani hiss etdim:

Daş atanlar az olmadı,
Bu kişinin əkdiyinə.
Sevənlərdən yaza-yaza,
Çəkildi öz təkliyinə.

Hərdən yaşla doldu gözü,
Bir cüt gölə döndü gözü,
Hərdən elə döndü üzü –
Daş mat qldı bərkliyinə...

Dünyayla küsüb-barışdı,
Ağ varağa könül açdı,
Qarışdı, ruhu qarışdı,
Ağ varağın paklığına.

Bunlar Ramiz Rövşənin İlyas Əfəndiyev şəxsiyyətində və yaradıcılığında gördükləri və bəlkə də, gördüklərindən daha çox – hiss etdikləridir.

Ancaq hər şairin, hər sənətkarın öz baxış bucağı, öz hisslər dünyası var. Və yəqin elə buna görə də Günay bu kitabın adını "Şeirə sığmayan ömür" qoyub və mən də bu kiçik ön sözü belə adlandırdım.

...Günay rəssamların, heykəltəraşların İlyas Əfəndiyev mövzusunda işlədiyi bir sıra əsrlərin reproduksiyalarını da bu kitaba daxil edib və güman edirəm ki, poeziya ilə rənggarlıq həmişə olduğu kimi, bu dəfə də bir-birini yaxşı tamamlayır.( Bax: Yenə orada, s.17.)

...Bu kitabın müəllifləri XX-XXI əsr şairlərimizin müxtəlif nəsillərinə mənsubdurlar.

Süleyman Rüstəm, Mədinə Gülgün, Qabil, Hüseyn Kürdoğlu, Vilayət Rüstəmzadə... mənim yaxşı tanıdığım, uzun illər boyu mehriban, istiqanlı ünsiyyətdə olduğum bu gözəl insanlar artıq Haqq dünyasındadırlar. Gedənlərin ruhu şad olsun, qalanlara, bu gün də yazıb-yaradanlara isə mən onların bu



kitaba toplanmış şeirlərinin səmimiyyətilə yoğrulmuş ən gözəl arzularımı bildirirəm. Elçin, 08 iyul 2010. Bakı." ( Bax: Yenə orada, s.18.)

Biz də, bir müəllif kimi Elçin müəllimin bu səmimi, səmimi olduğu qədər də, elmi fikirlərinə, isti arzularına qoşularaq İlyas müəllimə həsr edilmiş bir neçə şeiri oxucularımıza təqdim etməklə, kitabımızı süsləndirmək istədik...

Xalq şairi Fikrət Qocanın "İlyas Əfəndiyevin unudulmaz xatirəsinə" şeiri:

İlyas Əfəndiyevlə bağlı xatirəm çoxdu. Elə ki, yazmaq istəyirəm, hamısı pərən-pərən düşür. Qalıram boşluqda. Nəhayət, anladım ki, insan haqqında xatirəni onu itirdiyinə daxilən inandıqdan sonra yazmaq asan olur. Mən İlyas müəllimin ölümünə-yoxluğuna inana bilməmişəm. Onun yoxluğunu qəbul etməyə hazır deyiləm. Mən xatirə yazmaq istəyəndə bu şeir yarandı:

Dağların Bəbir qadını,
Doğdu bir eşqin odunu,
Xızır İlyasın adını
Verdi əziz balasına.
Bu diyarda ömür boyu,
Xəyalında dağ çiçəyi,
Nəğmə oldu adı, soyu,
Ürəyində bulaq suyu,
Bu şəhərdən keçdi, getdi…
Zaman piyada, o atlı,
Elçin, Timuçin qanadlı
İlyas Məhəmməd oğlu.

Nə dostlarla yarışardı,
Nə də dərdin danışardı,
Öz yolunda, öz ilhamı
Bir şam kimi alışardı.
Hava tutqun, yollar çətin…
Həmişə təmiz saxladı
Öz varlığın, öz siqlətin.
Təmiz, saf bir parçasıydı
O, dağların, təbiətin.
Adı məşhur, sözü dadlı…
Elçin,Timuçin qanadlı
İlyas Məhəmməd oğlu.

Hələ bizim aramızda
Ömür sürür söz Paşası.
Dillərdə sözü-söhbəti,
Səhnələrdə tamaşası.
İlham şamı sönməyibdi,
Xatirəyə dönməyibdi.
Evdə ayaq izi isti.
Heç mürəkkəb qurumayıb,
Hələ səsi, sözü isti…
Hələ,
hələ bundan belə
Ruhu, mehriban xəyalı
Üzümüzə gülə-gülə
Neçə nəvə böyüdəcək
İlyas qəlbli, İlyas adlı…
Elçin, Timuçin qanadlı
İlyas Məhəmməd oğlu.

2 oktyabr 1998
(Bax: "Ədəbiyyat qəzeti", 2 oktyabr 1998.)



Xalq şairi Zəlimxan Yaqubun "Köhnə kişi" şeiri:
(Xalq yazıçısı İlyas Əfəndiyevin ruhuna bağışlayıram)

Təzələr içində təzədən təzə,
Köhnələr içində köhnə kişiydi.
Uca şəxsiyyəti, əsərləriylə
Tamaşa kişiydi, səhnə kişiydi.

«Bahar suları»tək axırdı dili,
Çəmən qucağında çeşmə kimiydi.
Nəsrin şeriyyəti Valeh dilində,
Bayatı kimiydi, qoşma kimiydi.

Fikrə, düşüncəyə, zehnə, yaddaşa,
Əlvan naxışları vurdu yaşadı.
«Büllur saray»lara tamah salmadı,
Könül sarayları qurdu yaşadı.

Onun əsərələri taleyimizdi,
Hey bizdən danışdı, hey bizdən dedi.
Kamran 1 Borçalıdan söhbət açandı,
«Şeyx Xiyabani» Təbrizdən dedi.

Onun qələmində tariximiz də,
Tarixi ən kəskin ittiham da var.
Möhtəşəm hökmdar 2 ucalığı da,
«Məhv olmuş gündəlik», sönən şam da var.

Saçı zirvələrin qarına döndü,
Sarvantək daşıdı karvan dərdləri.
Onun qələmiylə dindi, danışdı
Qarabağ, Borçalı, Şirvan dərdləri.

Enişli-yoxuşlu həyat yolunda
Neçə dərə keçib, neçə dağ çıxıb.
Zaman sınağında təmiz, ləkəsiz,
Sənət sınağından üzüağ çıxıb.

Təzələr içində təzədən təzə,
Köhnələr içində köhnə kişiydi.
Uca şəxsiyyəti, əsərləriylə
Tamaşa kişiydi, səhnə kişiydi.

25 may 2010. (Bax: İlyas Əfəniyev virtual muzeyi)

Şair Hüseyn Kürdoğlunun İlyas Əfəndiyevin 70 illiyinə həsr etdiyi "Yüz il yaşamağa haqqın var sənin" adlı şeri:

Bələyə bükəndə səni Qarabağ,
Bir qartal lələyi taxdı qundağa,
Qəlbinə od verdi halal bir ocaq,
Bir gün iməkləyib qalxdın ayağa.
Baxtını yazmışdır o dağlar sənin,
Yüz il yaşamağa haqqın var sənin!

Dünyanı qanlı bir tufanda gördün,
Dağlar sinə gərdi ildırımlara.
Nalə də eşitdin, hicran da gördün,
Yolun dikəlsə də sıldırımlara.
Əlindən tez tutdu bu diyar sənin,
Yüz il yaşamağa haqqın var sənin!



Torpağa kök atıb, eldən güc aldın,
Sal qayalar kimi bərkidi dizin.
Tufanlar önündə göyə ucaldın,
Yaşıl yarpaq kimi açıldı sözün,
Budağın gətirdi təzə bar sənin,
Yüz il yaşamağa haqqın var sənin!

Misri qılınc verib döyüşən sözə,
Yamanın, yalanın bağrını yardın.
Tamahı qul kimi çökdürüb dizə,
Büllur sarayları viran qoyardın,
Olsaydı əlində ixtiyar sənin,
Yüz il yaşamağa haqqın var sənin!

Düşmədin dalınca şöhrətin, adın,
Çeşmədən durusan, aydan arısan.
Yaratmaq eşqindən sən ki, doymadın,
Baharın, gəncliyin nəğməkarısan.
Saçına yağsa da vaxtsız qar sənin,

Yüz il yaşamağa haqqın var sənin!
Min il yaşamağa haqqın var sənin!

( Bax: Hüseyn Kürdoğlu. Ziyalımız - ziyamız, Bakı, "Ozan", 1999. səh. 17.)

Tanınmış şairə Firuzə Məmmədlinin “Adın gələndə” şeiri:
(Xalq yazıçısı İlyas Əfndiyevə)

Sözlər əzizlənir adın gələndə,
Ey ustad, Tanrıya ucalır sözün.
Deyən arzusuna çatır qələmlər,
Həzin duyğuların açılır gözü.

«Dağlar arxasından» əl edir «üç dost»,
Dağlar – xan qızının «Büllur sarayı».
İlişib «dağlarda qalan mahnını»
Daha nə axtaraq, nə də arayaq.

Daşsın gözümüzdən «Bahar suları»,
Su deyil, qan axsın «Söyüdlü arxdan».
Nahaqca qurutduq axar suları,
Bu qanı su ilə yuduq nahaqdan.

«Üçaçılan» qınında qalıb paslanır,
«Salınan körpülər» laxlayır daha.
Cavanlar sabahı görmək istəmir,
«Qocalar geriyə baxmayır» daha.

«İşıqlı yollardan» keçdi min kərə,
«Mənim günahım»ın sınağı yoxdur.
Baxıram «Məhv olmuş gündəliklərə»,
«Qəribə oğlan»ın günahı yoxdur.

Sözlər əzizlənir adın gələndə,
Ey ustad, Tanrıya ucalır sözün.
Deyən arzusuna çatır qələmlər,
Həzin duyğuların açılır gözü.
2010. (Bax: İlyas Əfəndiyev.Virtual muzey.)



Qocaman şair Oqtay Rzanın "Müdrik yazıçımız İlyas Əfəndiyevə" şeiri:

Yenə izdihama qoşulub mən də
Gəldim Xiyabana, İlyas müəllim!
Kaş bu sətirlərim anım günündə
Yayıla hər yana, İlyas müəllim!

Əsərlər – ədəbi sərvətin, varın,
İncisi, yaqutu çoxsaylı, min-min.
Fəxrimiz-sevimli yadigarların:
Şöhrətli Elçin, hörmətli Timuçin…

Sənətkar yaşamaz həyatdan ayrı,
Sağ olsun əhdinə sadiq qalanlar –
Coşub çağlayanda «Bahar» suları»,
Dağ çayı üstündə «Körpü salanlar».

« Natəvan» özünün gül bağındadır,
Ruhu Şuşamızın Kirs dağındadır.
Bir gözəl boylanır «Büllur saray»dan,
«Hökmdarın qızı» otağındadır.

Yoxdur yad hüceyrə türkün qanında,
Fəqət çən çoxalıb, duman sürünür;
Çağdaş ədəbiyyat, söz meydanında
Ustad, həmişəlik yerin görünür.

Dərinlik, ucalıq rəmzidir adın,
Məzarın-müqəddəs, xatirən – əziz!
Möhtəşəm salnamə yaratmasaydın,
Kimə güvənərdi milli səhnəmiz?!

Yenə izdihama qoşulub mən də
Gəldim Xiyabana, İlyas Əfəndi!
Kaş bu sətirlərim anım günündə
Yayıla hər yana, İlyas Əfəndi!

29 aprel 2010. (Bax: İlyas Əfəndiyev. Virtual muzey)

Şair Əjdər Qiyaslının İlyas Əfəndiyevin anadan olmasının 100 illiyi münasibətilə yazdığı yeni şeiri:

“DAHİLİK ZİRVƏSİ”

(Zəkalar kəhkəşanında əbədi parlayan Müdrik Xalq yazıçısı İLYAS ƏFƏNDİYEVİN əziz və unudulmaz xatirəsinə.)

Sən elə dağ idin zirvəsi qarlı,
Əyilən deyildin tufana, qara.
Bir ömür yaşadın qışlı, baharlı...
Sədaqət gətirdin əhdə, ilqara.

Vüqarın bənzərdi uca çinara,
Min cürə nemətli barlı bağ idin.
Zülmətə qərq olub düşsən də dara,
Kəhkəşan qoynunda çilçıraq idin.

Zəkan nur saçırdı... Hikmətin dərin,
Sənin dərdin idi xalqın da dərdi.
Can qoyub yazdığın hər bir əsərin,
Ən yüksək dəyərli gövhərdi, zərdi!



Dram əsərlərin düşdü dillərə,
Oldu səhnəmizin nəcib zinəti.
İncilər bəxş etdin bizim ellərə,
Ucaltdın göylərə eşqi, sənəti.

Nurlu olsun deyə Vətənin yazı,
Canını bu yolda sən fəda etdin.
Bizə ibrət qoyub "Hökmdar və qızı"
Qəlbində Qarabağ yarası getdin.

Ömrə naxış oldu "Körpü salanlar"
Qovuşmaq eşqilə uzandı qollar.
Bulaqtək çağladı "Bahar suları",
Yetişdi kamına "İşıqlı yollar".

Sehirli bir "Mahnı dağlarda qaldı",
Doymadı kamanın, tarın səsindən.
Könüllər mülkü də xəyala daldı,
Dolmuş buludların kişnəməsindən!

"Unuda bilmirəm" - hikmət dəryası,
Bizə xatırladır keçən günləri.
Çox olur bir ömrün eşqi, cəfası...
Dünyaya göz açıb gələndən bəri.

"Dağlardan gələn səs" çağırır bizi,
Qartallı dağ kimi biz də ucalaq.
Əsla qatlanmasın igidin dizi,
Hər yerdə, hər zaman qələbə çalaq!

Ömrün mənasını sərvətdə görən,
Gününü keçirir "Büllur sarayda",
Halal zəhmətinin barını dərən,
Həmişə bəxş edir xalqına fayda!

Xurşudbani Natəvan da Şuşada,
Sənin sənətinə əydi başını.
Dedi: çox sağ ol ki, salmısan yada,
Nisgilli könlünün atdı daşını!

Zəkan işıqlıdır, hikmətin dərin,
Ömrün həm bahardı, həm də ki qışdı.
Dünyaya sığmayan şah əsərlərin
Görəsən bir ömrə necə sığışdı?!

Göylərə baş çəkən uca çinarsan,
Dəyərli töhvən var sənət bağında.
Nə qədər həyat var, həmişə varsan;
Yaradan yaşayır yaratdığında!

Yazdığın əsərlər həkk olub yada,
Öz şirin barını bağ özü yığmır.
Dünyada hər şeyi ölçmək olsa da,
Sənin böyüklüyün ölçüyə sığmır!

Sənin o mənalı ömür kitabın,
Misilsiz dəyərli gövhərlə doldu.
Sənət yollarında dözümlü tabın, -
Dahilik zirvəsi nəsibin oldu!



Adına layiqdir övladların da,
Xalqımın fəxridir alim Timurçin.
Tanınır sınanmış etibarında
Yolunu yaşadan yazıçı Elçin!

Canından çox sevdin Ana Vətəni,
Bu yurdun şöhrəti, düz ilqarısan.
Unudan deyilik heç zaman səni,
Xalqımın həmişə iftixarısan...

( Bax: “Ədalət” qəzeti, 2014-06-03.)

Bu şeirlər müxtəlif üslublu, müxtəlif qələm təcrübəsi və fərqli istedada malik şairlərimizin şeirlərindən seçmələrdir. Hərəsinin özünəməxsus avazı, ovqatı var... Amma, onları bir nüans şəksiz birləşdirir – İlyas Əfəndiyev şəxsiyyətinə və sənətinə səmimi, lirik münasibət, poeziyanın sarı sim üstə köklənmiş havacatı... Hissin gözü ilə İlyas Əfəndiyev dünyasının görünməyən tərəflərinin görüntüləri...

“Şeirə sığmayan ömür” kitabının təqdimatından ən maraqlı məlumatlarda biri olan “Ədalət” qəzetinin /2011/03/17/ sayında gedən məlumat-şərh də bu siradan məzmun və münasibət yeniliyinə, şərh üsuluna və deyilənlərin reallığını əks etdirdiyinə görə maraq doğurur.

**Məqalə-məlumat “Muzey mərkəzindəki işıq” adlanır, müəllifi də Əbülfət Mədətoğludur.** Bu tədbirdə də, İlyas Əfəndiyevin yaradıcılığı barəsində

çox görkəmli ziyalılarımızın, tənqidçilərimizin, mədəniyyət adamlarının İlyas Əfəndiyev şəxsiyəti və yaradıcılığı haqqında dəyərli fikirləri səslənibdir. Tədbrin materiallarını şərhsiz tədqim edirik:

“Dünən, yəni xalqımızın ilin son çərşənbəsini qeyd etdiyi gözəl bayram ovqatının tonqalları hələ sönməmiş paytaxtımızın Muzey Mərkəzində möhtəşəm bir tədbir düzənləndi. Əslində bu tədbirdən daha çox bizlərin Muzey Mərkəzini və bütövlükdə Azərbaycan ədəbi ictimai fikrin zaman-zaman öz işıq selində yaşadan xalq yazıçısı İlyas Əfəndiyevin ziyarət mərasimi idi.

Ola bilsin ki, kimsə mənimlə razılaşmasın. Düşünsün ki, xalq yazıçımız müqəddəs bir ünvanda dəfn olunub. Biz isə Muzey Mərkəzinə yığışmışıq. Mən də öz növbəmdə mənimlə razılaşmayanlara etiraz edirəm və qəti şəkildə bildirirəm ki, məhz həmin gün martın 16-da saat 16:00-da Muzey Mərkəzi İlyas Əfəndiyevin işığına bürünmüşdü və biz də bu işığın içində bu dünyadan, bu indiki auramızdan ayrılıb o işığa qərq olmuşduq.

Əslində bizim Muzey Mərkəzində bir araya gəlməyimizin səbəbkarı məhz İlyas Əfəndiyevin işığı idi. Sadəcə bu işığı yönəldənlər var idi və biz də o yönəldilən işığın şüaları altında Azərbaycan Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev cənablarının səmimi və həqiqətən ürəkdən gələn açılış çıxışının sayəsində bir daha bildim ki, İlyas Əfəndiyev yəni, Azərbaycanın o zamanlara hökm edəcək böyük yazıçısı özündən sonra təkcə ədəbi irsi yox, həm də bu irsin layiqli nəsil davamçılarını



qoyub gedibdi. Məhz İlyas müəllimin nəvəsi Günay Əfəndiyevanın tərtib etdiyi, həmçinin redaktoru olduğu "İlyas Əfəndiyev. Şeirə sığmayan ömür" kitabın təqdimat mərasimində biz sözün bütün mənalarında həm Əfəndiyev soykökünün, həm İlyas müəllimə aid ədəbi mühitin və Azərbaycan sözünün necə bir vəhdət təşkil edərək müsiqi sədaları altında Muzey Mərkəzini titrətmək gücündə olduğunun şahidlərinə çevrildik.

Mədəniyyət və turizm nazirinin giriş çıxışından sonra məclisə qatılanlar qısametrajlı "Sən həmişə bizimləsən" filmini seyr etdilər. Bu filmdə İlyas Əfəndiyevin həyatının müxtəlif anları əks olunmuşdu. Mənə elə gəldi ki, lentə köçürülmüş bu anlar əslində həmin o tədbir zamanı məclisə qatılanlarla xalq yazıçısı arasında bir könül körpüsü yaratdı. İştirakçılar artıq o körpüdən keçib İlyas müəllimin özünün qonağına çevrilmişdilər.

Sonra söz **akademik Bəkir Nəbiyevə** verildi. Azərbaycanın görkəmli alimi Əfəndiyevlər ailəsi barəsində, İlyas müəllim haqqında müəyyən fikirlərini söylədikdən sonra Günay xanımın bizlərə təqdim etdiyi kitabının böyük əhəmiyyətini vurğuladı və bu işin davamlı olmasını arzu etdi. Bəkir müəllimdən sonra söz məhz həmin kitabda yer almış şeirlərdən müəyyən parçaları dinləyicilərə çatdırmaq üçün Azərbaycanın dəyərli səhnə ustaları **Nürəddin Mehdixanlı və Məleykə Əsədovaya** verildi. Onların ifasında səslənən şeir parçalarından sonra millət vəkili, **professor Nizami Cəfərov** kitabla bağlı, bütövlükdə isə xalq yazıçısı İlyas

Əfəndiyevlə bağlı onun Azərbaycan ədəbiyyatındakı, Azərbaycan dramaturgiyasındakı xidmətləri ilə əlaqədar fikirlərini dilə gətirdi. Sonra söz yenə musiqiyə verildi. Xalq artisti **Aygün Bayramova xalq yazıçısı** İlyas Əfəndiyevin ən çox sevdiyi "Qaragilə" mahnısını ifa etdi. Alqışlarla qarşılanan xalq şari Zəlimxan Yaqubun özünəməxsus çıxışı və bütün səmimiyyəti bu mərasimin demək olar ki, ən yaddaqalan anlarından biri oldu.

Bir oxucu kimi mən zaman-zaman mütaliyə etdiyim xalq yazıçısı İlyas Əfəndiyevin adı ilə bağlı olan bu tədbirdə gözəl pianoçu Şahin Növrəslinin, eləcə də balaca xanəndə Mirpaşanın "Qarabağ" şikəstəsini heç vaxt unutmayacam. Ümumiyyətlə, bu gecədə iştirak edən millət vəkilləri **Sabir Rüstəmxanlı, Nizami Cəfərov,** görkəmli söz, sənət adamları **Nəriman Həsənzadə, İlyas Tapdıq, Fikrət Qoca, Anar, Rəşad Məcid, Nizaməddin Şəmsizadə,** eləcə də dövlət və hökumət nümayəndələrindən **Misir Mərdanov, Elçin Əfəndiyev, Ədalət Vəliyev, Vaqif Əliyev, həmçinin səhnə xadimləri Amaliya Pənahova, Azər Paşa Nemətov,** rəssamlar, bəstəkarlar İttifaqlarının sədrləri və digər tanınmış ziyalılar yaddaqalan bir tədbirin iştirakçılarına çevrildilər.

Tədbirin sonunda çıxış edən **Günay Əfəndiyeva** təşkilatçılara və kitabın ərsəyə gəlməsində xidməti olan hər kəsə, eləcə də dəyərli müsafirlərə öz səmimi minnətdarlığını çatdırdı və mən bütün bunları bilgisayara diqtə etdikcə hələ də o səmimi mühitdən uzun müddət ayrıla bilməyəcəyimə bir daha əmin oldum."



Bizim öz institumuzun da (AMEA Nizami adına Ədəbiyyat İnstitutu – red.) bir tədbirini xatırlatmalı olacağıq və Azərtacın (**04.10.2006)** məlumatını olduğu kimi təqdim edirəm:

"3 oktyabr 2006-cı il tarixdə AMEA-nın əsas binasında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı **İlyas Əfəndiyevin** vəfatının onuncu ildönümünə həsr olunmuş elmi konfrans keçirildi.

Konfrans AMEA Ədəbiyyat İnstitutu və İlyas Əfəndiyev adına Ədəbi Bədii Xeyriyyə Fondu tərəfindən təşkil olunmuşdur.

Tədbiri giriş sözü ilə açan AMEA Ədəbiyyat İnstitutunun direktoru, akad. Bəkir Nəbiyev İlyas Əfəndiyevin elmi fəaliyyəti haqqında ətraflı məruzə etdi və bildirdi ki, müasir Azərbaycan ədəbiyyatının böyük bir mərhələsi məhz İlyas Əfəndiyevin yaradıcılığı ilə bağlıdır. İlyas Əfəndiyevin əsərləri səlis, gözəl bədii dilinə, dərin məzmununa və yüksək sənətkarlığına görə fərqlənir, oxucuya böyük estetik təsir bağışlayır. Onun kitablarında həm körpüsalanların çətin işi, neftçilərin qəhrəman əməyi, müasir kəndin həyatı, həm də Azərbaycan ziyalıları arasında mənəvi-psixoloji prosseslər inandırıcı şəkildə və dərindən əks etdirilmişdir. O, həmçinin qeyd etdi ki, İ.Əfəndiyev dramaturgiyası Azərbaycan səhnəsinə yeni poetik düşüncə, nəfəs və həyat gətirdi.

Sonra s.e.d., prof. **Məryəm Əlizadə "Azərbaycan teatrında İlyas Əfəndiyev fenomeni və zaman"** adlı məruzə ilə, f.e.d. Məhərrəm Qasımlı **"İlyas Əfəndiyev yardıcılığında folklor"** adlı

məruzə ilə və f.e.n. **Şirindil Alışanlı "XX əsr Azərbycan fikrinin inkişafında İlyas Əfəndiyevin yeri"** adlı məruzə ilə çıxış etdilər.

Daha sonra f.e.n. **Vəfa Xanoğlan "İlyas Əfəndiyev ədəbi-tənqidi görüşləri"** adlı məruzə ilə və fondun direktoru, f.e.n. **Asif Rüstəmov "İlyas Əfəndiyev adına Bədii Xeyriyyə Fondunun fəaliyyəti və perspektivləri"** adlı məruzə ilə çıxış etdilər.

Tədbirdə, həmçinin Azərbaycan Yazıçılar İttifaqının sədri, Xalq yazıçısı **Anar**, Xalq şairi, millət vəkili **Sabir Rüstəmxanlı** və Xalq artisti **Amaliya Pənahova** da İlyas Əfəndiyevin yaradıcılığı haqqında çıxış etdilər.

Sonda çıxış edən **Elçin Əfəndiyev** atasına göstərilən diqqət və ehtirama görə tədbir təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi." (Bax: AzərTac-ın məlumatı.)

Göründüyü kimi, bu tədbirdə Azərbaycanın Elm mərkəzi olan Ədəbiyyat İnstitunda ədəbi tənqidimizin old olduqca mötəbər, tanınmış nümayəndələri İlyas Əfəndiyev yaradıcılığının mühüm problem və tərəflərindən danışmış, ciddi elmi-nəzəri müzakirələr aparılmışdır.

Başqa bir mühüm tədbirin faktına nəzər salaq:

"13 oktyabr 2004-cü ildə AMEA Naxçıvan bölməsində (NB) İlyas Əfəndiyevin 90 illik yubileyinə həsr olunmuş "İlyas Əfəndiyev-90" mövzusunda elmi konfrans keçirildi.

Konfransda **"Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığında müasirlik" məruzəsi ilə Naxçıvan Dövlət Universitetinin (NDU) rektoru, AMEA NB**



**İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, akad. İsa Həbibbəyli, "İlyas Əfəndiyevin yaradıcılıq yolu" məruzəsi ilə NDU-nun kafedra müdiri, professor Yavuz Axundlu, "İlyas Əfəndiyevin dramaturgiyası" məruzəsi ilə NDU-nun prorektoru, dosent Hüseyn Həşimli və b. çıxış etdilər."** (Bax: İlyas Əfəndiyev yad edilib. 24 May 2011,Sayt: "Tuesday")"

Bu mühüm tədbirdə də qoyulan məsələlər öz elmi aktuallığı ilə fərqlənirdi. Xüsusən akademik İsa Həbibbəylinin "Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığında müasirlik" məruzəsi problematikasının istiqaməti və nəzəri məzmunu ilə daha dərin təsir bağışlayırdı.

***

İlyas Əfəndiyevin yubileylərinə həsr edilmiş yığıncaqlarda, tədbirlərdə söylənilən fikir və mülahizələr də Azərbaycan ədəbi mühitinin, elmi-nəzəri aləminin, elitar ziyalı təbəqəsinin İlyas Əfəndiyev şəxsiyyətinə və yaradıcılığına münasibətin çox maraqlı ifadəsi kimi diqqəti cəlb edir.

Bu sıradan sonuncu tədbirlərdən birinin materiallarına nəzər salaq. Material "O, həmişə bizimlədir" adlandırılmışdır. 2009-cü il, mayın 26-da görkəmli sənətkar, "xalqımızın ən işıqlı övladlarından biri, əslinə-nəslinə yaraşan şərəfli, namuslu yazıçı ömrü yaşamış xalq yazıçısı İlyas Əfəndiyev"in (Anar) anadan olmasının 95 illiyi tanınmış ziyalılar və sənətsevərlər tərəfindən böyük qədirbilənlik hissiylə

qeyd edildi. Sağlığında "Tolstoy bütün əsrlərin böyük sənətkarıdır! O, insan qəlbinin, insan hisslərinin fövqəladə dərəcədə güclü bir tərcümanı kimi meydana çıxmışdı" düşüncəsiylə yazıb-yaradan sənətkar elə həmin fikir ucalığıyla da anıldı.

Tədbir iştirakçıları əvvəlcə fəxri xiyabana gələrək görkəmli sənətkarın qəbri üstünə gül-çiçək dəstələri qoyaraq ruhuna dualar oxudular. **Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev** ədibin anadan olmasının 95 illiyi münasibəti ilə düzənlənən mərasimi açaraq dedi: "Bu gün gözəl bir gündü. Çünki həqiqətən mədəniyyəti, ədəbiyyatı, ümumiyyətlə, sənəti istəyən, qiymətləndirən, sevən və bu mühitlə yaşayan insanlar bir araya gələrək böyük dramaturq, böyük nasir İlyas Əfəndiyevin anadan olmasının doxsan beş illiyini qeyd edirlər. Bu gün İlyas Əfəndiyevin yubileyini həm də Azərbaycanın müxtəlif bölgələrində, müxtəlif mədəniyyət ocaqlarında yada salır, onun haqqında danışır, yaradıcılığını təhlil edir, onun keçdiyi böyük yolu bir daha göz önünə gətirirlər. Sözsüz ki, tənqidçilər, ədiblər onun yaradıcılığı haqqında daha geniş danışa bilərlər. Lakin mən özümə borc bilirəm bir məqamı xüsusi olaraq qeyd edim ki, İlyas Əfəndiyevin yaradıcılığı özündə böyük bir düşüncəni ehtiva edirdi və bu düşüncənin mərkəzində ölməz bir vətən hissi, vətəndaşlıq, doğma Qarabağ, Azərbaycan xalqının bütövlüyü, onun bu günü və gələcəyi dururdu. Yaradıcılığının mərkəzində dayanan bu düşüncə onun bütün əsərlərindən əvvəldən axıra kimi qırmızı xətt kimi



keçirdi. Bu xətt İlyas Əfəndiyev yaradıcılığının bu gün də, gələcəkdə də yaşamasının təməlində durur.

Biz hamımız çox gözəl bilirik ki, Azərbaycan Milli Dövlət Dram Teatrı bütün mövsümlərini məhz İlyas Əfəndiyev yaradıcılığıyla, onun "Hökmdar və qızı" tamaşasıyla başlayır və bu da sözsüz ki, Azərbaycan mədəniyyət ustalarının, Azərbaycanın yaradıcı adamlarının, teatr ictimaiyyətimizin İlyas Əfəndiyev adına, İlyas Əfəndiyev yaradıcılığına olan böyük hörmətinin ifadəsidir. Artıq biz ənənəyə sadiq qalaraq bu işi yeni quruluşlarla, yeni aktyor oyunu və yeni üsullarla təqdim edirik. Nəticə olaraq İlyas Əfəndiyevin əsərləri yaşayır və gələcəkdə də yaşayacaq.

İlyas Əfəndiyev Azərbaycan klassik dramaturgiyasında böyük iz qoymuş, öz sözünü demiş bir insandı. Hətta o, klassik dramaturgiyanın sərhədlərini genişləndirdi, Azərbaycan dramaturgiyasında psixoloji-lirik dramaturgiyanın əsasını qoydu. Bu əsərlər öz aktuallığı ilə seçilir. İlyas Əfəndiyevin yaradıcılığı təkcə teatrla, nəsrlə məhdudlaşmır, artıq onun yazdığı əsərlər bizim kino sənətkarlarımızın diqqətini cəlb edir, bu əsərlər ssenariləşdirilir, kinolar çəkilir…"

Mərasimdə çıxış edən xalq yazıçısı, **Azərbaycan Yazıçılar Birliyinin sədri Anar dedi**: "Əziz dostlar, İlyas Əfəndiyevin vəfatı gününü biz həmişə dərin kədər hissi ilə qeyd edirik. Amma bu gün doğum günüdür və döğum gününü şadlıq günü kimi qarşılayırıq. Düz doxsan beş il bundan əvvəl Azərbaycan xalqının bəxtinə belə bir ərmağan, belə xoş bir gün

düşüb - onun böyük oğullarından biri, görkəmli sənətkarımız İlyas Əfəndiyev dünyaya gəlib.

İlyas Əfəndiyevin məşhur əsərinin adıyla demiş olsaq, o, həmişə bizimlədi. Təbii ki, o, həm də həmişə mənimlədi. Amma bu son üç-dörd gündə demək olar ki, sutkanın on-on iki saatını hər an, hər dəqiqə mənimlə olub. Mən Moskvada idim. Çoxdan idi ki, İlyas müəllim haqqında bir yazı yazmaq istəyirdim. Bakıdan yola düşəndə İlyas müəllimin cildlərini də özümlə götürdüm, onun yaradıcılığından uzun illər boyu oxuduğum əsərləri bir daha yenidən oxudum, qeydlərimi elədim. Bu axşam Bakıya qayıdıb gecə saat beşə kimi həmin qeydlər əsasında İlyas müəllimin ölməz yaradıcılığıyla bağlı məqaləmi yazıb tamamladım. Həmin məqalədə yazdıqlarımın üzərində burada dayanmaq istəmirəm. Şübhəsiz ki, çap olunacaq və siz də o məqaləylə tanış olacaqsınız. Bu gün Yazıçılar Birliyində görkəmli yazıçının doğum gününə həsr edilmiş tədbir də keçiriləcək, sizi həmin tədbirə dəvət edir və İlyas müəllimə qəni-qəni rəhmət diləyirəm".

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, xalq artisti **Azərpaşa Nemətov** da mərasimdə çıxış edərək qeyd etdi ki, İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatının ən uğurlu sənətkarlarından biridir. "Əgər Azərbaycan dramaturgiyası Mirzə fətəli Axundovdan başlayırsa, bu silsilədə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Mirzə İbrahimov imzası varsa, İlyas Əfəndiyev dramaturgiyası da öz xüsusi yeriylə, təravətiylə seçilir. İlyas Əfəndiyev öz teatrını yaratmışdı, dramaturgiyamızda yeni bir mərhələnin əsasını qoymuşdur. Onun həm lirik-psixoloji, həm də tarixi dramların yaradılmasında böyük xidmətləri olub. Onun əsərlərini Azərbaycana bağlılıq, Azərbaycanı sevmək, eyni zamanda, Cənubi Azərbaycan mövzusu, milli kədər hissinin əks olunması şərtləndirir.

İlyas Əfəndiyev mənim atam Zəfər Nemətovla dost idi. Onların həyatında çox unudulmaz hadisələr olub. Bu barədə mənim dostum, görkəmli yazıçımız Elçin mənə çox xatirələrini danışıb. Ancaq İlyas Əfəndiyevi yad edəndə ilk olaraq yadıma düşən o olur ki, bu adam demək olar ki, hər gün teatra gəlirdi. Teatr onun üçün müqəddəs bir yer, aktyorlar onun ən əziz dostları idi. O, aktyor sənətini, rejissor əməyini dərindən duyurdu. Son nəfəsinə kimi teatra olan bağlılığına sadiq qaldı. Təsəllimiz odur ki, bu gün də İlyas Əfəndiyevin dram əsərləri nəinki ölkəmizdə, müxtəlif teatrlarda, eləcə də xaricdə tamaşaya qoyulur, böyük maraq doğurur, onun irsi yaşayır. Ona görə ki, bu əsərlərdə çox vacib məsələlər öz əksini tapmışdır…"

İlyas Əfəndiyevin səhnə əsərlərinin demək olar ki, hamısının baş qəhrəmanlarının ifaçısı olmuş xalq artisti **Amaliya Pənahova** ustad sənətkara bəslədiyi ən səmimi duyğularını dilə gətirdi: "İlyas Əfəndiyev böyük sənətkar idi. İyirminci əsr dramaturgiyamızda onun xüsusi yeri var. İlyas müəllimin dramaturgiyası silsilə rejissor, aktyor, dramaturqlar nəsli yetişdirib. O, aktyorlara çox diqqətli bir insan idi.

Onun yaradıcılığı Azərbaycan dramaturgiyasında lirik-psixoloji cərəyanın əsasını qoydu. Bu cərəyanın öz rejissorları, aktyorları yetişdi. Bu əsərlərin quruluşunu verən rejissorlar inkişaf elədi, bütövlükdə, mənim yaşıdım olan səhnə xadimlərinin öz müasirləri olan görkəmli bir yazıçının teatrı meydana gəldi.

İlyas müəllimin sırf sovet dönəmində yazdığı romanlar, povestlər, dram əsərləri bu gün də aktualdı, onlar həm də sabahın, gələcəyin əsərləridi. Çünki o əsərlərdə insan qəlbinin təlatümləri, çabaları əks olunub, insan həyatının ən əlamətdar məqamları qələmə alınıb. Bu əsərlər həm millətin milli dəyərlərinin zənginləşməsinə xidmət edir, həm də mədəniyyətimizi, ədəbiyyatımızı inkişaf etdirir. Şərqdə ən qədim teatr olan, 136 yaşını qeyd etdiyimiz teatrımızın 50 illik tarixi İlyas Əfəndiyevin adıyla bağlıdı. Təsadüfi deyil ki, bu gün biz hansı teatra müraciət ediriksə, orada İlyas Əfəndiyevin tamaşalarını, onun tamaşalarında parlayan gənc istedadları görürük.

Səhnəmizin bugünkü ən adlı-sanlı aktyorları onun yaradıcılığından keçib gəlib, İlyas Əfəndiyev teatrında yetişib. İçi mən qarışıq, burada doğma simalarını gördüyüm böyük sənət dostlarım, gənc aktyorlar, hamımız İlyas Əfəndiyev yaradıcılığına borcluyuq. O, insan psixologiyasına vaqif olan sənətkar idi. İlyas müəllim sevgi ilə dolu bir insan idi. Onun yaratdığı əsərlərdə insan bütün tərəfləri ilə əks olunurdu. İnsan səhv edə bilirdi, insan yanılırdı, hardasa, həyatın çətin yollarında başı daşdan-daşa dəyirdi, amma bütün hallarda bu insanların qəlbində



böyük bir məhəbbət var idi. Mən bir sənət adamı olaraq o məhəbbətin vurğunuyam. Çünki bu məhəbbət işıq saçır, Azərbaycan insanının, gəncliyimizin mənəviyyatını tərbiyə edir… Mən İlyas Əfəndiyev ocağının nümayəndələrinə gözaydınlığı verirəm ki, belə böyük bir ustadın yurdçularıdırlar".

Musiqi Akademiyasının rektoru, **xalq artisti Fərhad Bədəlbəyli** mərasimdə çıxış edərək dedi: "Bir az öncə fəxri xiyabana daxil olarkən burada uyuyan görkəmli insanların, böyük şəxsiyyətlərin simalarını bir daha göz önünə gətirirdim və düşünürdüm ki, biz həqiqətən də çox xoşbəxt xalqıq. Gör nə qədər böyük insanlar yetişib…

Bu insanların ən işıqlılarından biri də görkəmli yazıçımız İlyas Əfəndiyevdi. O, bizim ailəyə çox doğma idi. Atamla İlyas müəllimin söhbətlərinə saatlarla qulaq asırdım. Onları dinləmək akademiyalardan, universitetlərdən üstün bir məktəb idi. Ən çox teatrdan danışırdılar.

İlyas müəllim məhəbbətin Məcnunu idi. Məhz bu məcnunluq onun gözəl əsərlərini araya-ərsəyə gətirirdi. İndi dəyərlər dəyişib. Baxıram, yaxın günlərdə qadını iblis kimi təqdim edən bir əsərə mükafat verdilər. Gör cəmiyyət, dünya nəyə qiymət verir? Mənim fikrimcə isə romantika, məhəbbət ən ülvi, bəşəri dəyərlərdi və nə yaxşı ki, İlyas müəllim var idi, nə yaxşı ki, o, məhz bu duyğuları qələmə alırdı. Mən həmişə İlyas Əfəndiyev teatrı ilə fəxr etmişəm…"

Bu sətirlər isə **xalq şairi Zəlimxan Yaqubun** İlyas Əfəndiyev mədəniyyətinə, sənətinə olan tükən-

məz sevgisinin ifadəsi kimi səsləndi: "Hər dəfə İlyas Əfəndiyev adı çəkiləndə içərimdə işıqlı bir dünya yaranır. Bu işıqlı dünya onun işıqlı şəxsiyyətindən, nurlu çöhrəsindən, təbəssümlü görkəmindən, xarici və daxili vəhdətinin gözəlliyindən, ağsaqqal ucalığından, sevilməsindən və seçilməsindən gələn bir işıq olduğuna görə hər dəfə bu ad səslənəndə özüm-özümə işıqlanır, içəridən nurlanıram. Sanki yeni bir aləmə düşürəm.

Niyə? Çünki o, təkcə mənim sevimli yazıçım olmazdan əvvəl atamın sevimli yazıçısı idi. İlyas Əfəndiyev mənim körpəliyimin, uşaqlığımın, gəncliyimin yazıçısı olub. Atam riyaziyyat müəllimi olmasına baxmayaraq, nəsri çox sevirdi və ən çox sevdiyi yazıçılardan biri də İlyas Əfəndiyev idi. Atamın belə bir adəti də var idi ki, oxuduğu əsərləri sonra öz övladlarına nağıl kimi, hekayət, dastan kimi danışardı. Yəni, İlyas Əfəndiyevin yaradıcılığı mən hələ Bakıya gəlməmişdən, ədəbi ictimaiyyətlə qaynayıb-qarışmamışdan atamın ləhcəsində, danışığında bütövlükdə mənim yaddaşıma hopmuşdu.

İlyas Əfəndiyev deyiləndə əsatirdən, əfsanədən, nağıldan, dastandan, bayatıdan gələn ilahi bir duruluq, ilahi bir saflıq adamın gözləri önündə canlanır. Həm möhtəşəm keçmiş, həm ilahi müasirlik - bunları bir-biri ilə calamaq, bir-birinin içində əritmək, bir ürək, bir can eləmək İlyas Əfəndiyevin çox böyük ustalığı idi.

Mən o xoşbəxt insanlardanam ki, İlyas Əfəndiyevi sətirbəsətir oxumuşam. Və mən hər dəfə onun əsərlərinə tamaşa etməyə gələndə bir tamaşaya yox, iki tamaşaya baxmağa gəlirdim - bir tamaşa onun əsərləri idisə və bir tamaşa da İlyas müəllimin özünün orada, öz lojasında əyləşməyi idi… Onun ağ saçlarına baxırdım, onun nurlu çöhrəsinə baxırdım, onun xarakteri o baxışlardan görünürdü…



Sonra atamın sevimli yazıçısı dönüb mənim sevimli yazıçım oldu. Mən Kitab passajında satıcı işləyəndə ora mədəniyyət mərkəzinə çevrilmişdi, tez-tez yazıçıların görüşü keçirilirdi və oraya ən çox gələn yazıçılardan biri İlyas Əfəndiyev idi.

Mənə İlyas müəllimin əlini sıxmaq, onun üzünün, sözünün nurunda işıqlanmaq, dəfələrlə həmsöhbət olmaq xoşbəxtliyi nəsib oldu. Mənə yazdığı avtoqraf heç yadımdan çıxmır: "Nəzakətli, sadə, nəcib bir insana - şeir dostu, kitab dostu Zelimxana". O, mənə "Zelimxan" deyə müraciət edirdi.

Mənim düşüncəmə görə İlyas Əfəndiyev bütövlükdə Azərbaycan tarixidi, Qarabağ tarixidi. Böyük tənqidçimiz Yaşar Qarayev çox gözəl deyib ki, yeddi Qarabağnamə var, amma İlyas Əfəndiyev yaradıcılığı bütövlükdə səkkizinci Qarabağnamədir. Bəli, bu, doğrudan da belədir. İlyas Əfəndiyev əsil-nəcabətli bir ailənin yetirməsidir və oradan, Qarabağdan gətirdiyi o duruluğu, saflığı həmişə qorudu. Ona görə də nəsrin poeziyasını yarada bildi. Onun əsərlərini ən lirik şeir, bayatı kimi oxuyuram. Çünki onun yaradıcılığında xalq ruhu, dağ çiçəyinin ətri, qayaların əzəməti, axar-baxarı var. Ona görə də üzümü gəncliyə tutub deyirəm: "Oxuyun İlyas Əfəndiyevi. Siz onu oxuduqca vətəni daha çox sevəcəksiniz, bu xalqı daha çox dərk edəcəksiniz, tarixi daha

çox biləcəksiniz… Təsadüfi deyil ki, Borçalı obrazını ilk dəfə ədəbiyyata İlyas Əfəndiyev gətirib…

Böyük şəxsiyyətlərin yeri həmişə görünür, onlara həmişə ehtiyac duyulur. Hesab edirəm ki, bu gün Azərbaycana ağsaqqallar daha çox lazımdır. O cümlədən İlyas Əfəndiyev daha çox lazımdır. Çünki bu cür insanlar tərbiyə məktəbidi, mədəniyyət, ibadət yeridi…

İlyas Əfəndiyevi sevmək həm də Azərbaycanı sevməkdi, ədəbiyyatı, keçmişi, bu günü və gələcəyi, xalqı, dövləti, dövlətçiliyi sevməkdi. Yeri həmişə görünən, işığı həmişə qəlbimizdə olan, ölməz yazıçımızın müqəddəs ruhu qarşısında baş əyirəm".

Tanınmış şair **Ramiz Məmmədzadə** də öz növbəsində İ.Əfəndiyevlə bağlı xatirələrini söylədi və "böyük sənətkarımız İlyas Əfəndiyevin işıqlı ruhuna" həsr etdiyi "Məhəmməd oğlu İlyas" şerini oxudu:

Üzündə, gözündə
peyğəmbər nuru vardı,
Saçları rüzgardan qopmuş dalğalardı.
Yerindəydi danışığı, gülüşü, yerişi,
Əfsanəydi, möcüzəydi bu kişi.

Burulğanlı, tufanlı günlərdən
Şimşək kimi sıyrılıb çıxdı
Məhəmməd oğlu İlyas,
Böhtanlardan, iftiradan uzaqdı
Məhəmməd oğlu İlyas!



Duyğuları şeh kimi
Səpildi ömrünün yarpaqlarına,
O dağların, dərələrin
büllur bulaqlarına.

Hərdən qanrılıb geriyə baxanda
Gizli bir sızıltı keçdi ürəyindən…
Yox, üzmədi əllərini
Sevdalı günlərinin ətəyindən.

Könüllərdən-könüllərə
sevgi körpüsü saldı,
Ülvi istəklərin
fövqündə ucaldı.

Hələ oxunmamış neçə mahnısı qaldı –
orda – dağlarda,
O dağların arxasında
qalan dostları harda?

Bir dənizdi, dalğasıyla,
Bir aləmdi, qovğasıyla,
Bir ürəkdi, sevdasıyla,
Sirrini bilən oldumu?

Zəmisi, xırmanı vardı,
Dəni, dəyirmanı vardı,
Öz dərdi, dərmanı vardı,
Dərdini bölən oldumu?

Ömür yolu – halal, haqdı.
Qismət bildi belə bəxti.
Qılıncsız vuruşan vaxtı
Hayına gələn oldumu?

Ruhunda – Araz, Köndələn,
Sarı sim üstə köklənən,
Baharda doğulub gələn,
Payızda ölən oldumu?

Köksündə bir Qarabağ
düyünü qövr elədi,
Gördü bu fələk belədi.
Əlində ələk ələdi…
Hər gecə şam kimi
yandırdı barmaqlarını.
Sonra işıq kimi
Səpdi qaranlıqlara könül varını.

İndii doğma yuvasından
ucalır fəxri, vüqarı,
Nur balaları –
Elçini, Timuçini,
Nəvəsi, nəticəsi…
Rəngi solmayan səsi.
İndii otağı darıxır,
Qələmi, varağı darıxır,
Gecələr onunla yanan
Kövrək çırağı darıxır.



O qanadlar
səmada görünməz indi.
O göylər üfüqlərə endi…
Məkanını dəyişmiş planetdi
Məhəmməd oğlu İlyas.
Dostu-yarı tərk eləmiş
Bir ömür qatarından düşüb getdi
Məhəmməd oğlu İlyas…

9 noyabr 1996. (Əlavə bax: İlyas Əfəndiyev. Virtual muzey.)

Sonda **İlyas Əfəndiyevin oğlu, xalq yazıçısı Elçin** ailələri adından ustad yazıçının xatirəsini əziz tutanlara dərin təşəkkürünü bildirdi: "Bu mərasimi təşkil etdiyinə görə Yazıçılar Birliyinə, Mədəniyyət və Turizm Nazirliyinə, Teatr Xadimləri İttifaqına, bütün əlaqədar təşkilatlara, müəssisələrə, eyni zamanda, burada iştirak edənlərin hamısına öz təşəkkürümü bildirirəm. İlyas Əfəndiyevin vəfatından on üç il keçir. Bu on üç ildə biz həmişə İlyas Əfəndiyevin şəxsiyyətinə, yaradıcılığına məhəbbətinizin, sevginizin, hörmətinizin, ehtiramınızın, etiqadınızın şahidi olmuşuq.

İlyas Əfəndiyev vəfat etdikdən sonra bizim ümummilli liderimiz Heydər Əliyev çox geniş bir sərəncam imzaladı. Bu sərəncama uyğun olaraq Bakının ən böyük tədris müəssisələrindən biri olan “Elitar” kollec bu gün İlyas Əfəndiyevin adını daşıyır. İlyas Əfəndiyevin adı İçərişəhərin ən qədim və ən gözəl küçələrindən birinə verilib. İlyas Əfəndi-ye-

vin təqribən üç yüz çap vərəqi həcmində olan yeddicildliyi məhz həmin sərəncamın əsasında nəşr olundu. İlyas Əfəndiyevin "Hökmdar və qızı" tamaşası əsasında ikiseriyalı film çəkildi və göstərildi.

Bundan sonra İlyas Əfəndiyevin doxsan illiyi gəldi və doxsan illiyilə bağlı hörmətli Prezidentimiz İlham Əliyev xüsusi sərəncam verdi. 2004-cü ilin oktyabr ayında İlyas Əfəndiyevin doxsan illiyi həqiqi bir ədəbiyyat, teatr bayramına, sənət bayramına çevrildi. Bütün bu müddət ərzində İlyas Əfəndiyevin kitabları çap edildi, seçilmiş əsərləri müxtəlif nəşriyyatlarda, o cümlədən doxsan çap vərəqi həcmində ikicildlik seçilmiş əsərləri nəşr olundu. Türk dilində "Geriyə baxma, qoca" romanı çap olundu. Onun pyesləri respublikanın müxtəlif teatrlarında tamaşaya qoyuldu. Bütün bunlar, mən hesab edirəm ki, xalqımızın, o cümlədən sizlərin dərin məhəbbətinizin nəticəsidir. Əgər İlyas Əfəndiyev yaradıcılığı, şəxsiyyəti sevilməsəydi, bu kitablar da çap olunmazdı, əsərləri tamaşaya qoyulmazdı.

Onun yaradıcılığının doxsan beş faizi sovet dövründə yaranıb. Amma baxın, sovet hökuməti çökdü, Sovet İttifaqı dağıldı, o ideologiya getdi, özüylə çox əsərlər apardı, yalnız Azərbaycanda deyil, postsovet məkanında çox ədəbiyyat generalları o sistemlə birgə getdi, amma İlyas Əfəndiyevin əsərləri müstəliq Azərbaycan vətəndaşlarının sevimli əsərləri olaraq qaldı. Tamaşaları da eləcə.

Burada vurğulandı ki, İlyas Əfəndiyevin ruhu bu gün şaddı. Bu, şübhəsiz ki, belədi, ailə üzvləri, dostları, sevdiyi sənətçilər buradadı. İlyas Əfəndiyev



bu sənətkarları öz ailəsinin üzvlərindən biri hesab edirdi. Bunlar hamısı öz yerində, şübhəsiz ki, bunlara görə onun ruhu şaddı.

Amma eyni zamanda, demək istəyirəm ki, İlyas Əfəndiyev bütün qanıyla, canıyla Azərbaycana bağlı bir insan idi. Və Azərbaycanın içində Qarabağa bağlı bir insan idi. İlyas Əfəndiyevdə ki, o daxili səliqə-sahman var idi, o daxili nizam-intizam, səfərbərlik var idi, o, xəstəliklərə baxmayaraq, bəlkə də bu günə kimi, yaşayardı. Amma Qarabağ hadisələrinin ounn dünyasını dəyişməyində çox böyük rolu oldu. Və İlyas Əfəndiyevin ruhu o zaman son dərəcə şad olacaq ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, Qarabağ düşmənlərdən xilas olacaq…"

Mərasim Yazıçılar Birliyinin Natəvan klubunda davam etdirildi. **AYB-nin sədri Anar** vurğuladı ki, İlşyas Əfəndiyev səhnə tariximizdə böyük dönüm yaradan sənətkardı, "Sən həmişə mənimləsən" əsəri tamaşaya qoyulandan sonra həmişə "siz"lə danışan teatrımız "sən"lə danışmağa başladı: "Onun əsərləri demək olar ki, sovet dövründə yazılıb, lakin bu əsərlərin üzərində sovet damğası yoxdu. "Geriyə baxma, qoca", "Üçatılan" əsərləri bu gün daha aktual səslənir, çünki bizi müvəqqəti itirdiyimiz Qarabağa, onun ab-havasına qaytarır".

Mədəniyyət və **turizm naziri Əbülfəs Qarayev** də böyük sənətkarın yaradıcılıq özəlliyindən söz açdı: "İlyas Əfəndiyev yaradıcılığının əsas cizgisi, sütunu onun vətənpərvərliyində, insanpərvərliyindədi. Bu, İlyas müəllimin daxili dünyasından, insana sevgisindən irəli gəlirdi. Onun əsərlərində xalqımızın

tarixi kökləri, müstəqillik savaşımız əsas yer tutur. Mənə çox əzizdi ki, Elçin müəllim məni o görkəmli yazıçıyla şəxsən tanış etmişdi. Mən onun gözlərində bir nikbinlik və vüqar gördüm. Baxmayaraq ki, çox itkilər yaşadıq, ancaq mən onun gözlərində gördüyüm o nikbinliyə yenə də inamlıyam."

Xalq şairi, AYB-nin birinci katibi **Fikrət Qoca** vurğuladı ki, İlyas Əfəndiyev böyük, ölməz bir irs qoyub gedib. "Onun ən şah əsərlərindən biri də övladları - gözəl yazıçımız Elçindir, görkəmli mədəniyyət işçisi Timuçindi…"

Xalq artisti **Amaliya Pənahova** bildirdi ki, hər bir əsər müəllifinin bir parçası olur: "Bu mənada, İlyas müəllimin əsərləri onun xarakterini, təbiətini, istəyini özündə yaşadır… Mənim gündəlik həyatımda, fəaliyyətimdə İlyas Əfəndiyev həmişə var, yaşayır".

Xalq şairi **Zəlimxan Yaqub** bir daha İ.Əfəndiyev sənətinin ölməzliyindən söz açdı: "O, ədəbiyyata "Kənddən məktublar"la gəlmişdi. Özüylə bərabər kəndin nəfəsini, etnoqrafiyasını da gətirmişdi. Ancaq bununla kifayətlənmədi. Ardıcıl mütaliəsi, marağı ilə bu dünyanı genişləndirdi… İlyas Əfəndiyevə qayıtmaq kökə qayıtmaqdı. O, mənim üçün həmişə sağdı - dünən atamın, bu gün mənim, sabah nəvənəticəmin sevimli yazıçısı olaraq həmişə yaşayacaq".

Tanınmış şair **Fikrət Sadıq** İ.Əfəndiyev yaradıcılığındakı saflıqdan, təmizlikdən söz açdı: "Onun məzarı Heydər Hüseynovun son mənziliylə yanaşıdı. Bu da bir tale seçimidi. Ona görə ki, hər ikisi eyni amalın daşıyıcıları idi".



AYB-nin xarici əlaqələr şöbəsinin müdiri, **şair Abbas Abdulla** yubilyarın nadir şəxsiyyətindən bəhs edərək dedi: "İlyas müəllim haqda xatirələrimi danışmaq bir az özümü tərifləməyim olar. O, mənim xətrimi çox istəyirdi. Yeganə yazıçı, şəxsiyyət idi ki, vəzifədən uzaq qaçardı…

AYB-nin katibi **Arif Əmrahoğlu** İ.Əfəndiyevi əsərləri ilə ictimai rəyə təsir göstərən bir yazıçı kimi səciyyələndirərək onu ədəbiyyat hadisəsi kimi dəyərləndirdi: "İlyas Əfəndiyev heç vaxt özünü təkrarlamadı".

Yazıçı-publisist **Nahid Hacızadə** yazıçının "Sən həmişə mənimləsən" əsərindən Azərbaycan insanının mənəvi dünyasının bayramı kimi söz açdı, radioya, televiziyaya xüsusi önəm verdiyini vurğuladı.

Tənqidçi **Vaqif Yusifli** xatırlatdı ki, İlyas Əfəndiyevin əsərlərində "boy çiçəyi obrazı da var, bu gül heç vaxt solmur, ətrini itirmir. Bu əbədiyaşarlığı onun əsərlərinə də şamil etmək olar".

Şairlərdən **Hikmət Mahmud, Yusif Həsənbəy,** tədqiqatçısı **Gülhani Pənah**, yazıçının şəxsi həkimi olmuş **Yusif Əhmədov** İ.Əfəndiyevin bənzərsiz şəxsiyyətindən və yaradıcılığından bəhs etdilər.

Tənqidçi **Bəsti Əlibəyli** qeyd etdi ki, İlyas Əfəndiyev zaman çərçivəsində yaşasa da, zamana sığmadı, öz müstəqilliyini qorudu: "O, bizim dramaturgiyamıza, nəsrimizə plastika gətirdi…"

Sonda **xalq yazıçısı Elçin** bir daha İlyas Əfəndiyev sənətini, şəxsiyyətini uca tutanlara ailələri adından minnətdarlığını bildirdi: "Bu istiqanlı məclis mənim üçün çox əzizdi. Ona görə ki, Yazıçılar Birliyi

bizim yaradıcı insanların mənəvi evidi. Kənddən gəldiyi ilk gündən İlyas Əfəndiyevin ilk aradığı ünvan Yazıçılar İttifaqı olub, bura onun ikinci evidi. Bura mənim özüm üçün də doğma bir yerdi. Uşaqlıqda atamla birgə gələrdim. O zaman İlyas Əfəndiyevin otuz altı - otuz yeddi yaşı vardı. Mən burada ən görkəmli yazıçılarımızla təmasda olmuşam, bir yerdə işləmişəm. Bu gün o böyük insanların hamısının ruhu şaddı. Ona görə ki, onlar istedadlarının səviyyəsindən asılı olmayaraq bir yerdə Azərbaycan dilini yaşadırdılar, Azərbaycan insanın düşüncəsini ifadə edirdilər, bugünkü müstəqilliyimizdə onların da böyük rolu var…"

Hər bir xalqın tarixi həmin xalqın yetişdirdiyi ayrı-ayrı tarixi şəxsiyyətlərinin, sənətkarlarının adı ilə bağlıdır. İlyas Əfəndiyevin əsərləri bu mənada Azərbaycan tarixinin bədii salnaməsinin bir qoludur və bu qolda yazıçı oxuculara bəxş etdiyi bədii sənət nümunələrində məxsus olduğu xalqın milli-mənəvi dəyərlərinin coğrafi xəritəsinin bədii meridianlarını ustalıqla həkk etdi.

XX əsr Azərbaycan dramaturgiyası və nəsrinin inkişafında əvəzsiz xidmətləri olan Xalq yazıçısı İlyas Əfəndiyevin əsərləri bu gün də sevilə-sevilə oxunur, tamaşaları həvəslə, maraqla seyr edilir, ekrana köçmüş əsərləri milli mənliyimizi, tariximizi yaşadaır və bizi özümüzə qaytararaq milli yaddaşımıza, varlığımıza, əbədiyaşarlığımıza xidmət edir.

Bu gün Xalq yazıçısı İlyas Əfəndiyevin adlını daşıyan Beynəlxalq Fondu Avropa, Asiya, Qafqaz və müsəlman dünyası ölkələrində yaşayan xalqların



davamlı inkişafına yönəlmiş bir sıra Məqsədli Layihələr həyata keçirir, təhsil, mədəniyyət, sosial və digər sahələrdə mövcud humanitar problemlərin həllində iştirak edir. Fondun fəaliyyəti geniş beynəlxalq ictimaiyyət tərəfindən tanınır.

Bir sıra dövlət və hökumət başçısının, ictimai xadimlərin, o cümlədən, Litva Respublikasının prezidenti Valdas Adamkus, Bolqarıstan Respublikasının prezidenti Georgi Pırvanov, Sloveniya Respublikasının prezidenti Danilo Türk, Türkiyə Cümhuriyyətinin baş naziri Rəcəp Tayyip Ərdoğan, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyeva, Macarıstanın «Duna TV» teleşirkətinin prezidenti Laslo Çelenyi, ABŞ-ın Soft Computing İnstitutunun direktoru, professor Lütfi Zadə, Moskva Humanitar Universitetinin rektoru, professor İqor İlyinski kimi dünya miqyasında məşhur olan şəxsiyyətlər, ictimai xadimlər İlyas Əfəndiyev Beynəlxalq Mükafatına layiq görülmüş və onlar bu mükafatı məmuniyyətlə qəbul etmişlər...

2014-cü ilin may ayında sevimli xalq yazıçımızın, respublika Dövlət mükafatı laureatı, görkəmli dramaturq İlyas Əfəndiyevin anadan olmasının 100 illiyi tamam olur. 2013-cü il, noyabrın 20-də Parisdə UNESCO Baş Konfransının 37-ci sessiyasında 2014-2015-ci illərdə qeyd ediləcək yubileylərin siyahısı təsdiq edilib. Həmin siyahıda UNESCO-nun 2014-2015-ci illərdə qeyd ediləcək yubileylər siyahısına Azərbaycanın Xalq yazıçısı İlyas Əfəndiyevin anadan olmasının 100 illiyi də daxil edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev yazıçının yubileyinin keçirilməsi ilə bağlı 16 yanvar, 2014-cü il tarixli sərəncam imzalamışdır. Bu sərəncam eyni zamanda İlyas Əfəndiyevin yaradıcılığına, şəxsiyyətinə, sənətkarın ölməz ruhuna xalqın böyük məhəbbətinin ifadəsidir.

Göründüyü kimi, burada da müasir ədəbi mühitimizin cox görkəmli şəxsiyyətləri iştirak etmiş, maraqlı fikirlər söyləmişlər ki, bunun özü də ədəbi mühitin yazıcıya olan münasibətini, hörmətini, məhəbbətini, fikrini və qənaətini ehtiva edir...

İ.Əfəndiyevin nəsri sovet nəsrinin şosioloji şablonlarını dağıtdı, sosialist realizminin estetik ehkamları ilə düz gəlməyən, xalq həyatının milli – mənəvi mənafeləri baxımından təcəssüm etdirən nəsr təmayülü yaratdı və ədəbiyyatımıza lirik-psixoloji üslub gətirdi. Xalq yazıçısının dram əsərləri ilə yeni rejissor, aktyor, bəstəkar və rəssam nəsli formalaşdı. «İlyas Əfəndiyev teatrı»nın fəlsəfi-estetik və fıkri-bədii təravəti bu gün də oxucuların və tamaşaçıların vətənpərvərlik hissinin və estetik zövqünün formalasmasına öz təsirini göstərir.

İ.Əfəndiyev özünəməxsus cəsarətlə bədii əsərlərində və müsahibələrində azadlığımızı, milli müstəqilliyimizi, xalq həyatını azərbaycançılıq və türkçülük məfkurəsi ilə təcəssüm etdirərək XX əsr Azərbaycan ədəbiyyatının klassikinə çevrildi.

İ.Əfəndiyev qüdrətli şəxsiyyəti, fenomenal bütövlüyü və zəngin yaradıcılığı ilə müasirlərinə, xüsusilə ədib və şairlərə, ümumiyyətlə ziyalılara milli sənətkar



mədəniyyətinin nümunəsini göstərdi. Onun həyatı və şəxsiyyətinin özü bütöv bir ədəbi-tarixi epoxadır.

***

İlyas Əfəndiyevin şəxsiyyəti və yaradıcılığı ümummilli liderimiz Heydər Əliyevin görüşlərində və nəzərində həmişə diqqət mərkəzində olmuş ona xüsusi rəğbət bəsləmiş, yüksək və dəyərli fikirlər söyləmişdi. Biz yuxarıda bu məsələyə yeri gəldikcə toxunsaq da, burada bir az ətraflı danışmaq niyyətindəyik.

Ümummilli lider ədibin bütün yubileylərində ona təbrik məktubları göndərmiş, əsərlərini oxumuş, teatr tamaşalarına getmiş və yerindəcə onları qiymətləndirmişdi. Böyük liderin yazıçının şəxsiyyətinə və yradıcılığına verdiyi böyük qiyməti təsəvvürə gətirmək üçün yazıçıya ünvanladığı məktublardan birini və tamaşadan sonra söylədiyi bir çıxışını olduğu kimi təqdim edirik

Azərbaycanın ədəbi ictimaiyyəti 1994-cü ilin may-iyun aylarında Xalq yazıçısı İ.Əfəndiyevin anadan olmasının 80 illiyini təntənəli surətdə qeyd etdi. Ədəbiyyatın inkişafında xidmətlərini nəzərə alan müstəqil Azərbaycan Respublikasının Prezidenti yazıçını «Şöhrət» ordeni ilə təltif etdi. Respublikamızın sənət adamları arasında İ.Əfəndiyev birinci sənətkar idi ki, həmin ordenlə mükafatlandırılmışdı.

Ulu öndər Heydər Əliyev cənabları yazıçıya göndərdiyi təbrik məktubunda ədibin yaradıcılığına yüksək qiymət verərək yazmışdı: «Sizi – Azərbaycanın

görkəmli dramaturq və nasirini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Dünya mədəniyyətinə ölməz dahilər bəxş etmiş qədim Odlar yurdunda xalqın məhəbbətini qazanmaq, sənət zirvəsinə ucalmaq olduqca çətin və şərəflidir. Siz fədakar əməyiniz sayəsində bu şərəfə nail olmuşsunuz.

**1.** Oxucuların sevə-sevə mütaliə etdiyi nəsr əsərləriniz, Milli teatrımızın səhnəsində tamaşaya qoyulan pyesləriniz bunu parlaq şəkildə sübut edir... Sizin yaratdığınız obrazlar xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmişdir. Əminəm ki, müstəqil Azərbaycanımızın hələ neçə-neçə nəsli bu zəngin mənbədən faydalanacaqdır». (Bax: Əliyev Heydər. Səmimi təbrik. (Anadan olmasının 80 illiyi) //Azərbaycan. – 1994. - 26 may.)

Azərbaycan Prezidenti Heydər Əliyevin İlyas Əfəndiyevin "Hökmdar və qızı" tamaşasına baxdıqdan sonra teatrın yaradıcı kollektivi ilə görüşdə çıxışı - Azərbaycan Milli Dram Teatrı, 20 sentyabr 1997-ci il.

“Mən ilk əvvəl belə bir əsəri hazırlayıb xalqa çatdırdığınıza görə sizə təşəkkürümü bildirirəm. İhsan bəy, sizə müraciət edirəm, buyurun, Azərbaycan mədəniyyəti ilə tanış olun.

**İhsan bəy Doğramacı**: Bu əsər böyük bir tarixi tablodur və mən inanıram ki, Allah-təala Azərbaycanı əbədi müstəqil və payidar edəcəkdir.

**Heydər Əliyev:** Mən sizi təbrik edirəm. Azərbaycan Dövlət Dram Teatrı 125-ci mövsümünə başlayıbdır. Allah bunu bizə qismət edibdir. Azərbaycan



teatrının 100 illik yubileyini sizinlə birlikdə təntənəli surətdə keçirmişik, bundan sonra 25 il yaşamışıq. Doğrudur, bu 25 il hamar yol olmayıbdır, enişli-yoxuşlu, çətin, əzab-əziyyətli keçibdir. Ancaq bizim çox böyük nailiyyətimiz ondan ibarətdir ki, nəhayət, Azərbaycan xalqı öz dövlət müstəqilliyinə nail olubdur. Bu müstəqilliyə, azadlığa görə hər bir əzab-əziyyətə, itkiyə, hər bir qurbana razı olmaq olardı.

Çünki Azərbaycanın dövlət müstəqilliyi tarixi nailiyyətdir və çoxəsrlik tariximizdə bütün xalqımız üçün Allah tərəfindən göndərilmiş bir nemətdir. Ona görə də mən salonda olarkən, sizinlə görüşərkən keçən 25 ili xatırlayıram. 1973-cü ildə biz teatrın 100 illik yubileyini qeyd etdik, sonra da 25 il yaşadıq.

Bu gün siz çox gözəl bir əsər təqdim etdiniz. Mən sizi bu əsər, bu tamaşanız münasibətilə təbrik edirəm. Çox dəyərli və bu gün xalqımız üçün lazımlı əsərdir. Şübhəsiz ki, biz bu gün ilk növbədə əsərin müəllifinin - böyük yazıçımız, dramaturqumuz İlyas Əfəndiyevin xidmətlərini qeyd etməliyik, onun xatirəsini yad etməliyik.

Belə başa düşürəm ki, bu onun son əsəri idi.

İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə,

xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu əsərlərdən çox bəhrələnmişdir.

Ona görə də mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır. Şübhəsiz ki, biz İlyas Əfəndiyevin xatirəsini əbədiləşdirmək üçün qərarlar da qəbul edəcəyik, şəxsən mən edəcəyəm, çünki o buna layiqdir. Belə əsərlərlə o, onsuz da özünü xalqın qəlbində yaşadacaqdır.

Onun son əsəri - bu gün sizin təqdim etdiyiniz əsər həyatımız üçün çox əhəmiyyətlidir. Bu gün salonda üç saatdan artıq vaxt çox tez gəlib keçdi. Yəni tamaşa o qədər maraqlı, məzmunlu, mənalı idi, həm də siz hamınız o dərəcə gözəl ifa etdiniz, salonda oturanlara bu əsəri gözəl çatdırdınız, - o cümlədən mənə də, - heç hiss etmədim ki, nə qədər vaxt keçibdir. Bu da ona görədir ki, birincisi - əsərin həsr olunduğu mövzu çox aktualdır, çox vacib bir mövzudur. Bu əsərlə İlyas Əfəndiyev yeni bir xidmət edibdir, bizim tariximizin o dövrünü açıb xalqımıza göstəribdir. Bunlar indi açılıbdır. Tarixçilər, bizim



salnaməçilər bunları düzgün yazmağa başlayıblar. Ancaq bilirsiniz, indi hər bir adamın o tarix kitablarını oxumağa nə imkanı var, nə vaxtı. Bir də ki, biri oxuyur, o birisi oxuya bilmir. Bu baxımdan teatr, kino çox təsirli bir vasitədir. Tariximizin bu dövrü keçmişdə təhrif olunubdur. Bunu siz bilirsiniz. Biz bu dövrü yaşamışıq.

Bu gün mənim əziz dostum İhsan Doğramacıya danışırdım, - qonaqlardan biri soruşdu ki, keçmiş zamanlarda da belə bir pyesi tamaşaya qoymaq olardımı? Dedim, ola bilməzdi. Çünki o vaxtlar bunun əksinə olan mövzuda tamaşalar göstərilirdi. Təəssüflər olsun. Bu, heç kimin günahı deyil - nə sizin, nə bizim, nə mənim, nə onun. Ümumiyyətlə, yaşadığımız dövrün, o dövlətin və quruluşun yaratdığı vəziyyət idi. Ancaq həqiqət ondan ibarətdir ki, 1964-cü ildə, siz bilərsiniz, Azərbaycanın Rusiyaya könüllü surətdə qatılmasının 150 illik yubileyi təntənəli qeyd olundu. Böyük bayram keçirdik, ona böyük əsərlər həsr edildi. Bu da olub.

Bilirsinizmi, biz gərək indi tariximizi düzgün araşdıraraq, heç kimi günahlandırmayaq, günahkar axtarmaq lazım deyil. Əgər belə olsa, işlərimiz yaxşı gedə bilməz. Keçmişdə nə olubsa, olub-keçib. Yenə də deyirəm, o bayramı edənlər də günahkar deyillər. Çünki onlar həmin quruluşa, həmin sistemə xidmət edirdilər. O quruluş tarixi də başqa cür çatdırmışdı. Əgər bizdə sərbəstlik, azadlıq, demokratiya olsaydı, o vaxt tarixçilərdən biri, ikisi, üçü, dördü götürüb yazsaydılar ki, bu belə deyil, bəlkə də bunların qarşısını almaq olardı.

Amma o dövrdə, o sistemdə, o ideologiyanın təsiri altında bunu etmək mümkün deyildi. Mən bunu bir dəfə demişəm. Bir neçə il ondan sonra, 1968-ci ildə bizim böyük alimimiz, rəhmətlik akademik Ziya Bünyadov bir balaca cəhd göstərdi və demək istədi ki, biz o vaxt Rusiyanın tərkibinə könüllü daxil olmamışıq - bu, könüllü olmayıb, yəni özümüz müraciət etməmişik. Ona nəsə etmək istədilər, o tərəf-bu tərəfə çəkdilər, cəzalandırmaq istədilər. Mən ona kömək etdim. Çox böyük alim olduğuna, özü də ikinci dünya müharibəsinin qəhrəmanı olduğuna görə bəzi xeyirxah adamların, o cümlədən mənim yardımımla, - o vaxt mən burada DTK-ya rəhbərlik edirdim, - imkan vermədim ki, ona nəsə etsinlər. Belə bir hal olmuşdu. Yəni demək istəyirəm ki, hətta bu cür cəsarətli hallar da olurdu.

Ona görə də indi heç kəsi günahlandırmaq lazım deyil. Amma eyni zamanda bütün vasitələrlə, o cümlədən mədəniyyət, ədəbiyyat, teatr vasitəsilə indi həqiqəti xalqa bildirmək lazımdır. Həqiqətin xalqa belə çatdırılması daha təsirlidir, xalq bunu qavraya bilir. Yenə də deyirəm, böyük bir kitabı götürüb oxumaq, ondan nəticə çıxarmaq olar. Amma bu o qədər də asan deyil. Lakin bunu ədəbiyyat dili ilə yazıb çatdırmaq, sizin kimi çox gözəl aktyorların ifasında bu vasitə ilə xalqa çatdırmaq çox əhəmiyyətlidir. Mən əsəri bu baxımdan çox yüksək qiymətləndirirəm - həm əsəri, bu faciəni, həm də sizin əsərə verdiyiniz bu quruluşu. Çox gözəl yaratmısınız - həm aktyorlar, həm rejissorlar, bütün aktyor ansamblı həddindən artıq gözəl ifa etdi. Mən sizi təbrik edirəm.



Ancaq bu əsərin ikinci tərəfi də var. Bir var ki, bizim tariximizi aydınlaşdırır, amma ikinci tərəfi bundan da əhəmiyyətlidir. Xalqımızda vətənpərvərlik yaradır, müstəqillik, milli azadlıq hissiyyatlarını beyinlərə həkk etdirir, xalqımızı bu istiqamətdə tərbiyələndirir və əsasən gəncləri tərbiyələndirir. Bu baxımdan əsərin aktuallığı çox böyükdür. İndi hər bir adam bilsin ki, müstəqillik nədir və öz xalqının müstəqilliyini qorumayan adamların aqibəti necə olur. Məsələn, Cavad xan və İbrahim xan. Görürsünüzmü, ikisi də bizim xanlarımızdır. Bu nə deməkdir? Əsərin bir mənası da bundan ibarətdir ki, xalqımızı elə o vaxt, keçmiş tarixi dövrlərdə də bədbəxt edən içindəki çəkişmələr olub. Bu həqiqətdir ki, xanlar o vaxtlar bir-biri ilə çəkişməsəydilər, ədavət aparmasaydılar, bəli, iddiada olmasaydılar, biri o birisinə hörmət edib hamısı birləşsəydilər buna nail ola bilərdilər. Düzdür, İbrahim xan bundan çox şikayətlənir ki, mən xanlıqları birləşdirmək istəyirəm, amma birləşmirlər. Əsərin bir yerində o deyir ki, xanlar qorxurlar ki, mən şah olaram. Bu da həqiqətdir. Çünki İbrahim xan da istəyirdi şah olsun, Kəlbalı xan, Cavad xan, Quba xanı Fətəli xan da, Şəki xanı da şah olmaq istəyirdi. Bəli, hər biri istəyirdi şah olsun. Ancaq bunlar bir yerdə olsaydılar, yığışıb hamısı desəydilər ki, gəlin bir nəfəri şah seçək və ona da itaət edək, əlbəttə ki, bu faciələrdən bəlkə də xilas olmaq mümkün olardı. Amma bunlar olub-keçib. Xalqımız qurbanlar veribdir. Görürsünüzmü, İbrahim xanın həyatı nə qədər faciəlidir -

oğlu və qızları ondan üz döndərdi, özü də öz səhvinin qurbanı oldu.

Bilirsiniz, bunlar o qədər ibrətamizdir ki! Məsələn, İbrahim xan bizim tariximizdə məlumdur. Bir sıra yazıçılarımız İbrahim xanın surətini yaradıblar, amma düzgün verməyiblər. Onları da günahlandırmaq olmaz, çünki onlar da həmin o ideologiyanın təsiri altına düşmüşdülər. Hətta "Vaqif" pyesində İbrahim xanın guya rus padşahının əleyhinə olduğu göstərilir. Həmin əsərdə o, Vaqifə deyir: "Vaqif, əlindəki o əsa nədir?" Cavabında isə Vaqif deyir ki, "Rusiya padşahı, o zülmkardan - Yekaterinadan bir hədiyyədir".

Yenə də İbarhim xan deyir: "De, sən hara, Rusiya hara, yoxsa satılmısan o kafirlara?". Bilirsinizmi, belə də yazılıbdır. Ona görə də bizim xalqımızı, millətimizi birləşdirmək üçün, bu çəkişmələrə son qoymaq üçün də bu əsər çox ibrətamizdir.

Bu çəkişmələr dünən də vardı, bu gün də var. 1988-ci ildən xalqımızın başına gələnlər, ermənilərin Azərbaycana təcavüz etməsi, Dağlıq Qarabağ məsələsini qaldırması nəyin nəticəsində oldu? Azərbaycanın içində gedən çəkişmələrin nəticəsində oldu. Əgər o vaxt Azərbaycan xalqı birləşsəydi, hamı bir olsaydı, ermənilərin qarşısını almaq mümkün olmazdımı?

Bunun bir qismi mənim həyatımla da bağlıdır. Məlumdur ki, mən Moskvada oturmuşdum və Azərbaycanı da müdafiə edirdim. Ancaq ermənilər bir tərəfdən, bizim Azərbaycandakı bədbəxtlər də bir tərəfdən Heydər Əliyevi Kremldən kənarlaşdırdılar.



Məni kənarlaşdırandan 20 gün sonra bu hərəkat başlandı, üç aydan sonra Qarabağ faciəsi baş verdi. Məlumdur, mən demirəm ki, çox şey edə bilərdim. Çox şey də etmişdim. Bu Qarabağ hadisələri dəfələrlə qalxmışdı. Vaxtilə mən və məndən qabaqkı insanlar da bunun qarşısını almışdıq. Almağa da imkanımız var idi.

Bəs nə üçün belə oldu? Çəkişmələr nəticəsində. İndi təsəvvür edin, 1988-ci ildə faciə başlayıbdır, ermənilər iddia qaldırıblar, qərar çıxarıblar ki, Dağlıq Qarabağı Ermənistana birləşdirsinlər, Dağlıq Qarabağ Azərbaycana tabe deyil. Azərbaycana Moskvadan Vəzirovu yeni rəhbər göndəriblər. O bu işlərə məşğul olmaq əvəzinə, başladı hər yerdən material toplamağa ki, Heydər Əliyev Azərbaycanda işləyəndə nə kimi "günahlar" edibdir. O vaxt Heydər Əliyev artıq istefaya getmiş bir adam idi, Moskvada adi vətəndaş kimi yaşayırdı. Nə istəyirdin sən bu Heydər Əliyevdən? Sən gərək o ermənilərlə mübarizə aparaydın.

Amma tək bir o dövr deyil. Elə sonrakı illəri - 1990, 1991, 1992-ci illəri, 1993-cü ilin iyun ayını xatırlayın. Dörd il bundan öncə Azərbaycanda vətəndaş müharibəsi qalxdı. Nə üçün? Çünki hakimiyyət uğrunda mübarizə gedirdi. Necə ki, o vaxtlar xanlar birləşə bilmirdilər ki, kim şah olacaqdır, burada da o dedi ki, Azərbaycanda mən hakim olmalıyam, o birisi dedi ki, mən olmalıyam, bir başqası dedi ki, yox, mən olmalıyam. Hərənin əlində bir silahlı dəstə, biri Gəncədən, biri Lənkərandan, biri ordan, biri

burdan qalxdı, Azərbaycanı vurdular, dağıtdılar. Vətəndaş müharibəsi getdi.

İndi dörd ildir ki, addım-addım, necə deyərlər, qarış-qarış yol gedirik ki, xalqımızı həmin vəziyyətdən çıxaraq. Bax, bunlara görə də mən hesab edirəm ki, bu əsər çox aktualdır. Hesab etmirəm ki, Azərbaycanda bu çəkişmələrə son qoyulub, insanlar daha bunları unudublar və yenidən belə şeylər cücərməyəcək. Yox, Azərbaycanda təhlükə həmişə var. Ona görə də xalqımızı bundan sonra da bu təhlükədən qorumaq, birləşdirmək və həmrəy etmək üçün, Azərbaycanın bu ağır dövründə hamının müstəqilliyimizi qoruyub saxlaması üçün bu əsərin çox böyük əhəmiyyəti var - həm pyesin, həm də sizin bu sənəddə yaratdığınız bu tamaşanın. Ona görə də çox həyəcanlıyam. Doğrusu, əsər haqqında eşitmişdim, məzmununu bilirdim, lakin bu dərəcədə təsəvvür etmirdim.

Bu gün çox böyük təəssüratlar altındayam. Hesab edirəm ki, bu, bizim mədəni həyatımızda çox əlamətdar bir hadisədir. Bu əsəri geniş təbliğ etmək lazımdır. Bizim gəncləri bu tamaşaya mütləq göndərmək lazımdır - universitetlərdən, məktəblərdən gəlsinlər, baxsınlar. Tamaşanı tez-tez qoymaq lazımdır və çalışmaq lazımdır bəstəkarı, aktyorları da ictimaiyyətimizə geniş tanıdaq. Çox gözəl oynadınız. Çox sağ olun, təşəkkür edirəm. Mən sizin hamınıza yeni-yeni uğurlar arzulayıram və çox məmnunam ki, mənim dostlarım da burada oldular, tamaşanı gördülər.



**İhsan bəy Doğramacı:** Mən də çox həyəcanlandım. Əlbəttə ki, bu əsəri tez-tez təkrarlamaq lazımdır. Təklifim budur ki, tamaşanı videolentə çəkmək, heç olmasa ayda bir dəfə televiziya vasitəsilə xalqa göstərmək lazımdır. Əsər çox mühüm mövzuya həsr olunub, Azərbaycanın müstəqilliyi baxımından çox ibrətamiz əsərdir.

**Polad Bülbüloğlu:** Təklif edirəm ki, tamaşa Türkiyəyə aparılsın, orada da göstərilsin.

**Heydər Əliyev:** İhsan bəyin dediyi ilə Polad Bülbüloğlunun təklifi arasında ziddiyyət yoxdur. Azərbaycan üçün bu tamaşanın videolentə çəkilməsi lazımdır. Ancaq mən salonda oturarkən fikirləşdim ki, bu mövzuda tarixi bir kinofilm yaratmaq lazımdır. Doğrudur, vaxtilə biz tariximizi əks etdirən "Nəsimi", "Babək" kimi çox gözəl kinofilmlər yaratmışıq. O vaxt vəsaitimiz çox idi, indi yoxdur. Amma mən bu barədə düşünürəm. Eyni zamanda bir videofilm çəkmək olar ki, bunu vaxtaşırı versinlər. Ancaq mən hesab edirəm ki, İhsan bəy də Türkiyədə bizim bu böyük tamaşamızı təbliğ edər, Ankarada, İstanbulda göstərər. Qoy görsünlər.

Sağ olun, gecəniz xeyrə qalsın. (Bax: "Heydər Əliyev: Müstəqilliyimiz əbədidir" (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar) - 12 cild Azərnəşr, Bakı - 2004, səh.156.)

Ulu öndər Heydər Əliyevin bu tarixi sözlərində Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, xüsusən də İlyas Əfəndiyev yaradıcılığı və şəxsiyyətinə aid olduqca böyük və dəyərli fikirlər var. Bu fikirlər əhatəsində və işığında İlyas Əfəndiyev yaradıcılığını,

ümumiyyətlə sovet dövrü ədəbiyyatını müasir dövr ədəbi tənqidində və ədəbiyyatşünaslığında öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

****

İ.Əfəndiyev yaradıcılığı öz mənəvi əsasları ilə qədim tarixə malik Azərbaycan ədəbiyyatına bağlı olmuş, onun əsərlərində mifik təfəkkürün, folklor ədəbiyyatının, klassik şairlərin, sənətkarların həmişəyaşar ruhu duyulur, milli kökə, milli qaynağa əsaslanmaqla, həm Azərbaycan, həm də dünya ədəbiyyatının ən yaxşı ənənələrinə müraciət də burada aşkar hiss edilir...

Bu cəhətdən də İlyas Əfəndiyevin yaradıcılığı öyrənilib, ədəbi tənqiddə vurğulanıb və ədəbi tənqidin bu istiqamətdə irəli sürdüyü ideya, sonunda tədqiqat mövzularına çevrilibdir.

Beləliklə, məlum oldu ki, İlyas Əfəndiyev yaradıcılığı həmişə ədəbi-tənqidi fikrimizin diqqət mərkəzində olmuş və bu yaradıcılıq yüksək dərəcədə qiymətləndirilmişdir.

Tənqidçi-ədəbiyyatşünas Vaqif Yusiflinin bu baxımdan aşağıdakı fikirləri maraq doğurur:

"İlyas Əfəndiyev... Bu adı xatırlamaq kifayətdir ki, ədəbiyyatımızın son 60 ildə keçdiyi inkişaf yolu barədə düşünək, geriyə baxıb bu yolda İlyas Əfəndiyevin xidmətlərinin danılmaz olduğunu yalda salaq. Və irəliyə baxıb bu böyük sənətkarın nəsillərə yadigar qoyduğu ədəbi irsin yaşarılığı və ölümsüzlüyü qənaətinə gələk. Biz, adətən, həyatdan nakam



gedən sənətkarların itgisinə təəssüf hissi keçiririk, yarımçıq ömürlər, yazılmamış əsərlər duyğulandırır bizi. Bəs, niyə uzun ömürlü (82 yaş) qocaman İlyas Əfəndiyevin ölümü bizi bir bu qədər ağrıdır, göynədir? Başlıcası, ona görə ki, İlyas Əfəndiyev böyük yazıçı olduğu kimi, böyük də şəxsiyyət idi. Çünki İlyas Əfəndiyev kimi şəxsiyyətlər tez-tez yetişmir." (Bax:"Ədəbiyyat qəzeti", 22 oktyabr 1999.)

Tanınmış şair Vaqif Bayatlı Önərin də bu fikri ilə şübhəsiz razıy olmamaq mümkün deyil: "Sizə deyim, İlyas Əfəndiyev... ingilisin, isveçin olsaydı, o da Nobel mükafatı alardı." (Bax: "Haqq yolu" qəzeti, 27 oktyabr 1999.)

"Yazıçı ömrü, ədəbiyyat tarixi" adlı məqalə İlyas Əfəndiyev haqqında "Sən həmişə bizimləsən" kitabına həsr olunub. Müəllif bu nəşri yüksək qiymətləndirərək yazır: "Qələm, sənət, ədəbiyyat, mədəniyyət xadimləri, dostları onu "çağdaş ədəbiyyatımızın klassiki" (Hüseyn Abbaszadə), "indiki zamanda çıraqla axtarılan ziyalı" (Anar), "... dramaturgiyamızda xüsusi məktəb yaradan, 40 ildən çox teatrlarımızın repertuar ağırlığını çiynində daşıyan misilsiz korifey", (Polad Bülbüloğlu), "əfsanə, möcüzə" (Ramiz Məmmədzadə), "el məhəbbəti qazanmış xoşbəxt sənətkar" (Mirvarid Dilbazi), "məhəbbətin ustad tərənnümçüsü" (Kamal Talıbzadə), "zaman çərçivəsini qırıb parçalayan nadir yazıçılardan" (Nəbi Xəzri), "qüdrətli bir sənətkar, işıqlı bir ziyalı, bütün həyatı boyu yalnız və yalnız sözünə, sənətinə fanatik bir məhəbbətlə bağlı nadir bir yazıçı", (Cabir Novruz), "böyük sənətkarlardan biri və ən gör-

kəmlisi" (Şəfiqə Məmmədova), "xalqın taleyində, tarixində xidmətləri və izi olmuş bir şəxsiyyət" (Mövlud Süleymanlı), "millətin yaddaşına ana dili ilə birgə həkk olunan insan, böyük ədib, unudulmaz və təkrarsız dramaturq" (Kamil Vəli Nərimanoğlu) adlandırırlar." (Bax: “Sən həmişə bizimləsən” kitabına. Bakı, Gənclik, 1999.)

Son olaraq onu da bildirək ki, rəsmi şəkildə 1939-cu ildən ədəbiyyata gələn müəllif ta ölümünə qədər yazıb-yaratmış, qələmini yerə qoymamışdır. Odur ki, İlyas Əfəndiyev haqlı olaraq ədəbiyyatımızın fəxri sayılır. Təsadüfi deyil ki, bu gün İlyas Əfəndiyevin nəsri, dramaturgiyası, teatr fəaliyyəti barəsində ədəbiyyatşünaslıqda və teatrşünaslıqda yazılmış məqaləlləri, resenziyaları, esseləri, bədii-publisistik oçerkləri, elmi-tədqiqat araşdırmalarını bir yerə toplayıb bir ayrıca kitabxana yaratmaq mümkündür. Belə yazıların sayı 1000-i keçmişdir və maraqlısı, həmçinin vacibi budur ki, İlyas Əfəndiyevin zəngin bədii irsinin öyrənilməsi və tədqiqi hələ də davam edir və edəcəkdir…



# N Ə T İ C Ə

Müasir Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan Azərbaycanın xalq yazıçısı, Respublika Dövlət mükafatı laureatı İlyas Əfəndiyev 60 ilə yaxın məhsuldar yaradıcılıq yolu keçmişdir.

XX əsr Azərbaycan ədəbiyyatının təməl daşlarını qoyan, onun inkişafında böyük xidmətləri olan bu görkəmli yazıçı istər nəsrimizin, istərsə də dramaturgiyamızın zənginləşməsində az iş görməmişdir. İndi ədəbiyyatımızın inkişaf yolunu İlyas Əfəndiyevin yaradıcılığını nəzərə almadan təsəvvür etmək mümkün deyil.

Azərbaycan ədəbiyyatının ön sıralarında duran, onun inkişafında fəal iştirak edən İlyas Əfəndiyev milli kökə, klassik mədəniyyətimizə möhkəm bağlı olan bir sənətkar kimi dünya ədəbiyyatının ən yaxşı ənənələrindən bəhrələnmiş və respublikamızın ədəbi-mədəni həyatında fəal iştirak etmişdir. O istər dünya ədləbiyyatı klassikləri, istərsə də müasir yazıçılar haqqında çoxlu məqalələr yazmış, ədəbiyyatın və mədəniyyətin müxtəlif aktual problemləri barədə qiymətli fikirlər, nəzəri mülahizələr irəli sürmüşdür.

Görkəmli, dünya miqyasında tanınmış bəstəkar Arif Məlikov olduqca düz müəyyənləşdirmişdir:

"Müasir Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyov və Qara Qarayev, Fikrət Əmirov və Niyazi, Bülbül və Rəşid Behbudov, Səttar Bəhlulzadə və Fuad Əbdürrəhmanov, Səməd Vurğun və Rəsul Rza, Mirzə İbrahimov və İlyas Əfəndiyev kimi korifeyləri

bir çox şedevrlər yaratmışlar və bugünkü Azərbaycan mədəniyyət qalaktikasını, müasirlərimizin daxili aləmini bunlarsız təsəvvür etmək mümkün deyil.” (Bax:"Bakinskiy raboçiy", 10 iyun 1999.

Ədəbiyyat aləminə ilk addımını belə atan 25 yaşlı coğrafiya müəllimi İlyas Əfəndiyevin ilk kitabı – həmin «Kənddən məktublar» – 1939-cu ildə Azərbaycan Dövlət Nəşriyyatında çapdan çıxdığı vaxtdan etibarən, o – İlyas Əfəndiyev həmişə ədəbi tənqidin diqqət mərkəzində olub və bu uzun dövr ərzində onun yaradıcılığı haqqında yazılanlar həcm etibarilə, bəlkə də, onun özünün yazdıqlarından da çoxdur. İlyas Əfəndiyev haqqında elə yalnız Azərbaycan mətbuatında yazılanları xronoloji bir ardıcıllıqla gözdən keçirdikdə, haqsız, vulqar – sosioloji tənqidlərlə də rastlaşırıq, haqlı iradlara da rast gəlirik, amma bir həqiqət gün işığı kimi aşkardır: bir küll halında ədəbi tənqid və ümumiyyətlə, ədəbi ictimaiyyət İlyas Əfəndiyev yaradıcılığını həmişə yüksək qiymətləndirmiş, onun XX əsr Azərbaycan ədəbiyyatında tutduğu məxsusi yeri müəyyənləşdirməyə, yaradıcılığının poetikasını, «İlyas Əfəndiyev teatrı»nın bədii-estetik xüsusiyyətlərini açmağa çalışmışdır.

Bizim təqdim etdiyimiz “Xalq yazıçısı İlyas Əfəndiyev yaradıcılığının ədəbi tənqiddə” işimiz bu müqtədir yazıçının yaradıcılığını qoyulan problem ətrafında öyrənilməsinə həsr edilibdir. Tədqiqat nəzərdə tutulan istiqamətdə aparılmış, burada tarixi-xronoloji ardıcıllıqla yazıçının dramaturgiyasının ədəbi tənqiddə dərkinə də mühüm yer ayrılmışdır. Həmçinin işdə “Ulu öndər Heydər Əliyev və İlyas



Əfəndiyev şəxsiyyəti və yaradıcılığı” bölməsi də ayrıca təqdim edilmişdir.

Beləliklə “Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə” tədqiqat işi girişdən, iki fəsldən, nəticədən və istifadə edilmiş ədəbiyyatdan ibarətdir. Birinci fəsl “İlyas Əfəndiyevin həyat və yaradıcılığının ilkin mərhələsi ədəbi fikir və tənqiddə”, ikinci fəsl isə “İlyas Əfəndiyevin yaradıcılığının 1960-1990-cı və müstəqillik illəri ədəbi tənqidində dərki” adlanır. Həmçinin, kitabda rəsmi materiallar, yazıçının yaradıcılığının qısa biblioqrafiyası və s. müxtəlif tipli məlumatlar da oxuculara təqdim edilmişdir...

Yığcam şəkildə xülasə etsək, ömrünün sonuncu ilinə (1996) qədər ardıcıl şəkildə yaradıcılıqla məşğul olan İlyas Əfəndiyevin ədəbi-bədii fəaliyyəti ümummilli ədəbi-mədəni hərəkat məcrasında araşdırılmış, onun bədii-estetik düşüncə orjinallığı, fərdi dil-üslub xüsusiyyəti, dramaturgiya axtarışları ədəbi tənqid tərəfindən geniş bir şəkildə, müxtəlif problemlərə uyğun bir tərzdə şərh olunmuşdur.

İlyas Əfəndiyevin yaradıcılığının tənqiddə şərhi tarixinə nəzər salarkən, tanınmış xalq yazıçısı, ədibin oğlu, tənqidçi-ədəbiyyatşünas, filologiya elmlər doktoru, professor Elçin olduqca maraqlı faktları diqqətə çatdırır: “Cəfər Cəfərov və Məmməd Cəfər, Əli Vəliyev və Osman Sarıvəlli, Cəfər Xəndan və Əli Sultanlı, Mehdi Məmmədov və Əkbər Ağayev, Firudin Hüseynov və Əzizə Cəfərzadə, Abbas Zamanov və Orucəli Həsənov və bir çox başqaları kimi tamamilə müxtəlif, bir-birindən fərqli qələm

sahibləri, sonrakı ədəbi nəsillərin Bəxtiyar Vahabzadə və İsmayıl Şıxlı, Bayram Bayramov və Bəkir Nəbiyev, Məsud Əlioğlu və Qulu Xəlilov, Cəlal Məmmodov və Əhəd Hüseynov kimi və bir çox başqa nüımayəndələri, daha sonralar Xəlil Rza Ulutürk və Yaşar Qarayev, Şeyfulla Əsədullayev və Təhsin Mütəllimov, Şamil Salmanov və Arif Səfiyev, Gülrux Əlibəyli və İnqilab Kərimov, Çingiz Hüseynov və İslam İbrahimov, Arif Hacıyev və Abbas Hacıyev, daha sonralar Aydın Məmmədov və Vilayət Quliyev, Kamil Vəliyev və İlham Rəhimli, Nizaməddin Şəmsizadə və Məryəm Əlizadə, Akif Hüseynov və Vaqif Yusifli, yenə də bir çox başqaları dəfələrlə İlyas Əfəndiyev yaradıcılığına müraciət etmiş və bu yaradıcılıq Azərbaycan xalqınm XX əsrdəki tarixi və taleyi kontekstində yüksək qiymətləndirilmişdir.”

İlyas Əfəndiyevin sağlığında Yəhya Seyidov, Yaqub İsmayılov, Aida Salahova, Yaşar Qarayev onun haqqında beş elmi monograliya yazıb nəşr etdirmiş, XX əsr Azərbaycan nəsri və dramaturgiyasının, Azərbaycan ədəbi dilinin, Azərbaycan teatr sənətinin inkişafında İlyas Əfəndiycv yaradıcılığının rolunu və bədii-estetik xüsusiyyətlərini təhlil və tədqiq etmişlər.

Həmçinin İlyas Əfəndiyevin yaradıcılığı haqqında maraqlı və dəyərli dissertasiyalar müdafiə olunmuşdur. Biz qüvvəmiz və imkanımız çatan dərəcədə çalışmışıq ki, tarixi-xronoloji ardıcıllıqla İlyas Əfəndiyev yaradıcılığını bu materiallar əsasında izləyək və ədəbi tənqidin, ədəbiyyatşünaslığın bu



böyük sənətkara ədəbi-estetik, elmi-nəzəri münasibəti haqqında müəyyən təsəvvür yaradaq.

“Nəticə”də bir mühüm faktı da nəzərə çarpdırmaq istərdik.

Məlumdur ki, İlyas Əfəndiyevin sağlığında Azərbaycan dilində dörd dəfə «Seçilmiş əsərlər»i nəşr olunmuşdu: bir cildliyi (Bakı, «Azərnəşr», 1959), iki cildliyi (Bakı, «Azərnəşr», 1-ci cild – 1964, 2-ci cild – 1965), dörd cildliyi (Bakı, «Azərnəşr», 1-ci cild – 1969, 2-ci cild – 1970, 3-4-cü cildlər – 1973) və nəhayət, altı cildliyi (Bakı, «Yazıçı», 1984).

Təxminən 250 çap vərəqi həcmində olan yeddi cildlikdə (Bakı, «Çinar-Çap», 2002) İlyas Əfəndiyevin əsərləri, o cümlədən, indiyədək heç bir kitabına düşməyən hekayələri, pyesləri və başqa yazıları toplanmışdır və bu nəşrin ciddi uğurlarından biri də odur ki, İlyas Əfəndiyevin ədəbiyyat, sənət haqqında məqalələri ilk dəfə bir yerə toplanaraq 35 çap vərəqi həcmində ayrıca bir cild kimi (sonuncu – 7-ci cild) nəşr olundu.

İlyas Əfəndiyev yalnız bir yazıçı kimi yox, eyni zamanda, dövrün vulqar-sosioloji doqmalarına heç vəchlə yaxın durmayan və əsərin bədii-estetik cəhətlərini əsas götürən tənqidçi kimi də Azərbaycan ədəbi prosesində aktiv iştirak edirdi və onun yeddi cildlik «Seçilmiş əsərlər»i əyani şəkildə göstərdi ki, İlyas Əfəndiyev yalnız milli bədii ədəbiyyatın deyil, ictimai fikrimizin də inkişafında mühüm xidmətlərə malikdir.

Yeddicildliyi oxucular (yeni bir epoxa oxucuları!), böyük maraqla qarşıladı, ədəbi tənqid bu

nəşri yüksək qiymətləndirdi və bir daha məlum oldu ki, yaradıcılığının böyük əksəriyyəti sovet dövrünə düşən İlyas Əfəndiyev böyük sovet yazıçısı yox, böyük Azərbaycan yazıçısıdır, onun istisnasız olaraq, bütün hekayələri, romanları, povestləri və pyesləri, hətta məqalələri sistemə, ideologiyaya yox, ədəbiyyata məxsusdur.

İlyas Əfəndiyev bədii əsərləri ilə ideologiyaya yox, ədəbiyyata xidmət etmişdir və bu xidmət, bu çap olunan əsərlər də həmişə ədəbi tənqidimizin, ədəbiyyatşünaslığımızın diqqətinin mərkəzində olmuş, məqalələr, tədqiqatlar, monoqrafiyalar, dissertasiyalar yazılmışdır.

Azərbaycan ədəbiyyatının təqribən yarım əsrlik bir mərhələsində öz yaradıcılığı ilə ona böyük uğurlar qazandırmış görkəmli ədib, xalq yazıçısı İlyas Əfəndiyevin zəngin irsi haqqında sanballı elmi-tədqiqat əsərləri, onun zəngin həyat salnaməsi, eləcə də barəsində əsl xatirələr hələ bundan sonra da yazılacaq və ədəbiyyatşünaslıq elmimizdə, tənqid tariximizdə öz layiqli yerini tutacaqdır.

Onu da, bilirik ki, işimiz nöqsansız deyil. Ola bilsin ki, elə müəlliflərin işi olsun ki, nəzərimizdən qaçmış, ya da əldə edə bilməmişik. Buna görə onlardan əvvəlcədən üzürxahlıq diləyirik. Əsəri oxuyub nöqsan və göstərişlərini verən rəyçilərə, kitabın redaktoruna, bu işdə əməyi və zəhməti olan hər kəsə təşəkkürümüzü bildiriririk.



